ENPI EAST FLEG II

www.enpi-fleg.org

II FLEG (ENPI Şərq) Proqramı barədə

Avropa Qonşuluq və Əməkdaşlıq Aləti (ENPI) Şərq Ölkələri üzrə Meşə Qanunvericiliyinin Gücləndirilməsi və İdarəçiliyinin Təkmilləşdirilməsinə dair II (FLEG) Proqram iştirakçı ölkələrin meşə idarəçiliyini dəstəkləyir. Regional səviyyədə proqramın məqsədi 2005-ci il Peterburq FLEG Nazirlər Bəyənatını həyata keçirmək və ölkələri müddətli fəaliyyət planı üzrə öhdəliklərini yerinə yetirməkdə dəstəkləməkdir; milli səviyyədə proqram meşə sektoru siyasəti və hüquqi və inzibati strukturları nəzərdən keçirəcək və ya dəyişiklik edəcək; və iştirakçı ölkələrin davamlı meşə idarəetməsi və yaxşı meşə idarəçiliyi barədə məlumatlılıq səviyyəsini artıracaq və onları dəstəkləyəcək; və altmilli (yerli) səviyyədə proqram davamlı meşə idarəetməsi və təkmilləşdirilmiş meşə idarəetməsi təcrübələrinin praktikliyi üzrə ən yaxşı təcrübələri sınaqdan keçirəcək və nümayiş etdirəcək. İştirakçı dövlətlər Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Rusiya və Ukraynanı əhatə edir. Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.

LAYIHƏ TƏRƏFDAŞLARI

AVROPA KOMİSSİYASI

Avropa İttifaqı rəsmi inkişaf layihələrinə yönəltdiyi yardıma görə dünyada ən iri donorlardan biri sayılır. Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Baş Direktoratı (DG NEAR) İttifaqın qonşuluq və genişlənmə ölkələrinə yönəltdiyi maliyyə və texniki yardımı idarə edir. Avropanın şərq və cənub qonşuluq ölkələrində yardım fəaliyyətləri həyata keçirilərkən DG NEAR islahatlara, reformalara və demokratik konsolidasiyaya dəstək verir və Avropanın qonşuluğunda təhlükəsizliyi, stabilliyi və inkişafı gücləndirir. DG NEAR Aİ dəyərlərini, siyasətini və maraqlarını təbliğ etməyə kömək edir və Aİ və onun qonşuluğundakı ölkələrlə xüsusi münasibətin formalaşmasına töhvə verir.
http://ec.europa.eu/index_en.htm

DÜNYA BANKI

Dünya Bankı Qrupu özünün 188 üzv-dövləti üçün dünyada ən böyük bilik və maliyyələşdirmə mənbələrindən biridir. Dünya Bankı Qrupunu təşkil edən təşkilatlar siyasət, maliyyə və ya digər məsələləri daxil olmaqla təşkilatlar daxilində bütün məsələlər üzrə yekun qərarverici səlahiyyətə malik üzv dövlətlərin hökumətləri tərəfindən idarə edilir. Dünya Bankı Qrupu bir-biri ilə sıx əlaqəli beş təşkilatdan ibarətdir: birlikdə Dünya Bankını formalaşdıran Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası; Beynəlxalq Maliyyə Korporasiyası; Çoxtərəfli İnvestisiya Zəmanət Agentliyi; və İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz. Hər bir təşkilat gündəlik 1.25 ABŞ dollarına yaşayan adamların sayını 3%-dən aşağıya salmaqla və hər bir ölkə üçün ən aşağısı 40% stimullaşdırmaqla Dünya Bankının yoxsulluğa son qoymaq missiyasında xüsusi rol oynayır. Ətraflı məlumat üçün baxa bilərsiz:
http://www.worldbank.org, http://www.ifc.org, http://www.miga.org

IUCN

Təbiətin Mühafizəsi üzrə Beynəlxalq İttifaq ən vacib ətraf mühit və inkişaf problemlərinin praqmatik həllərini tapmaqda dünyaya kömək edir. IUCN təbiəti qiymətləndirmək və qorumaq, onun effektiv və ədalətli istifadəsini təmin etmək, iqlim, ərzaq və inkişaf üzrə qlobal çətinliklərə təbiət əsaslı həllərin verilməsinin üzərində diqqəti cəmləyir. IUCN elmi araşdırmanı dəstəkləyir, bütün dünyada yerli layihələri idarə edir və siyasət, qanunvericilik və ən yaxşı təcrübələrin inkişafı üçün hökumətləri, QHT-ləri, BMT və şirkətləri bir araya gətirir. IUCN 1200-dən çox hökumət və QHT üzvü və təxminən 160 ölkədə 11000 könüllü eksperti olmaqla dünyada ən qədim və böyük qlobal ətraf mühit təşkilatıdır. IUCN-in dünyada öz 45 ofisində 11000-dən çox işçisi və yüzlərlə dövlət, QHT və özəl sektor tərəfdaşları dəstəklənir.
www.iucn.org

WWF

100-dən çox ölkədə fəal qlobal şəbəkəsi və təxminən 5 milyon dəstək verənləri ilə dünyada ən böyük və hörmətlə yanaşılan mühafizə təşkilatlarından biridir. WWF-in missiyası planetin təbii ətraf mühitinin tənəzzülünü dayandırmaq və dünyanın biomüxtəlifliyini qorumaqla insanların təbiətlə harmoniya içində yaşayacağı gələcəyi qurmaq, bərpa edilə bilən təbii ehtiyatların davamlı istifadəsini təmin etmək, çirkləndirmə və tullantılı istehlakın aşağı salınmasına sövq etməkdir.
www.panda.org

Bu nəşr Avropa İttifaqının dəstəyi ilə hazırlanmışdır. Bu nəşrin məzmununa, tapıntılarına, şərhlərinə və nəticələrinə görə yalnız FLEG II (ENPI Şərq) Proqram Heyəti (www.enpi-fleg.org) məsuliyyət daşıyır və heç bir şəkildə Avropa İttifaqının mövqeyini əks etdirdiyi kimi qəbul edilməməlidir. İfadə olunan fikirlər mütləq şəkildə İcraçı Təşkilatların fikrini əks etdirmir.

Bələdçi kitabın Azərbaycan daxilində əhatə etdiyi ərazinin xəritəsi

AVROPA QONŞULUQ VƏ ƏMƏKDAŞLIQ ALƏTİ
MEŞƏ QANUNVERİCİLİYİNİN GÜCLƏNMƏSİ
VƏ İDARƏ EDİLMƏSİ ÜÇÜN II PROGRAM

İSMAYILLI RAYONU MEŞƏ BİTKİLƏRİNİN BƏLƏDÇİ KİTABI

Bu bələdçi kitab İsmayıllı rayonu meşələrində yayılmış qatırquyruğukimilər, qıjıkimilər, çılpaqtoxumlular və örtülütoxumlular şöbəsinə daxil olan ağac, kol, lian və ot bikilərinin təbiətdə olarkən tez və səmərəli təyin edilməsi üçün nəzərdə tutulmuş bir vəsaitdir.

Bakı - 2016

Müəllif: **Eldar Sabir oğlu Şükürov,**
Azərbaycan Milli Elmlər Akademiyası
Botanika İnstitutunun elmi işçisi,
biologiya elmləri namizədi

Elmi redaktor: **Validə Mövsüm qızı Əlizadə,**
Azərbaycan Milli Elmlər Akademiyası
Botanika İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü.

Koordinator,
redaktor: **Könül Firudin qızı Əhmədova,**
WWF – Azərbaycan nümayəndəliyindən
ENPI FLEG II proqramının
milli koordinatoru

Dizayner: **Zahid Nadir oğlu Məmmədov**

Təşəkkürnamə:

Azərbaycanın botaniki-coğrafi rayonların özündə əks etdirən xəritənin elektron tərtibatına görə **Emin Həmidova** təşəkkür edirik.

Bitkilərin təsvirinin yazılmasında və digər texniki köməyə görə **Şəlalə xanım Adilovaya** dərin təşəkkürümüzü bildiririk.

59, 157-ci səhifələrdəki fotoşəkillərin müəllifi **Azərçin Muradova,** 20, 21, 28, 39, 46, 52, 56, 57, 67, 70, 74, 83, 89, 90, 92, 116, 133, 135, 198, 224-cü səhifələrdəki bəzi və ya bütün fotoşəkillərin müəllifi **Bayram İsgəndərova** təşəkkürümüzü bildiririk.

Bu kitab Avropa Birliyinin maliyyə dəstəyi ilə ENPİ FLEG II layihəsi çərçivəsində WWF-Azərbaycan nümayəndəliyi tərəfindən hazırlanmışdır.

Kitabın müəlliflik hüquqi WWF-Azərbaycan nümayəndəliyinə məxsusdur. Nümayəndəliyin yazılı icazəsi olmadan yenidən çap edilə və çoxaldıla bilməz.

ISBN: 978-9952-8266-5-4

© WWF - Azərbaycan

Ön söz

Azərbaycan Respublikası ərazisində rast gəlinən ali bitki növləri haqqında səkkiz cildlik «Флора Азербайджана» kitablarında məlumat verilir. Lakin təbiətdə olarkən bitkiləri tanımaq üçün Azərbaycana gələn turistlərə, alimlərə və yerli əhaliyə kömək edə bilən bele bələdçi kitablara ehtiyac duyulur. Respublikamızda ilk dəfə olaraq oxuculara təqdim edilən "İsmayıllı Rayonu Meşə Bitkilərinin Bələdçi kitabı" İsmayıllı rayonu ərazisində və respublikanın digər oxşar botaniki-coğrafi rayonlarında rast gəlinən eyni meşə bitkilərini asanlıqla təyin etməkdə və onlar haqqında vacib məlumatları əldə etməkdə yardımçı ola bilər.

AMEA Botanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü
Validə Əli-zadə

WWF-in son hesabatları bir daha göstərir ki, biomüxtəliflik qlobal miqyasda və sürətlə azalır, kasadlaşır. Qlobal iqlim dəyişmələri də biomüxtəlifliyə birbaşa təsiri ilə yanaşı, meşələrin sərhədlərinin və cins tərkibinin dəyişməsinə səbəb olur. Təbiətin mühafizəsinin yolu onun öyrənilməsindən keçir. Bu kitabı nəşr etməkdə məqsədimiz əhalimizə necə zəngin təbiətə malik olduğumuzu göstərmək və marifləndirmə yolu ilə onun mühafizəsinə nail olmaqdır. "İsmayıllı Rayonunun Meşə Bitkilərinin Bələdçi kitabı" ENPİ FLEG II layihəsi çərçivəsində tərtib edilmişdir. İnanırıq ki, bu kitab informasiya tutumu və nəfis tərtibatına görə həm yerli, həm də əcnəbi oxuculara faydalı olacaq.

WWF- Azərbaycan nümayəndəliyinin direktoru
Elşad Əsgərov

İsmayıllı Qız Qalası

Şükürov Eldar Sabir oğlu biologiya üzrə fəlsəfə doktorudur.

1972-ci il İyunun 1-də Azərbaycan Respublikası, Ağdam rayonunun Şıxlar kəndində anadan olmuşdur. 1989-cu ildə Şıxlar kənd orta məktəbini bitirdikdən sonra 1989-94-cü illərdə Bakı Dövlət Unversitetinin biologiya fakultəsini botanika ixtisası üzrə bitirmişdir.

1994-97-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Botanika institutunda baş laborant, kiçik elmi işçi işləyib. Eyni zamanda Bakı şəhər 161 nömrəli orta məktəbdə kimya və biologiya müəllimi kimi çalışmışdır.

1996-97-ci illərdə Səngəçal Terminalının yerləşdiyi hazırkı ərazi, Şimal və Qərb ixrac boru kəmərləri boyunca yayılmış flora və bitkiliyi qiymətləndirmişdir.

1996-2000-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitunun aspirantı olmuşdur və 2004-cü ildə biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 30-dan çox elmi əsərin və bu kitab da daxil olmaqla iki kitabın müəllifidir. Bir-neçə elmi lahiyələrin yerinə yetirilməsində fəal iştirak etmişdir.

2013-14-cü illərdə Bakı Dövlət Unversitetinin biologiya fakultəsinin botanika kafedrasının ingilis bölməsinədə Azərbaycan florası, Bitki sistematikası, Bitki anatomiyasl və morfologiyası fənləri üzrə saat hesabı müəllim vəzifəsində çalışmışdır.

1997-ci ildən indiyə qədər operatoru "BP Exploration (Caspian sea) limited" olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində ətraf mühitin mühafizəsi üzrə köməkçi, məsləhətçi, baş məsləhətçi, qrup rəhbəri vəzifələrində və hal-hazırda mütəxəsisi kimi çalışır. Həmin müddət ərzində şirkət tərəfindən təmin olunmuş təhsil və təlim kurslarında iştirak etmiş, iki beynəlxalq diplom və 30-dan çox sertifikatlara layiq görülmüşdür.

Evlidir, bir qızı və bir oğlu var.

MÜNDƏRİCAT

Bələdçi kitabın Azərbaycan daxilində əhatə etdiyi ərazinin xəritəsi....2

Ön söz....5

Giriş....9

İstifadə qaydaları....10

Bitkilərin axtarışı bölməsi....12

İxtisarlar....13

Əsas botaniki terminlərin izahlı lüğəti....14

İsmayıllı rayonu (tarixi, relyefi, iqlimi, daxili suları, landşaftı, torpaqları, meşə bitkiliyi haqqında)....19

Ağaclar....38

Kollar....84

Lianlar....108

Otlar....118

İstifadə edilmiş ədəbiyyatların siyahısı....298

Bitkilərin Azərbaycanca ad göstəricisi....299

Bitkilərin Latınca ad göstəricisi....302

Giriş

Bu bələdçi kitabın məqsədi hər hansı bir formal botaniki təlim keçmədən təbiətsevər insanlara meşələrdə rast gəlinən ali bitki növlərini təyin etməkdə yardımçı olmaqdan ibarətdir. Bu kitabda verilmiş sadə və məntiqli istifadə qaydalarının tələblərini yerinə yetirməklə hər bir kəs İsmayıllı rayonunun meşə bitkiliyində rast gəlinən 255 ali bitki növlərini tez təyin edə biləcək.

Dünyanın bir çox inkişaf etmiş ölkələrində yabanı bitkiləri bu peşədən olmayan insanlara təqdim etmək üçün bir çox cəhdlər olunmuşdur. Bəzi müəlliflər bitkilərin çiçəklərinin rənginə görə, digərləri isə çiçəkləmə və ya yaşadığı mühitə görə qruplaşdıraraq təqdim edir. İstifadə edilmiş qruplaşmalar heç də həmişə əlverişli olmur. Baxmayaraq ki, rəng daha cəlbedici bir əlamətdir, bəzən çiçəklərin rəngləri iki rəng arasına düşür və yaxud da bir çiçəkdə bir neçə rəng olur ki, bunda çiçəkləri rənglərə görə qruplaşdırmaqda çətinliklər törədir. Çiçəkləmə vaxtına görə qruplaşdırmanın da öz məhdudiyyətləri var. Belə ki, çiçəkləmə dövrləri uzun olduğundan, təbiətdə olarkən rast gəldiyimiz bitkini çiçək fazasında tapsaq, bu o demək deyilki, həmin bitkini bələdçi kitabda uyğun gələn vaxt qrupunda axtarmaq lazımdır. Eyni problem yaşayış mühitinə uyğun qruplaşmada da öz əksini tapır. Tutaq ki, biz meşədə hər hansı bir ot bitkisinə rast gəlmişik və istəyirik ki, biz həmin bitkini yalnız meşə yaşayış mühiti qrupuna daxil edək. Həmin bitki digər yaşayış mühitlərində də rast gəlindiyi üçün biz onu təkcə meşə yaşayış mühitinə görə qruplaşdıra bilmərik.

Digər bir yanaşma isə bitki növlərini qohumluq əlaqələrinə görə uyğun gələn fəsilələrdə və cinslərdə qruplaşdırmaqdır.

Mövcud təyinedici üsullar içərisində daha əlverişli olanı Nyukomb Laurensin "Newcomb's WILDFLOWER GUID" kitabında təklif etdiyi sistemdir. Nyukombun təklif etdiyi təyinedici sistem təkmilləşdirilərək İsmayıllı rayonunun meşə bitkiliyində rast gəlinən əsas ali bitki növlərini təyin etmək üçün istifadə edilmişdir.

İnanırıq ki, bu bələdçi kitab meşə bitkilərini botaniki təlimi olmayan təbiətsevərlər tərəfindən daha cəld təyin etmələrinə kömək edəcək.

İSTİFADƏ QAYDALARI

BİTKİ QRUPLARININ VƏ QRUP NÖMRƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ

Əvvəlcə təyin etmək istədiyiniz bitki nümunəsinin hansı qrupa daxil olduğunu müəyyən etmək lazımdır. Bunun üçün Cədvəl 1-də verilmiş "Üçlü təsnifat" cədvəlindən istifadə etməklə verilmiş üç ardıcıl tiplərin əlamətləri üzrə uyğun gələn nömrələrdən üç-rəqəmli ədəd düzəldin. Alınmış ədəd ***qrup nömrəsidir***. Sonra qrup nömrəsini "Bitkilərin axtarışı bölməsində" tapın. Qrup nömrəsinin qarşısında qruplaşdırdığınız bitkilərin şəkil və təsviri verilən səhifələri tapın. Uyğun gələn səhifəni tapdıqdan sonra bitkinizi verilmiiş şəkil və mətnlə müqayisə edin, əgər uyğun gəlirsə, demək siz bitkinin hansı növ olduğunu təyin etmiş olacaqsınız.

Təyin edilmədə mərhələlər

1. Cədvəl 1-dən istifadə etməklə təyin etmək istədiyiniz bitkini əvvəlcə bitki, çiçək və yarpaq tiplərinin əlamətlərinə görə təsnifləşdirin. Hər bir tipə uyğun gələn hissənin yalnız bir nömrəsini müəyyənləşdirin. (*cədvəl 1-də nümunə kimi verilmiş çevrəyə alınmış nömrələrə bax*)

2. Üç ayrı-ayrı bölmələrin uyğun gələn nömrələrindən üç-rəqəmli ədəd düzəldin (məs: "139" və s.).

3. Bitkilərin axtarışı bölməsində qrup nömrəsini tapın və bitkilərin təsviri verilmiş mətnin səhifəsini müəyyən edin.

4. Həmin səhifəni açın, verilmiş fotoşəkillərdən və təsvirdən istifadə etməklə bitkinizi təyin edin.

Əgər siz ilk dəfə bitki təyin edrisinizsə və ya hansısa şübhəli qaldığınız botaniki anlayış varsa, onda suallara cavab verməzdən öncə sizə izahat lazım olacaq. Ona görədə siz kitabın 14-cü səhifəsini açın və əsas botaniki terminlərin izahlı lüğəti verilən bölmədə sizi maraqlandıran terminlərlə tanış olun.

Ola bilsin ki, sizə artıq bitki növünün latın və ya azərbaycan adı məlumdur və yalnız bitki haqqında məlumat əldə etmək istəyirsiniz, belə olan halda kitabın sonunda verilmiş Azərbaycan (s. 299) və ya Latın (s. 302) adlarının siyahısı və uyğun gələn səhifələrindən istifadə etmək olar.

Cədvəl 1. ÜÇLÜ TƏSNİFAT CƏDVƏLİ

TİPLƏR	TƏSVİRLƏR	NÖMRƏLƏR
Bitki	Ağac	1
	Kol	2
	Lian	3
	Ot	4
Çiçək	Çiçəksiz	1
	Çiçəkyanlığı olmayanlar	2
	Simmetrik çiçəkli	3
	Qeyri-simmetrik çiçəkli	4
Yarpaq	Yarpaqları görünməyən	1
	Neştərvari yarpaqlılar	2
	Xətvari yarpaqlılar	3
	Bizyarpaqlılar	4
	Nizəşəkilli yarpaqlılar	5
	Bütöv və bölümlü sadə enli yarpaqlılar 	6
	Üçər mürəkkəb enli yarpaqlılar	7
	Lələkvari mürəkkəb enli yarpaqlılar	8
	Barmaqvari mürəkkəb enli yarpaqlılar	9

BİTKİLƏRİN AXTARIŞI BÖLMƏSİ

NÖMRƏLƏR	TƏSVİRLƏR	SƏHİFƏLƏR
113	Ağac, çiçəksiz, xətvari yarpaqlılar	39
136	Ağac, simmetrik çiçək, bütöv sadə enli yarpaqlılar	40
136	Ağac, simmetrik çiçək, bölümlü sadə enli yarpaqlılar	71
138	Ağac, simmetrik çiçək, lələkvari mürəkkəb enli yarpaqlılar	80
214	Kol, çiçəksiz, bizyarpaqlılar	85
236	Kol, simmetrik çiçək, bütöv sadə enli yarpaqlılar	86
236	Kol, simmetrik çiçək, bölümlü sadə enli yarpaqlılar	103
238	Kol, simmetrik çiçək, lələkvari mürəkkəb enli yarpaqlılar	105
336	Lian, simmetrik çiçək, sadə enli yarpaqlılar	109
336	Lian, simmetrik çiçək, bölümlü sadə enli yarpaqlılar	115
411	Ot, çiçəksiz, yarpaqları görünməyən	119
416	Ot, çiçəksiz, bütöv sadə enli yarpaqlılar	120
416	Ot, çiçəksiz, bölümlü sadə enli yarpaqlılar	121
412	Ot, çiçəksiz, neştərvari sadə enli yarpaqlılar	122
418	Ot, çiçəksiz, lələkvari mürəkkəb enli yarpaqlılar	123
421	Ot, çiçəkyanlığı olmayan, yarpaqları görünməyən	130
422	Ot, çiçəkyanlığı olmayan, neştərvari yarpaqlılar	131
423	Ot, çiçəkyanlığı olmayan, xətvari yarpaqlılar	153
425	Ot, çiçəkyanlığı olmayan, nizəşəkilli yarpaqlılar	165
426	Ot, çiçəkyanlığı olmayan, bütöv sadə enli yarpaqlılar	167
431	Ot, simmetrik çiçək, yarpaqları görünməyən	168
432	Ot, simmetrik, neştərvari yarpaqlılar	170
433	Ot, simmetrik, xətvari yarpaqlılar	195
436	Ot, simmetrik, bütöv sadə enli yarpaqlılar	198
436	Ot, simmetrik, bölümlü sadə enli yarpaqlılar	235
437	Ot, simmetrik, üçər mürəkkəb enli yarpaqlılar	248
438	Ot, simmetrik, lələkvari mürəkkəb enli yarpaqlılar	251
439	Ot, simmetrik, barmaqvari mürəkkəb enli yarpaqlılar	260
441	Ot, qeyri-simmetrik çiçək, yarpaqları görünməyən	261
442	Ot, qeyri-simmetrik, neştərvari yarpaqlılar	263
446	Ot, qeyri-simmetrik, bütöv sadə enli yarpaqlılar	270
446	Ot, qeyri-simmetrik, bölümlü sadə enli yarpaqlılar	290
447	Ot, qeyri-simmetrik, üçər mürəkkəb enli yarpaqlılar	292
448	Ot, qeyri-simmetrik, lələkvari mürəkkəb enli yarpaqlılar	295

İXTİSARLAR

BQ	Böyük Qafqaz
KQ	Kiçik Qafqaz
Nax. dağ.	Naxçıvan dağlıq
Lənk. düz.	Lənkəran düzənlik
Lənk. dağ.	Lənkəran dağlıq
Kür-Araz oval.	Kür-Araz ovalığı
Kür düz.	Kür düzənliyi
d.s.y.	Dəniz səviyyəsindən yüksəklik
auct.	Auctorum (qısaldılmış auct. və ya auctt.) Latın sözü olub müəlliflər mənasını verir. Botanika və zoologiyada adlar ilkin müəllif tərəfindən yaradıldığı kimi əsl mənasında deyil, bir sıra sonrakı müəlliflərin verdiyi mənada olduğunu göstərmək üçün istifadə olunan termindir
subsp. (yarımnöv)	Növdən aşağı olan taksanomik kateqoriyadır, adətən kifayət qədər coğrafi baxımdan daimi təcrid olunmuşdur. Yarımnövlər üçhədli latın adları ilə təyin olunur, məsələn: *Beta vulgaris crassa.*
var. (variasiya)	Tək yabanı bitki növünün genetik müxtəlifliyi variasiya adlanır.
•	Azərbaycanın Qırmızı Kitab növü.
o	Qafqaz endemi - digər yerlərdə təsadüf edilməyən və yalnız Qafqaz coğrafi regionunda mövcud olan növlər.

Əsas botaniki terminlərin izahlı lüğəti

Ağaclar - odunlaşmış tək hündür gövdəyə malik olan, budaqlanması kifayət qədər torpaq səthindən hündürdə baş verən ali bitkilərdir.

Birevli bitkilər - erkək və dişi generativ orqanları bir bitkidə yerləşən (çiçəkli bitkilərdə erkəkcik və dişicik çiçəkləri, arxeqonial bitkilərdə anteridilər və arxeqonilər) bitkilərdir.

Birillik bitkilər - həyatını bir vegetasiya dövründə (toxumdan toxuma) başa vuran bitkilərdir.

Çiçəksiz bitkilər - çiçəkləməyən, SPORLAR vasitəsi ilə çoxalan qıjılar və onlara qohum olan bitkilərdir. Əksəriyyəti kölgə və ya nəm yaşayış mühitlərində yaşayır. İYNƏYARPAQLAR da çiçəksiz bitkiləridir, lakin toxumla çoxalırlar.

Çiçək köbəsi - ləçəklərin və kasa yarpaqlarının saplaq üzərində şüaşəkilli düzüldüyü vahid nöqtədir.

Çiçəkyanlığı olmayanlar - o çiçəklərə deyilir ki, çiçəyin çoxalma orqanlarını (erkəkcik və dişicik) əhatə edən ləçək və kasa yarpaqlarından məhrumdurlar.

Çoxillik ot bitkilər - iki ildən artıq yaşayan ot bitkiləridir. Hər il təkcə yerüstü hissələrinin məhv olması ilə xarakterizə olunurlar.

İkievli bitkilər - erkək və dişi çiçəklər eyni bitkidə deyil, ayrı-ayrı bitkilərdə olan bitkilərə deyilir.

İkiillik bitkilər - həyatını iki vegetasiya dövründə (birinci ildə toxumdan inkişaf edir və ikinci ildə toxum əmələ gətirir) başa vuran bitkilərə deyilir.

Kollar - ağaclardan fərqli olaraq alçaq boylu, odunlaşmış nazik gövdələri torpaq səthinə yaxın hissədən budaqlanan ali bitkilrədir.

Kladod - yastılaşmış, yarpaqşəkilli və yarpaq funksiyasını yerinə yetirən gövdədir.

Qıjıkimilər - ali sporlu bitkilərdir. Qıjıkimilərin gövdə və yarpaqdan başqa inkişaf etmiş kökləri də olur. Onlar sporlar vasitəsilə çoxalır. Mayalanma prosesi suyun iştirakı ilə gedir.

Lianlar - odunlaşmış uzun dırmaşan gövdəyə malik olub, əsasən ağaclardan asılı vəziyyətdə inkişaf edən bitkilərdir.

Otlar - hündürlüyünə görə ağac və kollardan alçaqdır, onların gövdəsi tam odunlaşmır, yaşıl və ətlidir. Otların ömrü nisbətən qısadır. Otlar birillik, ikiillik və çoxillik olur.

Simmetrik çiçək - o çiçəklərdir ki, onların mərkəzindən bir neçə simmetriya oxu keçirdikdə çiçək 3 və ya daha artıq bərabər paylara bölünür. Belə çiçəklərə başqa sözlə aktinomorf çiçəklər də deyilir. Məsələn; zanbaq, qızılgül, qaymaqçiçəyi, günəbaxan çiçəkləri.

Simmetrik çiçək

Zanbaq

Qızılgül

Qaymaqçiçəyi

Günəbaxan

Spor - quraqlığa və yüksək temperatura davamlı, yeni orqanizmə çevrilmək qabliyyətinə malik olan, adətən kiçik birhüceyrəli qeyri-cinsi və ya cinsi çoxalma orqanıdır.

Qeyri – simmetrik çiçəklər - o çiçəklərə deyilir ki, çiçəkdən yalnız onu iki bərabər yarım paylara bölən bir simmetriya oxu keçirmək mümkündür. Belə çiçəklərə başqa sözlə ziqomorf çiçəklər də deyilir. Məsələn;bənövşə, səhləb və noxud çiçəkləri.

Qeyri – simmetrik çiçəklər

Bənövşə

Səhləb

Noxud

Yarpaqların gövdədə düzülüşü - əsasən növbəli, qarşı-qarşıya, topalı və bazal olurlar:

Növbəli - gövdə və ya zoğ buğumlarından yalnız tək yarpaq inkişaf edir. Yarpaqlar gövdədə bir sırada və ya spiralvari düzülə bilər. Yarpaqların gövdədə spiralvari düzülüşü **fillotaksi** adlanır.

Qarşı-qarşıya - gövdə və ya zoğ buğumlarında qarşı-qarşıya cüt yarpaqlar inkişaf edir.

Topalı - gövdə və ya zoğ buğumlarında üç və ya daha artıq sayda yarpaqlar inkişaf edir.

Bazal - yalnız bitkinin əsasından inkişaf edən yarpaqlara deyilir.

Rozet - bitkinin əsasında çoxlu sayda dairəvi yerləşmiş topa yarpaqlara deyilir.

Zoğ - gövdənin yarpaqla örtülü cavan hissəsinə deyilir. Yarpağın zoğa birləşdiyi yer buğum, zoğun iki qonşu buğumu arasındakı hissəsi isə buğumarası adlanır.

Sadə yarpaqlar - saplaq üzərində yalnız bir yarpaq ayası olan yarpaqlara deyilir.
Məsələn; cökə, palıd, ağcaqayın və s. bitkilər sadə yarpaqlılardır.

Cökə

Palıd

Ağcaqayın

Mürəkkəb yarpaqlar - saplaq üzərində iki və ya daha çox yarpaq ayası olan yarpaqlara deyilir. Məsələn; moruq, at şabalıdı, yonca, çiyələk və s. bitkilərdə olduğu kimi.

Moruq

At şabalıdı

Yonca

Çiyələk

Mürəkkəb yarpaqlar əsas etibarilə üç tipdə olur: barmaqşəkilli, lələkvari və üçər mürəkkəb yarpaqlar.

Barmaqşəkilli mürəkkəb yarpaq - barmaqşəkilli bölünmüş yarpaq parçalarının müstəqil yarpaqcıq şəklini alması nəticəsində əmələ gəlmişdir. Məsələn; at şabalıdının yarpaqları. Barmaqşəkilli mürəkkəb yarpaqda yarpaqcıqlar üçdən artıq olub, saplağın təpəsində şüavari oturur.

Lələkvari mürəkkəb yarpaq - lələkşəkilli bölünmüş yarpaq parçalarının müstəqil yarpaqcıq alması nəticəsində əmələ gəlmişdir. Bunlar ikinci, üçüncü və s. dərəcədə mürəkkəbləşə bilər.
Lələkvari yarpaqlar da iki yerə bölünür: tək lələkvari və cüt lələkvari.

Tək lələkvari mürəkkəb yarpaqların ucunda tək yarpaq olur. Məsələn; qoz, qızılgül və s.

Cüt lələkvari yarpaqların ucunda cüt yarpaq olur. Məsələn; noxud, lərgə və s.

Qoz

Qızılgül

Noxud

Lərgə

Tam kənarlı yarpaqlar - yarpaq ayasının kənarları kəsilməyən və bütöv yarpaqlara deyilir.

Dişli yarpaqlar - yarpaq ayasının kənarlarında dişlər düz olarsa, kənarı dişli və ikiqat dişli; dişlərinin ucları çəpinə olarsa, kənarı mişarlı; dişlər küt olarsa, kənarı yarımdairəvi; dişlər tikanla qurtararsa kənarı tikanlı; kənarlar dərin olmayan nizamsız kəsilmişsə, gəmirilmiş yarpaqlar deyilir.

Tam kənarlı | Dişli | Mişar dişli | Dairəvi dişli | Tikanlı | Gəmirilmiş

Dilimli yarpaqlar - kəsilmə dərinliyi ayasının ¼-nə qədər olan yarpaqlara deyilir. Məsələn; çinar, yemişan, üzüm və s.

Çinar



Yemişan



Üzüm

Bölümlü yarpaqlar - ayasının kəsilmə dərinliyi yarpağın orta damarına çox yaxınlaşan yarpaqlara deyilir. Məsələn; turp və s.

Yarılmış yarpaqlar - ayasının kəsilmə dərinliyi yarpağın orta damarına qədər olan yarpaqlara deyilir. Məsələn; zəncirotu və s.

Turp



Zəncirotu

İsmayıllı rayonu

TARİXİ

Rayonun ərazisi uzun müddət eramızdan əvvəl IV əsrin sonu III əsrin əvvələrində yaranmış Albaniya dövlətinin tərkibində olmuşdur. Tarixi faktlar sübut edir ki, Cavanşirin mənsub olduğu Mehranilər Girdiman knyazlığını məhz İsmayıllı ərazisində yaratmışdır. Cavanşir də bu nəsildən idi. Rayonun Talıstan kəndindən 4 km şimalda, Ağçayın sahilində Cavanşirin adı ilə bağlı qala mövcuddur.

Azərbaycanın şimal-mərkəz hissəsində yerləşən İsmayıllı rayonu 1931-cü ildə təşkil olunmuşdur. İlk vaxtlar rayonun inzibati mərkəzi Basqal kəndində olmuş, qısa müddətdən sonra İsmayıllı kəndinə köçürülmüşdür. Rayon təşkil edilənədək onun ərazisinin böyük bir hissəsi Göyçay qəzasının, bir hissəsi Şamaxı qəzasının, kiçik bir hissəsi isə Şəki qəzasının tərkibində olub. İsmayıllı şəhəri 1959-cu ilə qədər kənd, 1967-ci ilə qədər şəhər tipli qəsəbə olmuş, sonra şəhər adını almışdır.

Qız qalası

Cavanşir qalası

RELYEFİ

İsmayıllı rayonu əsasən Baş Qafqaz silsiləsinin cənub yamacında, yüksək və orta dağlıq qurşaqda, Acınohur alçaq dağlığında və Alazan Həftəran vadisində yerləşir. Rayonun ərazisində ən yüksək zirvələr Baş Suayrıcı silsiləsində Babadağ zirvəsi (3629 m), Əsəddağ (3471 m), Qaraburğa (3345 m), Şahnəzərdağ (2874 m) və Qəmçə dağıdır (2139 m.). Baş Suayrıcı silsiləsinə paralel olaraq cənubda Qovdağ silsiləsi (Qovdağ zirvəsi 2437 m) və Niyaldağ silsiləsi (Yelligədik zirvəsi-2322 m) yerləşir. Orta dağlıqda Lahıc və Müdrü dağarası çökəklikləri geniş sahə tutur. Relyef Girdimançay dərəsindən şərqə alçalaraq Şamaxı-Qobustan yaylasına keçir.

Niyal silsiləsindən cənubda eni 2-10 km, mütləq hündürlüyü 200-500 m olan Qanıx-Əyriçay vadisi uzanır. Vadinin səthi əsasən cavan gətirmə konusları və qismən mezozoy çöküntülərindən təşkil olunmuşdur. Qanıx-Əyriçay vadisinə paralel cənubda Girdimançay dərəsinə qədər Acınohur ön dağlığının şərq ətəkləri yerləşir. Daşüz-Əmirvan tirəsinin (829 m) şərq batımının bir qismi rayon ərazisinə daxil olur.

Göyçay-Dəvəbatan çayları arasında İvanovka yaylası (500-800 m), şərqdə Quşencə yaylası (600-1100 m) yerləşir. Dəvəbatan və Girdiman çayları arasında isə ərazi daralıb alçalaraq demək olar ki, tamamilə itir. Ondan cənubda isə paralel olaraq Qaraməryəm tirəsi (437 m) uzanır. Tirə Dəvəbatan və Girdimançay dərələri ilə bir neçə hissəyə bölünür. Mollaisaqlı, Külüllü dərələri və Girdimançayın məşhur gətirmə konusları burada geniş ərazi tutur. Qaraməryəm tirəsinin cənub-şərqə davamı olan Ləngəbiz silsiləsinin (929 m) şimal-şərq ətəkləri rayonun sərhədləri hüdudları daxilindədir. Rayonun cənub hissəsi Şirvan düzünə qədər uzanır.

Geoloji quruluşu

Ərazi Kaynozoyda baş verən Alp qırışıqlığı zonasına aid olduğu üçün seysmik cəhətdən çox fəaldır. Baş Suayrıcı silsiləsi əsasən mezozoyun yura və təbaşir yaşlı qalın çöküntülərindən təşkil olunmuşdur.

Ərazinin yura yaşlı çöküntüləri Kiçik Qafqazdan fərqli olaraq yalnız çökmə mənşəli suxurlardır (Kiçik Qafqazda isə vulkanogen çökmə mənşəli suxurlar daha çox üstünlük təşkil edir). Bu suxurlar Qanıx-Əyriçay vadisində IV dövrün çöküntüləri ilə təmasa gəlir. Niyaldağ silsiləsində isə təbaşir yaşlı şistli çöküntülərlə əvəz olunur. Yura dövrünün çöküntüləri əsasən alt və orta yuranın qalın qara rəngli şist və qismən qumdaşı laylarından ibarətdir. Cənub-şərq hissədə isə şistlər və şist-qumdaşı layları argillitlərlə əvəz olunur. Yuranın əhəngdaşı və dolomit qatlarının klippen adlanan böyük "koksüz" (əsas yayılma yerlərindən qopmuş və aralanmış) qayaları və bəzən örtük halında sahələri, iri "qəlpələri" Baş Suayrıcının bəzi yerlərində üzə çıxır. Çay dərələrində (Girdiman, Göyçay və Ağsuçay) bu qatları kəsərək dərin və dar dərələr-kanyonlar əmələ gətirir.

Qovdağ hissəsi əsasən təbaşir dövrünün gilli və gilli-qumdaşılırından ibarət çöküntülərindən, qalan hissələr isə kaynazoyun çökmə mənşəli suxurlarından ibarətdir. Dağlıq hissədə, xüsusilə Lahıc və Müdrü dağarası çökəkliklərində kaynozoy yaşlı cavan çöküntülər mezozoy dövrünün suxurları üzərində transqressiv formada yataraq qalın laylar əmələ gətirir. Paleogenin oliqosen dövrünün gilli və qumlu-gilli çöküntüləri Girdimançay dərəsində geniş sahələr tutur. Neogen mənşəli çökmə suxurlar isə əsasən depres sahələrdə və ləngəbiz tirəsində terrigen qatlardan və gillərdən ibarətdir. Sarmat dövrünün dəniz çöküntülərinə Diyallı kəndi yaxınlığında 1200 m yüksəkliklərdə daha çox rast gəlinir. Bir sıra əyilmə zonalarında pleystosen (IV dövr) çöküntülərinin çox qalın (200-400 m) qatları müşahidə olunur. Buna səbəb ərazidə axan çayların eroziya və nəqletmə qabliyyətinin sürətli olmasıdır. Yüksək dağlıqda (2800-3000 m) isə ara-sıra buzlaq çöküntülərinə – moren tirələrinə rast gəlmək olur.

İQLİMİ

İsmayıllı rayonu subtropik və qismən mülayim iqlim qurşağında yerləşir. Subtropik zonanın şimal sərhədi rayonun təxminən 550-650 m hündürlüyündən keçir. Bu zonadan yüksəkliyə doğru şaquli qurşaqlıq müşahidə edilir. Düzənlik və dağətəyi hissədə mülayim isti və qismən yarımsəhra-quruçöl, yüksək dağlıqda isə soyuq və dağ tundra iqlim tipləri formalaşır. Ümumi günəş radiasiyasının miqdarı düzənliklərdə, xüsusi ilə də Qanıx-Əyriçay vadisində 125 kkal/sm^2-dən yüksək dağlığa doğru 140-145 kkal/sm^2 arasında tərəddüd edir. Ən böyük kəmiyyəti Babadağ yaxınlığında 148 kkal/sm^2-ə çatır. Orta illik temperatur düzənliklərdə 14-14.5°, dağətəyi və alçaq dağlıqda 11-13°, orta dağlıqda 7-9°, yüksək dağlıqda isə 0°-yə qədər azalır. Baş Suayrıcının yüksək zirvələrində isə hətta -2 və -5°-yə qədər enməsi müşahidə olunur. İyulun orta temperaturu düzənliklərdə 22-25°, orta dağlıqda 20-15°, yüksək dağlıqda 10-5°; Yanvar ayının orta temperatur göstəriciləri isə düzənliklərdə 0-4°, dağətəyi və alçaq dağlıqda 0-3°, orta dağlıqda -3 və -6°, yüksək dağlıqda isə -15°-dən aşağı düşür.

Bol günəş enerjisi alan İsmayıllı rayon ərazisində meyvəçilik və bostan-tərəvəzçilik geniş yayılmışdır. İqlim ehtiyatlarının kurort və istirahət məqsədləri üçün də istifadə edilməsi imkanları böyükdür. Son dərəcə mənzərəli olan meşəli dağ yamacları, mülayim iqlim şəraiti sərin mineral bulaqlar şəbəkəsi, olduqca səfalı yaylaqlar ilə fərqlənən rayon ərazisinin kurort-istirahət bölgəsi kimi istifadə edilməsinin böyük perspektivləri var. Orta illik yağıntıların miqdarı 500-1000 mm arasında dəyişir. 2400-2800 m yüksəkliyə qalxdıqca yağıntıların miqdarı artaraq 1400-1500 mm-ə çatır. 2800 m-dən yüksəkdə yenidən yağıntıların miqdarı 900-1000 mm-ə qədər azalır. Düzənliklərdə isə bu kəmiyyət 400-600 mm-dir. Bunun da nəticəsində

dağətəyi və yüksək dağlıq ərazilərdə dəmyə əkinçilik üçün əlverişli şərait yaranır. Yağıntıların maksimum miqdarına may və sentyabr aylarında təsadüf edilir. Qar örtüyünün ən böyük orta qalınlığı dekabrda dağətəyində 10 sm, orta dağlıqda 20-50 sm, yüksək dağlıqda isə 70 sm-dən artıq müşahidə olunur. Mümkün buxarlanma düzənlik və orta dağlıqda 600-800 mm təşkil etdiyi halda, yüksək dağlıqda bu kəmiyyət 400-300 mm, hətta 200 mm-ə qədər düşür.

DAXİLİ SULARI

Göyçayçay, Girdimançay, Ağsuçay, Pirsaatçay və onların saysız-hesabsız qolları (Axoxçay, Əyriçay, Lahıççay, Müdürsəçay və s.) başlanğıcını rayonun şimalından: Baş Qafqazın Baş Suayrıcı silsiləsindən götürərək cənuba doğru dərin dərələrlə kəsərək geniş əraziləri əhatə edir. Əsasən yuxarı və orta axarlarında qar və yağış suları ilə, orta və aşağı axarlarında isə yağış və yeraltı sularla qidalanır. Çaylar Yuxarı Şirvan kanalı vasitəsi ilə Kür çayına qovuşaraq suvarmada geniş istifadə olunur. Yaz və payız aylarında daşqınlı və selli olur. Ərazini təşkil edən süxurlar yumşaq çöküntülərdən təşkil olunduğu üçün çayların orta və yuxarı axarlarında dərin kanyonlar əmələ gəlmişdir. Çayların düzənliyə qovuşduğu ərazilərdə isə gətirmə konusları kimi relyef formaları əmələ gəlmişdir. Qidalanmasında əsasən qalın və davamlı qar örtüyü, bol yağışlar və yeraltı sular iştirak edir.

Ərazidə göllər əsasən dağlıq hissədə yayılıb. Lakin bunların heç birinin sahəsi 1km^2-dən çox deyil. Mənşəyinə görə sürüşmə, uçqun və axmaz göllər qrupuna aiddir.

Qanıx – Əyriçay hövzəsində suların səviyyəsi 2.2 m-dən 100 m-ə qədər dərinlikdə yatır. Yüksək dağlıqda yeraltı sular bulaqlar şəklində səthə çıxır.

Landşaftı

Ərazinin landşaftları şaquli qurşaqlığa uyğun olaraq: Alçaqdağlığın kserofit, quruçöl və arid-meşə; Alçaqdağlığın çöl; Düzən meşə-çəmən (intrazonal Qanıx-Əyriçayda); Ortadağlığın meşə və meşədən sonra çəmən-kol; Dağ-çəmən (subalp və alp); Subnival və nival landşaftları yayılmışdır.



Torpaqları:

Düzənlikdən dağlığa doğru müvafiq olaraq boz, şabalıdı, açıq və tünd şabalıdı, dağ-boz qəhvəyi, qəhvəyi, qonur, dağ-meşə, talalarda qara, subalp və alp çəmənliklərində allüvial çəmən-meşə, çimli-torflu və ibtidai dağ-çəmən torpaqları yayılmışdır. Rayonun ümumi torpaq sahəsi 217315 ha-dır. Adambaşına 3,6 ha (Azərbaycanda 0,2 ha) torpaq sahəsi düşür. Kənd təsərrüfatı üçün yararlı torpaqlar 98070 ha, onlardan əkin yerləri 36460 ha (xüsusi ilə dəmyə əkinçilik) təşkil edir.

İsmayıllı rayonunun meşə bitkiliyi haqqında qısa məlumat

İsmayıllı rayonunun yerləşdiyi məkan və müxtəlif fiziki-coğrafi şərait müxtəlif bitkilik tiplərinin formalaşmasına şərait yaradır. Meşə bitkiliyi rayonun əsas təbii bitkilik tiplərindən biri olub spesifik ekoloji şəraitdə ləkələr şəklində və ya geniş sahələrdə hündürboylu, enliyarpaqlı, sıx və ya seyrək formalarda rast gəlinir.

Buradakı meşələrin flora zənginliyi və ya biomüxtəlifliyi yalnız ayrı-ayrı cinslər və növlər arasında deyil, hətta növlər daxilindəki morfoloji müxtəliflikdən də ibarətdir. Bir çox eyni növlər morfoloji cəhətdən çox müxtəlif olduqları üçün onları təyin etmək çətin olur.

Ərazidə sutka ərzində iqlimin tez-tez dəyişməsi, axar və qrunt sular, edafik və biotik amillər, müxtəlif relyef və nəhayət antropogen təsirlər bilavasitə meşə bitkiliyində bu cür biomüxtəlifliyin yaranmasına şərait yaradırlar.

Rayonda formalaşmış meşələr əsasən qış fəslində yarpaqlarını tökən enliyarpaqlı ağac və kol cinslərindən ibarətdir. İynəyarpaqlı meşələrə demək olar ki, heç rast gəlinmir. Lakin iynəyarpaqlı

bitki nümayəndələri enliyarpaqlı bitkilərlə kiçik ləkələr formasında qarışıq meşələr əmələ gətirir.

Rayonun meşəliyi əsasən dağ və çaykənarı olmaqla iki qrupa bölünür.

Şaquli istiqamətdə rayonda formalaşmış dağ meşələri əsasən aşağıdakı qurşaqlara bölünür:

a) Aşağı dağ-meşə və ya dağətəyi-meşə;
b) Orta dağ-meşə;
c) Yuxarı dağ-meşə.

Aşağı dağ-meşə və ya dağətəyi-meşə qurşağı

İsmayıllı rayonu dağətəyi mayilli yamaclarda yerləşən kserofil tipli meşələrin əsas tərkibini ardıc (*Juniperus*), kiçik meşələrdə qafqaz dağdağanı (*Celtis caucasica*), sarağan (*Cotinus cogggygria*), jasmin (*Jasminum fruticans*) və s. kimi bitkilərə geniş rast gəlinir.

Nisbətən dağətəyi düzən meşələrdə qarışıq enliyarpaqlı meşələrə rast gəlinir ki, bunların da əsasını şərq vələsi (*Carpinus orientalis*), şərq fıstığı (*Fagus orientalis*), çöl ağcaqayını (*Acer campestre*), məxməri ağcaqayın (*Acer velutinum*), qafqaz armudu (*Pyrus caucasica*), adi alça (*Prunus divaricata*), adi fındıq (*Corylus avellana*), yemişan cinsinin növləri (*Crataegus ssp.*) adi əzgil (*Mespilus germanica*), lianlardan isə pastuxova daş sarmaşığına (*Hedera pastuchowii*) və hündür mərəvcəyə (*Smilax excelsa*) geniş rast gəlinir. İsmayıllı rayonunun dağ-ətəyi düzən meşələrində relikt tipli agaclardan şabalıdyarpaq palıda (*Quercus castaneifolia*) da tək-tək rast gəlinir. Bununla yanaşı qafqaz vələsinin (*Carpinus caucasica*) əmələ gətirdiyi assosasiyalara tez-tez rast gəlinir.

Foto: Dağətəyi düzən meşələr - şərq vələsi *(Carpinus orientalis)*

Foto: Dağətəyi düzən meşələr - şərq fıstığı *(Fagus orientalis)*

Ərazinin bir qədər hündür yerlərindən (500-600 m-dən 800-900 m-ə qədər) tutmuş, aşağı dağ qurşağına qədər olan sahələrdə əsil dağ meşələri mezo-zonallıq təşkil edir. Burada hündürboylu gürcü palıdı (*Q. iberica*), qafqaz vələsi (*Carpinus caucasica)* və qovaq cinsi (*Populus sp. div.*) əmələ gətirdikləri qarışıq meşələrə rast gəlinir. Meşələrin fitosenoloji quruluşu demək olar ki, çoxtərkibli və mürəkkəbdir. Burada qaraağac (*Ulmus foliacea*), ağcaqayın növləri (*Acer campestre, A. laetum*), adi göyrüş (*Fraxinus excelsior*) az miqdarda yabanı gilas (*Cerasus avium*), meşəaltı kolluqlardan isə yemişan növləri (*Crataegus pentagyna, C. orientalis*), adi alça (*Prunus divaricata*), qafqaz əzgili (*Mespilus germanica*), jasmin (*Jasminium fruticans*), adi birgöz (*Ligustrum vulgare*), adi zoğal (*Cornus mas*), doqquzdon növlərinə (*Lonicera orientalis, L. iberica, L. caprifolium*), adi fındıq (*Corylus avellana*) və təktək meşəsiz quru yamaclarda sarağan (*Cotinus coggyrgia*), aşı sumaq (*Rhus coriaria*), adi göyəm (*Prunus spinosa*) və başqalarına rast gəlinir.

Orta dağ-meşə qurşağı

Rayonun orta dağ qurşağından (800-900 m) başlayaraq 1600-1800 m-ə qədər olan yüksək dağ qurşaqlarında ləkə-ləkə mezo-zonallıq təşkil edən meşələrə rast gəlinir. Hal-hazırda orta dag qurşaqlarında ləkə-ləkə şərq fıstıqlığı meşəliyi (*Faguseto orientalis*) və dağ yamaclarında öz meşəlik fonunu saxlamaqla enliyarpaqlı qarışıq fıstıqlı – vələslik meşəliyi öz normal inkişafını davam etdirir. Bu qarışıq meşədə edıfikatorlardan başqa ağcaqayın növlərinə (*Acer campestre, A. platanoides,* bəzən də *A. laetum*), tək-tək qafqaz cökəsi (*Tilia caucasica*), probka qarağacı (*Ulmus suberosa*) və başqa növlərə rast gəlinir. Dağların bir qədər aşağı hissəsində qafqaz vələsi (*Carpinus caucasica*) də ıx meşəlik yaradır. Bəzi hallarda isə vələs, gürcü palıdı (*Quercus iberica*) ilə birlikdə qarışıq hündürboylu palıd–vələs meşəliyi yaradırlar. Bir qədər hündürlüyə qalxdıqda isə gürcü palıdı seyrəlir və artıq dəniz səviyyəsindən 1800 m hündürlüyə çatdıqda gürcü palıdını şərq palıdı (*Quercus macranthera* = *Q. orientalis*) əvəz edir. Bu yüksəklikdə şərq fıstığı (*Fagus orientalis*) da seyrəlir və yalnız şərq palıdı üstünlük təşkil etməklə park tipli meşələr yaradır. Belə dağlarda, xüsusilə dağların cənub yamaclarında ot örtüyü bəzən eroziyaya uğrayıb. Çox vaxt isə cənub yamaclarında güclü eroziya nəticəsində ana süxurların üzə çıxması müşahidə olunur. Ancaq həmən yüksək dağların şimal və qərb yamaclarında isə park tipli meşəkliklər hündürotluq bitkilərilə birlikdə subalp meşəliyi yaradırlar, nadir hallarda isə qaraçöhrə (*Taxus baccata*) və bir neçə meşəaltı növlər təmsil edirlər. Az hallarda meşə kənarlarında qara gəndəlaş (*Sambucus nigra*) cəngəlliyinə də rast gəlinir.

Yuxarı dağ-meşə qurşağı

Dəniz səviyyəsindən 2000-2300 m (2500 m) hündürlüklərdə həqiqi subalp meşəliyi geniş yayılmışdır. Bu tip meşələrdə əsas edifikatorların hündürlüyü qısalır və iriçətirli olurlar. Burada əsasən şərq palıdı (*Q. macranthera*) az miqdarda şərq fıstığı (*Fagus orientalis*), şimal yamaclarda isə trautfetter ağcaqaynı (*Acer trautvetteri*), litvinov tozağcı (*Betula litwinowii*) növlərinə rast gəlinir. Çox vaxt qeyd olunan tozağacı növü subalp meşəliyi yaradırlar. Belə meşələrdə tək-tək qarağac (*Ulmus*) və quşarmudu (*Sorbus*) cinslərinin növlərinə, cənub-yönümlü yamaclarında isə ardıc (*Juniperus oblonga*) növünə rast gəlinir.

Hər bir qurşaqda formalaşan meşələr növ tərkibi və strukturu baximdan fərqli olurlar. Senoz əmələ gətirən bitkilərin boyları fərqli olduqları üçün meşələrdə bir neçə müxtəlif mərtəbəlilk yaranır:

1-ci mərtəbəyə boyu 25 m və daha hündür olan ağaclar

2-ci mərtəbəyə boyu 10-25 m arasında olan ağaclar

3-cü mərtəbəyə boyu 10 m-dən aşağı olan ağaclar

4-cü mərtəbədə boyu 5 m-ə qədər olan kollar,

5-ci mərtəbəyə canlı ot örtüyü daxil edilir ki, onların da arasında müxtəlif növ mamırlar və şibyələrə rast gəlinir.

Meşə formalaşarkən ətraf mühit şəraitindən (torpaq, su və s.) asılı olaraq daha çox hündürlüyə inkişaf edə bilən ağaclar (fıstıq, cökə, palıd, qızılağac, ağcaqayın və s.) işıq uğrunda mübarizə apararaq ən yuxarı mərtəbəni tuturlar. Bəzən bu növlər tək inkişaf edərək sadə tərkibli meşə örtükləri yaradır ki, belə meşələrə İsmayıllı rayonu ərazisində dağətəyi düzən meşələrdə rast gəlinir.

İkinci mərtəbədə mürəkkəb tərkibli bir neçə ağac cinslərindən ibarət qarışıq meşələr də formalaşır. Bu mərtəbəni boyca nisbətən aşağı olan (vələs, alma, armud, çöl ağcaqayını, meşə gilası və s.) ağaclar tutur. Belə meşələrə rayonun maili yamaclarında aşağı dağ-meşə qurşağında rast gəlinir.

Ot örtüyünün sıxlığı meşənin 1-ci, 2-ci və 3-cü mərtəbələrini yaradan ağac və kolların sixlığından asılıdır. Bir qayda olaraq dağların cənubunda rast gəlinən meşələrdə otluğun layihə örtüyü ağac və kol bitkiləri tam yarpaqlayana qədər 60-65 % təşkil etməklə əsasını kserofit ot bitkiləri, şimal yamaclarda formalaşan meşələrdəki otluğun layihə örtüyü isə 80-85 % olmaqla əsasını mezofil ot bitkiləri təşkil edir. Nisbətən seyrək meşələrdə İyun ayından sonra ot bitkiləri tamamilə öz vegetasiyalarını başa vurub qurumuş olurlar. Lakin daha sıx dağətəyi-düzən meşələrdə kol və ot bitkilərinə çox az rast gəlinir və ya demək olar ki, heç rast gəlinmir. Bele meşələrdə yer səthi əsasən meşə döşənəyi (xəzəl, qurumuş budaqlar, meyvə və toxum qalıqları və s.) ilə örtülmüş olur. Belə meşələrdə erkən yazda bir neçə geofit bitkilərə o cümlədən ağqanad danaayağı (*Arum albispathum*) bitkilərinə tək-tək və ya kiçik qruplar formasında rast gəlinir.

Meşələrdə ən çox rast gəlinən lian tipli sarmaşıqlardan hündür mərəvcədir (*Smilax excelsa*). Bu kol-lian bitkisi meşədəki ağacların gövdəsinə sarmaşaraq 15-20 m hündürlüyə qalxan iti tikanlı gövdəyə malik olub, əsasən may ayında çiçəkləyir. Meşələrdə 6-7 növ lian və kol-liana rast gəlinir. Ərazidə ən çox yunan güyəməsinə (*Periploca graeca*) rast gəlinir. Meşə ağaclarına sarmaşan yabanı üzümə (*Vitis silvestris*), pastuxov daş sarmaşığına (*Hedera pastuchowii*) və adi xamırmayaya (*Humu-*

lus lupulus) və b. lianlara rast gəlinir. Ərazinin meşə florasında lianlar və kol-lianlarının çox olması meşələrin 80-85 %-nin nəmli və mezofil olmasından xəbər verir. Bununla yanaşı bütün meşə formasiyalarında ot örtüyünün müxtəlifliyi və zəngin floraya malik olması da meşənin nəm mühitə aid olduğunu bir daha sübut edir.

Bəzən dağ çayları boyu tuqay meşəliklərinə, xüsusilə quru dərələrdə kollardan ibarət çox seyrək meşəliklərə rast gəlinir ki, burada da geniş yayılmış ağac və kol bitkilərindən çaytikanı, sumaq, söyüd, tut, pirakanta, nar, itburnu, böyürtkən və s. bitkilər geniş yayılmışdır. Çaytikanı (*Hippophae rhamnoides*) əsasən dağ çayı olan Göyçay və digər çay vadilərində geniş yayılmışdır. Çay kənarlarında yalanqoz (*Pterocarya pterocarpa*) və qızılağac (*Alnus barbata*) bəzən iri cəngəlliklər əmələ gətirirlər.

İsmayıllı rayonu meşə genofondları, onların istifadə olunması və mühafizəsi

Dünyanın başqa yerlərində olduğu kimi meşə İsmayıllı rayonunda da hələ çox qədimdən geniş istifadə edilən qiymətli təbii sərvətlərdən biridir. Meşələrdən indi də yanacaq, tikinti materialı, dərman maddələri və sənaye üçün xammal mənbəyi kimi istifadə olunur. Meşələr havanın, torpağın, suyun tənzimlənməsində və heyvanlar aləminin qorunub saxlanılmasında və inkişaf etməsində mühüm rol oynayan təbii ehtiyatlar kompleksinə aiddir.

İsmayıllı rayonu ərazisində çox qiymətli meşələr mövcuddur. Bu meşələrdə əsas ağac və kol cinslərindən albalı, qaragilə, nar, heyva, alma, armud, əzgil, göyəm, zoğal, itburnu, sumaq, moruq, fındıq, böyürtkən və s. kimi meyvə və giləmeyvə bitkiləri yetişir. Onlardan respublikamızın yeyinti, qənnadı, konserv, şərabçılıq, əczaçılıq sənayesində və xalq

ləbabətində geniş istifadə edilir.

Meşələrin qırılması bir çox məməlilərin, sürünənlərin və quşların məhvinə gətirib çıxarır. Bitkilər və həşəratlar arasında da sıx və möhkəm asılılıq vardır. Bir çox ali bitkilərin bar verməsi tozlayıcı həşəratlardan asılıdır, Amerika bioloqları müəyyən etmişlər ki, hər bir ali bitki 10-dan çox həşərat növü ilə əlaqədardır. Bir bitki növünün yox olması 10 və daha çox həşərat növünün məhv olmasına səbəb olur.

Bu bələdçi kitabda öz əksini tapmış 255 ali bitkidən 22-si Qafqaz endemi və 27-si isə Qırmızı kitaba daxil olunmuş növlərdir və onlar Azərbaycan dövləti tərəfindən qorunur.

İsmayıllı rayonunun meşələrinin yuxarıda qeyd edilən əhəmiyyətini nəzərə alsaq, meşə sərvətlərinin mühafizəsi və səmərəli istifadəsinə ciddi diqqət yetirilməsi, yeni meşəliklərin salınması, məhv olunmuş meşəliklərin bərpa olunması ən mühüm məsələlərdən biridir. Ətraf mühitin qorunması haqqında Azərbaycan Dövləti qanun işləyib hazırlamışdır və bu qanunun həyata kecirlimesi istiqamətində bir çox qoruqlqarın yaradılması kimi mühüm işlər görülmüşdür və bu işlər indi də davam etdirilir.

Qaraçöhrə
Taxus baccata L.

Hündürlüyü 18 (20) m-ə qədər və diametri 60-80 (100) sm olan ağac və ya böyük koldur. Qabığı boz çalarlı qırmızı-qonur rəngdə olub, hamar və ya lövhəşəkillidir.

Yarpaq: Yarpaqları xətvari, yastı, uzunluğu 2-4 sm, eni 1,8-2 mm-dir, üst tərəfdən tünd-yaşıl, parlaq, alt tərəfdən solğun rəngli, tutqun, kənarları az qatlanmış formadadır.

Çiçək: Erkəkcikli çiçəklərinin uzunluğu 10 mm olub, budaqların aşağı səthində yerləşmişdir. Dişicikli çiçəkləri təkdir, əsasında bir neçə cüt pulcuqşəkilli yarpaqlarla əhatə olunmuşdur.

Meyvə: Meyvələri qırmızı rəngli və şarşəkillidir, yuxarı hissədə açıqdır. Toxum ətrafında iki örtük vardır; daxili örtük oduncaqlaşan və xarici örtük isə etli, parlaq tünd-qırmızı rənglidir, (yalançı giləmeyvə) şirəlidir və şirin dadı vardır.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Mart-Aprel

Azərbaycanda yayılması: BQ qərb, BQ şərq, BQ (Quba), KQ şimal, KQ mərkəzi, KQ cənub, (Şuşa) Lənk. dağ. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına qədər (d.s.y. 1900 m).

Yaşayış mühiti: Qaranlıq meşələrdə qarışıq formada rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Yarpaqlarından xalq təbabətində dərman kimi istifadə edilir. Oduncağı bir çox məmulatların (silah, sarrat, çilingər, mebel və s.) hazırlanması üçün yüksək qiymətləndirilir.

Gövdəsi

Meyvələri

Çiçəkləməsi

Saqqallı qızılağac

Alnus barbata C. A. Mey. (*A. glutinosa* (L.) Gaertn. subsp. *barbata* (C. A. Mey.) Yaltirik)



Dişicik daşıyan çiçəklər

Yarpağı

Erkək çiçəklər

Hündürlüyü 20 (25) m olan ağacdır. Cavan budaqları yapışqanlıdır, çılpaq və ya bəzən yumşaq tüklüdür.

Yarpaq: Yarpaqları enli-əksinəyumurtaşəkilli, dəyirmi, bəzən ovaldır, uzunluğu 6-15 sm, qaidə hissəsində enli-pazşəkillidir, uc hissədə az uzanmışdır, kənarları ikiqat-dişlidir, 8-10 cüt damarları vardır, alt tərəfdən damarların küncləri sarı rəngli sıx keçə kimi saqallıdır və üst səthi qismən tüklüdür. Saplaqlarının uzunluğu 5 sm-ə qədərdir.

Çiçək: Bar verən salxımları uzunsov olub, uzunluğu 16-20 mm-dir, 3-5 ədəd olmaqla meyvə saplağında yerləşmişdir, uzunluğuna görə onlara bərabər və ya biraz daha qısadır.

Meyvə: Fındıqcalar yastıdır, dar qanadlı və ya qanadsızdırlar.

Çiçəkləməsi: Aprel ayında yarpaqların açılması ilə bir vaxtda çiçəkləyir.

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., Alazan-Əyriçay, Kür düz., Lənk. oval. Əsasən ovalıqlarda və orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Rütubətli yerlərdə, çay vadilərində və sahillərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Oduncağı yumşaq, çoxqatlı olduğuna görə xarrat işlərində, mıx hazırlanmasında və s. istifadə olunur. Qabığının tərkibində aşı maddəsi vardır və bundan başqa parçaları qara, qırmızı və sarı rəngə boyamaq üçün istifadə olunur. Qozalarlarından hazırlanmış məlhəm kolit və dizenteriyada müalicə məqsədilə istifadə olunur. Tozcuğunun şəkərlə qarışığı arılar üçün yem hesab olunur.

Fındıqca meyvələr

Litvinov tozağacı
Betula litwinowii A. Doluch

Hündürlüyü 10-15 m-ə qədər olan kiçik aqacdır. Ağacığı hissədə ağ rəngli çatlaq qabığı vardır. Cavan budaqları xırda yumşaq tüklüdür, vəzili qıvılcıklıdır.

Yarpaq: Yarpaqları yumurtaşəkilli və yaxud yumurtaşəkilli-rombvaridir, yarpağın qaidə hissəsi enli pazşəkilli və yaxud dairəvidir, təpə hissəsində üçkünc formada daralmışdır, kənarları iri birqat və yaxud ikiqat mişarvaridir, alt tərəfdən damarların küncündə saqqalcıqları yerləşmişdir. Saplaq 2,5-4 dəfə yarpaq eyasından qısadır.

Çiçək: Bar verən salxımlar silindrşəkilli olub, uzunluğu 2,5-3,5 sm, eni 7-9 mm-dir. Meyvə verən çiçəklərin pulcuqları meyvə verən zaman üçbölümlü, qaidəsinə yaxın hissəsi isə pazşəkillidir.

Meyvə: Fındıqca meyvələri əksinəyumurtaşəkilli uzunsov və yaxud uzunsov-ellipsvaridir, fındıqcameyvənin qanadlarının eni fındığın ölçüsünə bərabərdir, nadir hallarda 1,5 dəfə enlidir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ şimal, KQ mərkəz

Yaşayış mühiti: Meşənin yuxarı kənarlarında rast gəlinir. Xarakterik subalp tozağacı meşəliyi əmələ gətirir və (*B. pendula*) tozaqacılığı tərkibinə keçir.

Təsərrüfat əhəmiyyəti: Qabığı yun sapların boyanması üçün qırmızımtıl-sarı, yarpağı isə bozumtul-yaşıl və ya yaşılımtıl-göy rəng verir.

Erkək çiçəklər

Dişi çiçəklər

Yarpağı

Adi fındıq
Corylus avellana L.

Dişi çiçək


Erkək çiçək

Hündürlüyü 2-4 m olan kol və ya nadir halda hündürlüyü 7-9 m olan ağacşəkilli koldur. Birillik budaqları açıq-qəhvəyi və ya sarımtıl-boz rəngdədir, qismən vəzicikli tüklərlə örtülüdür.

Yarpaq: Yarpaqları dəyirmi formadan uzunsov formayadək dəyişəndir, qaidə hissəsi az bərabər olmayan ürəkşəkilli, kənarları qeyri-bərabər ikiqat mişarlı, sivriləşmiş uclu, üst tərəfdən tünd-yaşıl, alt tərəfdən açıq rəngdədir, çılpaq və ya səpələnmiş tüklüdür, uzunluğu 6-12 sm, eni 5-9 sm-dir.

Çiçək: Erkəkcikli salxımlarının uzunluğu 2-5 sm-dir, 3-5 ədəd olmaqla bir yerdə toplanmışdır.

Meyvə: Fındıqları 2-5 ədəd olmaqla bir yerdədir; qədəhi açıq-yaşıl rəngdədir, uzunluğuna görə fındığa bərabər, bir qədər uzun və ya ondan qısadır, məxmər tüklü, enli dilimli olub, kəsilmiş-dişlidir. Fındıqlar yastı formadan şarşəkilli formayadək dəyişir; qabığı açıq-qəhvəyi rəngdə olur.

Çiçəkləməsi: Yarpaqların əmələ gəlməsindən xeyli əvvəl çiçəkləyir. (Yanvar) Fevral-Mart

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval. (şimal), BQ qərb, BQ şərq, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına, bəzən yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, kollar arasında, yarğanlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Fındıq ləpəsi yeyilir, müxtəlif qənnadı sənayesində istifadə olunur, ondan alınan yağ həm texniki, həm də qida məqsədilə istifadə olunur.

Fındıqca meyvələr dadlı və qidalıdır

Qafqaz vələsi

Carpinus caucasica Grossh. = *C. betulus* L.

Hündürlüyü 20-25 m-ə çatan, hamar, açıq-boz, bəzən ağımtıl rəngli qabığı olan ağacdır.

Yarpaq: Yarpaqları saplaqlıdır, uzunluğu 5-13 sm, eni 2,5-6 sm, yumurtaşəkilli-uzunsov və yaxud yumurtaşəkillidir, qaidə hissəsi bir qədər ürəkşəkilli, təpə hissəsi sivriləşmişdir, kənarlardan ikiqat itidişli, alt tərəfdən səpələnmiş tükcüklüdür.

Meyvə: Qədəhin uzunluğu 3-5 sm, qaidəsinə yaxın aydın seçilən, demək olarki eyni, tam kənarlı və ya dişli bölümlüdür; orta bölümü uzunsovdur, adətən tam kənarlı, (nadir halda bir tərəfi dayaz dişli) onun arxa tərəfində aydın seçilən bir mərkəzi damarı vardır.

Fındıqca meyvələrin uzunluğu (5) 6 (7) mm, eni (4) 4,5 (5,5) mm-dir, yumurtaşəkillidir, 5-11 ədəd nəzərə çarpan qabırğacığı vardır.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: Mart-May

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında (az hallarda Naxçıvanda).

Yaşayış mühiti: Ovalıqdan orta dağ qurşağına qədər.

Təsərrüfat əhəmiyyəti: Oduncağından ağac vintlər, ağac dəyirmanına dişlər düzəltmək üçün, çəkmə mıxları üçün istifadə olunur. Yanacaq materialı kimi yüksək qiymətləndirilir (uzun müddət istiliyi saxladığı üçün). Erroziyaya qarşı mübarizədə vələsin böyük əhəmiyyəti vardır. Vələsin qabığının daxili qatından yun sapları sarı rəngə boyamaq üçün istifadə olunur. Meyvələri sabun və əlif bişirmədə lazım olan yağı almaq üçün istifadə oluna bilər.

Erkək çiçək

Yarpağı

Toxumu

Şərq vələsi, Dəmirqara
Carpinus orientalis Mill. subsp *macrocarpa* (Willk.) Browicz

Hündürlüyü 15-20 m-ə qədər olan boz qabıqlı balaca ağac və ya koldur.

Yarpaq: Yarpaqları uzunluğu 1 sm-ə qədər olan saplaq üzərində olub, oval-ellipsvaridir və uzunluğu 2-5 sm, eni 1,5-3 sm-dir.

Meyvə: Qədəh 1,5-2,3 sm uzunluğunda, eni 7-18 mm-dir, bütövdür, bölümsüzdür, kənarları qeyri-bərabər dişlidir və arxa tərəfdən 5-8 ədəd nəzərə çarpan damarları vardır. Fındıqcalar oval-yumurtavari və biraz yastıtəhərdir.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ., Lənk. oval.

Təsərrüfat əhəmiyyəti: Oduncağı möhkəm olduğu üçün yaxşı kömürü alınır. Bundan başqa oduncaq xarrat alətlərinin hazırlanması üçün yararlıdır. Sıx budaqlandığı üçün canlı hasarların yaradılmasında yararlıdır. Qabıq və yarpaqlarında aşı maddəsi vardır.



• Adi şabalıd
• *Castanea sativa* Mill.

Hündürlüyü 30 (35) m-ə qədər, diametri 1,5 (2) m, enli, budaqlı çətiri olan ağacdır. Tumurcuqları iri, yumurtaşəkilli, tünd-qəhvəyi rəngdədir.

Yarpaq: Yarpaqlarının uzunluğu (8) 10-25 sm-dir, uzunsov-neştərvari, neştərvari və ya uzanmış uzunsovdur, qaidəsinə doğru daralmış, uc hissədə dartılı-sivridir, üst tərəfdən çılpaq, alt tərəfdən sıx ulduzşəkilli-tüklüdür, kənarları bizvari, adətən içəri əyilmiş zoğlarla tamamlanan dişlərlədir; yarpağın alt tərəfindən nəzərə çarpan damarları 16-28 (30) cütdür.

Çiçək: Erkəkcikli çiçəkləri sarımtıl rəngli, ətirlidir, uzun ox üzərində yumaqcıqda oturaraq, çiçəkləri solandan sonra tökülən, uzun düzduran salxım əmələ gətirir. Dişicikli çiçəkləri 1-3 ədəd və ya daha çox olmaqla yumaqcıqda yerləşir.

Meyvə: Meyvəsi parıldayan, qalın dərili, meyvə yanlığı qəhvəyi rəngli olan qozdur; qozlar bir tərəfdən qabarıqdır, 2-3 (1) ədəddir, gec açılan olub, xaricdən uzun sivri iynəlidir, sarşəkilli qoza ilə tamamlanır.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: Oktyabr-Noyabr

Azərbaycanda yayılması: BQ qərb, Alazan-Əyriçay. İsmayıllı, Qəbələ, Oğuz, Balakən, Zaqatala, (nadir halda Lənkəranda) Əsasən aşağı dağ qurşağında (600-1100 m d.s.y.).

Yaşayış mühiti: Dağ dərələrində, yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvəsi yeyilir. Yüksək dekorativ əhəmiyyəti vardır. Oduncağı qiymətlidir. Balverən bitkidir. Oduncağının tərkibində boyaq, aşı maddəsi vardır.

Yarpağı

Erkək çiçək

Meyvəsi

Şərq fıstığı

Faqus orientalis Lipsky (*F. sylvatica* L. subsp. *orientalis* (Lipsky) Greuter & Burdet)

Yarpağı

Hündürlüyü 30-35 (40-50) m-ə çatan, əzəmətli ağacdır. Hamar açıq rəngli qabığı vardır, diametri 100-150 sm-dir. Cavan zoğları qırmızı-qonur rəngli olub, əyri formadadır; tumurcuqlarının uzunluğu 2 sm-dir, iyşəkillidir, pulcuqları açıq -qəhvəyi rənglidir.

Yarpaq: Yarpaqları növbəli düzülmüş, tökülən, ellipsvari və ya tərsinəyumurtaşəkillidir, qaidə hissəsi dəyirmiləşmiş və ya pazşəkillidir, təpə hissədə sivriləşmiş, uzunluğu 5 (7)-12 (20) sm, eni 2 (3)-6 (8) sm-dir, möhkəm kağızaoxşardır, üst tərəfdən parlaq, alt tərəfdən isə damar boyunca sıx tüklüdür, tamkənarlıdır, bəzən küt bölümlü və ya dalğavaridir; kənar damarları (5) 7-14-15 cütdür; saplaq 1,5 sm-dir, tüklüdür.

Meyvə: Qozanın uzunluğu 14-25 mm, parlaq-qonur rəngli, sıx keçə-tüklü olub, çoxsaylı xətli-bizşəkilli pulcuqlarla örtülüdür və yetişənə yaxın 4 yerə uzununa çatlayır; hər qozada 2-3, bəzər (1-4) sivri üçtilli, sivri qurtaracaqlı, uzunluğu 19-22 mm, eni 1-1,5 sm olan qoz yerləşir.

Çiçəkləməsi: Aprel-May. Yarpaqlarin əmələ gəlməs ilə eyni vaxtda çiçəkləyir.

Meyvə verməsi: Sentyabr-Oktyabr (Noyabr)

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəz. (Xocalıçay), Lənk. dağ. Orta və yuxarı, bəzən aşağı dağ qurşaqlarında rast gəlinir.

Yaşayış mühiti: Digər cinslərlə birgə təmiz meşə əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Şərq fıstığı tikinti işlərində, sualtı tikintidə, gəmiqayırmada, dülgər və mebel düzəldilməsində və s. istifadə olunur. Zoğ və yarpaqları iri buynuzlu heyvanların yemdir. Həmçinin dekorativ əhəmiyyəti vardır.

Dörd qapaqla açılan çanaqcıq
Üçkünc fındıqca meyvəsi

• Şabalıdyarpaq palıd
• *Quercus castaneifolia* C.A.Mey

Hündürlüyü 40 m-ə qədər olan iri ağacdır. Qabığı boz, bəzən isə bozumtul-qəhvəyi rəngdə olur. Cavan budaqları birillik budaqlara bənzəyir, sıx, boz tüklüdür.

Yarpaq: Yarpaqlarının uzunluğu 10-15 (20) sm, eni 4-8 sm-dir, uzunsov-neştərvaridir, bərk, kiçik qədər qalın dərilidir, üst tərəfdən tünd-yaşıl rəngdədir, əvvəldə nazik və seyrək tüklərlə, sonra isə tədricən yaxınlaşan, alt tərəfdən oğumtul-yaşıl və ya ağımtıl-boz rəngli nazik sıx tüklərdən ibarət; qaidə hissəsi pazşəkilli, ürəkşəkilli və ya çox vaxt dəyirmidir, sivriləşmiş üçbucaq qurtaracaqlı bölümlərə və aralarındakı oyuğun yarpaq eninin 1/4-1/5-ni təşkil edən, 7-15 ədəd sivri, üçbucaqlı kənar dişlərlərə malikdir. Yarpaqların saplağının uzunluğu 0,5-2 sm aralarında dəyişir.

Meyvə: Palıd qozası demək olar ki, oturaqdır, uzunluğu 2,5-3,5 sm-dir, 2-3 dəfə qədəhdən uzundur, boz tüklüdür, uc hissədə sivriləşmiş, yuxarı və ortadakılar daha uzun, ensiz-neştərvari, geriyə qatlanmış, aşağıdakılar isə qısa, ensiz-oval və düz durandır.

Azərbaycanda yayılması: BQ şərq (İsmayıllı r-n), Lənk. dağ., Lənk. oval.

Yaşayış mühiti: Dəniz səviyyəsindən 1800 m-ə qədər yüksəklikdə meşə əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Lənkəran dağ sistemi meşələrində əsas meşə əmələ gətirən ağacdır. Həmçinin İsmayıllı rayonunda da rast gəlinir. Üçüncü dərəcəli mezofil meşə bitkiliyinin nümayəndəsi hesab olunur.

Yarpağı

Qozası

Erkək çiçək

o Kövrək palıd

o *Quercus erucifolia* Stev. = *Q. pedunculiflora* C. Koch

Hündürlüyü 20 m-ə qədər olan ağacdır. Budaqları çılpaqdır.

Yarpaq: Yarpaqlarının uzunluğu 4-9 sm, eni 3-6 sm-dir, uzanmış əksinəoval və ya uzunsovdur, üst tərəfdən yaşıl, çılpaq, alt tərəfdən tutqun-yaşıl, sıx ,qısa, nazik tüklərlədir; qaidə hissəsi zəif ürəkşəkilli və ya zəif pazşəkillidir, yuxarı hissədə qısa, küt və ya az sivriləşmiş ensiz bölümlərə; hər tərəfdən 6-8 ədəd uzun, bəzən qısa, az buruqlu 1-2 ədəd dişli bölümlərlədir; bölümlər arasındakı oyuq yarpağın eninin 1/3 hissəsindən 1/2 hissəsinə qədərdir. Yarpaqların saplağının uzunluğu 0,5-1 sm-dir.

Meyvə: Meyvə saplağı 1-3, bəzən 5 sm olur. Qoza kasaşəkilli olub, xırda, dəyirmi-üçbucaqlı, yastı, çılpaq və ya boz-tüklü, sıx pulcuqlarladır və balaca qurtaracaqlıdır.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ mərkəzi.

Yaşayış mühiti: Meşələrdə az təsadüf edilən qarışıq kimi 500-1300 (1500) m d.s.y. zonada rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Az yayıldığına görə məhdud təsərrüfat əhəmiyyətinə malikdir.

o Gürcü palıdı
o *Quercus iberica* Stev. ex M.B.

Hündürlüyü 32 m-ə qədər olan ağacdır. Budaqları qırmızımtıl-qəhvəyi rəngdə olub, çılpaqdır.

Yarpaq: Yarpaqlarının uzunluğu (6) 7-12 (20) sm, eni (3) 5-6 (7) sm-dir, uzunsov, əksinəoval və ya uzunsov-ovaldır, bərk, qalın dərili, üst tərəfdən parlaq, yaşıl rəngli, alt tərəfdən tutqunyaşıl, çılpaqdır, cavan ağaclarda yarpaqlar alt tərəfdən nazik, xırda, bozumtul tüklü olur; qaidə hissəsi az pazşəkilli, nadir halda az ürəkşəkillidir, qısa küt uclu bölümlü və 8-11 ədəd kənar küt, nadir halda sonu daralmış bölümlüdür; bölümlər arasındakı oyuqlar yarpaq ayasının eninin 1/5-1/10-ni təşkil edir. Yarpağın saplağının uzunluğu 1-3 sm-dir.

Meyvə: Meyvələri oturaq və ya uzunluğu 1-1,5 sm qısa saplaq üzərindədir.
Qədəh kasaşəkillidir, ensiz oval və ya üçkünc-neştərvari, sıx boz tüklü pulcuqludur, yuxarı hissədə qısa basıq sonluqlu, orta və aşağı hissədə isə qabarıqdır.

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, BQ qərb, BQ şərq, KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. dağ.

Yaşayış mühiti: (300) 500-1400 (1700) m d.s.y. zonada meşə əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Xalq təsərrüfatı əhəmiyyəti vardır. Qabığında aşı maddəsi olduğuna görə dərman əhəmiyyəti vardır. Qabıq və qozasından spirtli içkilərin cövhərini almaq üçün istifadə olunur. Meşəsalmada geniş istifadə olunur.

Meyvələri

Yarpağın alt tərəfi

Ağçubuq söyüd
Salix triandra L.

Hündürlüyü 5-6 sm-ə qədər olan kol və ya nadir halda ağacdır. Budaqları nazik, elastikdir, zeytun və ya qonurtəhər-yaşıl rəngdədir. Tumurcuqları yumurtaşəkilli, sivri və çılpaqdır. Yalançı zoğları uzun müddət qalan, böyrəkşəkilli və ya yumurtaşəkillidir, dişlidir.

Yarpaq: Yarpaqları neştərvari, uzunsov-neştərvari, elliptik və ya ensiiz elliptikdir, uzunluğu 4-13 sm, eni 0,5-3 sm-dir, qısa sivriləşmiş, qaidə hissəsinə doğru pazşəkilli və ya qövsşəkilli daralmış, kənarları vəzili-mişarvaridir, çılpaqdır, üst tərəfdən tünd yaşıl, alt tərəfdən adətən boz və ya ağımtıl göy rəngdədir, qırmızımtıl və ya sarımtıl rəngli nəzərə çarpan orta damarı vardır.

Çiçək: Sırğaları yarpaqların əmələ gəlməsindən sonra açılır, illik budaqların sonunda əmələ gəlir, qaidə hissəsində xırda yarpaqlarladır.

Meyvə: Qutucuq çılpaqdır, qısa saplaq üzərindədir və uzunluğu 5 mm-ə yaxındır.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May.

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Kür-Araz oval., Kür düz., KQ cənub, Nax. dağ.. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Çayların sahilində, suvarma kanallarının yanında rast gəlini

Təsərrüfat əhəmiyyəti: Qabığında aşı maddəsi vardır. Qabıq və yarpağından sarı rəng alınır. Dekorativ və balverən bitkidir.

o Ağyarpaq qovaq

o *Populus alba* L. - var. *P. nivea* Ait., subsp. *major* Mill.

Hündür, əzəmətli, cavan budaqları ağ keçə tüklü olan ağacdır. Qışlayan tumurcuqları tükcüklüdür.

Yarpaq: Yarpaq saplağının uzunluğu (1,5) 3-6 sm-dir. Qısalmış budaqların yarpaqları yumurtaşəkillidir, enli və ya üçbucaq-yumurtavaridir, qaidə hissəsi düz, enli-pazşəkilli və yaxud az ürəkşəkillidir, kənarları küt və ya sivri dişcikləri olan qeyri-bərabər kələ-kötür dişlidir, küt və ya sivridir, uzunluğu 4-7 (9) sm, eni 3,5-6 (9) sm-dir. Cavan yarpaqları alt tərəfdən ağımtıl keçə tüklüdür, daha sonra isə çılpaq olur; uzanmış budaqların yarpaqları da aşağı hissədə bu cürdür, qalanları (3) 5 dərin bölümlülüdür, yumurtaşəkilli və ya uzunsov-yumurtaşəkili, sivri və ya küt dişcikləri olan qeyri-bərabər kələ-kötür bölümlüdür, əsası düz və ya az ürəkşəkillidir, uzunluğu 5-10 (14) sm, eni 7-12 (16,5) sm-dir, üst tərfdən tünd-yaşıl, alt tərəfdən ağımtıl, bəzən bozumtul keçə tüklüdür.

Meyvə: Qutucuq meyvəsi 4-5 mm uzunluqdadır, uzunsov-yumurtavari formada olub, çılpaq və qabarıqdır.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Mart-Aprel

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, əsasən ovalıqlarda və aşağı dağ qurşağında, nadir hallarda orta (1600 m-ə qədər d.s.y.) dağ qurşağında.

Yaşayış mühiti: Çayların sahilində və yatağında, çay vadilərində, kolluqlarda və meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Oduncağı xarrat və tokar məmulatlarının, parket və pəncərə çərçivələrinin hazırlanmasında istifadə olunur. Yarpaqları mal-qara üçün yem əhəmiyyətlidir.



o Sosnovski qovağı

o *Populus sosnowskyi* A.Gross = *P. nigra* L. *(P. nigra var. sosnowskyi* (Grossh.) Makaschvili)

Hündürlüyü 35-40 m, enli, nadir hallarda azacıq piramidavari çətiri olan ağacdır.

Yarpaq: Yarpaqlarıqısalmış budaqlarda çılpaq olub, uzun saplaq üzərindədir, rombvari-ellipsşəkillidir, onların uzunluğu enindən 2-2,5 dəfə çoxdur; yarpağın qaidə hissəsi pazvari, yuxarı hissəsi uzun nazikləşən dartılmış sivri ucluğa malikdir.

Meyvə: Qutucuq yumurtavaridir; saplaq adətən qutucuğun uzunluğunun yarısından qısadır.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Mart-Aprel.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. dağ. (nadir hallarda).

Yaşayış mühiti: Ovalıqda və aşağı, bəzən orta dağ qurşaqlarında çayların sahilində rast gəlinir.

Erkək çiçək

Yarpağı

Titrək qovaq

Populus tremula L. (*P. pseudotermula* N. Rubtz., *P. termula* - var. *P. microtermula* Grossh.)

Hamar boz qabıqlı hündür ağacdır. Yarpağının saplağı uzundur, yuxarı hissədə çox yastılaşmış, bəzən uzunluğuna görə yarpaq ayasının uzunluğuna bərabərdir.

Yarpaq: Yarpaqların eni çox vaxt uzunluğundan böyük olub, çılpaqdır, üst tərəfdən yaşıl rəngdə və parlaqdır, alt tərəfdən solğun və göyümtüldür, kənarları adətən dəyirmi küt dişikləri olan oyuq-dişlidir, yuxarı hissədə qısa tüklüdür; uzanmış budaqlarının yarpaqları enli-yumurtaşəkillidir, qaidəsi demək olar ki, bir qədər düz və ya ürəkşəkillidir, uzunluğu 3-7 sm, eni 4-8 sm-dir; qısalmış budaqların yarpaqları isə enli-əksinəyumurtaşəkilli, dəyirmi və ya enli-yumurtaşəkillidir, qaidə hissəsi enli-pazşəkilli və ya biraz ürəkşəkilli olur.

Çiçək: Sırğaları 4-11 (15) sm uzunluqda, eni isə 2 sm-ə qədər olub, tüklüdür; çiçəkaltlığının pulcuqları barmaqvari-bölünmüş, kənarlardan kirpikvari-tüklüdür, qaramtıl-qəhvəyi rəngdədir.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Mart-Aprel

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, bəzən Nax. dağ. Orta, nadir hallarda aşağı dağ qurşaqlarında. (850-2000 m d.s.y.)

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman kimi istifadə olunur. Selliloza alınmasında, çəllək üçün taxta, kibrit çöpləri və s. almaq üçün istifadə olunur.



Qaraağac

Ulmus foliacea Gilib. = *U. minor* [illegible]

Yarpağı

Meyvələri

Hündürlüyü 30-40 m olan hündür ağacdır.

Yarpaq: Yarpaqlarıəksinəyumurtaşəkilli, uzunsov-yumurtaşəkilli, oval və yaxud demək olar ki, rombşəkillidir, qaidə hissəsində dəyirmi qeyri-bərabərkənarlıdır, uc hissədə sivriləşmiş, qismən qalın dərilidir, kənarları ikiqat mişarvari, üst tərəfdən çılpaq, alt tərəfdən yumşaq tüklü və ya çılpaqdır, uzunluğu 10-12 sm-ə qədər, eni 6-7 sm-dir, damarların küncü ağ rəngli saqqalcığlı və bütün damar boyu xırda, qırmızı nöqtəli vəziciklər yerləşmişdir, saplağının uzunluğu 4-10 mm olub, uzunluğuna görə onlara bitişik tumurcuqları ötüb keçir.

Çiçək: Çiçək yanlığı qırmızı-qonur rəngdədir, 4-5 yerə ayrılmışdır.

Meyvə: Fındıq təpə hissədə oturur və qanadın kəsilmiş hissəsinə qədər çatır.

Çiçəkləməsi: (Fevral) Mart-Aprel

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Kür-Araz oval., Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. düz., Nax. dağ., Lənk. oval., Lənk. dağ.

Yaşayış mühiti: Çayətrafı tuqay meşələrində allüvial torpaqlarda; təmiz meşə əmələ gətirir və bundan başqa, qarışıq yarpaqlı meşələrdə qatışıq halda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Oduncağı çox möhkəm olduğu üçün müxtəlif məmulatların istehsalında istifadə olunur. Balverən bitkidir. Qabığından sarı rəngli boya almaq olur.

Probka qaraağac

Ulmus suberosa Moench = *U. minor* Mill.

Hündürlüyü 20 m-ə qədər olan iri ağac və ya nadir halda koldur. Gövdə və budaqlarının qabığı çox vaxt qanadşəkilli mantar törəmələridir.

Yarpaq: Yarpaqlarıəksinəyumurtaşəkilli və ya ovaldır, qaidə hissəsinə doğru dəyirmi-qeyri-bərabəryanlıdır, uc hissədə sivriləşmiş, kənarları ikiqat-üçqat mişarvaridir, sərt və ya sərttəhərdir, alt tərəfdən çılpaq və ya dağınıq sərt tüklüdür, qırmızı vəzicikləri yoxdur, üst tərəfdən hamar və ya qismən kələ-kötürdür, uzunluğu 10 sm-ə qədərdir.

Meyvə: Qanadcıqəksinəyumurtaşəkillidir, saplaq üzərindədir, çılpaqdır, uzunluğu 15-20 mm, eni 9-14 mm-dir. Fındıqlar qanadın yuxarı hissəsində yerləşmişdir.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Kür-Araz oval., Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Nax. düz., Lənk. oval., Lənk. dağ.

Yaşayış mühiti: Ovalıq, çay kənarı və tuqay meşələrində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Gövdə və budaqların mantar hissəsi izolyasiya materialı kimi istifadə olunur.

Yarpağı

Meyvə

• Qafqaz dağdağanı

• *Celtis caucasica* Willd. (*C. australis* L. subsp. *caucasica* (Willd.) C. C. Townsend)

Yarpağı

Çiçəkləri

Hündürlüyü 25-30 m qədər, cavan budaqları qonur və ya qırmızımtıl-qonur rəndə olan ağacdır.

Yarpaq: Yarpaqları qalın dərili, qeyri-bərabər tərəfli, yumurtaşəkilli və ya yumurtaşəkilli-neştərvaridir. Kənarları bükülmüş sivri, dişlidir, qaidə hissəsi dəyirmidir, sivri ucludur, üst tərəfdən tünd-yaşıl rəngdədir, çılpaq və ya qismən dağınıq tüklüdür, kələ-kötürdür, alt tərəfdən boz-yaşıl rəngdə, tüklü və uzunluğu 4-8 (10) sm, eni 2,5-5 sm-dir. Yarpaq saplağının uzunluğu 2-5 sm-dir.

Meyvə: Meyvəsi şarşəkillidir, qırmızımtıl-sarı və ya tünd rəngli olub, ğöyümtül təbəqəlidir; çəyirdəyi qırışlı və az yastılaşmışdır.

Çiçəkləməsi: Mart-May. Yarpaqların əmələ gəlməsi ilə eyni vaxtda çiçəkləyir.

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, Qob., KQ şimal, KQ mərkəzi, KQ cənub (tez-tez), Lənk. oval. Aşağı dağ qurşağından orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşəli və meşəsiz rayonlarda, qayalı və daşlı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Xarrat və dülgər işlərində, nəfəs alətlərinin hazırlanmasında və s. istifadə olunur. Qurudulmuş meyvələrindən alınan un meyvə çörəyi alınması üçün yararlıdır. Cavan yarpaqları ipəkqurdunu yemləmək üçün istifadə oluna bilər, həmçinin mal-qara üçün yaxşı yem hesab olunur. Quru rayonların park və bağlarında əkilməsi üçün yararlıdır.

Meyvə

Hamar dağdağan
Celtis glabrata Stev. ex Planch.

Hündürlüyü 10-15 m, cavan budaqları açıq-qonur və ya açıq-qəhvəyi rəngli hamar qabıqlı kol və yaxud orta həcmli ağacdır.
Yarpaq: Yarpaqları qeyri-bərabəryanlıdır, bərk, yumurtaşəkilli və ya rombvaridir, qaidə hissəsi dəyirmi-pazşəkilli, kol formalarında isə qaidəsi ürəkşəkillidir, sivri ucluğa malikdir, kənarları az mişarvaridir, sarımtıl-yaşıl rəngli (əsasən alt tərəfdən), hamar, bəzən, kələ-kötürdür, uzunluğu 4-6 sm, eni 4 sm-dir, çılpaq saplaq üzərindədir.
Meyvə: Meyvələrişarşəkilli, narıncı-qırmızı rəngli və ya qırmızımtıl olub, tünd-göy rəngli ləkələri vardır, meyvə saplağı həmişə çılpaqdır və yarpaq saplağından iki dəfə uzundur.
Çiçəkləməsi: Mart-Aprel
Meyvə verməsi: Sentyabr-Oktyabr
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk.-dağ.. Aşağı və orta dağ qurşaqlarında.
Yaşayış mühiti: Qayalı yerlərdə, meşəli və meşəsiz rayonlarda rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Meyvələri yeməlidir, yarpaqları mal-qara üçün yem hesab olunur.

Çiçəkləri

Yarpağı

Meyvələri

Ağ tut
Morus alba L.



Ağac və ya koldur. Qabığı bozumtul-qonur rəngdədir.

Yarpaq: Yarpaqları uzun saplaq üzərindədir, yumşaqdır, yumurtaşəkillidir, qaidə hissəsi az ürəkşəkilli, dəyirmi, və ya kəsilmişdir, bütöv və ya qeyri-bərabər bölümlüdür, kənarları dəyirmi dairəvi-dişli, qaidəsi çox vaxt köndələn, qeyri-bərabər yanlıdır, çılpaq və ya tüklüdür, uzunluğu 4-15 sm, eni 3-10 sm-dir.

Çiçək: Dişicikli çiçək qrupu demək olar ki, uzunluğuna görə öz saplağının uzunluğuna bərabərdir. Çiçəkyanlığının dilimləri çılpaqdır.

Meyvə: Hamaş meyvə ağ, qara və ya qırmızı rəngdədir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Aprel-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., Kür-Araz oval., Kür düz., Alazan-Əyriçay.

Yaşayış mühiti: Yabanı formada sahilyanı (tuqay) meşələrinin tərkibində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvəsindən bəhməz, mürəbbə və s. hazırlanır. Yarpaqları ipəkqurdunu yemləmək üçün istifadə olunur. Oduncağından müxtəlif musiqi alətlərinin hazırlanması üçün istifadə olunur. Balverən bitkidir.

Qara tut
Morus nigra L.

Ağacdır. Qabığı qırmızımtıl-qonur rəngdədir.
Yarpaq: Yarpaqları qısa saplaqdadır, sərtdir, üst tərəfdən nahamar, qəfil simmetrik olmayan, dərin enli oyuqlu, küt dairəvi dişlidir, uzunluğu 5-12 sm, eni 3-8 sm-dir.
Çiçək: Dişicikli çiçək qrupu ovaldır, qısadır, öz saplağından çox uzundur, erkəkcikli çiçək qrupu qalın, silindrikdir. Çiçəkyanlığının dilimləri üst tərəfdən tüklüdür.
Meyvə: Hamaş meyvə qara və parlaqdır.
Çiçəkləməsi: May
Meyvə verməsi: İyun
Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqda, aşağı dağ qurşağına qədər.
Yaşayış mühiti: Bağlarda rast gəlinir, nadir halda yabanı formada olur.
Təsərrüfat əhəmiyyəti: Oduncağı musiqi alətlərinin hazırlanması üçün istifadə olunur, Meyvəsi yeyilir. Dekorativdir, toxuculuq, yaşıllaşdırma məqsədilə istifadə olunur, balverən bitkidir.

Dişi çiçəkləri

Meyvələri

Yarpağı

o Qafqaz cökəsi

o *Tilia caucasica* Rupr. = *T. begoniifolia* Stev.

Hündürlüyü 30-35 m-ə, diametri 100-150 sm-ə çatan, iri çətiri və möhkəm gövdəsi olan ağacdır. Gövdənin qabığı tünd-boz rənglidir, uzununa-şırımlıdır. Cavan budaqları və tumurcuqları qırmızımtıl-qonur rəngli olub, çılpaqdır.

Yarpaq: Yarpaqlarının görünüşü dəyirmi və ya enli-ovaldır, uzunluğu 4-8 sm, eni 5-8 sm-dir, qaidə hissəsi girintili-çıxıntılı və ya girdə, qismən köndələn və ya bərabəryanlıdır, təpə hissədə dartılmış kələ-kötür formadadır, üst tərəfdən çılpaq, alt tərəfdən damar boyunca səpələnmiş tükcüklüdür, damarların künc hissəsində qəhvəyi və sarımtıl tüklərdən ibarət saqqalcığı vardır, kənarları dişli-mişarvaridir, dişcikləri uc tərəfə doğru uzanmış və uzunluğu 1-2 mm-dir.

Çiçək: Çiçək qrupu 3-8 (10) ədəd çiçəkdən ibarətdir. Çiçəkləri tutqun-sarı rəngli, diametri 8-15 mm-dir, ətirlidir, sütuncuğu çılpaqdır.

Meyvə: Meyvələri şarşəkilli və ya ovaldır, hamar və yaxud zəif nəzərə çarpan qabırğası vardır, uzunluğu 10-12 mm-ə qədərdir.

Çiçəkləməsi: İyun-İyul

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. dağ. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Yamac və dərələrin qarışıq yarpaqlı meşələrində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Arıçılıq üçün böyük əhəmiyyəti vardır. Yüksək keyfiyyətli bal verir. Çiçəkləri dərman məqsədilə yığılır. Çiçəklərindən alınan efir yağları parfümeriyada istifadə olunur. Oduncağı müxtəlif xarrat məmulatlarını düzəltmək üçün istifadə olunur. Dekorativ əhəmiyyətli bitkidir.

Şərq alması

Malus orientalis Uglitzk subsp. *montana* Uglitzk.

Hündürlüyü 6-8 m-ə qədər olan, əlverişli şəraitdə isə 15 m-ə çatan kiçik ağacdır. Cavan budaqları bəzən tikanlı, qismən tükcüklü, bəzən isə çılpaq olur. Cavan budaqlarda qabığın rəngi tünd-qəhvəyi, yaşlı budaqlarda isə tünd-boz və ya tünd-qonur rəngdə, parlaq və lay-lay qopan pulcuqları vardır.

Yarpaq: Yarpaqları yumurtaşəkilli-neştərvari, yumurtaşəkilli və ya enli-oval və yaxud dəyirmidir. Qaidə hissəsi adətən pazəkilli daralmışdır, təpə hissədə küt, bəzən sivriləşmişdir, uzunluğu 3-8 sm-dir, kənarlardan mişarvari-dişli və ya nadir halda dairəvi-mişarvaridir, alt tərəfdən qismən sıx ağ və ya bozumtul keçəyəoxşar tüklüdür; saplağın uzunluğu 1-3 (4,5) sm olub, tüklüdür.

Çiçək: Çiçək qrupu 4-6 çiçəkdən ibarət olub, saplağı xovlu-keçəlidir. Ləçəkləri tərsinə-yumurtaşəkillidir.

Meyvə: Meyvələri müxtəlif formalıdır, çox vaxt isə dəyirmi olur.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Qobustan, BQ şərq, BQ qərb, Kür. düz., KQ şimal, KQ mərkəz, KQ cənub, Nax.dağ., Lənk. dağ. Dağ qurşağına qədər bütün meşələrdə.

Yaşayiş mühiti: Meşə kənarlarında, meşə sahələrində tək və ya qrup halında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələrindən kvas, limonad və s. hazırlanmasında istifadə olunur. Meyvələrindən alınan alma turşusu ekstraktından tibbdə istifadə olunur. Toxumlarından qida yağları alınır. Dekorativ bitkidir.

Çiçəkləri

Meyvələri

o Qafqaz armudu

o *Pyrus caucasica* Fed. (*P. communis* L. subsp. *caucasica* (Fed.) Browicz)

Meyvəsi

Çiçəkləri

Hündür ağacdır. Çətiri adi piramidaşəkillidir. Cavan budaqları çılpaqdır, boz qabıqla örtülmüşdür, tikanlıdır.

Yarpaq: Yarpaqları dəyirmi və ya enli-yumurtaşəkillidir, bəzən bir qədər uzunsov, nadir halda rombşəkillidir, uzunluğu 3-4 (5) sm olub, qaidə hissəsi dəyirmidir, küt və ya qəfildən qısa ucluğa sivriləşəndir, tamkənarlıdır, çılpaq və ya alt tərəfdən və kənarlardan hörümçək toruna oxşar tükü vardır, üst tərəfdən parlaq, alt tərəfdən qeyri-şəffafdır, yarpaq ayasını 2-3 dəfə ötüb-keçən uzun saplaq üzərindədir.

Çiçək: Çiçəkləri qalxanda yerləşmişdir.

Meyvə: Meyvə saplağı 2-3 dəfə meyvədən uzundur. Meyvə çılpaq, dəyirmi və ya yastıtəhərdir, yetişmiş meyvələri qaramtıldır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: İyul-Sentyabr; meyvə tökməsi-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi.

Yaşayış mühiti: Palıd meşələrinin kənarında üstünlük təşkil edir.

Yarpağı

• Söyüdyarpaq armud
• *Pyrus salicifolia* Pall.

Hündürlüyü 8-10 m olan ağac, bəzən koldur. Çətiri qollu-budaqlıdır. Budaqları tikanlı, əvvəlcə boz-kül rəngli, sonra qırmızımtıl qabıqla örtülmüşdür. Tumurcuqları orta böyüklükdədir, yumurtəhərdir, kirpikciklidir, bundan başqa ağımtıl və ya sarımtıl tüklüdür; tumurcuğun pulcuqları bəzən sivri qurtaracaqlıdır.

Yarpaq: Yarpaqları uzunluğu 6-9 sm və eni 0,5-1 sm olan uzun və ensiz-neştərşəkilli formadan uzunluğu 3-6 sm, eni 1-2 sm olan enli-neştərşəkilli formaya qədər dəyişir. Yarpaqlar demək olar ki, oturaq və ya çox qısa saplaq üzərində yerləşmişdir, tamkənarlı, bəzən qeyri-bərabər və aralı-dişciklidir, orta hissədən yuxarısı daha çox genişlənmiş, gümüşü və ya boz rəngdədir, hörümçək toruna bənzər və ya ipəyəoxşar sıx tüklüdür və qısalmış budaqda dəstə halında toplanmışdır.

Çiçək: Çiçəkləri çoxçiçəkli qalxan çiçək qrupunda yerləşmişdir.

Meyvə: Meyvələri dəyirmi və ya armudşəkilli, sarımtıl-qəhvəyi və ya qızılı rəngli olub, ləkələrlə örtülümüşdür, saplağının uzunluğu 2 sm-ə qədərdir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: May-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., Qobustan, KQ mərkəz, KQ cənub.

Yaşayış mühiti: Quru dağətəyi yerlərdə, bəzən qayalıqlarda, nadir hallarda ovalıqlarda rast gəlinir.


Yarpağı

Meyvələri

Çiçəkləri



Adi heyva
Cydonia oblonga Mill. subsp. *integerrima* Lobachev


Meyvəsi

Çiçəkləri

Hündürlüyü 1,5-5 m olan balaca ağac və ya koldur.

Yarpaq: Yarpaqları yumurtaşəkilli-oval və yaxud dəyirmidir, tamkənarlıdır, üst tərəfdən tünd-yaşıl, uzunluğu (2) 4-5 (14) sm-ə qədər, eni (2) 3-5 (11) sm-dir, qısa saplaq üzərindədir.

Çiçək: Çiçəkləri iridir, tək, diametri 5 sm-ə qədərdir. Ləçəkləri çəhrayı və ya demək olar ki, ağ rənlidir, tərsinəyumurtaşəkilli olub uzunluğu 2-3 sm-dir.

Meyvə: Yetişməmiş meyvələri sıx keçə kimi xəzlə örtülmüş, yetişmiş meyvələr isə çılpaq, sarı rənglidir, ətirlidir, armudşəkilli və ya yumurtaşəkilli-şarşəkilli formadadır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Sentyabr-Noyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, Lənk., Muğan-Lənk. oval., Lənk. dağ.. Ovalıqlarda və aşağı dağ qurşaqlarında, az hallarda hündürlüyü 1200 m-ə qədər olan orta dağ qurşağına keçir.

Yaşayış mühiti: Meşələrdə, kolşəkilli cəngəlliklər arasında, meşə kənarlarında. Tək və qrup halında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Heyvadan kompot, mürəbbə, jele, marmelad və s. qənnadı istehsalında, essensiya hazırlanmasında, limonad üçün, gavalı likerinin tərkibinə qatmaq üçün istifadə olunur. Heyvanın toxumlarından göz xəstəliklərində sulu məlhəm kimi istifadə olunur. Xalq təbabətində ishal, qan qusma, uşaqlıq qanamalarına qarşı istifadə olunur. Həmçinin toxumları kosmetika və toxuculuq sənayesində istifadə olunur. Oduncağı müxtəlif kiçik xarrat məmulatlarının hazırlanması üçün yararlıdır.

Adi alça

Prunus divaricata Ledeb. (*P.cerasifera* Ehrh. subsp. *divaricata* (Ledeb.) Schneid.)

Hündürlüyü 10-15 m-ə çatan ağac, bəzən koldur. Budaqları tikanlı, nazik, düzduran və ya aşağı sallanmış, gövdəsi tikansızdır.

Yarpaq: Yarpaqları növbəlidir, qısalmış budaqlarda isə dəstə halında yerləşmişdir. Görünüşünə görə yarpaqlar oval və ya oval-yumurtaşəkilli formadan oval-neştərvari formaya qədər dəyişir, sivridir, kənarları azacıq kütmişarvaridir, üst tərəfdən çılpaq, alt tərəfdən, adətən orta damar boyunca tükcüklüdür.

Çiçək: Çiçəkləri yarpaqlardan əvvəl açılır. Çiçək saplağı tək olub, adətən çılpaqdır və uzunluğu 1-2,2 sm-ə qədərdir. Ləçəkləri ağ rəngli, yumurtaşəkilli və ya oval-yumurtaşəkilli formadadır, uzunluğu (5) 8-10 (15) mm-dir.

Meyvə: Meyvələri sallaq saplaqda olub, dəyirmi, oval, yumurtaşəkilli, uzunsov və ya əksyumurtaşəkillidir, yan tərəfdən az şırımlı, sarı, bənövşəyi və qırmızı rəngdədir, diametri 2-3 sm-ə qədərdir. Çəyirdəyi oval və ya yumurtaşəkilli-ovaldır, sivri uclu, hamar və yaxud kələ-kötür olub, lətli hissəsi çəyidəkdən ayrılmır.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Meşəli rayonlarda, bəzən BQ(Quba), Lənk. Düzənlikdən orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kollu cəmənliklərdə, meşə ətrafında, çay boyunca rast gəlinir. Adətən alça KQ-ın yamaclarında və BQ-ın cənub yamaclarında çox olur.

Təsərrüfat əhəmiyyəti: Alçanın meyvələrindən alınan lavaş həm ədviyyat kimi istifadə olunur, həm də tibbi əhəmiyyəti vardır. Balverən bitkidir.



Meyvələri

Çiçəkləri

Yarpağı

Adi gavalı
Prunus domestica L.

Çiçəkləri


Yarpağı

Hündürlüyü 10-12 m-ə qədər olan mədəni ağacdır. Budaqları adətən tikansız və ya az tikanlıdır, cavan budaqları çılpaq və ya tüklüdür.

Yarpaq: Yarpaqları ellipsvari-əksinəyumurtaşəkilli, kənarları küt və ya iti dişlidir, üst tərəfdən çılpaq, alt tərəfdən tüklüdür.

Çiçək: Ləçəklərinin uzunluğu 9-11 mm olub, adətən ağ rənglidir və ya nadir halda yaşılımtıl çalarlıdır.

Meyvə: Meyvələri sallaq haldadır, oval və yumurtaşəkilli formadan yastıtəhər-dəyirmi formaya qədər dəyişkəndir, yan tərəfdən sıxılmış, rənginə görə yaşıl, bənövşəyi olub, üzərində göy ləkələri vardır, həmçinin, qırmızı, solğun-yaşıl və sarı rənglidir. Çəyirdəyi həmişə çılpaq olur, qabaqarıq və ya az batıqdır, çox vaxt enli oval formada olur, ətli hissəsi çəyirdəkdən asanlıqla ayrılır və ya bəzən ayrılmır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, ovalıqda, aşağı və orta dağ qurşağında becərilir.

Təsərrüfat əhəmiyyəti: Meyvələri yeyiləndir, kampot, mürəbbə, jem, povidlo hazırlamaq üçün stifadə olunur.

Meyvələri

Adi göyəm
Prunus spinosa L.

Hündürlüyü 3-4 m-ə qədər olan alçaq boylu ağac və ya tikanlı budaqlarla çox budaqlanmış koldur. Cavan budaqları adətən tüklüdür.
Yarpaq: Yarpaqları ellipsvari-əksinəyumurtaşəkilli, bəzən uzunsov-əksinəyumurtaşəkillidir, küt ucludur, qaidə hissəsi pazşəkilli, kənarları sivri və ya mişarvari-dəyirmi dişlidir, cavan yarpaqları qısa tüklü, yaşlıları dəmək olar ki, çılpaqdır.
Çiçək: Çiçəkləri tək-tək, bəzən 2 ədəd düzülmüşdür və ağac yarpaqlamamışdan əvvəl açılır. Çiçək saplağı qısa olub, çılpaq və ya tüklüdür. Ləçəkləri ağ və ya yaşılımtıl rəngə çalır.
Meyvə: Meyvələri düzduran saplaq üzərindədir, qara rənglidir, üzərində sıx göyümtül təbəqəsi vardır, şaraoxşar formadadır, turş dadlı, yaşıl lətli olub, büzüşdürücü xüsiyyətə malikdir.
Çiçəkləməsi: Mart-May
Meyvə verməsi: İyul-Avqust
Azərbaycanda yayılması: Xəzəryanı, Samur-Şabran oval., BQ (Quba) Qobustan düz., Kür-Araz oval., Kür düz., BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. dağ.
Ovalıqdan orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Kolluqlarda, meşənin kənarlarında və çay boyunca üstünlük təşkil edir.
Təsərrüfat əhəmiyyəti: Meyvələri yeyiləndir, kampot, mürəbbə, spirt, liker, uksus hazırlamaq üçün istifadə olunur. Oduncağı tokar məmulatlarının hazırlanması üçün yararlıdır. Göyəm quraqlığadavamlı olduğu üçün dağətəyi və dağlıq rayonlarda meşə salınmasında istifadə oluna bilər.

Çiçəkləri

Yarpağı

Meyvələri

Gilas albalı
Cerasus avium (L.) Moench.

Hündürlüyü 10 m-ə qədər olan ağacdır. Qabığı qaramtıl rəngdədir, uzununa çatlayandır.

Yarpaq: Yarpaqları saplaq üzərindədir, yarpaq ayasının qaidə hissəsi 2 ədəd vəzıciklidir, uzanmış-yumurtaşəkilli və ya ellipsvaridir, sivriləşmişdir, qaidə hissəsində pazşəkilli və ya dəyirmidir, kənarları ikiqat mişarvaridir, üst tərəfdən çılpaq, alt tərəfdən yalnız damar boyunca və ya bütün səthi az tüklüdür.

Çiçək: Çiçəkləri uzunluğu 6 sm-ə qədərdir, uzun çılpaq saplağı olan azçiçəkli çətirdə toplanmışdır.

Meyvə: Meyvələrişarşəkillidir, yabanı növünün uzunluğu 1 sm-ə yaxındır, tünd qırmızı, demək olar ki, qara rəngdədir, şirəli lətlidir, acıdır, mədəni növləri isə iri və şirindir. Toxumları şarşəkilli və yaxud yumurtaşəkillidir, hamar səthi vardır.

Çiçəkləməsi: Aprel-May.

Meyvə verməsi: İyun.

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında (Naxçıvan MR-dan başqa). Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Qiymətli barverən bitkidir. Meyvələri yeyiləndir. Oduncağı dülgər və xarrat işlərində istifadə olunur. Həmçinin dekorativ ağac kimi də becərilir.

Çiçəkləri


Meyvələri

Yarpağı

Adi zoğal
Cornus mas L.

Hündürlüyü 2-4 m olan, boz-qonur rəngli, uzunsov qabıq plastinkası olan kiçik ağac və ya kolcuq. Cavan zoğları kiçik sıxılmış-tükcüklüdür

Yarpaq: Yarpaqları qısa saplaqlı, qarşı-qarşıya düzülmüş, sadə, uzunluğu 4-10 mm, eni isə 3-5 sm olub, tamkənarlıdır. Yarpaq yumurtaşəkilli və yumurtaşəkilli-ellipsvari formadan neştərvari formaya qədər dəyişir. Sivri və ya uzun deriləşmiş uclu, qaidəsi dairəvi və ya pazşəkilli, hər iki tərəfdən sıxılmış tükcüklü, alt tərəfdən damarların küncündə həmçinin qıvrım tüklərdən ibarət saqqalcığı və damar şəbəkəsi vardır.

Çiçək: Çiçəklər yarpaqlardan əvvəl açılır. Çətiri 15-25 çiçəkdən ibarət olub, 4 ədəd sarımtıl-yaşıl rəngli tökülən yarpaqlardan ibarət qın ilə əhatə olunmuşdur. Ləçəklər üçküncneştərvari, sivriləşmiş, sarı rəndədir.

Meyvə: Meyvələri uzunsov, lətli çəyirdəkdir, qırmızı və ya tünd-qırmızı, bəzən sarı rəngli olur, çəyirdəyi ellipssıkillidir.

Çiçəkləməsi: Mart-Aprel.

Meyvə verməsi: Avqust-Sentyabr.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, KQ mərkəzi. Aşağı dağ qurşağından orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələrinin şirintəhər-turş dadı vardır. Meyvələri yeyilir və müxtəlif məhsullar hazırlanır. Odüncağı, qabığı, budağı və yarpağı əhəmiyyətlidir. Həmçinin tərkibində aşı maddəsi vardır.

Adi xurma
Diospyros lotus L.

Hündürlüyü 15-25 m, əlverişli şəraitdə isə 40 m, diametri 80 sm-ə qədər olan ağacdır. Yan kökləri torpağın dərinliyinə girmiş və kök sistemi saxələrə ayrılmışdır.
Cavan budaqları hamardır, yaşılımtıldır; yaşlı gövdəsinin qabığı uzununa və köndələn yarıqlara dərin çatlayır, bayır tərəfdən açıq-qəhvəyi və ya qəhvəyitəhər-boz rəngdədir, kənarları və çatları dəyirmidir. Tumurcuqları neştərşəkillidir.
Yarpaq: Yapaqları tüküləndir, uzunluğu 5-15 (20) sm,eni 3-6 (10) sm-dir, yumurtaşəkilli-uzunsov, uzunsov-ellipsvari və enli-neştərvaridir, qaidə hissəsində daralmış və ya dəyirmidir, təpə hissədə sivriləşmişdir,üst tərəfdən tünd-yaşıl,tutqun və yaxud şəffafdır, çılpaqdır, alt tərəfdən göyümtül-yaşıl rəngli, qısa tüklü və ya demək olar ki, çılpaqdır, qısa, qalın, tüklü, uzunluğu 1-1,5 sm olan saplaq üzərindədir.
Çiçək: Qoltuq çiçəkləri 4-5 üzvlü olub, qısa saplaqlıdır. Tac qonurtəhər-qırmızı və ya çirkli-cəhrayı rəngdədir.
Meyvə: Giləmeyvəsi şarşəkillidir, ətlidir və diametri 10-20-dir, yetişməmiş giləmeyvələri yaşıl rəngdə, daha sonra isə kəhrəbayaoxşar-sarı, tünd-qonur rəngdə olub, üzərində göy-mavitəhər təbəqəsi vardır. Toxumları 6 (1-10) ədəddir.
Çiçəkləməsi: May-İyun
Meyvə verməsi: Oktyabr-Noyabr
Aərbaycanda yayılması: BQ şərq, BQ qərb, KQ şimal, Lənk.dağ., Alazan-Əyriçay (tez-tez), Lənk. oval., Kür-Araz oval. Ovalıqdan, orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşə əmələ gətirir və meşələrdə qarışıq halda rast gəlinir; bundan başqa yabanı halda da rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Meyvələri yeyiləndir. Qiymətli balverən bitkidir. Dekorativ məqsədlə park və bağlarda əkilir. Oduncağı möhkəm olduğu üçün dülgər və xarrat məmulatlarının hazırlanmasında istifadə olunur.

Çöl ağcaqayını
Acer campestre L.

Hündürlüyü 15 m-yə qədər olan enli çətirli ağac və yaxud ağacşəkilli hündür koldur. Gövdəsinin qabığı qonura çalan-boz rəngdə olub, uzununa çatlıdır.

Yarpaq: Yarpaqlarının uzunluğu 4-8 sm, eni 4-10 sm, küt 5-bölümlü, nadir hallarda 3-bölümlüdür, yarpağın qaidə hissəsi ürəkşəkillidir, nazikdir, üst tərəfədən tutqun tünd-yaşıl, alt tərəfədən isə daha açıqdır, sarımtıl-yaşıl rənglidir və tükcüklüdür və yaxud yalnız yarpaqların küncündə saqqalcıqlıdır. Saplaqları eynidir, yarpaq ayasından bir az uzun və ya qısadır.

Çiçək: Çiçəkləri xırda, sarımtıl-yaşıl rəngdədir. Çiçək qrupunun oxu, çiçək saplağı, kasa yarpağı və ləçəklər (kənarları) tükcüklüdür. Qanadcıqlarının uzunluğu 2-4 sm-dir, üfüqi xətt üzrə yerləşmiş, bəzən qanadları oraqvari əyilmiş halda olur.

Meyvə: Findiqca meyvələri çılpaq və ya yumşaq tükcüklüdür.

Çiçəkləməsi: Aprel-May, çiçəkləmə yarpaqların açılması ilə eyni vaxtda və yaxud gec olur.

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəz, KQ cənub, Nax. dağ, Lənk. dağ. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında və meşələrdə qarışıq halda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Oduncağı xırda məmulatların hazırlanmasında istifadə olunur.



Gözəl ağcaqayın
Acer laetum C. A. Mey

Hündürlüyü 25 m-ə qədər olan enli çətirli ağacdır. Cavan budaqları yaşıl və ya qırmızımtıl rəngli olub, üzərində tünd-göy rəngdə nazik təbəqə vardır.

Yarpaq: Yarpaqlarının uzunluğu 5-17 sm, 7 (nadir hallarda 4)-bölümlüdür, qaidə hissəsi düz kəsilmiş və yaxud ürəkşəkillidir, nazik və kağızaoxşardır, üst tərəfi tünd, alt tərəfdən gümüşü-açıq yaşıl rəngdədir, damarların küncündə saqqallıdır, üst səthinin qalan hissəsi çılpaq və ya damarlar boyunca tükcüklüdür; bölümləri üçbucaq-yumurtaşəkillidir, uzununa dartılmış sivri ucluğa dərhal daralmışdır, tamkənarlıdır. Saplaqları yarpaq ayasından qısa, ona bərabər və ya çox vaxt ondan uzun olmaqla müxtəlif uzunluqda olurlar, uzunluğu 3-20 sm-dir.

Çiçək: Çiçəkləri qalxanvari çiçək qrupunda toplanmışdır, xırdadır, yaşılımtıl rəngli, diametri 6-7 mm-dir. Qanadcıqlarının uzunluğu 2,5-4,5 sm-dir, qanadları kütdür, kor bucaq altında yerləşmişdir.

Meyvə: Fındıqca meyvələri qanadlardan 1,5-2 dəfə qısadır.

Çiçəkləməsi: Aprel-May, yarpaqlarının əmələ gəlməsi ilə bir vaxtda baş verir.

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Lənk. Muğ. (nadir hallarda), Lənk. dağ (tez-tez). Düzənlikdən yuxarı dağ qurşağına qədər, aşağı və orta dağ qurşağında üstünlül təşkil edir.

Yaşayış mühiti: Meşələrdə, adətən qaranlıq və qarışıq meşələrdə qarışıq halda rast gəlinir. Səpələnmiş və bəzən kiçik qruplaşmalar əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ ağacdır, parklarda və bağlarda əkilir və sərbəst halda enli oval çətir əmələ gətirir.

Sivriyarpaq ağcaqayın
Acer platanoides L.

Ümumi görünüşü: 20-25 (30) m, sütunşəkilli gövdəsi və tac, enli, dəyirmi çətiri olan iri ağacdır. Gövdəsinin qabığı tünd-boz rəngdədir, xırda uzunsov yarıqlıdır. Cavan budaqları qırmızımtıl-qonur rəngdədir, parlaqdır, açıq rəngli mərcimək̈ləri vardır.

Yarpaq: Yarpaqlarının uzunluğu və eni 6-12 (20) sm, 5-7 bölümlü, qaidə hissəsində ürəkşəkilli və ya enli-pazşəkillidir, üst tərəfdən tünd-yaşıl, alt tərəfdən daha açıq rəngdədir, çılpaq və yalnız damarların küncündə seyrəlcıqlıdır; bölümləri sivri ucludur, yuxarıdakı 3 ədəd yarpaqları eyni, aşağıdakılar isə yuxarıdakılardan xeyli xırdadır, hamısı oyuqlu sivri dişlidir. Saplaqları 4 sm-dən 15 sm-ə qədər dəyişir.

Çiçək: Çiçəkləri iridir, yaşılımtıl-sarı rəngdədir. Buqanadağın uzunluğu 4-5 sm olub, qanadları ətrafı yerləşmiş və ya kor bucaq altında ayrılmışdır.

Çiçəkləməsi: Aprel-May (Yarpaqlar açılana qədər çiçəkləyir.)

Meyvə verməsi: Avqustun sonu. Kütləvi şəkildə meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ şimal, Lənk. dağ. Subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə qarışıq şəkildə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ ağacdır. Nektarverən bitkidir. Oduncağı xarrat və dülgər məmulatlarının hazırlan-masında istifadə olunur.



Ağac, simmetrik çiçək, bölümlü sadə enli yarpaq

Məxməri ağcaqayın
Acer velutinum Boiss.



Hündürlüyü 35-40 m-ə qədər, gövdəsinin diametri 1,4 m-ə qədər olan iri çətiri olan böyük ağacdır. Gövdəsinin qabığı ət rəngi-çəhrayımtıl rəngdə, yaşlı ağacların aşağı hissəsi tünd-boz rəngdədir.

Yarpaq: Yarpaqları iridir, kağıza bənzər olub, uzunluğu 15-20 (40) sm, 5-bölümlüdür. Yarpağın qaidə hissəsi ürəkşəkilli, bəzən dəyirmi və ya kəsilmiş formadadır, üst tərəfdən tünd-yaşıl, həmişə çılpaq, alt tərəfdən daha açıq və ya göyümtül rənglidir, çılpaq və yaxud tamamən məxməri-yumşaq tüklcüklüdür; bölümləri sivri, bəzən kütdür, bərabər olmayan və iri dişlidir; təpə bölümləri yan bölümlərdən enli və bir qədər uzundur. Saplaq 12-25 sm uzunluqda olub, adətən yarpaq ayasına bərabər olur və ya ondan uzun olur.

Çiçək: Süpürgələr iridir və 12-15 sm uzunluqdadır, düzdurandır, tükcüklü budaqları meyvə verənə yaxın əyiləndir. Çiçəkləri kiçik olub, yaşılımtıl-sarı rənglidir.

Meyvə: Meyvə qanadlarının uzunluğu 5 sm-ə qədərdir, çoxsaylıdır, qabarıq, xaricdən çılpaq, daxildən tükcükləri olan fındıqcaları vardır;qanadlar aşağı hissədə daralmış, yuxarıda isə genişlənmiş və düz və ya iti bucaq altında ayrılmışdır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Lənk. oval., Lənk. dağ. Orta, bəzən yuxarı dağ qurşağına qədər (1800m).

Yaşayış mühiti: Rütubətli meşə, dağ dərələrində, meşəli yamacların cuxurlarında, düzənliklərin rütubətli yerlərində rast gəlinir. Balaca sahəsi olan ağcaqayınlıq əmələ gətirir v dağ dərələrinin relikt meşələrinin, həmçinin dig düzənlik və dağ meşələrinin tərkibinə keçir. Bəzən tək-tək də rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Oduncağı xarrat və dülgər işlərində istifadə olunur. Nektarverən bitkidir.

• Trautfetter ağcaqayını
• *Acer trautvetteri* Medw. (*A. heldreichii* Orph. subsp. *trautvetteri* (Medw.) E. Murr.)

Hündürlüyü 17 m-ə qədər olan, düz gövdəli, enli çətirli ağac, bəzən isə qismən hündür kol və ya balaca ağacdır. Gövdəsinin qabığı hamar və boz rəngdədir. Tumurcuqları tünd qonurdur.

Yarpaq: Yarpaqları möhkəm, pərdəli, uzunluğu 9-14 sm, eni 10-16 sm-dir, dərin beş bölümlüdür, əsası enli ürəkşəkilli, üst tərəfdən tünd-yaşıl, çılpaq, alt tərəfdən parlaq, göyümtül və ya sarımtıldır, cavan vaxtı tüklüdür, daha sonra çılpaq və yalnız damarların küncü qan-qırmızı rəngli tüklərdən ibarət saqqalcıqlıdır

Bölümləri sivriləşmiş, yuxarıdakılar yumurtaşəkilli-rombvari, əsasına doğru pazvari daralmış, yanlardan iki cüt iri dişlərlədir və bundan başqa digər dişləri də vardır, ucuğıdakılr yuxarıdakılardan nəzərə çarpacaq dərəcədə xırdadır, üfüqi sərilmiş və ya aşağı əyilmişdir, kənarları qeyri-bərabər iti dişlidir.

Çiçək: Çiçək qrupu qalxanşəkilli, düzdurandır; çiçək qrupunun və çiçək saplağının oxu çılpaqdır. Çiçəkləri ağımtıl-yaşıl rəngdədir, diametri 10 mm-dir. Kasa yarpaqları və ləçəkləri demək olar ki, bərabərdir. Qonadcıqları iridir, uzunluğu 5-7 sm-dir.

Meyvə: Fındıqcaları yetişmiş halda qonur rəngli, qabarıq, cavan vaxtı tüklü, daha sonra bəyır tərəfdən çılpaq, içərisi isə tüklü olur.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, BQ şərq, KQ şimal, KQ mərkəzi. Hündürlüyü 1700-2400 m olan yuxarı meşə və subalp qurşağında.

Yaşayış mühiti: Səpələnmiş və qrup halında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yüksək dekorativ əhəmiyyəti olan ağacdır. Şirəsinin tərkibində 3 %-ə yaxın şəkər vardır. Nektarverən bitkidir. Oduncağı müxtəlif məmulatların hazırlanması üçün əhəmiyyətlidir.

Əyriyumurtalıqlı yemişan

Crataegus kyrtostyla Fingerh. = *C. curvisepala* Lindm.

Hündürlüyü 6 (8) m-ə çatan balaca ağac və ya 1,5-3 (4) m-ə çatan koldur. Budaqların qabığı qonurtəhər-boz rəngdədir. Cavan zoğları qırmızımtıl-qəhvəyi, azsaylı qısa tikanları vardır və yaxud az hallarda tikansızdır.

Yarpaq: Yarpaqlarının uzunluğu 5 sm-ə qədərdir, parlaq yaşıl rənglidir, üst hissədən demək olar ki, çılpaq, alt hissədən dağınıq basıq tüklüdür və yaxud damarların künc tərəfində saqqalcıqlıdır, görünüşünə görə demək olar ki, rombşəkilli və ya əksinəyumurtaşəkillidir, qaidə hissəsi pazşəkilli, bəzən dairəvidir, adətən 5-7 bölümlü olub, kənarları sivri,mişarvari dişli bölümlüdür; saplağı yarpaq ayasından 1,5 dəfə uzundur.

Çiçəkləri

Çiçək: Qalxanı enlidir, adətən çılpaqdır, üzərində 1-3 ədəd çiçək daşıyan 3-6 ədəd budaqcıqdan ibarətdir. Çiçəkləri ağ rəngdədir, diametri 11-15 mm-dir. 1 sütuncuğu (nadir halda 2) vardır.

Meyvə: Meyvələri qırmızı, uzunsov-ellipsvari və ya slindrikdir, uzunluğu 12-14 mm, birtoxumludur. Təpə hissədə kasa yarpaqları qatlanmış formadadır.

Meyvələri

Çiçəkləməsi: Aprel, May (İyun)

Meyvə verməsi: Sentyabr, Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, Alazan-Əyriçay bozqırlığında, KQ şimal KQ mərkəz, KQ cənub, Nax.daq., Lənk. dağ. Orta dağ qurşağına qədər, nadir hallarda yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarlarında, kollar arasında. Bəzən işıqlı vələs-palıd və palıd meşələrində xırda ağaclıq əmələ gətirir və kiçik cəngəllik şəklində rast gəlinir.



Çəyirdəklər

Şərq yemişanı
Crataegus orientalis Pall.

Hündürlüyü 3-4 (5) m-ə çatan balaca ağac və ya hər budaqlı, çoxsaylı yarpaqla örtülmüş möhkəm tikanları olan koldur. Cavan budaqları sıx yumşaq keçə tüklüdür.

Yarpaq: Yarpaqları qalıntəhərdir, hər iki tərəfdən sıx məxməri boz yumşaq tüklü olub, uzunsov-əksinəyumurtaşəkillidir, qaidə hissəsində pazşəkillidir, 3-5 bölümlüdür; yarpağın bölümləri enlidir, onların uzunluğu 3-3,5 dəfə enindən çoxdur, təpə hissədə 1-4 ədəd dişli və yaxud dərin bölükşəkilli kəsiklidir; saplaq qısadır və ya yarpaqlar demək olar ki, oturaqdır.

Çiçək: Çiçəkləri sıx azçiçəkli qalxanvari çiçək qrupunda yerləşir. Çiçək qrupunun budaqları, saplağı və kasa yarpağı sıx ağ rəngli keçə tüklüdür. Sütuncuğu 5 ədəd, nadir halda 4 ədəd olur.

Meyvə: Meyvələri 10-12 mm uzunluğundadır, qırmızımtıl-narıncı rəngdə olub, qismən tükcüklü yaxud çılpaqdır, yastılaşmış şarşəkillidir, təpə hissədə qurumuş, bükülmüş kasa yarpaqları vardır. Toxumları 5, nadir hallarda 4 ədəd olub, nəfillidir.

Çiçəkləməsi: (May) Iyun-Iyul.

Meyvə verməsi: Sentyabr-Oktyabr.

Azərbaycanda yayılması: BQ (Quba-nadir hallarda), Qobustan, KQ mərkəz, KQ cənub, Nax. dağ., Lənk. dağ. Orta və yuxarı, nadir hallarda aşağı dağ qurşaqlarında.

Yaşayış mühiti: Quru daşlı çınqıllı və narın torpaqlı yamaclarda, kollar arasında rast gəlinir. Səpələnmiş formadadır.


Çiçəkləri


Yarpağı

Meyvələri

Barmaqyarpaq çinar
Platanus digitifolia Palib. = *P. orientalis* L.

Yarpağı

Hündür, enli çətirli əzəmətli ağacdır. Qabığı yaşılımtıl-açıq boz rəngli, hamardır, müxtəlif ölçülü lövhəciyi lay-lay qopandır, bu səbəbdən gövdənin səthi ləkəlidir. Gövdəsinin səthi qabığı üzərindəki lövhəciklərin lay-lay qopması səbəbindən ləkəlidir. Qabığı yaşılımtıl-açıq boz rəngli, hamardır.

Yarpaq: Yarpaqları sadə, tökülən, dərin beş bölümlüdür, qaidə hissəsi kəsilmiş və ya az ürəkşəkilli, az dişlidir.

Çiçək: Başcıqları iri olub, diametri 2 sm-dir, 2-4 (5) saydadır.

Meyvə: Meyvələri qalınlaşmış, uc hissədə sərt, demək olar ki, düz sütuncuğu vardır. Cücərtiləri iki ədəd ensiz uzunsov ləpəlidir.

Çiçəkləməsi və meyvə verməsi: Aprel

Azərbaycanda yayılması: Azərbaycanın çox yerlərində.

Yaşayış mühiti: Meşələrdə yabanı halda rast gəlinir, parklarda dekorativ ağac kimi, qədimdən isə karvan yollarının göstəricisi məqsədilə cüt halda əkilir.

Təsərrüfat əhəmiyyəti: Çinarın oduncağı dülgər və xarrat işlərində və gəmiqayırmada istifadə olunur.



Meyvələri

Şərq palıdı
Quercus macranthera Fisch. & C. A. Mey. ex Hohen.

Hündürlüyü 28 m-ə qədər olan, qalın boz-qəhvəyi, çatlaq qabıqlı ağacdır. İllik budaqları az, xovlu, sarımtıl-boz tüklü olub, tədricən bir-ikillik cavan budaqlara bənzəyir. Yalançı zoğlarının uzunluğu 1,5 sm olub, xovludur.

Yarpaq: Yarpaqlarının uzunluğu 8-20 sm, eni 3-12 sm-dir, əksinəyumurtaşəkilli və ya uzunsovdur, bərk və demək olar ki, qalın dərilidir. Qaidə hissəsi pazşəkilli və ya ürəkşəkillidir, təpə hissədə qısa, küt, bölümlüdür, hər tərəfdən 8-12 kənar bölümləri qısa, küt, dişkənarlı və yaxud kəsilmiş iridişli və ya dərin kələ-kötürdür; üst tərəfdən tünd-yaşıl, çılpaq, alt tərəfdən isə boz və ya bozumtul-sarı six tüklüdür. Yarpaqlarının saplağı 1-2 sm uzunluqdadır.

Meyvə: Qozasının uzunluğu 2-2,5 sm-dir, uzunluğu 4 mm-ə qədər olan sıx tüklü saplaqda yerləşmişdir. Qədəh yarımşarşəkillidir, onu uzunluğu qozanın uzunluğunun 1/2 və ya 1/3-hissəsinə bərabərdir və onu əhatə edir; qozanın pulcuqları qısa ensiz-neştərvaridir, qonur qurtaracaqlıdır, yumşaq-tüklüdür, yuxarı və orta hissədə sıxdır, aşağı hissədə isə aralıdır.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəz, KQ cənub, Nax. dağ., Lənk.dağ.

Yaşayış mühiti: (1400) 1800-2250 (2550) m d.s.y.-dən hündür zonalarda meşə əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Dağ rayonlarında yuxarı meşə zolağında əsas meşəəmələgətirən ağaclardan biri hesab olunur. Çaxır çəlləyinin hazırlanması üçün yüksək qiymətləndirilir.



Hind yaseni, Aylant
Ailanthus altissima (Mill.) Swingle

Azərbaycan şəraitində hündürlüyü 12-15 m (nadir hallarda 20 m.) m, diametri 60 sm olan, öz vətənində isə hündürlüyü 30 m-ə çatan ağacdır. Çətiri iri budaqlıdır, lakin iri yarpaqların çox olmasına görə sıxdır və kölgəlidir. Cavan budaqları açıq-qəhvəyi, yaşlı gövdəsinin rəngi isə açıq boz rəngdədir.

Yarpaq: Yarpaqları iri və mürəkkəbdir, uzunluğu 40-70 (90) sm-dir, tək lələkvaridir, ümumi saplaqda oturmuş 9-41 ədəd yarpaqcıqdan ibarətdir, xoşagəlməyən iyi vardır; yarpaqcıqların uzunluğu (4) 5-8 (13) sm, uzunsov-yumurtaşəkilli, və yaxud neştərvari-yumurtaşəkillidir. Qaidəsinə doğru dəyirmi və ya çəpinə kəsilmiş, tam inkişaf dövründə çılpaq, kənarları nazik kirpikcikli, qaidə hissəsində, hər birində 1-2 (3-4) ədəd iri dişlidir.

Çiçək: Çiçək qrupu iri, süpürgəvari, kifayət qədər sıx olub, uzunluğu 20-30 sm-ə qədərdir. Çiçəkləri xırda, uzunluğu 2,5-3,5 mm, ikicinslidir və erkəkciklidir, xoşagəlməyən iyi vardır. Ləçəkləri 5-6 ədəd olub, xırdadır, yumurtaşəkilli, yaşılımtıl rəngli və tutqundur.

Meyvə: Meyvəsi yastı qanadmeyvə, uzunluğu 3-4 sm, rombşəkilli formada və qanadın ortasında yerləşmiş bir toxumdan ibarətdir.

Çiçəkləməsi: May-(İyun).

Meyvə verməsi: (Avqust)-Sentyabr (Oktyabr)

Azərbaycanda yayılması: Qədimdən Abşeronun hər yerində əkilir. Kür-Araz, Samur-Şabran, Lənkəran, Alazan-Əyriçay oval., Kür, Naxçıvan, İsmayıllı və Xəzəryanı düz. rast gəlinir

Əsas yayılma nöqtələri: Bakı, Şamaxı, Ağsu, Kürdəmir, Göyçay, Ağdaş, Gəncə,Yevlax, Mingəçevir, Bərdə, Ağdam, Salyan, Sabirabad, Beyləqan, Naxçıvan və s.

Təsərrüfat əhəmiyyəti: Oduncağından mebel və müxtəlif xarrat məmulatlarının hazırlanmasında istifadə olunur. Qabıq və yarpaqları tibbi əhəmiyyətə malikdir. Yeni zoğlarından, çiçəklərindən və cavan qabığından alınan cövhər bəzi xəstəliklərdə istifadə olunur. Qabığındakı qətranlı şirəsi yağlı boyaların hazırlanmasında istifadə olunur.

Adi göyrüş

Fraxinus excelsior L. subsp. *coriariifolia* (Scheele) E. Murr.

Hündürlüyü 30-35 m olan ağacdır. Tumurcuqları iri və qara rəngdədir. Cavan budaqları hamar, açıq-boz rənglidir.

Yarpaq: Yarpaqları iridir, tək lələkvaridir; dəmək olar ki, oturaq yarpaqcıqların 11 (nadir hallarda 13) ədədindən; yarpaqcıqların uzunluğu 4-10 (12) sm, eni 1,5-5 sm, uzunsov, yumurtaşəkilli, ovalşəkillidir, uzanmış-əksinəyumurtaşəkilli və yaxud uzanmış-neştərvaridir, itidişli, sivriləşmiş, üst tərəfdən çılpaq, alt tərəfdən damar boyunca qismən qıvrım tükcüklüdür.

Çiçək: Çiçək salxımı ötən ilki yarpaq qoltuğundan dəstə ilə çıxır; meyvə daşıyan oxun uzunluğu 4-13 sm-dir. Çiçəkləri bircinsli və ikicinslidir. Çiçəkyanlığı yoxdur. Qanadcıqları ensizdir, xətvari-uzunsov, uzunsov-ellipssəkilli və ya ensiz-neştərşəkillidir, yuxarı hissədə çəpinə-kəsilmiş, sivriləşmiş və ya küttəhərdir, bəzən oyuqludur, uzunluğu 2,5-4,5 sm, eni 12 mm-ə qədərdir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: (İyun) İyul-Avqust

Azərbaycanda yayılması: Samur-Şabran ova., BQ (Quba) Qobustan, BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəz, KQ cənub, Nax. dağ., Lənkəran ova. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə təmiz və yaxud qarışıq meşələr əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Meşəsalmada istifadə olunur. Dekorativ ağacdır. Oduncağı maşınqayırma və xarrat işlərində, qabığından isə göy, qəhvəyi və qara boya almaq üçün istifadə olunur.

Meyvələri

Yarpağı

Hündürlüyü 25 (30) m-ə və diametri 150-200 (400) sm-ə qədər olan, ağacdır. Cavan ağacların qabığı açıq-boz rəngli, hamar və ya azacıq çatlı, yaşlı ağaclarda qabıq tünd-boz və dərin uzunsov-çatlıdır. Sərbəst duran ağacların çətiri iri və sıxdır, adətən günbəzşəkilli və ya çadıraoxşardır. Cavan budaqların özəyi boş nərdivanaoxşar arakəsmələri vardır.

Yarpaq: Yarpaqları təklələkvaridir, uzunsov-yumurtaşəkilli və ya ellipsvari, ətirli, kənarları tam və ya diş-diş, çılpaq və yaxud alt tərəfdəi damarların küncündə tükləri olan, (2) 3-5 cüt yarpaqcıqların; yuxarı tək yarpağı çox iridir, kənardakılar isə yarpağın qaidəsinə doğru kiçilmişdir.

Çiçək: Erkəkcikli çiçəkləri 12-18 ədəd erkəkciyi və 6 bölümlü çiçəkyanlığı vardır və 4-6 sm uzunluğunda olan salxımda yerləşmişdir. 4 ədəd dişli çiçəkyanlığı olan dişicikli çiçəkləri tək və ya 2-3 ədəd olmaqla birgə oturur. Dişicikli çiçəkləri 4 dişli çiçəkyanlığı ilə tək və ya 2-3 ədəd olmaqla birgə oturur.

Meyvə: Meyvələri yumurtaşəkilli, oval və yaxud oval-şarşəkilli; xarici meyvəyanlığı yaşılımtıl, çılpaq, daxili (qoz) meyvəyanlığı isə bərk, torvari-qırışlı qismən iri qabırğalı və ucu sivriləşmişdir.

Çiçəkləməsi: Aprel-May, yarpaqların açılmağa başlama dövründə.

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Yabanı şəkildə BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ., Nax. dağ., Qobustan.

Yaşayış mühiti: Aşağı və orta dağ qurşaqlarının meşələrində.

Təsərrüfat əhəmiyyəti: Oduncağı xarrat və dülgər, aviasiya və silah, mebel işlərində istifadə olunur. Meyvələri çox qidalıdır. Qabığında, yarpağında və meyvəsinin qabığında çoxlu aşı maddəsi vardır. Yarpaq və qabığı boyaq kimi yun parçaları açıq-qonur və qəhvəyi-qonur rəngə boyamaq üçün istifadə olunur. Dekorativ əhəmiyyətli bitkidir.

• Qanadmeyvə yalanqoz
• *Pterocarya pterocarpa* (Michx) Kunth ex. I. Iljinsk.

Hündürlüyü 25-28 (32) m, diametri 100-150 sm-ə qədər olan ağacdır. Çoxsaylı horizontal, yerüstü kökləri ilə müxtəlif tərəflərə uzanan, güclü kök pöhrələri verən və ağacı əhatə edən güclü kök sistemi vardır. Cavan ağacların gövdəsi düzdür, hamar açıq-boz rəngli qabığı olur; yaşlı ağaclarda isə qabıq tünd-boz rənglidir və uzununa uzun-şırımlıdır.

Yarpaq: Yarpaqları təklələkvari-mürəkkəb olub, uzunluğu 30-40 sm, eni 18-20 (25) sm, 6 (7) 8-9 (12) cüt yarpaqcıqlardan; yarpaqcıqlar qısa saplaqlı və ya oturaqdır, uzunsovdur, kənarları çəpinə-dişli, yuxarı hissədə dartılı-yerləşmiş, uzunluğu 8-12 (15) sm, eni (2) 4 -5 (6) sm-dir, üst tərəfdən çılpaq, parıldayan, tünd-yaşıl rənglidir, alt tərəfdən açıq-yaşıl, damarcığın küncü isə ulduzvari-tüklüdür. Tumurcuqlar qırmızı-qonur, tünd-qəhvəyi rəndədir.

Çiçək: Erkəkcikli sırğalar çoxçiçəkli olub, budağın təpə hissəsində tək-tək düzülmüşdür. Dişicikli sırğalar isə çoxçiçəklidir və çiçəkləri oturaqdır.

Meyvə: Yetişmiş meyvələrdə sırğaları sallaq, uzunsovdur; meyvə ikiqanadlı cəyirdəyəkdir, eni 4-4,5 sm-dir, qanadlar meyvədən biraz enli olur.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, Lənk. dağ., Alazan-Əyriçay, Lənk. oval. Ovalıqdan aşağı, bəzən orta dağ qurşağında.

Yaşayış mühiti: Çaykənarı meşələrin tərkibində rütubətli meşələr əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ əhəmiyyətli bitkidir. Yarpaq və qabığında aşı maddə vardır. Boyaq əhəmiyyəti olan bitkidir.

Tumurcuqlar


Yarpağı

Meyvələri

Meyvələri

KOLLAR

Qafqaz ardıcı
Juniperus oblonga Bieb. (*J. communis* L. subsp. *oblonga* (Bieb.) Galushko)

Hündürlüyü 10 m-ə qədər olan, balaca ağac və ya tünd-boz qabıqlı düzduran koldur.

Yarpaq: Yarpaqları çiçək köbəsində 3 ədəd olmaqla düzülmüş, bizşəkillidir, qabarıq, bərk, dəri və üçtillidir, uzunluğu 1,6-4 sm-dir, üst tərəfdən novşəkilli və tünd-göy rənglidir, qaidə hissəsində gözə çarpan damarları vardır, alt tərəfdən küt-firlıdır.

Meyvə: Meyvələri şarşəkilli, oval və yaxud ellipsvaridir, yarpaqlardan 2-3 dəfə qısa, diametri 8-9 mm, qara və ya qaramtıl-bənövşəyi olub, üzərində göyümtül xalları vardır; pulcuqların qurtaracağı geriyə qatlanmışdır. Toxumları ovalvari-uzunsovdur, küt-üçtilli, qonurtəhər olub, 3 ədəddir. Nadirdir.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Abşer., Qob., Şəki, KQ mərkəzi, KQ cənub, (Nardaran). Ovalıqdan, subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrin ətrafında, tarlalarda, daşlı-qayalı yerlərdə, yarğanlarda rast gəlinir. Meşənin kənarının yuxarı hissəsində seyrək kolluq əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Oduncağı xarrat və dülgər işləri üçün yararlıdır. Ekstraktı və siropu qənnadı məmulatların və içkilərin hazırlanmasında istifadə olunur. Yetişməmiş meyvələri sarı rəng verir, yetişmiş meyvələri sidikqovucu və skorbuta qarşı dərman kimi istifadə olunur.

Yarpağı

Meyvələri

Meyvələri

Adi zirinc

Berberis vulgaris L. subsp. *orientalis* (Schneid.) Takht.

Meyvələri

Yarpağı

Çiçəkləri



Hündürlüyü 2,5 m-ə çatan koldur. Gövdəsi güclü budaqlanmışdır. Cavan budaqları sarı-qonur, yaşlı budaqları isə boz rənglidir. Tikanları 3 bölümlü, sərtdir, uzunluğu 2 sm-ə qədərdir, nadir hallarda sadədir.

Yarpaq: Yarpaqları nazik, pərdəvaridir, ellipsşəkilli, əksinəyumurtaşəkilli və yaxud əksinəyumurtaşəkilli-neştərvaridir, uzunluğu 4 sm olan saplaqda daralmışdır, kənarları kirpikcikli-mişarvari, alt tərəfdən torvari, təpə hissəsində kütdür.

Çiçək: Çiçək qrupu çoxçiçəkli olub, uzunluğu 6 sm-ə qədər olan əyilən salxım şəklindədir. Çiçək saplağının uzunluğu 5-12 mm-dir.

Meyvə: Meyvəsi parlaq-qırmızı, bəzən sarımtıl-qırmızı rəngdə olub, turş dadı vardır, uzunluğu 12 mm-ə qədər olan uzunsov giləmeyvədir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-İyun

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına, nadir hallarda yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarlarında, kolluqlarda, çınqıllı çaylarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Giləmeyvələrindən limonad və liker hazırlanmasında istifadə olunur Oduncağından çəkmə mismarlarının və xarrat məmulatlarının hazırlanmasında istifadə olunur. Dekorativ və balverən bitkidir.

Cənub qaramurdarçası
Cornus sanguine L. subsp. *australis* (C. A. Mey.) Jav. = *Swida australis*

Hündürlüyü 2-3 (4) m olan, enli çətirli koldur.
Yarpaq: Yarpaqları saplaqlıdır, uzunluğu 2-9,5 sm, eni 6 sm-ə qədərdir, üst tərəfdən parlaq-yaşıl, alt tərəfdən solğundur, hər iki tərəfdən sıx qısa, iki yerə bölünmüş tükcükləri olduğuna görə kələ-kötürdür, yumurtaşəkilli-ellipsvari və ya ellipsvari, qısa sivri sonluqludur; yarpağın qaidə hissəsi dəyirmi və ya enli-pazşəkillidir; yan damarçıqlar hər tərəfdən 4-5 ədəd yerləşmişdir.
Çiçək: Çiçək qrupu çox vaxt yastı olur, eni 6 sm-ə qədərdir, çiçək qrupunun saplaq və budağı əxilmiş tüklüdür. Ləçəkləri 5-6 mm uzunluqdadır və neştərtvari formada olub, xaricdən tüklüdür.
Meyvə: Meyvələri şarşəkillidir, qara rəngdədir, diametri 5-9 mm-dir. Çəyirdəyi şarşəkillidir.
Çiçəkləməsi: May-İyun
Meyvə verməsi: Sentyabr
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. Orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşələrdə, meşənin kənarlarında, kolluqlarda, çayların sahilində, dərələrdə rast gəlinir.

Meyvələri

Çiçəkləri

Sarağan, Bəlgə
Cotinus coggygria Scop.



Hündürlüyü (1) 2-3 (4) m olan, güclü budaqlanmış kol və ya bəzən balaca ağacdır. Qabığı xırda çatlıdır. Yalançı zoğları yoxdur.

Yarpaq: Yarpaqları tökülən dir, sadə, növbəli düzülmüşdür, hamardır, yumurtaşəkilli, oval, əksinəyumurta-şəkilli və ya dəyirmidir, uc hissə kütdür, üst tərəfdən tünd-yaşıl rəngdədir, çılpaqdır, alt tərəfdən tutqun, göyümtül rəngdədir, adətən yumşaq tüklüdür, uzunluğu 8-10 sm-ə qədər, eni 3-7 sm-dir.

Çiçək: Çiçəkləri yaşılımtıl-ağ rəngli, xırda olub, uzunluğu 3 mm-ə yaxındır və uzunluğu 20 sm-ə yaxın olan çoxsaylı budaqlı süpürgədə toplanmışdır. Çiçəkləmədən sonra çiçək saplağı uzanır və bütünlüklə uzun, aralı, qırmızımtıl və ya tünd qırmızı-çəhrayı tüklərlə örtülür.

Meyvə: Meyvəsi əksinəyumurataşəkili və ya böyrəkşəkilli, xırda, quru, uzunsov damarlı meyvəyanlığı olan çəyirdəkdir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ şimal, KQ cənub, Kür düz. Orta dağ qurşağında

Yaşayış mühiti: Quru yamaclarda, daşlı və çınqıllı yerlərdə rast gəlinir. Təmiz və ya digər kol qarışıqları ilə birgə qarışığı cəngəlliklər əmələ gətirir, qrup halında rast gəlinir. Seyrək meşəliyin tərkibinə keçir.

Təsərrüfat əhəmiyyəti: Çox qiymətli kol bitkisidir. Yüksək keyfiyyətli boya, tanin mənşəyi hesab olunur və gözəl dekorativ əhəmiyyəti vardır. Tibbi tanindən müxtəlif preparatlar hazırlanır, həmçinin kimya və toxuculuq sənayesində istifadə olunur.

Tamkənaryarpaq dovşan alması
Cotoneaster integerrima Medik.

Hündürlüyü 0,5-1 (1,5) m-ə qədər olan, kiçik, sıx budaqlanmış koldur. Cavan zoğları sıx tüklüdür.

Yarpaq: Yarpaqlarının uzunluğu (0,8) 1-4 (6) sm-dir, yumurtaşəkilli-dəyirmi və ya ellipsəkillidir, tamkənarlıdır, üst tərəfdən tünd-yaşıl, tutqun, seyrək basıq-tüklüdür və ya çılpaqdır, alt tərəfdən boz və ya ağ-keçə tüklüdür; saplaq qısadır, uzunluğu 1-4 mm-dir.

Çiçək: Salxımları 1-3 (5)-çox vaxt 2 çiçəklidir, qıllıdır, adətən yarpaqlardan qısa olur.

Meyvə: Yetişmiş meyvələri qırmızı rəngdədir, yumurtaşəkilli və ya əksinəyumurtaşəkillidir, uzunluğu 7-11 mm-dir, (2) 3-4 çəyirdəklidir və uc hissədə tüklüdür.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. Yuxarı dağ və hündürlüyü 2200 m-ə qədər olan subalp qurşağında, bəzən orta və aşağı dağ qurşaqlarında; bəzi yerlərdə alp qurşağının aşağı zolağına keçir.

Yaşayış mühiti: Daşlı qayalı yamaclarda, işıqlı meşələrdə meşənin yuxarı kənarında, kollar arasında rast gəlinir.

Çiçəkləri

Yarpağı

Meyvələri

Salxımçiçək dovşan alması

Cotoneaster racemiflorus (Desf.) Booth ex Bosse subsp. *suavis* (Pojark.) Fed. = *C. suavis*



Hündürlüyü 40-100 sm olan, kiçik budaqlanmış koldur. Cavan budaqları sıx keçə-tüklüdür, bir-ikiillikdir, qonur-qəhvəyi rəngdədir və çılpaqdır.

Yarpaq: Yarpaqlarının uzunluğu 5-25 (40) mm-dir, dəyirmi, yumurtaşəkilli və ya enli ellipsşəkillidir, üst tərəfdən göyümtül-yaşıl rəngli, səpələnmiş və ya sıx basıq tüklüdür, alt tərəfdən sıx ağımtıl və sarımtıl nazik keçə tüklüdür; saplaları qısa, uzunluğu 2-4 (5) mm və keçə tüklüdür.

Çiçək: Salxımları sıx, düzduran, (3) 5-9 (12) ədəd çiçəklədir, demək olar ki, iki dəfə yarpaqdan qısadır. Tac ağ rənglidir, diametri 10 mm-ə qədər olub, açılmış dəyirmi ləçəklidir.

Meyvə: Meyvələri parlaq-qırmızı rəngdədir, şarşəkillidir, diametri 8-10 mm-dir, iki, bəzən bir çəyirdəklidir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Qobustan, Abşeron, KQ cənub, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. Orta, bəzən yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Daşlı və qayalı yamaclarda, kollar arasında və işıqlı meşələrdə. Qrup halında və tək-tək rast gəlinir.

• Budaqlı danaya
• *Danae racemosa* (L.) Moench

Hündürlüyü 0,5-1 m olan həmişəyaşıl budaqlanmış yarımkoldur. Kökümsovları qısadır, ilişiqdir, çoxsaylı qalınlaşmış köklərə malikdir. **Kladodları** neştərşəkillidir, parlaqdır, sivriləşmiş və uzunluğu 5-8 (10) sm, eni 12-23 mm-dir. **Çiçəyi:** Çiçəkləri xırdadır, uc salxımlarda 6-9 ədəd düzülür. Çiçək saplağı çiçəklərdən bir az qısadır. Çiçəkyanlığı ağ rəngdə olub, lansetşəkillidir və kiçik deltaşəkilli dişləri vardır. **Meyvəsi:** Giləmeyvələr şarabənzərdir, qırmızı rəngli və diametri 8-10 mm-dir.
Çiçəkləməsi: May-İyul
Meyvə verməsi: Oktyabr
Azərbaycanda yayılması: BQ qərb (Qəbələ yaxınlığında, İsmayıllı rn. Xanagah və Boyuz kəndləri yaxınlığında), Lənk. oval., Lənk. dağ. Ovalıqda və ya orta və aşağı dağ qurşaqlarında.
Yaşayış mühiti: Rütubətli qaranlıq meşələrdə, rütubətli qayalıqlarda, meşələrdə, nəm qaranlıq dərələrin yanında rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Dekorativ əhəmiyyətli yarımkoldur. Xalq təbabətində yarpaqlarından dərman kimi istifadə olunur.


Meyvələri



Kladodları

Avropa gərməşovu
Euonymus europaea L.



Hündürlüyü 2-4 (5) m, hamar küt dördtilli budaqları olan, kol və ya balaca ağacdır. Cavan budaqları yaşıldır, daha sonar isə tilləri mantar törəmə ilə örtülür.

Yarpaq: Yarpaqları azacıq qalındərilidir, tüklüdür, ellipsvari-neştərşəkilli, enli oval və yaxud uzunsovdur, uzunluğu 2-7 (10) sm, eni 1,5-4 (6) sm-dir. Kənarlardan bərabər kiçik dişli, üst tərəfdən çılpaq, alt tərəfdən damarlar boyunca qısa yumşaq tüklüdür. Saplağı qısadır, uzunluğu 2-14 mm-dir.

Çiçək: Yarımçətirləri seyrək çiçəklidir, yarımçətirdəki orta çiçək adətən tam inkişaf etməmişdir. Ləçəkləri 4 ədəd olub, kütdür, sarımtıl-yaşılımtıldır, uzunluğu 5 mm-dir.

Meyvə: Qutucuq uzunluğu 8-12 mm-dir, əyiləndir, şarşəkilli-armudvaridir, küt dörd bölümlüdür, qanadsızdır, hamar və çılpaqdır, yetişənə yaxın parlaq çəhrayı rəngdə olur, qutucuğun hər yuvasında bir toxum olur, nadir hallarda toxumların sayı 2 ədəd olur. Toxumları əksinəyumurtaşəkillidir, tamamilə narıncı örtüklə örtülmüşdür.

Çiçəkləməsi: (Aprel) May-İyun

Meyvə verməsi: Sentyabr, Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Yarpaqlı meşələrdə, cayların sahilində, meşə kənarlarında, cayətrafı kolabənzər cəngəlliklər arasında, bağlarda, hasarların dibində, yarğan vəqobular boyunca dağınıq nümunə və qruplarla rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tərkibində kaucuk olan bitkidir. Oduncağı qədimdən müxtəlif xırda məmulatların (diş çöpü, çəkmə mıxı, çubuq, mil, ox) hazırlamasında istifadə olunur. Meyvələrindən alınan toz xalq təbabətində qoturlu və parazitlərə qarşı işlənir. Dekorativ əhəmiyyətli bitkidir.

Enliyarpaq gərməşov

Euonymus latifolia Mill. (*E. europaea* - var. *latifolia* L., *Kalonymus latifolia* (L.) Prokh.)

Hündürlüyü 2-3 (4) m-ə qədər olan hündür kol və ya kiçik ağacdır. Budaqları dəyirmi, hamardır. **Yarpaq:** Yarpaqları iri, çılpaq, uzunluğu (6) 8-12 (20) sm, eni (2) 4-6 sm-dir, uzunsov-ellipsvari və ya uzunsov-əksinəyumurta-şəkillidir, niziləşmişdir, qaidə hissəsində dəyirmi və yaxud az pazvaridir, kənarları qeyri-müəyyən az mişarvari və yaxud tam-kənarlıdır. Saplağı qısa olub, uzunluğu 5-22 mm-dir. **Çiçək:** Çiçək qrupu qalxanaoxşardır, çiçəklərinin sayı (5) 7-21 ədəd olub, uzun, nazik, meyvə verən ərəfədə əyilən çiçək saplağı üzərindədir. Ləçəkləri 5 ədəd, (nadir hallarda 4) tutqun yaşıl rəngdədir, ellipsvari və ya uzunsov-dairəvi formada olub, uzunluğu 3-3,5 mm-dir, kasacığın dilimlərindən iki dəfə uzundur. **Meyvə:** Qutucuqmeyvəbeşqanadlıdır, hamardır, asılmış haldadır, yetişəndə qızarmış rəngdə olur və kənarlardan basıq 4 (5) bölümlüdür; qanadlarının uzunluğu 4-7 mm-dir və meyvənin enindən böyük deyildir. Toxumları uzunsov-yumurtaşəkilli, tamamilə parlaq-narıncı örtüklə örtülmüşdür. **Çiçəkləməsi:** May-İyun **Meyvə verməsi:** Avqust-Sentyabr **Azərbaycanda yayılması:** BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəz, KQ cənub, Nax. dağ., Lənk. dağ., Orta dağ qurşağından yuxarı dağ qurşağına qədər. **Yaşayış mühiti:** Kölgəli və kəsilmiş meşələrdə, xırda ağaclı meşələrdə qrup halında rast gəlinir. **Təsərrüfat əhəmiyyəti:** Kauçukverən bitkidir. Dekorativ əhəmiyyəti vardır. Oduncağı müxtəlif xırda məmulatlarının hazırlanmasında istifadə olunur.

Meyvələri

Yarpağı

Adi çaytikanı
Hippophae rhamnoides L.



Yarpağı

Meyvələri



Hündürlüyü 5-6 (10) m-ə, və diametri 30 sm-ə qədər olan, çoxsaylı tikanlı, boz budaqlı kol və ya balaca ağacdır.

Yarpaq: Yarpaqları növbəli düzülmüşdür, bir-birinə yaxın yerləşib, ensiz xətvari və ya xətvari-neştərvaridir, uzunluğu 2-7 sm, eni 2-8 mm-dir, demək olar ki, oturaqdır, üst tərəfdən bozumtul-tünd yaşıl, alt tərəfdən qonurtəhər gümüşü-pulcuqludur, nəzərə çarpan damarları və çox vaxt az qatlanmış kənarları vardır.

Çiçək: Çiçəkləri xırdadır, görkəmsiz və sarımtıldır. Erkəkcikli çiçəkləri qısa sünbüldə toplanmış və ikiyə bölünmüş çiçəkyanlığı vardır, dişicikli çiçəkləri tək və ya dəstə halında 2-5 ədəd olmaqla budaqların qoltuğunda yerləşmişlər.

Meyvə: Meyvələri bilavasitə budaqlarda qısa saplaq üzərində oturmuşlar. Çəyirdəkmeyvə ovalşəkillidir, narıncı-sarı və ya qırmızımtıl rəngdədir, çılpaqdır, ətirlidir, uzunluğu 7-9 mm-ə qədərdir, sulu, sarı ləti ananas dadı verir. Çəyirdək yumurtaşəkilli-uzunsov olub, uzunluğu 4-5 mm-dir, tünd-qəhvəyi rəngdədir, parlaqdır, bir tərəfində bir ədəd dayaz şırımı vardır.

Çiçəkləməsi: Mart-Aprel (May), yarpaqlarla eyni vaxtda çiçəkləyir.

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval, Qobustan, BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ cənub, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ., Lənk.oval. Yuxarı dağ qurşağına qədər (200-2000 m-ə qədər).

Yaşayış mühiti: Çay vadilərində, dağ çaylarının sahilində, çaqıl daşlı çay yataqlarında, bəzən çılpaq qayalıqlarda, qumlu torpaqlarda, tuqay meşələrində rast gəlinir. Qrup halında bitir və keçilməz cəngəlliklər əmələ gətirir.

Adi birgöz
Ligustrum vulgare L.

Hündürlüyü 1,5-4 m olan, budaqlı koldur. Cavan budaqları sarımtıl-bozrəngdə olub, nazik qonurtəhər mərcimək dənəlidir, yuxarı hissədə az tüklüdür.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, sadədir, uzunluğu 2-5 (7) sm, eni 5-18 (22) mm-dir, tüküləndir, uzunsov, uzunsov-oval, neştərvari və ya xətvari-ellipsşəkillidir, bəzən dəyişkənarlıdır, demək olar ki, qalın dərilidir, tükcüklüdür, qaidə hissəsi qısa saplaqlarda daralandır.

Çiçək: Çiçək qrupu qurtaracaqlıdır, süpürgəvari, sıx, bəzən qollu-budaqlı olub, uzunluğu 10 sm-ə qədərdir; çiçək qrupunun budaqları və saplaq qısa tüklüdür. Tac ağımtıl rənglidir, xırda və ətirlidir.

Meyvə: Meyvəqara rənglidir, giləmeyvə şəkillidir, şarşəkilli, oval və ya əksinəyumurtaşəkillidir, diametri 8 mm-ə yaxındır.

Çiçəkləməsi: May-İyun (İyul)

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında (Nax. MR. başqa). Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: İşıqlı meşələrdə, meşə kənarında, kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ koldur. Boyaq kimi oduncaq və qabığından istsfadə olunur. Arılar üçün çoxlu nektar verir. Qabıq və yarpağında aşı maddəsi vardır.


Çiçəkləri

Meyvələri


Yarpağı

Gürcü doqquzdon
Lonicera iberica Bieb



Hündürlüyü 50-200 sm olan iri budaqlı koldur.
Yarpaq: Yarpaqları kiçikdir, uzunluğu 2-3,5 sm, qısasaplaqlıdır, yumurtaşəkilli-ürəkşəkilli və ya demək olar ki, dəyirmidir, sivritəhərdir, hər iki tərəfdən, əsasən alt tərəfdən tüklüdür.
Çiçək: Tac 10-12 mm uzunluqda olub, sarımtıl rəngdədir, sıx yumşaq tüklüdür; borucuq qaidə hissəsindən əyilmiş şəkildədir.
Meyvə: Cüt giləmeyvələri ortasına qədər bir-biri ilə birləşmişlər və qırmızı rəngdədirlər, diametri 6-7 mm-dir.
Çiçəkləməsi: May (İyun-Avqust).
Meyvə verməsi: İyul-Sentyabr.
Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına qədər, bəzən subalp qurşağına qədər.
Yaşayış mühiti: Qayalı-daşlı yerlərdə, kollu cəngəlliklər içərisində rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Yamacların möhkəmlənməsi üçün faydalıdır. Balverən bitkidir.



Qafqaz əzgili
Mespilus germanica L.

Hündürlüyü (1,5) 3-4 (6) m olan kol və ya ağacdır. Budaqları tikanlarla örtülmüşdür.

Yarpaq: Yarpaqları uzunsov-neştərvari və ya uzunsovdur, tamkənarlı və ya xırda-dişlidir, üst tərəfdən tünd, alt tərəfdən açıq yaşıl rəngdədir, qısa yumşaq tüklüdür; saplağı qısadır, yumşaq tüklüdür.

Çiçək: Çiçəkləri budağın uc hissəsində, tək yerləşmişdir, demək olar ki, oturaqdır. Çiçəkaltlıqları iri və tökülən dir. Ləçəkləri ağ rəngli, uzunluğu 1,2-2 sm, əksinəyumurtaşəkillidir.

Meyvə: Meyvəsi qonurtəhər və ya qəhvəyiyə çalan, yastılanmış şarşəkilli və ya armudşəkillidir. Yetişməmiş halda xovlu tüklü, daha sonra isə çılpaqdır, diametri 1,5 -2,5 sm-dir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: Oktyabr-Noyabr

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, Kür-Araz oval., Kür düz., Lənk., KQ şimal, KQ cənub, KQ mərkəz, Nax. dağ., Lənk. oval., Lənk. dağ. Ovalıqlarda və dağlarda orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə kiçik meşə şəklində, meşənin kənarında kolaoxşar cəngəlliklər əmələ gətirir və açıq sahələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələrindən povidlo və içki hazırlanmasında istifadə olunur. Qabıq və yarpaqlarında aşı maddəsi vardır. Oduncağından xarrat məmulatlarının hazırlanması üçün yararlıdır.



Qaratikan
Paliurus spina - christi Mill.

Meyvələri

Meyvələri

Çiçəkləri



Hündürlüyü 1,5-3 (5) m olan, çox tikanlı və ilişən koldur. Gövdəsi çoxsaylı bərk və elastikdir. Budaqları tin-tin olub, kələ-kötürdür, çılpaq və qonur rənglidir.

Yarpaq: Yarpaqlarının uzunluğu 2-4,5 sm-dir, növbəli düzülmüşdür, dəyirmi, ellipsvari və ya köndələn-yumurtaşəkillidir, küt və yaxud sivriləşmişdir, qaidə hissəsində dəyirmi və ya dayaz ürəkşəkillidir, kənarları dairəvi xırdamişarvaridir, üst tərəfdən tünd-yaşıl, çılpaq və parlaqdır, alt tərəfdən açıq-yaşıl rəngdədir, üç əsas damarı vardır. Yarpaqların saplaqları qısadır, uzunluğu 10 mm-dir, qaidə hissəsi iki ədəd sərt tikanlıdır, onlardan biri düzdür və yuxarıya doğru yönəlmişdir, o birisi isə qarmaqşəkilli aşağıya doğru əyilmişdir.

Çiçək: Çiçəkləri xırdadır, ulduzşəkillidir, sarımtıl rəngdədir və qoltuq salxımşəkilli çiçək qrupunda toplanmışdır.

Meyvə: Meyvəsinin diametri 19-22 (27) mm-dir, 3 yuvalıdır, 3 (2) toxumludur, yetişəndə sarımtıl rəngdə olur, daha sonra açıq-qəhvəyi və qonur-qəhvəyi rəng alır, açılan deyil; halqaşəkilli qanadı qalın dərilidir. Toxumları dəyirmidir, azacıq yastılaşmış, parlaqdır, tünd-qəhvəyi və ya qonur-qəhvəyi rəngdədir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: (İyul) Avqust-Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, Kür-Araz oval., Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax.düz., Nax.dağ., Lənk., Muğ.-Lənk. oval. Aşağı, bəzən orta dağ qurşağına qədər (1500 m-ə qədər d.s.y..)

Yaşayış mühiti: Quru daşlı, çınqıllı və gilli yamaclarda və düzənlərdə rast gəlinir. Məhv olmuş meşələrdə cəngəlliklər əmələ gətirir və seyrək arid meşəliyinin tərkibində və kserofit kc cəngəlliklərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Qaratikandan canl hasar kimi istifadə olunur. Çiçəkləmə zamanı yaxşı bal verən bitkidir, dekorativ koldur, yarpaq və qabığı xalq təbabətində sidikqovucu vasitə kimi istifadə olunub.

• Adi nar
• *Punica granatum* L.

Hündürlüyü 1,5-4 (5) m olan, budaqları qarşı-qarşıya yerləşmiş balaca ağac və ya koldur. Qısalmış budaqları çox vaxt tikanlara çevrilir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya və ya dəstə halında yaxınlaşmişdir, uzunsov və ya uzunsov-neştərvaridir, küt və ya sivritəhərdir, qalın dərili, tamkənarlıdır, parlaqdır, alt tərəfdən orta damarcıq aydın görünür və yarpaqlar tökülləndir.

Çiçək: Çiçəkləri iri, diametri 4-4,5 sm-dir, tək-tək və ya 2-3 ədəd olmaqla qısa çiçək saplağında düzülmüşdür və qoltuq çiçəkləridir. Ləçəkləri al-qırmızı rəndədir, uzunluğu 3-5 sm, nazikdir və kasacığın bölümləri ilə əvəz olunmuşdur.

Meyvə: Meyvəsi iridir, diametri 10 sm, şarşəkillidir, tünd qırmızı və ya sarımtıl rəngli olub, yetişən zaman qeyri-düzgün çatlayır. Toxumları çoxsaylıdır, uzunluğu 6-12 (14) mm-dir, üçtinlidir və lətli örtüklə örtülmüşdür.

Çiçəkləməsi: (May) İyun-İyul; bəzən Sentyabr-Oktyabrda ikinci dəfə çiçəkləyir .

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Qobustan, BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ şimal, KQ cənub, Alazan-Əyriçay, Kür-Araz oval., Kür düz., Nax. düz., Lənk., Muğan-Lənk. oval. Aşağı dağ qurşağına qədər.

Yaşayış mühiti: Çay boyunca, qumlu torpaqlarda, quru-çınqıllı yamaclarda rast gəlinir. Qrup və səpələnmiş halda rast gəlinir və bəzən mühüm sahələrdə təbii cəngəlliklər əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Meyvə verən, aşı maddəli, boyaq və dekorativ xarakterli, dərman əhəmiyyətli bitkidir. Dərman məqsədilə meyvə, budaq, gövdə və kökünün qabığından istifadə olunur.

Çiçəkləri

Yarpağı


Meyvələri

Qırmızı tubulqa
Pyracantha coccinea M. Roem.

Çiçəkləri

Meyvələri

Yarpağı



Hündürlüyü 1-1,5 (2) m-ə qədər olan, iri budaqlı, tikanlarla əhatə olunmuş koldur.

Yarpaq: Yarpaqları qalın dərilidir, qışı keçirən, uzunsov-ellipsvari və ya uzunsov-neştərvari, bəzən yumurtaşəkilli formada olur, üst tərəfdən parlaq, tünd-yaşıl rəngli, alt tərəfdən tutqundur, cavan yarpaqları tüklü, daha sonra çılpaq olur, kənarları mişarvari-dairəvi dişlidir; saplağı qısadır.

Çiçək: Qalxan çiçək qrupu budaqlanan olub, çoxçiçəklidir, sıxdır və qismən tüklüdür. Çiçəkləri xırda ağ və ya krem (açıq sarı) rəngdədir.

Meyvə: Meyvələri şarşəkilli, parlaq narıncı-qırmızı və ya qıpqırmızı rəngdədir, noxud böyüklüyündədir, uzun müddət qalandır.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: Avqust-Sentyabr. Meyvələr kol üzərində baharın əvvəlinə qədər qalır.

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub. Ovalıqda və dağlarda, aşağı dağ qurşağından orta dağ qurşağına qədər, bəzən yuxarı dağ qurşağında (1800 m-ə qədər d.s.y.)

Yaşayış mühiti: Çay boyunca çınqıllıqlarda, işıqlı meşələrdə, meşə ətrafında, daşlı yamaclarda kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Meyvələri quşlar üçün yem əhəmiyyətlidir.

Rosa canina L. (*R. ciliato-sepala* Blocki, *R. sosnovskyi* Chrshan.)

Hündürlüyü 1,5-2,5 m ə çatan koldur. Budaqları qövsşəkilli əyilən, bəzən demək olar ki, düz budaqlı koldur; tikanları bərkdir, oraqşəkilli əyilmişdir, əsas budaqlarda tikanlar demək olar ki, düzdür, uzərində çiçək formalaşan budaqlarda isə həmişə qarmaqşəkilli dartılmış formada olub, coxsaylıdır.

Yarpaq: Orta yarpaqların uzunluğu 7-9 sm olub, çılpaqdır, yalnız əsas ox boyunca bəzən qısa tükcüklər yerləşmişdir. Yalançı zoğlar çox zaman ensiz olur, kənarları vəzili-kirpikciklidir və sivri qulaqcıqlıdır. Yarpaqcıqları 7 ədəd, nadir hallarda 5 və ya 9 ədəd olur, hər iki tərəfdən həmişə çılpaq və hamardır, çox hallarda ellipsvari qısa sivriləşmiş uca malikdir, uzunluğu 2-2,5 sm, eni 1-1,5 sm-dir, ümumiyyətlə, iti - mişarvaridir, çox vaxt dişcikləri vəziciklə sonlanır.

Çiçək: Çiçəkləri çiçək qrupunda 3-5 ədəd, bəzən isə tək olur, və ya çiçək qrupu çox çoxçiçəklidir; çiçək saplağı 12-18 mm uzunluqda olub, çox vaxt yetişmiş meyvənin ölçüsünə bərabər olur. Nadir hallarda isə ondan uzun və ya qısa olur, adətən tükcük və vəzilərdən məhrum olur. Ləçəkləri ağımtıl-çəhrayı rəngdə olur və kasa yarpaqlarından qısadır.

Meyvə: Meyvələri iridir, yetişənə yaxın uzunluğu 15-26 mm olur, enli-oval, bəzən şarşəkilli formada olub, vəziciklərdən məhrum olmuşdur.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun (İyul)

Azərbaycanda yayılması: BQ (Quba), Xəzəryanı, Qobustan, Kür-Araz oval., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşəsiz kolaoxşar və otlu yamaclarda, çay sahillərində, meşənin ətrafında, yol boyunca, yaşayış məntəqələri boyunca rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yaxşı aşılayıcıdır (kökü, gövdəsi, yarpağı). Xalq təbabətində yetişmiş meyvələrindən istifadə olunur.

Çiçəkləri


Meyvələri


Yarpağı

Adi gərməşov
Vilburnum lantana L.


Çiçəkləri

Yarpağı


Meyvələri

Hündürlüyü 1-3 m, sıx yarpaqlı çətiri və qövsşəkilli qalxan budaqları olan koldur. Cavan budaqları və yarpaqları saplaqla birlikdə ulduzşəkilli tüklərlə örtülüdür. Tumurcuqları pulcuqsuzdur, keçə tüklüdür.

Yarpaq: Yarpaqları qalındır, uzunluğu 6-7 sm-dir, sadə, yumurtaşəkilli-ovaldır, qırışlıdır, kənarları mişarlı-dişlidir, üst tərəfdən tünd-yaşıl, alt tərəfdən sarımtıl-boz rəngli sıx tüklərdən ibarətdir. Lələkvari damarlanmışdır. Saplağı vəziciksizdir.

Çiçək: Çiçəkləri xırdadır, keçən ilki budaqların sonunda yerləşmiş sıx qalxanşəkilli çiçək qrupunda toplanmışdır; çiçək saplağı qısadır. Çiçək qrupunun bütün çiçəkləri eynidir, ikicinslidir. Tac zınqırovşəkillidir və ağ rəngdədir.

Meyvə: Meyvələri 6-8 mm uzunluqdadır, yumurtaşəkilli-dəyirmidir, biraz yastı formadadır, yetişməmiş meyvələr yaşıl rəngli, yetişənə yaxın parlaq-qırmızı, yetişmişləri qara rəngdədir. Toxumları dəyirmi yastı çəyirdəkdir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: (İyul) Avqust-Sentyabr (Oktyabr)

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ. Aşağı dağ qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşəli və nadir halda meşəsiz rayonlarda, meşə kənarında, kollar arasında, qayalarda rast gəlinir. Ayrı-ayrı birləşmə və qrup halında səpələnmişdir.

Təsərrüfat əhəmiyyəti: Cavan budaqları hörmə üçün yararlıdır. Qabığında aşı maddəsi vardır. Yarpaqlarından sarı-küləş rəngi almaq olur. Dekorativ əhəmiyyəti vardır.

Beşyuvalı yemişan
Crataegus pentagyna Waldst. & Kit.



Çiçəkləri

Yarpağı

Çəyirdək

Hündürlüyü 5-6 (8) m olan ağac və ya hündür koldur. Budaqlarının qabığı boz rənglidir. Cavan budaqları xovlu tüklüdür, bəzən demək olar ki, çılpaqdır. Tikanları nazik, çoxsaylı, uzunluğu 5-10 mm-dir.

Yarpaq: Yarpaqları üst tərəfdən tünd-yaşıl rəngli, parıldayan, tüklüdür, alt tərəfdən daha açıqdır, qismən tüklüdür, bəzən, yumşaq keçə tüklüdür, nadir halda tamamilə çılpaqdır, qaidə hissəsi pazşəkilli kəsilmiş, görünüşünə görə yumurtaşəkillidir, 3-5 (7) bölümlüdür; bölümləri enli, küt və ya sivriləşmişdir, uc hissəyə yaxın sivri-dişlidir.

Çiçək: Çiçəkləri mürəkkəb çoxçiçəkli qalxan çiçək qrupunda toplanmışdır. Çiçək qrupunun budaqları, saplaq, çiçək yatağı qismən tüklüdür, bəzən keçə-tüklüdür. Tac ağ rəngdədir, diametri 13-17 mm-dir.

Meyvə: Meyvələri şarşəkilli, qara rəngli, göyümtül təbəqəlidir və qırmızımtıl lətlidir, uc hissədə quru, düzduran kasa yarpaqlıdır. Çəyirdəyi 3-5 ədəddir, demək olar ki, hamardır.

Çiçəkləməsi: May

Meyvə verməsi: Sentyabr-Oktyabr (Noyabr)

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan - Əyriçay, Kür-Araz oval., Kür düz., KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Işıqlı meşələrdə, meşə kənarında, kollu cəngəlliklərdə. Qrup halında və səpələnmiş halda rast gəlinir.

Meyvələri

Adi başınağacı
Viburnum opulus L. - var. *V. edule* Michx.

Çiçəkləri

Yarpağı



Hündürlüyü 3-4 (5) m-ə çatan, enliyumurtaşəkilli çətiri olan koldur. Budaqları çılpaqdır. Qabığı yaşılımtıl-boz rənglidir, qırışlı və ya az hallarda hamardır. Tumurcuqları pulcuqludur.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, uzunluğu 5-12 sm-dir, dəyirmi və ya yumurtaşəkilli-dəyirmidir, yuxarı yarısında üç bölümlü və bundan başqa iri kəsilmiş -dişli olub, çılpaqdır, qaidə hissəsində xırda qılşəkilli yalançı zoğları vardır. Saplaları çılpaqdır, yuxarı hissədə oturaq vəziciklidir, aşağı hissədə isə vəziciklər oturaq deyil, ayaqcıq üzərindədir.

Çiçək: Çiçəkləri ağ rəngli, ətirli olub, iri, sıx olmayan qalxanaoxşar yastı çiçək qrupunda toplanmışdır, orta çiçəkləri kiçik, ikicinsli düzgün olub, qıfaoxşar-zınqırovvari tacı vardı, kənar çiçəklər isə bar verməyən, iriləşmiş ağappaq çarxşəkilli bölümlü tacı vardır.

Meyvə: Meyvələri giləmeyvəyə bənzər olub, lətli, ovaldır, parlaq-qırmızı rəngdədir, dadı acıdır, diametri 8-10 mm-dir. Toxumları təkdir və yastıdır.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəz, Lənk. dağ. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, çayların sahilində, kolluqlar arasında, meşə sahələrində, səpələnmiş halda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir. Qabığında aşı maddəsi vardır. Dekorativ koldur.

Meyvələri

• Aşı sumaq
• *Rhus coriaria* L.

Hündürlüyü (1) 2-3 (5) m olan koldur. Cavan zoğların qabığı açıq-qəhvəyi yumşaq tüklüdür.
Yarpaq: Yarpaqlarının uzunluğu (10) 12-22 sm olub, qışda tökülən dir, növbəli düzülmüş, təklələk-varidir, 9-17ədəd yarpaqcıqdan ibarətdir, darqanadlı oxun yuxarı hissəsində; yarpaqcıqların uzunluğu 3-6 sm olub, oturaqdır, uzunsov-neştərvari, uzunsov-yumurtaşəkilli və ya yumurtaşəkillidir, kənarları mişarvari-dişcikli və ya küt-dişcikli, demək olar ki, dairəvi-dişlidir üst tərəfdən tünd-yaşıl, alt tərəfdən tutqun-yaşıl, bəzən bozumtul-ağ rəngdə olur, hər iki tərəfdən və ya əsasən alt tərəfdən qısa tükcüklü, təpə hissədə sivriləşmiş və ya kütdür.
Çiçək: Çiçəkləri müxtəlifcinsli, xırda, yaşılımtıl-ağ rəngdədir və təpə hissədə piramidaşəkilli-süpürəvari çiçək qrupunda toplanmışdır.
Meyvə: Meyvələri qonurtəhər-qırmızı rəngli, dairəvi-böyrəkşəkilli formada olub, qırmızı vəzili-tükcüklərlə sıx örtülmüşdür, diametri 5-6 mm-dir. Toxumları qonur, parıldayan və çox bərkdir.
Çiçəkləməsi: May-İyul
Meyvə verməsi: Sentyabr-Oktyabr
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Qobustan bozqır (düz.), Kür-Araz düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. düz., Nax. dağ., Lənk. oval., Lənk. dağ. Orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşələrdə, meşənin ətrafında, daşlı-qayalı yerlərdə rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Aşı və boyaq əhəmiyyətli bitkidir. Qida üçün istifadə olunur. Təzə yarpaqlarından alınan məlhəm yel, podaqra, qəbizlik, iflic və s. xəstəliklərdə istifadə olunur. Dekorativ bitkidir.

Çiçəkləri

Yarpağı

Meyvələri

Qara gəndalaş
Sambucus nigra L.

Çiçəkləri


Meyvələri

Yarpağı

Hündürlüyü 3-5 m olan, qollu-budaqlı kol, bəzən hündürlüyü 5-8 m olan balaca ağacdır.
Cavan budaqları hamar, əvvəlcə yaşıl, daha sonar isə yaşılımtıl-boz olur. Yaşlı budaqların qabığı boz-kül rənglidir, uzununa çatlaqdır. Budaqların özəyi ağ və çox yumşaqdır. Yalançı zoğları xırda və yumurta-şəkillidir.
Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, mürəkkəb, tək lələkvari, tünd-yaşıl rəngdədir, 5 (7) ədəd yarpaqcıqdan ibarətdir; yarpaqcıqlar uzunsov-oval və ya yumurtaşəkilli-ovaldır, uc hissədə dartılımış sivriləşmişdir, kənarları qeyri-bərabər mişarlı, çılpaq və ya alt tərəfdən nəzərə çarpan damarlı olub, qısa tüklüdür.
Çiçək: Çiçəkləri uc hissədə yerləşmiş, yastı, çoxçiçəkli, qalxanşəkilli-süpürgəvari çiçək qrupunda toplanmışdır, biri kənardadır, oturaqdır, digərləri çiçək saplağındadır; çiçəkləmədən sonar çiçək qrupu sallaq vəziyyətdə olur. Tac sarımtıl-ağ rəngdədir, diametri 5-6 mm-dir, ətirlidir.
Meyvə: Meyvələri lətlidir, qara-bənövşəyi rəngli, parlaqdır, 2-4 ədəd yastı uzunsov, köndələn-qırışlı çəyirdəklidir.
Çiçəkləməsi: May-İyul
Meyvə verməsi: İyul-Sentyabr
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına, bəzən yuxarı dağ qurşağına qədər.
Yaşayış mühiti: Nəmli, qaranlıq, daşlı dərələrdə, meşəli dağ dərələrində, yamacların yarpaqlı meşələrinin kolluqlarında, meşə kənarında səpələnmiş və qrup halında rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Dərman əhəmiyyətli və zəhərli bitkidir. Tərkibində zülal və aşı maddəsi, efir yağı, alma turşusu və s. vardır. Yetişmiş meyvələrindən bəzən yeyinti sənayesində ziyansız boya kimi istifadə olunur. Dekorativ bitkidir.

Kolvari yasəmən

Jasminum fruticans L.

Hündürlüyü 0,6-1,5 m olan, çubuğabənzər, hamar, yaşıl budaqlı, düzduran koldur.

Yarpaq: Yarpaqları çılpaq olub, üç, nadir hallarda iki və ya bir yarpaqdan; kənar yarpaqları oturaq və ya demək olar ki, oturaqdır, uzunsovdur, yuxarı yarpağı güclü daralmış, bölümlü və saplaq üzərindədir.

Çiçək: Çiçəkləri sarı rənglidir, ətirli deyil, 2-4 ədəd yarımçətirlərlə kənar budaqların qurtaracağında yerləşmişdir. Tac sarı rənglidir, dar borucuqludur, uzunluğuna görə kasacıqdan iki dəfə böyükdür və enli beşbölümlü büküşlüdür; büküşlərin payları kütdür və borucuqdan iki dəfə uzundur.

Meyvə: Meyvələri qara giləmeyvədir, diametri 5-9 mm-dir.

Çiçəkləməsi: Aprel-İyun

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, gilli-çınqıllı yamaclarda rast gəlinir. Bir neçə qruplarda ardıc ağacından ibarət seyrək meşələr hündürlüyü 30-40 (100 sm-ə qədər) sm olan sıx yarus əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ ağacdır. Daşlı-çınqıllı yamacların möhkəmləndirilməsi üçün yararlıdır.

Çiçəkləri

Meyvələri


Yarpağı

LİANLAR

• Pastuxova daş sarmaşığı
• *Hedera pastuchowii* Woronow.

Dırmaşan koldur. Cavan budaqları seyrək tükcüklərlə örtülmüşdür ki, bu tükcüklər də yastı ulduzaoxşar sarı pulcuqlar şəklindədir.

Yarpaq: Yarpaqları adətən qalın dəricikli, bəzən isə nazik dəricikli olur, üst tərəfdən tünd-yaşıl, alt tərəfdən açıq rəngli, hər iki tərəfdən çılpaq və yaxud alt tərəfdə seyrək ulduzabənzər pulcuqları vardır, uzunluğu 13 sm-ə, eni 7 sm-ə qədərdir, iysizdir. Yarpaqların forması dəyişkəndir: yerə sərilən budaqların yarpaqları dairəvi-ürəkşəkilli və tamkənarlıdır. Dırmaşan budaqların yarpaqları isə uzunsov-yumurtaşəkilli və neştərşəkilli formaya qədər, qaidə hissəsi dərin ürəkşəkillidən kəsilmiş və pazşəkilli formaya qədər dəyişir, tamkənarlı və ya bölümlüdür.

Çiçək: Çiçək qrupu şaraoxşar çətir şəklindədir. Çətir 5-20 ədəd çiçəkdən ibarətdir, uzunluğu 2-6 sm olan nazik uzun saplaq üzərindədir, tək və yaxud 3-8 salxımlıdır. Bütün çiçək qrupu ləçəklərin xarici tərəfilə birlikdə ulduzabənzər sarı-qonur pulcuqlarla sıx örtülmüşdür.

Meyvə: Meyvələri qara rəngli, diametri 6-10 mm-dir.

Çiçəkləməsi: Avqust-Oktyabr

Meyvə verməsi: Dekabrdan gələn ilin yayına qədər.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Lənk. oval., Lənk. dağ. Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yüksək dekorativli dırmaşan koldur, yaşıllaşdırmada istifadə olunur.

Çəyirdək


Yarpağı

Meyvələri

Çiçəkləri

Adi doqquzdon
Lonicera caprifolium L.

Meyvələri

Yarpağı

Çiçəkləri

Hündür olmayan, gövdəsi sarmaşan və ya dırmaşan koldur.

Yarpaq: Yarpaqları qısasaplaqlı, bərk, oval, və ya ellipsvaridir, tamkənarlı, çılpaq, göyümtüldür, uzunluğu 3,5-10 sm, eni 3-6 sm-dir; yuxarı yarpaqları dəyirmi-ovaldır, cüt-cüt birləşərək kasaşəkilli forma əmələ gətirir.

Çiçək: Çiçəkləri ətirlidir, iridir, oturaqdır, bir neçə ədəd olmaqla çiçək köbəsində yerləşmişdir. Tac çəhrayıtəhər, sarımtıl və ya sarımtıl-ağ rəngdə olub, uzunluğu 5 sm-dir, uzun qırmızımtıl, xaricdən tükcüklü və ya demək olar ki, çılpaq borucuqlu və 5 bölümlü büküşləri olan uzunsov hissələri vardır.

Meyvə: Meyvələri qırmızımtıl-narıncı rəngli giləmeyvədir. Toxumları ellipsvaridir.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyun-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəz, KQ cənub. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Çay və kiçik çay sahillərində, kolların arasında, işıqlı meşələrdə və meşə ətrafında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ məqsədlə istifadə olunur.

Yunan güyəmə
Periploca graeca L.

Hündürlüyü 15-25 m olan, dırmaşan kol liandır. Gövdə digər ağaclara sarmaşaraq hündürə qalxır. Qabığı çəhrayımtıl-boz rəngdədir, ziyilli mərciməklidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıyadır, qalın dərilidir, yumurtaşəkilli, yumurtaşəkilli-neştərvari və yaxud neştərvaridir, orta damarı seçilməndir, çılpaq və qısa saplaqdadır; aşağı yarpaqlar adətən küt, yuxarı yarpaqlar isə sivridir.

Çiçək: Çiçəklər 2-7 sayda çiçəkdən ibarət seyrək yarımçətirlərdə toplanmış və budağın sonunda yerləşir. Çiçək altlığı və saplağı seyrək tüklüdür. Tac qonurtəhər-yaşılımtıldır, diametri 1,5-2 sm-dir, hissələri uzunsovdur, kütdür, kənarları və qaidə hissəsi ağ tüklüdür; bölümləri qısa sapşəkillidir, tacın payları ilə növbələşir. Toxumları tünd-qonur rəngli, milşəkilli və uzunluğu 10-12 mm-dir, bir tərəfində uzun fır vardır, sonunda parlaq, ağ ipəyəoxşar kəkili vardır.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyul-Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, Lənk. dağ., Alazan-Əyriçay, Kür-Araz oval., Kür düz., Lənk. oval. Aşağı dağ qurşağına qədər.

Yaşayış mühiti: Çayın aşağı tərəflərində, çay sahilində, kolluqlar arasında rast gəlinir; ağac və kollara dırmaşaraq onların gövdəsinin yuxarısına qədər qalxır.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitkidir. Şirəsində kauçuq və qatran vardır. Qabığı bir neçə ürək xəstəliklərində əhəmiyyətli sayılır. Dekorativ bitkidir.



Hündür mərəvcə
Smilax excelsa L. (*S. panduriformis* D. Aliev)



Kol-liandır. Gövdəsi dırmaşandır, möhkəmdir, çılpaqdır, uzunluğu 15-20 m-ə qədərdir, iti tikanlarla təchiz olunmuşdur.

Yarpaq: Yarpaqları növbəli düzülmüşdür, yumurtavari-ürəkşəkillidir, uc hissədə sivriləşmişdir, qısa saplaqşəkillidir, iki ədəd bığcığı saplağın qaidə hissəsindən yuxarıdadır.

Çiçək: Qoltuq yarımçətirlərdəki çiçəklər uzunluğu 1,5-2 sm olan çiçək saplağı üzərindədir. Çiçəkyanlığı altı yarpaqlıdır, geniş açılmış və yaşılımtıldır.

Meyvə: Meyvəsi qırmızı rənglidir, şarşəkillidir, 1-3 yuvalı giləmeyvədir.

Çiçəkləməsi: May

Meyvə vermə: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Kür-Araz oval., KQ şimal, Lənk. dağ., Lənk. oval. Ovalıqlarda və aşağı dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşə kənarlarında, rütubətli qaranlıq yerlərdə, qırılmış meşələrdə, çay yanındakı meşələrdə, bağlarda, kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yazda çıxan cavan zoğları qidada istifadə olunur, tikandan təmizlənmiş gövdəsi həsir düzəltmək üçün istsfadə oluna bilər.

Şiş sinanxium
Cynanchum acutum L.,

Hündürlüyü 20-150 sm olan çoxillik ot bitkisidir. Gövdəsi uzun, sarmaşandır.

Yarpaq: Yarpaqları ürəkşəkilli-üçkünc və ya yumurtaşəkilli-ürəkşəkillidir, uc hissəsi küt, qaidəsi dərin ürəkşəkillidir, çılpaq, tünd göy rəngdədir, saplağı 3-7 sm-dir.

Çiçək: Çiçəkləri sıx və yaxud yumuşaq, sadə və ya budaqlanmış çətirəbənzər çiçək qrupundadır. Tacı çəhrayı və yaxud ağ rəngdədir, diametri 5-7 mm-dir, uzunluğu 4-5 mm olan uzunsov küt bölümlüdür.

Meyvə: Toxumları yumurtaşəkilli, yastılaşmış uzunluğu 5-7 mm olub açıq qonur rəngdədir, uc hissədə uzun ipək kimi tüklər dəstəşəkillidir.

Çiçəkləməsi: İyun-Avqust (Sentyabr)

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Xəzəryanı, Abşeron, BQ şərq, Kür-Araz oval., Kür düz., Alazan-Əyriçay, Lənk. oval., KQ cənub, KQ şimal, Nax. düz. Ovalıqlarda və dağətəyi yerlərdə, nadir halda aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: suvarma kanallarının sahilində, kollu cəngəlləklərdə, çay və meşə kənarında, dəniz sahilində, alaqlı yerlərdə, səpələnmiş və qrup halında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitkidir. Yarpaqlarının parenxim hüceyrələrində kauçuk vardır.


Çiçəkləri


Yarpağı

Üzümyarpaq ağəsmə
Clematis vitalba L.

Çiçəkləri

Yarpağı

Meyvələri

Toxum

Gec oduncaqlaşan, uzun, nahamar, buğumlarda tüklü gövdəsi olan dırmaşan koldur.

Yarpaq: Yarpaqları uzun saplaqda yerləşib, birqat lələkvari, adətən 2 cüt və 1 tək yarpaq yerləşmiş qısa saplaqlı hissələri; yumurtaşəkillidir, qaidi hissəsi az ürəkşəkillidir, tam kənarlı, iri dişlidir və yaxud düzgün olmayan hissəyə bölünmüşdür, əsasən damarlar boyunca tüklüdür.

Çiçək: Çiçəkləri mürəkkəb qalxanvari qoltuq çiçək qrupunda toplanmış və çoxsaylıdır. Çiçək yanlığının yarpaqcıqlarının uzunluğu 1 sm-ə qədər olub, ağ və yaxud sarımtıl rəngli, uzunsov, küt, hər iki tərəfdən sıx ağ keçə-tüklüdür.

Meyvə: Toxumlarının uzun lələkli-tüklü sütuncuğu vardır.

Çiçəkləməsi: Iyun

Meyvə verməsi: Iyun-Iyul

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay. Ovalıqda, aşaqı dağ qurşağında, əsasən cənub yamaclarda.

Yaşayış mühiti: Əsasən meşənin aşağı hissələrində, aşağı dağ qurşağı meşələrində, kolluqlarda, çəpərlərin dibində və çay sahillərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ əhəmiyyəti vardır. Yarpaqlarında A vitamini, çiçəklərində efir yağları vardır. Cavan zoğları yeməlidir. Gövdəsi səbət hörülməsində, alt qabığı (floema) kəndir hörülməsində istifadə olunur.

Şərq ağəsmə
Clematis orientalis L. (*Viticella orientalis* (L.) W. A. Weber)

Dırmaşan gövdəli, çox hallarda qırmızımtıl rəngi olan koldur.

Yarpaq: Yarpaqları tünd göy, sarımtıl rənglidir, birqat-lələkvari, yumurtaşəkilli, uzunsov və yaxud neştərvari, üç hissəyə bölümlü, tamkənarlı və ya dişli, küt yaxud iti qurtaracaqlıdır.

Çiçək: Çiçəkləri süpürgə çiçək qrupunda toplanmışdır.

Meyvə: Toxumlarının uzunluğu 5-10 sm, uzun, lələkvari-tükcüklü sütuncuğu vardır.

Çiçəkləməsi: İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Samur-Şabran oval., Xəzəryanı, Kür-Araz oval., Kür düz., Alazan-Əyriçay, BQ şərq, BQ qərb, KQ şimal, KQ cənub, Nax. dağ. Ovalıqlarda və aşağı, az hallarda orta dağ qurşağında, əsasən quraqlıq rayonlarda.

Yaşayış mühiti: Sahilyanı meşələrdə, kanal boyunca, çəpərlərin kənarında, kolluqlarda, çay və arx kənarlarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir.

Çiçəyi


Yarpağı

Meyvələri

Adi xamırmaya
Humulus lupulus L.



Çoxillik sarmaşan bitkidir. Gövdəsi sarmaşan, nadir hallarda sərilən, dördtillidir, sivri kələkötür və uzunluğu 3-6 m-dir.

Yarpaq: Yarpaqları bütöv və yaxud 3-5 bölümlüdür, qaidə hissəsi dərin ürəkşəkillidir, ucu sivriləşmiş, kənarları iri dişlidir.

Çiçək: Dişicikli çiçəklərin çiçəkyanlığı meyvə verənə yaxın birtərəfli böyüyəndir, qanadşəkillidir, xırda oturaq vəziciklərlə örtülüdür, qaidə hissəsində fındıqcanı əhatə edir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-İyul.

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Alazan-Əyriçay, BQ şərq, BQ qərb, KQ, Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda, çox vaxt çayların sahilində, hasarlar boyunca rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tibbdə istifadə olunur, cavan zoğları yazda qidada istifadə olunur. Gövdəsi kəndir, kağız və s. hazırlanması üçün yararlıdır.

Meşə üzümü
Vitis silvestris C. C. Gmel.

Kolvari liandır. Qabığı bozumtul-qonurdur, nazik sırımlıdır.

Yarpaq: Yarpaqları növbəli düzülmüşdür, ümumi görünüşü dəyirmii, köndələn-oval və ya böyrəkşəkilli formadadır, uzunluğu 5-9 sm-dir, 3 (5) bölümlüdür və ya az kəsilmişdir, kənarları qeyri-bərabər iti dişlidir, enli, bəzən dar, açıq saplağabənzər kəsilmiş parçalıdır. Yarpaqları çılpaq və ya yarpağın əsasən alt tərəfi cod və ya qarışıq tüklərdən ibarət torvari tüklərlə örtülmüşdür.

Çiçək: Çiçəkləri ikievlidir. Çiçəkqrupu mürəkkəbdir, boşdur. Salxımları barvermə zaman yumşaq, şaxəli, əyilmiş formada olub, uzunluğu 10-15 sm-dir.

Meyvə: Giləmeyvələri qaramtıl-göy rəngdədir, şarşəkilli, göy, bəzən ağ ləkəlidir,diametri 6-8 (10) mm-dir, bərk dəricikli, lətli, adətən turş dadı olur. Giləmeyvənin toxumları 1-4 sayda olur, xırdadır, yumurtaşəkillidir, boz-qırmızımtıl rəndədir, uzunluğu 1 mm-ə qədər olan qısa buruncuqludur.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, Kür-Araz oval., KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. oval. Lənk. dağ. Ovalıqdan aşağı dağ qurşağına qədər, nadir hallarda orta dağ qurşağında.

Yaşayış mühiti: Subasar yerlərdə, çay kənarında, aran meşələrində lianlar kimi və kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yetişmiş meyvələri yeməlidir. Yetişməmiş meyvələrindən ədviyyat kimi istifsdə etmək üçün marinad hazırlanır.



OTLAR

Çöl qatırquyruğu
Equisetum arvense L. (*E. arvense* subsp. *boreale* (Bon.)Tolm., *E. boreale* Bong.)

Kökümsovları uzun, sürünən, budaqlanandır, qaramtıl-qonur rənglidir, torpağın dərinliyinə kök salır, çox vaxt diametri 1 sm olan şarşəkilli kökyumrusu olan bitkidir. Veqetativ zoğlarının hündürlüyü 15-30 (50) sm, qalınlığı 1-3 mm-dir, yaşıl rəngli, şırımlıdır və 6-10 (19) sayda qabırğası vardır. Üçkünc-neştərşəkilli, qaramtıl və ağ-haşiyələnmiş dişcikləri (hansıki qının borucuğundan ikiqat qısadır) olan silindrik formalı qın, gövdəni çox da sıxmamış, uzunluğu 5-12 mm-dir. Budaqları 3-4 tillidir, möhkəm və kələ-kötürdür, yuxarı hissədə çox vaxt bayır tərəfə əyimiş dişciklərə malikdir. Spordaşıyan zoğları sadədir və hündürlüyü 15-30 sm olub, qırmızımtıl və yaxud qonurtəhər rəngdədirdir və lətlidir.

Sünbülcüklər nazik, silindrik və uzunluğu 3,5 sm olan saplaq üzərində oturmuşlar. Çoxillikdir.

Sporlaması: Mart-Aprel

Azərbaycanda yayılması: Xəzəryanı, Qobustan, BQ (Quba), Kür düz., Kür-Araz oval., KQ şimal, KQ cənub. Ovalıqdan, subalp qurşağına qədər.

Yaşayış mühiti: Rütubətli yerlərdə, çayların sahilində, dağ yamaclarında, əkin sahələrində, bağlarda və dincə qoyulmuş torpaqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Qatırquyruğunun kök yumrularında nişasta boldur, yeyilir. Budaqlarında və gövdəsində kremnezem olduğuna görə ondan ağac məmulatlarını parıldtamaq üçün istifadə olunur. Eynin zamanda qatırquyruğu boyaq üçün, xalq təbabətində dərman kimi istifadə olunur.

Strobili

Yay budağı

Spor daşıyan yaz budağı

Skolopendrvari calovçik
Phyllitis scolopendrium (L.) Newm.
Asplenium scolopendrium L.)

Yarpaqların alt hissəsində sorusların düzülüşü

Hündürlüyü 12-60 sm olan, kökümsovu qısa bitkidir.

Yarpaq: Yarpaq ayası xətvari-neştərşəkilli, tamkənarlı, qalındərili, çılpaqdır, qaidə hissəsi ürəkşəkilli olub, saplağı qısadır; saplaqları ensiz-neştərvari, təpə hissədə gərilmiş, açıq-qonur rəngli dəriciklə ortülüdür.

Sorus: Soruslar bir-birinə paralel cərgələrlə yerləşmişlər, adətən yarpaq ayasının kənarına və yarpağın orta damarına qədər gəlib çatmır. Sporlar qonurdur, böyrəkşəkillidirlər. Çoxillikdir.

Sporlaması: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Abşeron, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk .dağ., Lənk. oval. Aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, əsasən kölgəli yaşayış yerlərində rast gəlinir.

Şimal qamçılıca
Asplenium septentrionale (L.) Hoffman.

Çoxillik kiçik bitkidir. Kökümsovu qısadır.
Yarpaq: Yarpaqları qalın dərilidir, çılpaqdır, uzun saplaqda rozetlə birgə kökümsovlardan çıxır. Yarpaqların saplağı nazikdir, şırımlıdır. Yarpaqlar saplağın orta hissəsindən yuxarıda 2-5 ədəd xətvari-dartılmış saplaqcıq üzərində olan seqmentlərə bölünmüşdür; seqmentlər sivriləşmiş, tamkənarlı və yaxud uc hissədə ensiz dilimli olub, çəngəlvaridir.
Sorus: Sorusları yarpaqların aşağı tərəfinin bütünlüklə örtür; örtükləri tamkənarlıdır; sporlar qonur rənglidir, oval-böyrəkşəkillidir.
Sporlaması: İyul-Avqust.
Azərbaycanda yayılması: BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. Aşağı dağ qurşağından subalp qurşağına qədər.
Yaşayış mühiti: Meşəli və meşəsiz rayonlarda, qayaların yarıq yerlərində, daşlı yerlərdə rast gəlinir.

Adi şirinkök

Polypodium vulgare L. (*P. vulgare* subsp. *issaevii* A. Askerov & A. Bobr., *P. nipponicum* auct., *P. someyae* auct.)

Hündürlüyü 10-50 sm olan, çox vaxt yerüstü kökümsovları sürünən və qonur təbəqə ilə sıx örtülmüş bitkidir.

Yarpaq: Yarpaq ayası görünüşünə görə uzanmış-neştərşəkillidir, qalın dəriciklidir; yuxarı hissəyə doğru seqmentlər tədricən daralan, dartılmış və ya dəyirmiləşmişdir, tamkənarlıdır və yaxud qeyri-müəyyən mişarvaridir, qaidə hissəsinə doğru birləşmişdir; ikinci dərəcəli damarlar ikiqat-çəngəlvaridir, əsas damardan enli, demək olar ki, düz bucaq altında çıxır. Saplaq yarpaq ayasından qısadır.

Sorus: Sorusları dəyirmidir, orta damara yaxın yerləşmişlər; sporlar sarımtıldır, çox və ya az qabarıqdırlar. Çoxillikdir.

Sporlaması: İyul-Avqust.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Qob., Kür-Araz oval., KQ mərkəzi, KQ şimal, KQ cənub, Lənk. dağ., Lənk. oval.

Yaşayış mühiti: Qayalıq yerlərdə, daşlar arasında, meşələrdə, daş binalarda və sökülmüş yerlərdə, bəzən gövdə və kötüklərdə rast gəlinir. Meşəli rayonlarda üstünlük təşkil edir.

Təsərrüfat əhəmiyyəti: Kökümsovunun tərkibində aşı və alma turşusu qlisirizin, santozin vardır. Tibbdə istifadə olunur. Dekorativ bitkidir.

Yarpaqların alt hissəsində sorusların düzülüşü



• Tükvari qamçılıca

• *Asplenium trichomanes* L. (*A. melanocaulon* Willd., *A. trichomanes* subsp. *bivalens* D. E. Mey.)

Hündürlüyü 3-35 sm olan sıx çimli bitkidir. Kökümsovu qaramtıl pulcuqvari nazik pərdəlidir.

Yarpaq: Yarpaqları birqat lələkvari bölünmüş; seqmentləri demək olar ki, oturaqdır, xırdadır, əksinəyumurtaşəkilli və yaxud əksinəoval-dəyirmidir, qaidə hissəsi pazvari və ya kəsilmiş, kənarlarları isə dairəvi dişciklidir. Yarpaqların saplaqları qaramtıl-qonur və ya qırmızımtıl-qara rəngdədir; ox üzərində yarpaq seqmentləri çoxsaylıdır.

Sporangi: Sporangilər uzunsovdurlar və demək olar ki, dilimlərin aşağı tərəfini örtür. Sporları qonur rəngdədir. Çoxillik bitkidir.

Sporlaması: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, Abşeron, BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ., Lənk.-oval. Əsasən aşağı və orta dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, daşlı yamaclarda, qaranlıq daşlıq yerlərdə və qayalarda rast gəlinir.

Aptek seterax

Ceterach officinarum Willd. = *Asplenium ceterach* L.

Yarpaqların alt hissəsində sorusların düzülüşü

Hündürlüyü 3-10 sm olan çoxillikdir bitkidir. Çim əmələ gətirir. Kökümsovu qısadır.

Yarpaq: Yarpaqları qısa saplaqlıdır, qalın dərilidir, görünüşünə görə neştərvaridir, birqat-lələkvari bölünmüşdür; seqmentləri tamkənarlı və ya az dairəvi-dişlidir, ovalvari-dairəvi, qalıntəhərdir, üst tərəfdən bozumtul-yaşıl rəndədir, çılpaqdır, alt tərəfdən üçbucaqşəkilli, qonur, pulcuğabənzər qabıqla sıx örtülüdür; buğumları növbəlidir, ox üzərində digər tərəfdəki oyuğa əks istiqamətdə yerləşmişdir.

Sorus: Sorusları pulcuğabənzər qabıqlar arasında gizlənmişdir; sporları ovalvari-böyrəkşəkillidir.

Sporlaması: İyul-Avqust (Sentyabr)

Azərbaycanda yayılması: BQ (Quba), Abşeron, Qob., BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ. Aşağı dağ qurşağından, subalp hündürlüyünə qədər.

Yaşayış mühiti: Əsasən quru, daşlı və qayalı yerlərdə rast gəlinir.

Marant yalançıörtük

Notholaena marantae (L.) Desv.
(*Cheilanthes marantae* (L.) Domin)

Hündürlüyü 6-60 sm olan çoxillik bitkidir. Kökümsovu üfüqi yerləşmişdir, budaqlanmışdır, yumşaq qəhvəyi nazik təbəqə ilə sıx örtülüdür.

Yarpaq: Yarpaq ayası görünüşünə görə neştərvari, ikiqat-lələkvari kəsilmiş, üst tərəfdən yaşıl, alt tərəfdən ensiz-neştərvari, sivri, qəhvəyi təbəqəlidir; ikinci cərgənin seqmentləri uzunsov, küt, tamkənarlıdır. Yarpaq saplağı uzun, tünd-qırmızı rəngdədir, qismən sıx qəhvəyiyə çalan nazik dəriciklə örtülmüşdür.

Spor: Sporları qonur rənglidir, küt iynəlidir.

Sporlaması: İyul-Sentyabr

Azərbaycanda yayılması: Qobustan, BQ şərq, Kür düz., KQ mərkəzi, KQ cənub. Aşağı dağ qurşağından orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru daşlı-qayalı yamaclarda, kolluqların daşlı yerlərində, qaya yarıqlarında rast gəlinir.

Qara qamçılıca
Asplenium adiantum-nigrum L.

Yarpaqların alt hissəsində soruslarının düzülüşü

Hündürlüyü 8-45 sm olan bitkidir. Qurumuş yarpaqların saplaqlarının qalıqlarını üzərində daşıyan kökümsovu qısadır.

Yarpaq: Yarpaqları görünüşünə görə neştərvari və ya üçkünc-ovaldır, sivriləşmiş və parlaqdır. Yarpağın saplağı dairəvi və ya şırımlıdır, yuxarı hissəsi yaşılımtıl və yaxud qırmızımtıl-qonur, aşağı hissəsi qara və ya qırmızımtıl-qara rəngdədir. Birinci cərgənin seqmentləri uzanmış-oval, pazşəkillidir, saplaq üzərindədir, ikinci cərgənin seqmentləri isə uzunsov-ovaldır, qaidə hissəsi pazşəkilli, axırıncı dilimləri sivri-dişlidir.

Spor: Sporları xətvaridir, örtükləri tamkənarlıdır.

Sporlaması: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Aşağı və orta dağ qurşaqlarında, əsasən meşə zonalarında.

Yaşayış mühiti: Meşələrdə, daşlı yerlərdə, yamaclarda rast gəlinir.

Dilimli cərgəvər

Polystichum lobatum (Swartz) Presl. = *P. aculeatum* (L.) Roth

Hündürlüyü 25-100 sm olan çoxillik bitkidir.
Yarpaq: Yarpaq ayası sərt dərilidir, ikiqat lələkvaridir, qısı keçirən, qaidəsinə doğru daralandır; ikinci cərgənin seqmentləri uzanmış-ellipssəkillidir, sivridir, qısa qalın saplaq üzərində çəpinə yerləşmişdir və ya demək olar ki, oturaqdır, qaidəsində sivri qulaqcıqlıdır, mişarvari-qılcıqlıdır. Saplaqları adətən qonur iri dəriciklə örtülüdür.
Sorus: Soruslarları ovaldır, iridir, barverən damarcıqların orta hissəsindən yuxarıda yerləşmişdir.
Sporlaması: İyul-Sentyabr
Azərbaycanda yayılması: BQ (Quba), Qob., Abşeron, (Bilgədə quyuların divarında), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. oval. Aşağı və orta dağ qurşağında.
Yaşayış mühiti: Qaranlıq meşələrdə, çay dərələrində, əsasən daşlı və qayalı yerlərdə rast gəlinir.

Yarpaqların alt hissəsində sorusların düzülüşü

Tavr-vel

Pteridium tauricum V. Kraez. (*Allosorus tauricus* C. Presl,

Hündürlüyü 2 m-ə qədər olan çoxillik bitkidir. Kökümsovu qaramtıl-qonur rəngdədir, sürünəndir.

Yarpaq: Yarpaqları uzun saplaq üzərindədir. Yarpaq ayası qalın dərilidir, deltaşəkilli-oval, yaşıl rəngdədir, iki-üç dəfə lələkvaridir, aşağı tərəfdən yumşaq ipək kimi sarı-qırımızımtıl tüklərlə qismən sıx örtülüdür.

Səpələnməsi: Iyul-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. dağ, Lənk. oval. Ovalıqdan aşağı dağ qurşağına qədər, orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, bağlarda alaq kimi, çay dərələrində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Mal-qara, əsasən atlar üçün zəhərli bitkidir. Cavan zoğları *P. aquiliunum* (L.) Kuhn növünə yaxındır və bəzi ölkələrdə qidada istifadə olunur.

Alman dəvəquşu lələyi, Qara ayıdöşəyi

Struthiopteris filicastrum All. = *Matteuccia struthiopteris* (L.) Tod.

Hündürlüyü 40-130 sm olan, yeraltı zoğları yaxşı inkişaf etmiş iri bitkidir.

Yarpaq: Artıb törəyən yarpaqları artmayanlardan qısadır, novşəkilli qalın saplaqlıdır, lələkvari, xətvari sıx seqmentlidir,qonurdur. Artmayan yarpaqları yaşıldır, ayası enli, ikiqat-lələkvari-bölünmüşdür; birinci sıranın seqmentləri xətvari-neştərvaridir , sivriləşmişdir, ikinci sıranın seqmentləri oturaqdır, tamkənarlıdır, çəpinə əyilmişdir və 30 cütə yaxındır. Saplağı şırımlı-qanadlıdır.

Sorus: Sorusları dəyirmidir. Çoxillikdir.

Sporlaması: Avqust-Sentyabr.

Azərbaycanda yayılması: BQ qərb, BQ şərq, Lənk. oval. Ovalıqdan, yüksək dağ qurşağına qədər.

Yaşayış mühiti: Rütubətli qaranlıq meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Kökümsovları xalq təbabətində qurdqovucu vasitə kimi istifadə olunur.

• Natamam limodorum
• *Limodorum abortivum* (L.) Sw.

Hündürlüyü 30-60 (80) sm olan çoxillik bitkidir. Kökümsovu qısadır, üfiqi yerləşmişdir, çoxlu qalın kökləri vardır. Gövdəsi qalın, yaşılımtıl bənövşəyi rənglidir, köndələn, sivriləşmiş, qonur rəngli qınla örtülmüşdür.

Çiçək: Çiçək qrupu iridir, 6-20 ədəd çiçəkdən ibarət boş salxım şəklindədir. Çiçəyi iridir, bənövşəyi rəngdədir, uzunluğu 20-25 mm-dir. Çiçəkyanlığının yarpaqcıqları neştərvari, rəngi çəhrayıdır. Mahmızı nazikdir, uzunluğu 15 mm-dir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür-Araz oval., KQ mərkəzi, Lənk. dağ. Aşağı dağ qurşağında, həmçinin orta dağ qurşağına keçir.

Yaşayış mühiti: Qırılmış meşələrdə, kolluqlar arasında, meşə ətrafında rast gəlinir.



Qafqaz qaş səhləbi

Ophrys caucasica Woronow ex Grossh. (*O. mammosa* Desf. subsp. *caucasica* (Woronow ex Grossh.)

Hündürlüyü 12-35 sm olan çoxillik bitkidir. Kök yumruları şarşəkillidir, diametri 0,8-1,5 sm-dir.
Yarpaq: Yarpaqları gövdənin əsasında bir yerə cəmlənmişdir, uzunsov-neştərvaridir.
Çiçək: Çiçəkyanlığının xarici yarpaqcıqlarının uzunluğu 10-12 mm-dir, uzunsov-neştərvaridir, sarımtıl-yaşıl rəngdədir, daxili yarpaqcıqları xətvari-neştərşəkillidir, yaşılımtıl-qonur rəngdədir; dodağı məxmər kimidir, görünüşünə görə enli oksinəyu-murtaşəkillidir, tünd qırmızı-qonur rəngdə olub, mavitəhər-bənövşəyi rəngli **H** hərfinə oxşar cizgisi vardır, bütöv və ya üç bölümlüdür, orta bölümü böyrəkşəkilli-ürəkşəkilli kiçik qabarlı törəməlidir, kənardakılar qısa olub, uzunsov-üçkünclü-dür.
Çiçəkləməsi: Aprel
Meyvə verməsi: Aprel-İyun
Azərbaycanda yayılması: Samur-Şabran oval., Abşeron, Kür-Araz oval., Kür düz., KQ cənub. Orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda, otlu yamaclarda, qayalar arasında rast gəlinir.


Çiçəyi

Yarpağı

• Atmilçək qaş səhləbi

• *Ophrys œstrifera* Bieb. (*O. scolopax* Cav. subsp. *œstrifera* (Bieb.)


Çiçəyi

Hündürlüyü 20-40 sm olan, onu həcmləndirən iki ədəd yaşıl rəngli uzanmış qını malik çoxillik bitkidir. Kök yumruları şarşəkilli və yaxud ellipsvaridir.

Yarpaq: Yarpaqları gövdənin qaidə hissəsində yerləşirlər, uzunsov-neştərvari və yaxud uzanmış-ellipsvaridir, uzunluğu 5-10 sm, eni 2-3 sm-dir.

Çiçək: Çiçək qrupu seyrək olub, 5-6 ədəd çiçəkdən ibarətdir. Çiçəkyanlığının xarici ləçəklərinin uzunluğu 12-14 mm-dir, açıq-bənövşəyi rəngli olub, 3 yaşıl damarı vardır; daxili ləçəkləri 3-4 mm, oval-neştərvari, bənövşəyidir, bir damarlıdır; dodağı məxmər kimidir, təpə hissədə qabağa çıxan qısa buynuzşəkilli törəməsi vardır, qonur rənglidir, bir neçə sarımtıl ləkələri vardır, dar açıq-sarı haşiyəli olub, dodaqların kənarı aşağıya doğru qatlanmışdır.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: Kür-Araz oval., Nax. düz., Lənk. oval. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda rast gəlinir.

Qırmızı tozbaş səhləb
Cephalanthera rubra (L.) L. C.Rich.

Hündürlüyü 20-60 sm olan çoxillik bitkidir. Kökümsovları kiçikdir,qalınlığı 1 sm-ə qədərdir. Gövdəsi yuxarı hissədə çiçək saplağında olduğu kimi sıx xırda vəzili-tüklüdür.

Yarpaq: Yarpaqları uzunsov-neştərvari, yuxarıdakılar daha ensiz, sivridir, kökətrafı yarpaqları qınlıdır.

Çiçək: Çiçəkləri iri, bənövşəyitəhər-çəhrayı olub, dodağı ağ rəngdədir, çiçək qrupunun ox hissəsindən əyilmişdir. Dodağı demək olar ki, çiçək yanlığının digər yarpaqcıqları ilə eynidir, arxa dilimi çökük, ön dilimi isə sivriləşmiş və yumurtaşəkilli-neştərvaridir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Qobustan, BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda və meşə kənarında rast gəlinir.

Kölgəlik vaxtsızotu
Colchicum umbrosum Stev.

Kökyumrulu soğanaqları dəyirmidir, diametri 1,5-2 sm-dir, uzun borucuğa keçən tünd-qəhvəyi rəngli qınla örtülüdür.
Yarpaq: Yarpaqları 3-5 ədəddir, neştərvari-kəmərşəkilli olub, kütdür.
Çiçək: Çiçəkləri xırdadır, 1-5 ədəddir, payızda əmələ gəlir. Çiçəkyanlığının dilimləri ellipsvari əksinəyumurta-şəkillidir, bənövşəyi və ya solğun-qırmızı rəngdədir.
Meyvə: Qutucuq ellipsvari-uzunsovdur, sivriləşmişdir.
Çiçəkləməsi: Avqust
Meyvə verməsi: Avqust-Sentyabr
Azərbaycanda yayılması: BQ (Quba). Orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşə kənarında, otlu yamaclarda və meşə içərisindəki çəmənlərdə rast gəlinir.

Payız burğu çiçəyi

Spiranthes spiralis (L.) Chevall. (*Ophrys spiralis* L. p.p., *Spiranthes autumnalis* (Balb.) Rich.)

Hündürlüyü 10-20 (35) sm, gövdəyə sıxılan bir neçə sivriləşmiş qınları və yuxarıya doğru daralmış kiçik kök yumruları olan çoxillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları enli-yumurtavari və sivridir, rozet əmələ gətirir.

Çiçək: Çiçək qrupu birtərəfli, sünbülşəkilli, oxu spiralvari burulmuş, vəzili-yumuşaq tüklüdür. Çiçək altlığı yumurtavari-neştərşəkilli, vəzili-tüklüdür. Çiçəkləri xırda, ağ rəngli, bayır tərəfdən yumşaq tüklüdür. Çiçək yanlığının xarici yarpaqcıqları küt, xətli neştərvaridir, daxili yarpaqcıqları isə dilcikşəkilli, novlu, orta hissədən yuxarısı bir az genişlənmişdir, az dalğavari kənarlıdır.

Meyvə: Kapsulu 5-7 mm uzunluqda, 2-4 (və ya 5) mm qalınlıqda, yumurtavari və saysız kiçik və çox yüngül toxumlarla doludur.

Çiçəkləməsi: Sentyabr

Meyvə verməsi: Oktyabr

Azərbaycanda yayılması: Lənk. dağ. (Lənk. rayonunun Qafqaz kəndi ətrafında S. Nenyukov tərəfindən 25/IX 1936-cı ildə toplanmışdır, Astara rayonunun Fensar kəndi ətrafında L. İ. Prilipko tərəfindən 10/X 1948-ci ildə toplanmışdır, İsmayıllı rayonu ərazisində, Göyçay çayı boyunca kolluqlarda E. S. Şükürov tərəfindən 25/IX 2015-ci ildə qeydə alınmışdır.

Yaşayış mühiti: Dağətəyi zolaqda və aşağı dağ qurşağında-kəsilmiş meşələrdə, kolluqlar arasında və otlu yamaclarda rast gəlinir.


Çiçəyi

Yarpağı və kök yumrusu

o Qafqazyanı inci çiçəyi

o *Convallaria transcaucasica* Utkin ex Grossh. (*C. majalis* L. subsp. *transcaucasica* (Utkin ex Grossh.) Bordz.)

Çiçəkləri


Yarpağı



Hündürlüyü 30 sm-ə qədər olan çoxillik bitkidir. Gövdəsi çiçək oxu şəklindədir.

Yarpaq: Gövdə yarpaqları 2-3 ədəd olmaqla uzun saplaqda yerləşmişdir, enli-elliptik formadan uzanmış uzunsov-neştərvari formayadək dəyişəndir, ən aşağıda yerləşmiş yarpaqlar ağ qın şəklindədir.

Çiçək: Çiçək salxımı boş olub, birtərəflidir, 6-20 ədəd çiçəkdən ibarətdir; pərdəşəkilli çiçək altlığının qoltuğundan çıxan çiçək saplağı qövsşəkilli-bükülmüşdür, əyilmiş şəkildədir.

Meyvə: Meyvəsi qırmızı giləmeyvədir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-İyun

Azərbaycanda yayılması: KQ (şimal)

Yaşayış mühiti: Dağ meşələrində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir. Dekorativ və efir yağlı bitkidir. Zəhərlidir.

• Xırdayarpaq mürgəgotu
• *Epipactis microphylla* (Ehrh.) Sw.

Hündürlüyü 15-40 sm olan çoxillik bitkidir. Kökümsovu kiçikdir. Gövdəsi qırmızımtıldır, yuxarı hissədə xırda tüklüdür.

Yarpaq: Yarpaqları xırda, adətən buğumaraları qısadır, neştərvaridir, kənarları kələ-kötür tüklüdür, uzunluğu 1,5-3,5 sm, eni 1 sm-ə qədərdir.

Çiçək: Çiçək qrupu seyrək salxımdır, oxunun uzunluğu 3-12 sm olub, sıx tüklüdür. Çiçəkləri xırda olub, zəif qərənfil ətri verir. Çiçəkyanlığının yarpaqcıqları sivridir, yaşılımtıl-qırmızı rəngdə olub, bənövşəyi çalarları vardır, daxildəkilər isə ağımtıl-yaşıldır. Dodağı kənarlardan ağımtıl, arxa tərəfi dərinləşmiş, ön tərəfdən isə ürəkşəkilli-yumurtavaridir.

Çiçəkləməsi: May

Meyvə vermə: May-İyun

Azərbaycanda yayılması: BQ şərq

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

Çiçək qönçəsi

Yarpağı

Qəşəng qayışləçək

Loroglossum formosum (Stev.) G. Camus & Bergen = *Himantoglossum formosum* (Stev.) C. Koch



Hündürlüyü 30-70 sm olan çoxillik, kökyumrulu bitkidir. Gövdəsi aşağı hissədə neştərvari-uzunsov, yastıtəhər sivriləşmiş yarpaqlıdır, yuxarıda sivriləşmiş qına malikdir.

Çiçək: Çiçək qrupu salxımşəkillidir, boş, çoxçiçəkli olub, uzunluğu 30 sm-ə qədərdir. Çiçəkaltlığı xətli-neştərvaridir, küttəhərdir. Çiçəkləri fırfır rəngdədir, əyiləndir, 12-30 ədəddir. Dodağının uzunluğu 25 mm-ə qədərdir, əksinə-pazşəkilli, fırfır, kənarları dalğalı, bəzən yaşılımtıl rəngdədir; yan dodaqları qısa, uzunsov, kütdür, ortadakılar isə dilşəkilli, təpə hissədə azacıq enliləşmiş və oyuqludur. Mahmız azacıq bükülmüş, silindrikdir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), Lənk. dağ. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına qədər. qədər.

Yaşayış mühiti: İşıqlı meşələrdə, meşə kənarında, kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Kök yumruları dərman alınması üçün istifadə oluna bilər.

o Şmalhauzen xıncalausu
o Ornithogalum Schmalhausenii Albov

Hündürlüyü 5-10 sm olan, gövdəsi zəif bitkidir. Soğanağı xırdadır, yumurtaşəkillidir, boz və ya tünd-qonur rəngli qabığı vardır.

Yarpaq: Yarpaqları ensiz neştərvaridir, çiçək qrupundan uzundur, çox vaxt oraqşəkili əyilmiş formada olur, tünd-yaşıl rəngdədir.

Çiçək: Çiçək qrupu çoxçiçəkli deyil, bəzən tək çiçəkli olur; çiçək altlıqları enli neştərvaridir, sivriləşmişdir, çiçək saplağı ilə eyni və ya ondan qısa olur. Çiçəkləri qismən iri olur: çiçəkyanlığının yarpaqcıqları uzunsov-neştərvari və yaxud xətvari-uzunsovdur, kütdür, uzunluğu 10-18 mm, eni 4 mm-dir, arxa tərəfində kifayət qədər enli, yaşıl zolağı vardır.

Meyvə: Qutucuq demək olar ki, şarşəkillidir.

Çiçəkləməsi: May-İyul

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Orta və yüksək dağ zolağında.

Çiçəkləri



Yarpaqları və soğanı

• Xəzər səhləbi
• *Orchis caspia* Trautv. (*Vermeulenia caspia* (Trautv.) A. & D. Löve)



Hündürlüyü 12-32 sm və daha hündür olan çoxillik bitkidir. Kök yumruları uzunsov-yumurtaşəkillidir, uzunluğu 2,8 sm, eni 1,7 sm-dir.

Yarpaq: Yarpaqları (gövdənin aşağı hissəsindəki) xətti-neştərvari olub, uzunluğu 9 sm, eni 1,5 sm-dir, bəzən uzununa yerləşmiş və oraqşəkilli-əyilmiş, sivriləşmişdir.

Çiçək: Çiçək qrupu çox sıx deyil, uzunsovdur, uzunluğu 3-10 sm-dir. Çiçəkləri tünd-fırfır rəngdədir; çiçək yanlığının bayır yarpaqcıqları küt, uzunsov-neştərvaridir, daxilidəkil yarpaqcıqlar isə uzunsov-xətvaridir, uzunluğu 8-10 mm-dir. Çiçəkyanlığının içəridəki yarpaqcıqları uzunsov-xətli olub, bayır yarpaqcıqlardan qısadır. Mahmızı daha tutqun rəngli, konusşəkillidir.

Çiçəkləməsi: Aprel-May.

Azərbaycanda yayılması: Samur-Şabran oval., Qobustan, Kür-Araz oval., Kür düz., KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqdan aşağı dağ qurşağına qədər.

Yaşayış mühiti: Otlu yamaclarda və kolluqlar arasında rast gəlinir.

Boyalı səhləb

Orchis picta Lois. (*O. morio* L. subsp. *picta* (Loisel.) Arcang.

Hündürlüyü 15-35 sm olan çoxillik bitkidir. Kök yumruları yumurtaşəkilli və ya ellipsoidaldır, eni 0,8-1,3 sm-dir. Gövdəsi əsasında qısa ayalı 3-6 ədəd qın ilə sarınmışdır.

Yarpaq: Gövdə yarpaqları 3-6 sayda olub, qın yarpaqlarıdır.

Çiçək: Çiçək qrupu boş, silindrik və çoxçiçəklidir, uzunluğu 9 sm-dir. Çiçəkləri parlaq fırfır-bənövşəyi rənglidir, uzunluğu 6-8 mm-dir; dodaq orta hissədə ağımtıl, tünd-fırfır ləkəli, daha enli kənar bölümləri olan dayaz-bölümlüdür və bəzən demək olar ki, bütövdür. Mahmızı kü tvə əyilmişdir, demək olar ki, 1,5 dəfə dodaqdan uzundur.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May.

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Kür-Araz oval., Kür düz., Lənk. dağ., Lənk. oval. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda və meşə kənarında rast gəlinir.

Ot, çiçək yanlığı olmayan, neştərvari yarpaq

• Fırfır səhləb
• *Orchis purpurea* Huds.

Çiçəyi

Hündürlüyü 30-80 sm olan çoxillik bitkidir. Kök yumrularının uzunluğu 4 sm-ə qədər olub, uzunsov və ya uzunsov-yumurtaşə-killidir.

Yarpaq: Yarpaqları enli-oval və yaxud ellipsvari-neştərşəkillidir, kütdür, eni 3-6 sm, uzunluğu 20 sm-ə qədərdir, bir ədəd uzun yarpaqşəkilli qını ilə gövdənin əsasında yaxınlaşmışdır.

Çiçək: Çiçəkləri iridir, vanil ətirlidir, sıx, çoxçiçəkli, yumurtaşəkilli-uzunsov çiçək qrupunda toplanmışdır; çiçək altlığı şəffafdır, yumurtaşəkillidir. Çiçəkyanlığının bayır yarpaq-cıqları ellipsvari-yumurtaşəkillidir, sivridir, tünd qırmızı-bənövşəyi rəngli, sivri, çilli qalpaq əmələ gətirir; daxili yarpaqcıqları xətvaridir; dodağı ağımtıl və ya açıq-çəhrayı rəngdə olub, tünd-qırmızı xallıdır. Mahmızı küt və əyilmişdir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., BQ şərq, Kür-Araz oval., Qobustan, KQ şimal, KQ mərkəzi. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşənin kənarında, meşənin tala yerlərində, kolluqlarda rast gəlinir.

Yarpağı

Meymun səhləbi
Orchis simia Lam.

Hündürlüyü 20-50 sm olan çoxillik bitkidir. Kök yumruları yumurtaşəkilli və ya ellipsvaridir.

Yarpaq: Yarpaqları gövdənin əsasından yuxarıda yerləşir, enli-uzunsov-neştərvaridir, kök sivriləşmiş, qaidəsinə doğru daralandır, uzunluğu 15 sm, eni 2-5 sm-dir.

Çiçək: Çiçək qrupu çox sıxdır, çoxçiçəklidir, ovul-yumurtaşəkillidir, uzunluğu 3-7 sm-dir. Çiçək altlığı yumurtaşəkilli və ya qısa üçkünc formalıdır. Bütün yarpaqcıqları qalpaqda toplanmışdır, xarici yarpaqcıqlar enli-yumurtaşəkillidir, bozumtul-çəhrayıdır, ekmarının sayı 5-7 ədəddir. Mahmızı küt, silindrik və az bükülmüşdür.

Çiçəkləməsi: May

Meyvə verməsi: May

Azərbaycanda yayılması: BQ (Quba), BÇ şərq, Oobustan, Kür-Araz oval., KQ mərkəzi, Lənk. dağ. Aşağı və bəzən,orta dağ qurşağında.

Yaşayış mühiti: Kolluqlarda, meşə kənarında, dağ çəmənlərində rast gəlinir.

Çiçəyi

Pireney qıncalausu

Ornithogalum pyrenaicum L. subsp. *flavescens* (Lam.) K. Richt. = *O. flavescens*



Hündürlüyü 30-65 sm olan bitkidir. Soğanağı qismən iri, yumurtaşəkilli, eni 1,5-3 sm olub, bayır tərəfinin çox hissəsi ağ pərdəşəkilli, şəffaf və ya qonur rəngli qurumuş qınla örtülüdür. Gövdəsi düz, dəyirmi, çılpaq, içi boş, möhkəm və yarpaqlardan uzundur.

Yarpaq: Yarpaqları ensiz-neştərvaridir, qismən novşəkillidir, eni 4-6 mm-dir və gövdədən qısadır.

Çiçək: Çiçək qrupu çoxçiçəklidir, uzunluğu 10-25 sm-dir. Çiçəkləri qismən uzun saplaq üzərində yerləşmişdir; aşağı hissədəki saplaqlar yuxardakılardan qısadır; çiçəkləmə dövründən sonra saplaq çiçək qrupunun oxuna doğru qismən sıxılır. Çiçək qrupunun uzunluğu 10-25 sm-dir. Çiçəkaltlıqları çiçək saplağından qısadır, neştərvaridir, sivriləşmişdir və ağ pərdəvaridir. Çiçək yanlığının yarpaqcıqları uzunsov-xəlvari və ya uzunsov-neştərvaridir, kütdür, arxa hissəsi ağ rəngdə olub, üzərində yaşıl zolaqları vardır və uzunluğu 10-12 mm-dir. Erkəkcikləri uzunluğuna görə çiçəkyanlığının uzunluğunun yarısına bərabərdir.

Meyvə: Qutucuq yumurtaşəkilli olub, qismən üç tillidir.

Çiçəkləməsi: İyun-İyul

Azərbaycanda yayılması: Aərbaycanın bütün rayonlarında. Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda, bağlarda, əkin sahələrində, otlu yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Soğanaqları qızarmış və marinad olunmuş halda qidada istifadə olunur.

Hamar güyənə
Polygonatum glaberrimum C. Koch.

Hündürlüyü 30-60 sm olan çoxillik bitkidir. Gövdəsi düzdür, sərt tillidir, şırımlıdır.
Yarpaq: Yarpaqları enli-oval, bəzən neştərvari-oval olub, uzunluğu 9-12 sm, eni 3-6 sm-dir, çılpaqdır, alt tərəfdən tünd-göy, təpə hissədə tədricən sivriləşən və yaxud kütdür, qaidə hissəsində uzunluğu 10 mm-ə qədər olan qısa saplağa sərt daralmışdır.
Çiçək: Çiçəkləri yarpaq qoltuğunda 1-2 ədəd olmaqla sallaq çiçək saplağında yerləşmişdir. Çiçəkyanlığı iridir, silindrikdir, hamardır. Uzunluğu 20 (24) mm-dir.
Meyvə: Meyvələri şarşəkilli, demək olar ki, qara rəngli giləmeyvədir.
Çiçəkləməsi: Aprel
Meyvə verməsi: May-İyul (Avqust).
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi. Subalp qurşağına qədər.
Yaşayış mühiti: Fıstıq, vələs, palıd, şam meşələrində, meşə kənarında kollar arasında, çəmənlərdə rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Cavan zoğları və kökümsovu bişmiş halda yeyilir.



Sallaq quşdarısı
Milium effusum L.

Hündürlüyü 60-90 (150) sm, qısa yeraltı zoğları olan, kökümsovlu çoxillik bitkidir. Gövdəsi düz, hamar və çılpaqdır.

Yarpaq: Yarpaqları enli-neştərşəkilli, uzun, lentşəkilli, hamar və ya biraz kələ-kötürdür, eni (5) 8-15 (18) mm-dir; dilcik nazik pərdəşəkilli, kütdür.

Çiçək: Çiçək qrupu boş qollu-budaqlı süpügrə şəkilindədir, uzunluğu (10) 15-30 (35) sm-dir, üfüqi və ya aşağı əyilmiş nazik budaqlıdır. Sünbülləri yumurtaşəkillidir, yaşıl, tutqun və yaxud bənövşəyi rəngdədir, uzunluğu 3 mm-ə qədərdir. Sünbül pulcuqları az nahamardır, üç ədəd aydın bilinməyən damarı vardır.

Çiçək pulcuqları bar verəndə qalın dərili, parlaqdır, darını sıx əhatə edir və sünbüldən onunla birgə düşür.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-Avqust (Sentyabr)

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, KQ şimal, KQ mərkəzi. Yuxarı və orta dağ qurşağında üstünlük təşkil edir, nadir halda aşağı dağ qurşağı və dağətəyi yerlərdə.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, talalarda, kollar arasında, çəmənlərdə, çay sahilində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yem bitkisidir.

Xəzəz soğan
Allium paradoxum (Bieb.) G. Don fil.

Hündürlüyü (5) 10-25 (30) sm olan bitkidir. Soğanağı yumurtaşəkilli və ya şarşəkilli olub, qalınlığı 1 sm-ə qədərdir və boz qınlıdır. Gövdəsi zəifdir, bir ədəd kökətrafı yarpağı vardır, onunla birgə rəngsiz dəriciyə oxşar qın geyinmişdir.

Yarpaq: Yarpaq demək olar ki, gövdəyə bərabərdir və ya ondan uzundur, xətvari-neştərşəkillidir, eni 5-15 mm-dir, ortdan və ya soğandan qaidəsinə doğru daralmış və kütdür. Qını ağ rəngli, pərdəşəkillidir, qaidəsinə qədər iki uzunsov-neştərvari qanadlara bölünmüşdür, qəlirdən qısadır.

Çiçək: Çətirinin 1-5 (8) ədəd əyilən çiçək saplağı vardır, çox vaxt soğanaqla olur; çiçək saplağı çiçəklərə bərabər və yaxud ondan 1,5 dəfə uzun olur, çiçək altlığı yoxdur. Çiçək yanlığı enli-ziqzaqova oxşar, tutqun-ağ rəngli olub,üzərində limon sarısı rəngdə çalarları vardır.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Aşağı dağ qurşağından, orta dağ qurşağına kimi.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda və meşənin kənarlarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yarpaqları qida kimi istifadə olunur.

Meyvələri

Çiçəyi

Piramidal bağ səhləbi
Anacamptis pyramidalis (L.) Rich.

Hündürlüyü 25-65 sm olan çoxillik bitkidir. Kök yumruları bütövdür, dəyirmi və ya yumurtaşəkillidir, bəzən ellipsvaridir.
Yarpaq: Yarpaqları xətvaridir, qaidə hissəsi gövdə həcmini artıran olub, uc hissəyə doğru daralandır, qismən sivridir, yuxarı yarpaqları sivriləşmiş qın şəklindədir.
Çiçək: Çiçək qrupu sıxdır, çoxçiçəklidir, yumurtaşəkilli-piramidavaridir. Çiçəkləri tünd-qırmızı, bəzən çəhrayı və hətta ağ rənglidir. Mahmızının uzunluğu 13-14 mm-dir.
Çiçəkləməsi: May
Meyvə verməsi: May-İyul
Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Aşağı dağ qurşağından, orta dağ qurşağına qədər.
Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda bağlarda, otlu yamaclarda rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Kök yumrularından tibbdə istifadə edilir.


Çiçəkləri

Yerli yumşaqsüpürgə
Calamagrostis epigeios (L.) Roth Tent.

Hündürlüyü 60-150 sm olan, gövdəsi düz, sərt, [illegible] əmələ gətirən, yeraltı uzun, sürünən [illegible]msovu olan bitkidir.
Yarpaq: Yarpaqları xətvari-neştəşəkilli, kələ-[illegible] göyümtül-yaşıl rəngdədir, eni 1 sm-ə [illegible]dir, dilciyin uzunluğu 9 mm olub, uzundur.
Çiçək: Süpürgəuzanmış-uzunsov, düzduran, [illegible] bölümlü kimidir, uzunluğu 30 sm-ə qədər, [illegible] 3 sm-dir. Sünbüllü pulcuqları xətvari-[illegible]killidir, uzun-sivriləşmişdir. Aşağı çiçək pulcuğu dəriciyə oxşardır, onun arxa hissəsinnin [illegible]ından çıxan oxu vardır. Sünbülün oxu [illegible]ərindəki tükcüklər çiçək pulcuğundan iki dəfə [illegible]undur. Çoxillikdir.
Çiçəkləməsi: İyun
Meyvə verməsi: İyun-Avqust
Azərbaycanda yayılması: BQ (Quba), Abşeron, BQ şərq, Kür düz., Kür-Araz oval., KQ şimal, KQ mərkəzi, Nax. dağ., [illegible]mk. oval. 2000 m-ə qədər olan ovalıqda.
Yaşayış mühiti: Qumlu rütubətli yerlərdə, çay və kanalların sahilində, meşənin kənarında, [illegible]əmənlərdə rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Orta keyfiyyətli yem bitkisidir, sünbülləyənə qədər yeyilən[illegible], [illegible]əmənindən həsir toxumaq üçün istifadə oluna bilər.

Yalanqamış yumşaqsüpürgə

Calamagrostis pseudophragmites (Hall.fil.) Koel. (*C. glauca* (Bieb.) Trin.

Hündürlüyü 50-100 sm olan, möhkəm gövdəli, kökümsovu sürünən bitkidir.

Yarpaq: Yarpaqları xətvaridir, eni 3-8 mm-dir, bəzən bir yerə cəmlənmiş, göyümtül-yaşıl rəngdədir, kənarları kələ-kötürdür; dilcik 8 mm uzunluqdadır, küt və ya hissələrə ayrılmışdır.

Çiçək: Süpürgə 10-20 (25) sm uzunluqdadır, sıxılmış, sivri-nahamar budaqlıdır. Sünbüllü pulcuqları neştəvari-bizşəkillidir, uzun-dartılı-sivriləşmişdir, qonurtəhər-bənövşəyi rənglidir, yuxarıdakı pulcuqlar aşağıdakından qısadır. Aşağı çiçək pulcuqları uc hissədə bir neçə dişciklədir və onlardan ortada olanı uzunluğu 2 mm-ə qədər olan oxla qurtarır. Sünbülün oxu üzərindəki tükcüklər çiçək pulcuğundan 1,5-2 dəfə uzundur. Çoxillikdir.

Çiçəkləməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), Abşeron, Qobustan, BQ şərq. Aşağı dağ qurşağından yuxarı dağ qurşağına kimi.

Yaşayış mühiti: Çay sahilində və rütubətli çəmənlərdə rast gəlinir.



Uzunyarpaq tozbaş səhləb
Cephalanthera longifolia (L.) Fritsch

Hündürlüyü 20-45 sm, düz gövdəli, çılpaq çoxillik bitkidir. Qaytanşəkilli çoxsaylı köklərə malik kökümsovü üfüqi yerləşmişdir.

Yarpaq: Yarpaqları xətvari-neştərşəkilli və ya neştərvaridir, yuxarı yarpaqları dar, çox vaxt əyilmiş olur.

Çiçək: Çiçək qrupu 15-20 sm uzunluqdadır, dar, formalı, seyrək və 3-20 ədəd çiçəkdən ibarətdir. Çiçəkləri ağ rənglidir və çılpaqdır; çiçəkyanlığının xarici ləçəkləri neştərvari və ya uzunsovdur, daxili ləçəkləri isə əksinəyumurtaşəkilli-ellipsvari olub, hamısında damarın sayı 5 ədəddir. Çiçək dodağı çiçəkyanlığının yarpaqcıqlarından bir qədər qısadır, onun ön dilimləri ürəkşəkilli-böyrəkşəkillidir və 3-5 ədəd uzununa dişli ilə örtülüdür.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran ova., BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Lənk. dağ., Lənk. ova., Aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda rast gəlinir.

Forster işıq otu
Luzula forsteri (Smith) D. C.



Çiçəkləri



Hündürlüyü 15-40 sm olan çoxillik çimli bitkidir. Gövdəsi düzdür, qaidə hissəsində tünd-qırmızı-bənövşəyi rəngli qın geyinmişdir.

Yarpaq: Yarpaqları xətvari, yastı, sivriləşmişdir, eni 1,5-5 mm-dir, qının kənarları və ağız hissəsi uzun tüklüdür.

Çiçək: Çiçək qrupu çəturşəkilli-süpürgəvaridir; çiçək qrupunun budaqları nazikdir, çiçəkləmədən sonra üzüyuxarı dik qalxandır; çiçəkaltlığının yarpağı çiçək qrupundan qısadır. Çiçəkləri təkdir; çiçəkaltlıqları yumurtaşəkilli, sivri, qırmızımtıl rənglidir, demək olar ki, çiçək yanlığının yarısına bərabərdir. Çiçək yanlığının yarpaqcıqları neştərvaridir, eynidirlər və ya daxildəkilər bir qədər uzundurlar, qılcıqvari sivriləşmiş, şabalıdı rəngdədir, kənarlardan ensiz-ağ pərdəlidir.

Meyvə: Qutucuq enli yumurtaşəkilli-konusvari, sarımtıl-yaşıl rəngli, sivriləşmiş və çiçək yanlığının yarpaqcıqlarına bərabər və ya ondan qısadır. Toxumları uzunsov-yumurtaşəkilli, qırmızımtıl-qəhvəyi rəngli, xırda olub, qısa düz törəmələri vardır və kütdür.

Çiçkələməsi: Aprel-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. oval., Lənk. dağ. Oalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

• Sarımtıl səhləb
• *Orchis flavescens* C. Koch = *Dactylorhiza flavescens*

Gövdəsinin hündürlüyü 15-30 sm olan, qaidə hissəsində iki pərdəşəkilli qını olan çoxillik bitkidir. Kök yumruları 2-4 bölümlüdür, uzunluğu 3 sm-dir.
Yarpaq: Yarpaqları 5-12 saydadır, gövdənin aşağı hissəsində yerləşirlər, qaidə hissəsinə yaxın çox daralmışdır və əksinəyumurtaşəkilli və ya uzunsov-xətvarinəlşəkillidir. Uzunluğu 8-12 sm, küt ucludur; yuxarı yarpaqları ensiz və qısadır.
Çiçək: Çiçək qrupu sıxdır, qısa, silindrik, sıxçiçəkli, bəzən əksinəyumurtaşəkilli olub, uzunluğu 3-8 sm-dir. Çiçəkləri açıq-sarı və ya bənövşəyi-tünd-qırmızı, bəzən ağ rəngdə olur. Dodağı dəyirmi-dörd künc, üçbölümlüdür və 5-7 mm uzunluqda olur; yan bölümləri oval, kənarlardan dairəvi dişlidir, orta bölümü kvadrata bənzər, çox vaxt sonu girintili-çıxıntılıdır.
Çiçəkləməsi: May
Meyva verməsi: May-İyun
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax.-dağ., Lənk.dağ., Lənk. oval. Aşağı dağ qurşağından, subalp yüksəkliklərinə qədər.
Yaşayış mühiti: Rütubətli yerlərdə, meşə və kolluqlarda rast gəlinir.


Çiçəkləri

• Gözəl zəfəran
• *Crocus speciosus* Bieb.



Hündürlüyü 10-40 sm olan bitkidir.
Kök yumrusu şarşəkilli və ya yastılanmış-şarşəkillidir, diametri 1-2 sm, qaidə hissəsi əlavə kök yumruludur; kök yumrusunun örtüyü qaidə hissədən halqa ilə ayrılır, pərdəvaridir, nazikdir.

Yarpaq: Yarpaqları xətvari, eni 3 mm-ə qədərdir, gələn yazda çiçək açandan sonra inkişaf edir.

Çiçəkyanlığı 3-6 sm uzunluqda olub, parlaq-bənövşəyi rənglidir, dilimləri uzunsov və ya ellipsvari-neştərşəkilli, üç ədəd tünd-qırmızı uzununa zolaqları vardır; bayır ləçəkləri qaidə hissəsdə üst tərəfdən qırmızı rəngdədir.

Çiçəkləməsi: Oktyabr

Meyvə verməsi: Oktyabr-Noyabr.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Qobustan, KQ mərkəzi, Lənk. dağ. Ovalıqdan subalp yüksəkliyinə qədər.

Yaşayış mühiti: Otlu yamaclarda meşə ətrafında, kolluqlar arasında və şumlanmış yerlədə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tibbi əhəmiyyəti vardır. Kütləvi surətdə çiçəkləyən zaman payızda dekorativ bitki kimi görünür.



• Görkəmli çiriş
• *Eremurus spectabilis* Bieb.

Hündürlüyü 120 sm-ə və qalınlığı 1sm-ə qədər olan, düz, budaqlanmayan çoxillik bitkidir. Kökləri ətli olub, iyşəkilli qalınlaşmışdır, uzunluğu 25 sm-ə qədərdir. Boyuncuq köhnə yarpaqların lifli qalıqları və pərdəciyəoxşar qınla əhatə olunmuşdur.

Yarpaq: Yarpaqları 6-15 ədəddir, xətvaridir, kənarları kələ-kötürdür, üzüyuxarı köndələn yönəlmişdir, çılpaqdır, gövdədən qısadır, eni 1-4 sm-dir.

Çiçək: Çiçək qrupu sıx çoxçiçəkli salxımdır, hər verənə yaxın uzanandır; çiçək saplağı hər verəndə qövsşəkilli əyiləndir; qutucuqlar çiçək oxuna doğru sıxılmışdır.

Meyvə: Qutucuq şarşəklillidir, 2-3 dəfə meyvə saplağından qısadır, köndələn-qırışlıdır. Toxumları üçtillidir, köndələn-qırışlıdır, enli qanadlıdır.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), QQ şərq, Qobustan, Kür-Araz oval., KQ mərkəzi, Nax. dağ., Nax. düz. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru gilli və gilli-daşlı yamaclarda, kolluqlarda, əsasən tut ağacları olan yerdə rast gəlinir.

Bərabərçiçəksiz qaz soğanı
Gagea anisanthos C. Koch

Hündürlüyü 8-20 sm olan bitkidir. Soğanağı kiçik olub, yumurtaşəkillidir, tünd-qonur və ya açıq-qonur rəngli qınlarla örtülüdür, ikincisi çox kiçikdir.

Yarpaq: Kökətrafı yarpaqları bir (bəzən iki ədəd) ədəddir, dar xətvaridir, eni 2,5-3 mm-dir, adətən, çiçək qrupunu ötüb keçir. Çiçək qrupunun altındakı yarpaqlar demək olar ki, qarşı-qarşıya düzülmüşdür; onlardan aşağıda yerləşənlər neştərvaridir, qaidəsinə doğru genişlənmişdir, çiçək qrupu ilə eyni və yaxud onu ötüb keçir; çiçək qrupunun altındakı yerdə qalan yarpaqları kiçiləndir və çiçək qrupundan qısadır.

Çiçək: Çiçək qrupu bərabər olmayan, çılpaq və ya tüklü saplaqda yerləşmiş 1-4 ədəd çiçəkdən ibarətdir. Çiçək yanlığının yarpaqcıqları 5-20 m uzunluqdadır, neştərvari-ellipsşəkili və ya demək olar ki, neştərvaridir, sivritəhərdir,nəzərə çarpan damarları vardır, yaşıl və ya sarımtıl-yaşıl rəngdədir. Erkəkcikləri çiçək yanlığının yarpaqcıqlarından qısadır.

Çiçəkləməsi: May-İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, KQ mərkəzi, Nax. dağ. Yüksək dağ qurşaqlarında, əsasən alp zonalarında.

Yaşayış mühiti: Dağ çəmənlərində rast gəlinir.

• Qafqaz xəncicəgülü
• *Galanthus caucasicus* (Baker) A. Grossh. (*G. nivalis* L. subsp. *caucasicus* Baker)

Ucarında çiçək daşıyan gövdəsinin hündürlüyü 10-20 sm-dir və yarpaqlardan uzundur; çiçəkləmə dövründən sonra yarpaqlar böyüyür. Soğanağının hündürlüyü 15 mm, diametri 8-9 (10) mm-dir olub, açıq-qonur rəngdə xarici pulcuqları vardır.

Yarpaq: Yarpaqları (çiçəkləmə dövründə) tünd-göy rəngdədir, xətvari, yastı və kütdür, alt tərəfdən fırlıdır, eni 7-15 (20) mm-dir.

Çiçəkyanlığının xarici yarpaqcıqları əksinəyumurtaşəkili uzunsovdurlar, uzunluğu 10-20 (25) mm olub, daxili yarpaqcıqlardan uzundur; daxili əksinəyumurtaşəkilli-pazşəkilli yarpaqcıqların uc hissəsi dayaz oyuqludur;

Çiçəkləməsi: Fevral-Mart (Aprel)

Azərbaycanda yayılması: BQ (Quba), MQ qərb, KQ şimal, KQ mərkəzi. Aşağı və orta dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir.

Adi qarğa soğanı
Gladiolus communis L.

Hündürlüyü 50-70 sm olan bitkidir. Soğanağı yumurtaşəkilli-dəyirmidir; pulcuqları kobud liflidir, yuxarı hissədə torludur. Gövdəsi kifayət qədər nazikdir.

Yarpaq: Yarpaqlar 2 ədəd, bəzən 3 ədəd olur, yaşıl rəngdədir, xətli-qılıncvaridir, eni 0,5-1,5 sm, 3 ədəd nəzərə çarpan damarı vardır.

Çiçək: Sünbüldə çiçəklərin sayı 2-3 ədəddir, həmişə birtərəfli düzülmüşdür. Çiçəkyanlığı fırfır-bənövşəyi, və ya tünd-fırfır bənövşəyi rəngdədir.

Meyvə: Qutucuq oval-ellipssəkillidir. Toxumları qanadlıdır.

Cicəkləməsi: İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), Nax. dağ., İsmayıllı ray.. Yuxarı və orta dağ qurşağında (2200 m. d.s.y.)

Yaşayış mühiti: Çəmənliklərdə rast gəlinir.

Çılpaq dəmir səhləbi
Gymnadaenia conopsea (L.) R. Br.

Hündürlüyü 25-60 sm olan, çoxillik bitkidir. Kök yumruları 3-6 bölümlüdür. Gövdə aşağıdan qonur qına bürünmüşdür.
Yarpaq: Yarpaqları xətvari-neştərşəkilli, ucu deriləşmiş, eni 2,5 sm-ə qədərdir, yuxarı yarpaqları xırdadır.
Çiçək: Çiçək qrupu silindrikdir çoxçiçəkli, uzunluğu 15 sm-ə qədər olan, sıx topbülcükdür. Çiçək altlığı ellipsvari-neştərşəkillidir, sivridir, yuxarıdakılar çiçəkdən qısa, aşağıdakılar isə uzundur. Çiçəkyanlığının yarpaqcıqları uzunsov və yaxud enli-yumurtaşəkilli, bənövşəyi-çəhrayı və ya açıq bənövşəyi-qırmızıdır, gözəl ətri var.
Çiçəkləməsi: İyun
Meyvə verməsi: İyun-İyul
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. dağ. Yuxarı (bəzən aşağı) dağ qurşağında.
Yaşayış mühiti: Alp və subalp çəmənliklərində, meşənin açıq yerlərində rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Kök yumrularından alınan dərman otu tibbdə istifadə olunur.

Təkqardaş zanbaq
Lilium monadelphum Bieb.

Hündürlüyü 1 m-ə çatan və ondan hündür olan bitkidir. Soğanağı enli-yumurtaşəkilli, xaricdən krem rəngli pulcuqla örtülmüşdür.
Gövdəsi qalın, düz, sıx yarpaqla örtülmüşdür.
Yarpaq: Aşağı yarpaqları enli-neştərşəkilli, yuxarı yarpaqları xətvari-neştərşəkillidir, aşağı tərəfdən kənarları və damarlar kirpikciyə oxşar yumşaq tüklüdür.
Çiçək: Çiçəkləri piramidavari salxım çiçək qrupunda toplanmış və (1) 3-6 ədəd əyilmiş çiçəkdən ibarətdir; çiçəkləri iridir, qıfaoxşardır, qızılı-sarı rənglidir, ətirlidir və uzunluğu 8-10 sm-dir. Çiçəkyanlığının yarpaqcıqları neştərvaridir, qaidə hissəsinə doğru az daralmış, çiçəkləmənin sonuna yaxın azacıq geriyə qatlanmışdır.
Meyvə: Qutucuq 4 sm-ə yaxın uzunluqdadır.
Çiçəkləməsi: İyun
Meyvə vermə: İyun-Avqust
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb. Yuxarı dağ qurşağında və subalp qurşağında.
Yaşayış mühiti: Nəmli dərələrdə, meşənin yuxarı ətrafında, kolluqlarda, talalarda və rütubətli subalp çəmənliklərində rast gəlinir.

• Şoviss ilan soğanı
• *Muscari szovitsianum* Baker (*M. neglectum* sensu Losinsk.)

Hündürlüyü 10-15 (20) sm olan, bitkidir. Soğanağı yumurtaşəkilli olub, tünd-boz rəngli pulcuqludur.

Yarpaq: Yarpaqları ensiz xətvaridir, asılı vəziyyətdədir, üst tərəfdən novşəkillidir və çiçəklərdən uzundur.

Çiçək: Salxımı sıxdır, uzunsov-yumurtaşəkillidir, uzunluğu 4 sm-ə qədərdir. Çiçək yatağı çiçəklərdən qısadır. Çiçək yanlığı yumurtaşəkilli-bardağaoxşar olub, uzunluğu 5 mm-ə qədərdir, açıq-göy, mavi, bəzi hallarda ağımtıl rəngdədir; çiçək yanlığının dişcikləri dəyirmi-üçbucaqlıdır, bütövlükdür və ağ rəngdədir. Bar verməyən çiçəkləri çoxsaylı deyidir, bar verənlərə nisbətən daha açıq çalarlıdır.

Çiçəkləməsi: (Aprel) May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), İÇ şərq, KQ şimal, KQ mərkəzi, KQ cənub, Naxç. dağ., Nax. düz. Aşağı dağ qurşağından, orta dağ qurşağına qədər.

Yayılış mühiti: Otlu yamaclarda, kolluqlarda, meşə kənarında, qayalı-çınqıllı və şibyəli yerlərdə, dağ-bozqır yamaclarda rast gəlinir. Həmçinin bağlarda alaq kimi rast gəlinir.

Nazikçiçək ilan soğanı
Muscari tenuiflorum Tausch. = *Leopoldia tenuiflora*



Hündürlüyü 30-50 sm olan bitkidir. Soğanağı yumurtaşəkilli, diametri 2-3 sm olub, boz və ya sarımtıl-boz rəngli qını vardır.

Yarpaq: Yarpaqları xətvari və yaxud ensiz-xətvaridir, demək olar ki, gövdənin uzunluğuna bərabərdir.

Çiçək: Çiçəkləri uzunluğu 20-35 sm olan, uzun sıx uzunsov salxımda toplanmışdır; bar verməyən çiçəklərinin rəngi göy-bənövşəyi olub, çoxsaylıdır, nazik borucuğaoxşardır və uzunluğu çiçəklərin uzunluğuna bərabər və ya ondan azacıq uzun olan saplaq üzərində yerləşmişdir. Bar verən çiçəklərin saplağı üfüqi və yaxud yana əyilmişdir və çiçəklərdən biraz qısadır.

Meyvə: Qutucuq şarşəkillidir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq. Subalp və alp qurşaqlarında, nadir hallarda orta dağ qurşağında.

Yaşayış mühiti: Daşlı-çınqıllı yamaclarda, kserofit qruplar arasında, kəsilmiş meşələrdə, kolluqlar arasında, nadir halda çəmənlərdə rast gəlinir.

Sibir zümrüdçiçəyi
Scilla sibirica Haw. (*S. mordakiae* Speta)



Hündürlüyü 30 sm-ə qədər olan bitkidir. Soğanağı yumurtaşəkilli və ya şaraoxşar-yumurtaşəkillidir, uzunluğu 2 sm-ə qədər və eni 1,5-2 sm-dir, tünd-qonur rəngli qınla örtülmüşdür. Gövdəsi yastıtəhər olub, bir soğanaqdan 1-4 ədəd çıxır.

Yarpaq: Yarpaqları 2-4 ədəddir, yaşıldır, enli-xətvaridir, eni 10-20 mm-dir, qaidəsinə doğru daralandır, təpə hissədə qalpaqcığı vardır.

Çiçək: Çiçəkləri göy rəngdədir, seyrəkçiçəkli salxımda toplanmışdır, kiçik ağ çiçəkaltlığı vardır; çiçək saplağı çiçəyə bərabər və ya ondan qısadır. Çiçəkyanlığının yarpaqcıqları 12-13 mm uzunluqdadır, uzunsov-xətvaridir, bozdur.

Meyvə: Meyvələri şarşəkilli qutucuqdur.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ şimal. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında və kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir.

Satiriodvari steveniella
Steveniella satyrioides (Stev.) Schlechter

Hündürlüyü 20-40 sm, uzunluğu 1,0-2,5 sm olan, bütöv kökyumrulu, çoxillik bitkidir.
Yarpaq: Gövdəsinin bir ədəd inkişaf etmiş, uzunsov-oval, üzərində qırmızı-qonur təbəqəsi olan qonur-yaşıl rəngli yarpağı vardır.
Çiçək: Çiçək qrupu uzunsovdur, kifayət qədər sıxdır, uzunluğu 4-10 (13) sm-dir, çiçəklərinin sayı 5-18 (20) ədəd olub, əyilmiş şəkildədir. Çiçək altlığı 2-3 mm uzunluqdadır, qabığaoxşardır, sivriləşmiş və ya yuxarı hissədə dişlidir. Uzunluğu 7-10 mm, qırmızımtıl-yaşıl rəngli, üç qovuşuq bayır yarpaqcıqları olan papağı vardır.
Çiçəkləməsi: Aprel-May
Meyvə verməsi: İyun
Azərbaycanda yayılması: BQ şərq, Lənk. dağ. Aşağı və orta dağ qurşağında.
Yaşayış mühiti: Meşələrdə və çox vaxt kolluqlar arasında rast gəlinir.

Ağqanad danaayağı

Arum albispathum Stev. ex Ledeb.
(*A. orientale* Mill. subsp. *albispathum* Stev. ex Ledeb.)

Hündürlüyü 20-40 sm olan çoxillik bitkidir. **Kök yumruları** kökümsov şəklində oval və yanal uzanmışdır. Gövdəsi yarpaq saplağından qısadır.

Yarpaq: Yarpaq ayası iridir, nizəşəkilli nizəkillidir, demək olar ki, saplağa bərabərdir; kənar bölümləri aralıdır. Ləpəşəkilli törəmələr qısa-silindrikdir, sarı rəngdə, bəzən az bənövşəyi rəngdədir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May.

Azərbaycanda yayılması: Samur-Şabran ova., Alazan-Əyriçay, Lənk. Muğ., Lənk. dağ., Lənk. oval. Ovalıqdan aşağı, bəzən orta dağ qurşağında.

Yaşayış mühiti: Meşə içərsindəki çəmənlikdə, kolluqlarda, qırılmış meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Qurumuş köklərindən alınan toz xalq arasında yarasağaldıcı vasitə kimi istifadə olunur.

Çiçəyi

Yarpağı

Meyvələri

Uzunsov danaayağı

Arum elongatum Stev. (subsp. *detruncatum* C. A. Mey. ex Schott)

Çiçəyi

Çoxillik bitkidir. Kök yumruları yastıtəhərdəyirmidir. Gövdə yarpaq saplağından uzundur. Örtük neştərvaridir, uzanmışdır, xaricdən yaşıl və ya tünd-qırmızıdır, sivri sonluğu gərilmişdir.

Yarpaq: Yarpaqları saplaqdan qısadır,uzanmış-nizəşəkilli formadadır, orta bölümü kütləşmişdir, uzunsovdur, kənardakıla 2-3 dəfə qısadır, qabarıq və ya geriyə qatlanmışdır. Qıça törəmələri iyşəkillidir, qısa saplaq üzərindədir, qalındır və uzunluğu 20 sm-ə qədərdir, örtükdən azacıq qısadır, bənövşəyi və ya tünd-qırmızı rəngdədir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ şərq, Kür düzənliyi, KQ (hər yerində) Naxç. dağlıq, Lənk. dağ.. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Otlu yamaclarda, kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Bitkinin bütün hissələrində zəhərli maddə vardır. Kök yumruları nişasta ilə zəngindir, quruduqdan sonra öz zəhərli təsirini itirir və qida üçün yararlı olur.

Yarpaqları və kökü

• Yaşıl rəngli ləçək otu
• *Platanthera chlorantha* (Cust.) Reichenb

Hündürlüyü 30-50 sm olan çoxillik bitkidir. Kök yumruları uzunsov-yumurtaşəkilli olub, bəzəri qurtaracağı vardır. Gövdəsi 1-3 ədəd sirkə neştərvari yarpaqcıqlara və aşağı hissədə iki iri, enli-oval və ya ekinoyumurtaşəkilli, enli saplağa daralmış yarpaqlara malikdir.

Yarpaq: Yarpaqları cüt olub, kökətrafı rozetdə yerləşmişdir.

Çiçək: Çiçək qrupu çoxçiçəklidir, yumşaqdır, uzunluğu 7-25 sm-dir. Çiçəkaltlığı yumurtaşəkilli-neştərvari, sivriləşmişdir. Çiçəkyanlığının yarpaqcıqları uzunsov və ya yumurtaşəkilli-neştərvari, küt, yaşılımtıl-ağ rəngli və az ətirlidir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran ovalığı, BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan (nadir halda) orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda və meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Kökyumruları tibbdə istifadə olunur. Çiçəklərində efir yağı vardır.

Yarpağı

Çiçəyi

Dağınıq suincilosu

Batrachium trichophyllum (Chaix) Bosch (*Ranunculus trichophyllus* Chaix, *Batrachium divaricatum* (Schrank) Wimm.

Gövdəsi 150 sm-ə qədər uzunluqda, nazik, çılpaq olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları açıq-yaşıl rənglidir, nazikdir; yarpaq ayasının uzunluğu 3-4 sm-dir, üçqat-üç hissəyə bölünmüş tükşəkilli payları vardır.

Çiçək: Çiçəklərinin diametri 8-10 mm-dir. Çiçək saplağı yarpaqlardan uzun və ya ona bərabərdir. Ləçəkləri əksinəyumurta-şəkillidir, ağ rənglidir, demək olar ki, kasa yarpaqlarından iki dəfə uzundur.

Meyvə: Meyvələrinin sayı 15-30 ədəddir, yuxarı hissədə bozumtul-cod tüklüdür.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, Kür-Araz oval., Kür düz., KQ şimal, KQ mərkəzi, Nax. dağ., Lənk. Oval. Ovalıqdan yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Durğun və yavaş axan sularda, göllərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Parklardakı süni göl və akvariumlarda əkmək üçün istifadə olunur.

Topayarpaq qeyri-simmetrik
Asparagus verticillatus L.

Hündürlüyü 2 m-ə qədər olan, gövdəsi uzun, budaqlanan, dırmaşan; pulcuqşəkilli yarpaqlarının qoltuğunda sapşəkilli kladodlar əmələ gələn çoxillik bitkidir. Kökümsovları güclü və yoğunlaşandır.

Kladod: Kladodların uzunluğu 2 sm-ə qədərdir, gövdə üzərində dəstə şəklində oturmuş, xəttivaridir, dəstədə 20 ədədə qədərdir, budaq üzərində isə 3-6 ədəd və daha çoxdur, sivri üç tilli və parlaqdır, kənarları xırda dişlidir.

Çiçək: Çiçəkləri sonuncu sıradakı budağın ucunda yerləşmişdir.

Giləmeyvə: Giləmeyvələri qırmızı və ya qırmızımtıl-qara rəngdədir, dəyirmidir, diametri 4-5 mm-ə yaxındır.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, meşələrdə, bağlarda, yarğanlarda, daşlı yerlərdə, qumluqlarda, çay və kanalların sahilində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Cavan zoğları qidada istifadə olunur.


Meyvəsi


Çiçəyi

Altıləçək quşqonmaz

Filipendula hexapetala Gilib. = *F. vulgaris* Moench (*F. hexapetala* Gilib.)

Çiçəkləri

Yarpağı

Hündürlüyü 30-60 sm, gövdəsi sadə, düz, çoxillik çılpaq ot bitkisidir. Kökümsovu kökyumrusu şəkilində qalınlaşmış köklərdir.

Yarpaq: Yarpaqları neştərvari-xətlidir, çoxsayl daha iri uzunsov, dərin kəsilmiş və dişli yarpaqcıqlı və onlar arasında oturmuş cüt xırdc yarpaqcıqlıdır; bütün yarpaqcıqlar üst tərəfdən çılpaq, alt tərəfdən isə damar boyu tüklüdür.

Çiçək: Çiçəkləri çoxçiçəkli süpürgədə toplanmışdır. Ləçək və kasa yarpaqları 6 ədəddir. Ləçəkləri ağ və ya çəhrayı rəngdədir, uzunluğu 6 mm-ə yaxındır, əksinəyumurtaşəkillidir.

Meyvə: Meyvələri 9-12 ədəd, düz, oturaq və tüklüdür.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, əsasən meşəli rayonlarda. Ovalıqdan yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Çəmənliklərdə, kolluqlarda, otlu yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Kökləri yeməlidir.

Bənövşəyi səfərotu

Lithospermum purpureocaeruleum
L. = Aegonychon purpureocaeruleum

Hündürlüyü 30-50 sm, gövdəsi düz, çiçəkli və meyvə verməyən olub, nahamar-tükcüklü, sadə və yo yuxarı hissədə az budaqlanmış, daha sonra əyilmiş və yaxud sərilmiş, sıx yarpaqla örtülmüş çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaq, neştərvari, bütövkənarlı, sivri və ya aşağı hissədə yerləşənlər bütöv, uzunluğu 2-4 sm-dir, hər iki tərəfdən iti və seyrək tüklüdür, bir ədəd orta damarı nəzərə çarpandır, alt tərəfdə daha açıqdır.

Çiçək: Qıvrımları çoxçiçəkli deyildir. Tacın uzunluğu 15 mm-dir, bənövşəyi-göy rəngdədir, açılan zaman qırmızımtıl, kasacıqdan iki dəfə uzundur.

Meyvə: Fındıqcalar 4-5 mm uzunluqdadır, ikiyirmi-yumurtaşəkillidir, küttəhərdir, ağ rəngdədir, hamar və parlaqdır.

Çiçəkləməsi: May.

Meyvə verməsi: İyun.

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, (Naxç.-dan başqa) meşəli rayonlarda. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə və kolluqlarda, meşə kənarında, talalarda, bağlarda, nadir hallarda boşluqlarda rast gəlinir.

o Ağımtıl psefellus

Psephellus dealbatus (Willd.) Boiss. = Centaurea dealbata Willd.



Hündürlüyü (15) 20-60 sm, gövdəsi düzduran, yarpaqlarla örtülmüş və sadə olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları üst tərəfdən tünd-yaşıl rənglidir, çılpaqdır, alt tərəfdən ağımtıl-keçəli, saplaqlı, görünüşünə görə uzunsov və ya uzunsov-neştərtvaridir, lələkvari-bölünmüşdür. Yarpaq seqmentləri uzunsovdur, kütdür, çox vaxt qısa sivri ucludur, yarpağın qaidə hissəsinə doğru kiçilməndir, yuxarı seqmentləri tədricən saplaqla birləşəndir, aşağıdakılar isə demək olar ki, birləşir, adətən tamkənarlıdırlar, bəzən kənardan 1-3 sayda dişciklidir; kökətrafı yarpaqlar iri, uzun saplaqlıdır, gövdə yarpaqları isə tədricən azalan, ən yuxarı yarpaqları demək olar ki, bütövdür, səbətə yaxınlaşandır və ondan bir az uzun yaxud qısadır. Yarpaqların təpə seqmentləri çox vaxt yan tərəfdəkilərdən böyük olur.

Çiçək: Səbətin eni 2-4 sm, yumurtavari-şarşəkillidir. Çiçəkləri çəhrayı rəndə olub, üzərində bənövşəyi çalarları vardır.

Meyvə: Toxumları 5-6 mm uzunluqdadır, uzunsov, hamar, çılpaq və köndələn qabarıq-zolaqlıdır.

Çiçəkləməsi: İyun-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb. Orta dağ qurşağında, subalp qurşağına qədər.

Yaşayış mühiti: Dağ çəmənliklərində, meşələrdə, kolluqlar arasında rast gəlinir.

Sürünən yapışqanotu

Antitoxicum scandens Pobed. = *Vincetoxicum scandens* Somm. & Levier.

Hündürlüyü 50-180 sm, gövdəsi düzduran sadə və ya budaqlanan olub, yuxarı hissədə əyilməşən çoxillik ot bitkisidir. Əlavə kökləri uzanmış, bağşəkilli və çoxsaylıdır.

Yarpaq: Orta yarpaqları yumurtaşəkilli və ya yumurtaşəkilli-neştərvaridir, qaidə hissəsində dəyirmi və ya qismən ürəkşəkillidir, qısa və ya nazik dartılı- sivriləşmişdir, uzunluğu 12 sm-ə qədər, eni 5-8 sm-dir, yuxarı yarpaqlar ensizdir, biçilmişdir, hamısı qısa saplaqlıdır.

Çiçək: Çətircikləri 2-3 ədəd olmaqla, 6-10 çiçəklidir, qoltuqdan çıxan uzun, nazik, tüklü ümumi saplağı üzərindədir. Çiçəkləri xırdadır, diametri 4-6 (8) mm-dir, qara-qonur və ya bənövşə olar ki, qara rəngdədir, daxildən sıx tüklüdür, saplağı yumşaq tüklüdür, uzunluğuna görə çiçəyi 2-3 dəfə üstələyir.

Meyvə: Toxumları yumurtaşəkilli, yastılaşmış, qəhvəyi rəngli, bir ucunda uzun ipək kimi tüklərdən ibarət kəkili vardır.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyul-Noyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına, bəzən yuxarı və subalp qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, meşə kənarında, talalarda və işıqlı meşələrdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitki hesab olunur, aparılmış təcrübələr nəticəsində köklərinin az toksiki olduğu məlum olub. Bulverən bitkidir.

Yarpağı


Çiçəyi

Kələkötür ərəbotu

Arabis hirsuta auct. = A. sagittata D.C.; Arabis hirsuta (L.) Scop. subsp. *gerardii* (Bess.) C. Hartm. fil. = *A. gerardi*

Çiçəyi

Hündürlüyü 25-70 (80) sm, gövdəsi silindrik, düz, qısa şaxəli, tüklərlə örtülmüş ikiilllik ot bitkisidir.

Yarpaq: Yarpaqları uzunsov və ya uzunsov-neştərvaridir, kökətrafı yarpaqları tədricən saplağa daralmışdır, nahamar tüklüdür, gövdə yarpaqları oturaqdır, xırda az dişli və ya demə olar ki, tamkənarlıdır, qaidə hissəsində ürəkşəkilli olub, küt aralı qulaqcıqları vardır.

Çiçək: Salxımı çoxçiçəklidir. Ləçəklərinin uzunluğu 5-5,5 mm-dir və ağ rəngdədir.

Meyvə: Qını çoxsaylı, silindrik, xətvari, yastı olub, adətən, gövdəyə dögru basılmışdır, nazik saplaq üzərindədir, uc hissədə çox qısa sütuncuqludur.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyul (Avqust)

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb,Qob., KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. oval. Ovalıqdan, subalp qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, meşələrdə, otlu və daşlı yamaclarda, çay sahilində, bağlarda rast gəlinir.


Yarpağı

Söyüdvari azineuma

Asyneuma salignum (Waldst. & Kit. ex Bess.) Fed. subsp. *salicifolium* (Kit.) Soo)

Hündürlüyü 20-40 sm, gövdəsi düz, sadə və ya yuxarı hissəsində azacıq budaqlanan, çılpaq, yarpaqlı, bir qədər bozumtul-yaşıl olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları növbəli düzülmüşdür, oturaqlı, çılpaq, kənarları tüklüdür, alt tərəfdən dəftərtəkin tutqun və görünən damarlıdır, uzunsov yumurtaşəkilli-neştərvatridir, neştərvariyə qədər dəyişir, kiçikdən və ya sivridir, uzunluğu 2-5 sm-dir, kənarları sivri-mişarvaridir; aşağı yarpaqları saplaqlıdır, yuxarıdakılar daha ensiz və qısadır, neştərvari, mişarvaridir, tədricən xətvari və demək olar ki, tamkənarlı çiçəkaltlığına keçəndir.

Çiçək: Çiçəkləri 1 sm-ə qədər uzunluqdadır, demək olar ki, oturaqdır, dəstə şəklində, uzun, yuxarıda qismən sıx, aşağı hissədə seyrək, sünbülşəkilli, bəzən bir qədər süpürgəvari çiçək qrupunda toplanmışdır.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Orta və subalp dağ qurşağında.

Yaşayış mühiti: Meşə və kolluqlarda, subalp çəmənlərində, qayalarda rast gəlinir.

Lamber zəngçiçəyi

Campanula lambertiana A. DC. (*C. rapunculus* L. subsp. *lambertiana* (A. DC.) Rech.



Hündürlüyü 70 sm-ə qədər, gövdəsi sadə, uzununa-zolaqlı, adətən güclü budaqlanmamış, bütün uzunluğu boyu ağ, qabarıq və arxaya qatlanmış tüklərlə örtülü olan ikiillik ot bitkisidir. Kökü bir qayda olaraq qalınlaşmayıb, nadir görünüşlü, nazik iyşəkilli ağımtıldır.

Yarpaq: Kökətrafı yarpaqları erkən quruyan, enli-elliptik və ya əksinəyumurtaşəkillidir, küt, eyni yarpaq ayasına və bir neçə qanadlı saplağa qəflətən dartılmışdır. Gövdə yarpaqları oturaq və qısa saplaqlıdır, əksinə və ya enli neştərvari və ya uzunsovdur, sivridir, uzunluğu 5 sm-ə qədərdir, tüklü, qeyri-bərabər dişli və ya dairəvi dişlidir.

Çiçək: Çiçəkləri sünbülşəkilli salxımda və ya uzun budaqlı bir neçə süpürgəvari çiçək qrupunda toplanmışdır, qısa saplaqdadır

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. (Nax.-dan başqa) Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru çəmənlərdə, meşə kənarında, kolluqlar arasında, tut ağacı kolluqlarında, bəzən bağlarda rast gəlinir.



Kantabir sarmaşıq
Convolvulus cantabrica L.

Hündürlüyü 15-60 sm, gövdəsi düzduran və ya yuxarıya doğru qalxan, bəzən sərilən, yuxarıdan budaqlanan, sıx və uzun qabarıq və ya qısa basıq tüklü çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları boz-yaşıl rəngli, üst tərəfdən adətən çılpaqdır, alt tərəfdən basıq-tüklüdür, bəzən uzun qabarıq tüklüdür, aşağıdakılar saplaqlıdır, uzunsov, ellipsvarı-neştərşəkilli və ya uzunsov-neştərvaridir, tam ucludur, orta və yuxarıdakı yarpaqlar oturaqdır və ya demək olar ki, oturaqdır, uzunsov-xətvaridir, sivri təhərdir.

Çiçək: Çiçəkləri tək və ya 2-4 saydadır, kənar və ya təpə yarımçətirlərdə, uzun çox vaxt qabarıq çiçək oxu üzərindədir. Tac çəhrayıdır və kasacıqdan 2-3 dəfə uzundur.

Meyvə: Qutucuq enli-yumurtaşəkillidir, yuxarı hissədə tüklüdür, kasacıqdan qısadır. Toxumları enli-yumurtaşəkillidir, tünd-qəhvəyi rəngdədir, uzunluğu 2,5-3,5 mm-dir.

Çiçəkləməsi: May-İyul (Avqust)

Meyvə vermə si: İyul-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran ova l., BQ (Quba), BQ şərq, BQ qərb, Kür-Araz ova l , Kür düz., KQ şimal, KQ cənub, KQ mərkəzi, Lənk. ova l., Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru qayalı, çınqıllı, daşlı, gilli yamaclarda, çəmənlərdə, meşələrdə, tələlərdə, kolluqlarda, yolların kənarında, cay yatağında, əkin sahələrində alaq kimi rast gəlinir.

Çiçəyi


Yarpağı



Dağ köpəkdiliotu

Cynoglossum montanum L. (*C. teheranicum* H. Riedl, *C. nebrodense* auct.)

Çiçəyi

Yarpağı

Hündürlüyü 30-70 sm, gövdəsi düz, yaxşı görünən uzununa xətləri vardır, seyrək tüklü, yuxarı hissədə nazik budaqlanan ikiillik ot bitkisidir. Kökü üfüqi yerləşmiş və aşağıya doğru güclü budaqlanmış, yuxarı hissədə qurumuş kökətrafı yarpaqlarının qalığı vardır.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaqda yerləşmiş, uzunsov-ellipsvari, uzunluğu (saplaqla birgə) 5-10 sm, aşağı gövdə yarpaqları uzunsov, saplağa daralmış, yuxarıdakılar isə oturaq, uzunsov-neştərvaridir, qısa sivriləşmişdir; yarpaq ayası nazik, incə, üst tərəfdən çılpaq, alt tərəfdən səpələnmiş nahamar tüklüdür.

Çiçək: Qıvrımları çiçək qrupunda seyrəkçiçəklidir, aşağı hissədə 1-2 ədəd yarpaqcıqlardır. Çiçək saplağı qısadır, əyiləndir. Tac qırmızımtıl-bənövşəyi rəngdədir, qıfşəkillidir.

Meyvə: Fındıqlarının uzunluğu 5-7 mm, arxa tərəfdən basılmış, demək olar ki, yastıdır, yumurtaşəkillidir, üst səthi bütünlüklə uzunluğu 1 mm olan, qısa lövbərli tikanlarla eyni qaydada sıx örtülmüşdür.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ qərb, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və qaranlıq yaş yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Balverən və tozcuqverən bitkidir.

Meyvəsi

Dərman köpəkdiliotu
Cynoglossum officinale L.

Hündürlüyü 40-85 sm, gövdəsi sıx yarpaqla örtülmüş, düzduran, şırımlı, yuxarı hissədə süpürgəvari budaqlanmış, bozumtul tüklü, qara mil kökləri torpağın içərisinə vertikal yeriyən ikiillik ot bitkisidir.

Yarpaq: Yarpaqları yumşaq və basıq-tükcüklüdür, uzundur, neştərə oxşar, sivri ucludur, aşağı yarpaqları saplağa daralmışdır və saplaqla birgə uzunluğu 10-21,5 sm, eni 18-30 mm-dir. Ondan sonrakı yarpaqlar oturaqdır, uzunluğu 9-19 sm və eni 12-20 mm-dir; kökətrafı yarpaqları bitki çiçək açana qədər qurumur.

Çiçək: Çiçək qrupu süpürgəvaridir və meyvə verəndə budaqları uzanmış halda olur. Çiçək saplağı yumşaq-boz tükcüklüdür və nazikdir, kasacıqla eynidir, meyvə verən zaman 10-13 mm-ə qədər uzanır və aşağıya doğru qövsşəkilli əyilir. Tac çirkli tünd-qırmızı və ya qırmızı-göy rənglidir, qıfa oxşardır.

Meyvə: Fındıqcalar 5-7 mm uzunluqdadır, enli-yumurtavari, arxa hissədən demək olar ki, yastı, kənarları az qalxmış və qalınlaşmışdır, üzərində sıyrık tikanları vardır. Fındıqcanın yan və qarın tərəfi tikanlarla sıx örtülüdür.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ (Siyəzən), BQ (Xaçmaz), BQ qərq, BQ qərb, Alazan-Əyriçay, Kür düz., KQ (Şəmkir, Gəncə), KQ şimal, Nax.-dağ., Talış. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, çayların çınqıllı yerlərində, alaqlı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tərkibində zəhərli-alkaloid olan bitkidir. Bundan başqa tərkibində efir yağları da vardır və bal verən bitkidir.


Çiçəyi



Tüklü onaqra
Epilobium hirsutum L.



Hündürlüyü 50-150 sm, gövdəsi düz, çox budaqlanmış, aşağı hissədə az tilli, yuxarı hissədə dəyirmidir, uzun bizvari tüklərlə örtülü olan çoxillik ot bitkisidir. Payızda uzun, qalın, pulcuğabənzər yarpaqları olan lətli budaqlar əmələ gətirən qalın kökümsovu vardır.

Yarpaq: Yarpaqları (təpə yarpaqlarından başqa) qarşı-qarşıya düzülmüşdür, oturaqdır, uzunsov və ya uzunsov neştərvaridir, gövdənin həcmini artırandır, sivri dişlidir, dişcikləri qabağa əyilmişdir, hər iki tərəfdən uzun nazik tüklərlə örtülmüş və uzunluğu 3-12 sm, eni isə 1-3 sm-dir.

Çiçək: Çiçəkləri təkdir, yuxarı yarpaqların qoltuğunda yerləşmişdir. Tac enli qıfşəkillidir, al-qırmızı rəngdədir, iridir; ləçəkləri dəyirmi-əksinəyumurtaşəkilli olub, iki bölümlüdür, uzunluğu 10-18 mm-dir, eni də eyni ölçüdədir.

Meyvə: Qutucuq qismən tüklüdür, uzunluğu 4-8 (10) sm, eni 2 mm-ə qədərdir. Toxumları qonur rəngli olub, üzərində sıx məməciklər yerləşmiş, təpə hissədə dəyirmi, aşağıya doğru isə daralmış formadadır, uzunluğu 2,5 mm, eni 0,5 mm-dir.

Çiçəkləməsi: İyun-Sentyabr

Meyvə verməsi: İyul-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Bataqlıqlarda, çayların, arxların sahilində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Balverən bitkidir.



Kənəfvari eupator
Eupatorium cannabinum L.

Hündürlüyü 50-100 (120) sm, gövdəsi düzdür, qırmızı-şırımlıdır, tünd-qırmızı rəngə boyanmış və yuxarı hissədə budaqlanmış yaşıl, qısa-tüklü olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları çox qısa saplaq üzərində qarşı-qarşıya yerləşmiş, aşağı tərəfdə yerləşənlər bir qədər daha sıx və yumşaq-tükcüklüdür; aşağı yarpaqları üç hissədən ibarətdir, seqmentləri neştərvari və yaxud yumurtaşəkilli-neştərvaridir, ucu sivri, kənarları iti mişarvari-dişlidir. Yuxarı yarpaqları sadə, neştərvari və yaxud yumurtaşəkilli-neştərvaridir, sadə halda gövdə üzərində bütün yarpaqlar tamdır olurlar.

Çiçək: Çiçək qrupu sıx olub, qalxqanvaridir. Səbət az çiçəklidir və 4-6 ədəd uzunsov çəhrayı rəngli çiçəklərinin uzunluğu 8 mm-ə qədər olub, uzunsovdur.

Meyvə: Toxumlarının uzunluğu 3 mm-ə çatandır, qara, ensiz-uzunsovdur və 5 qabırğalıdır, uc hissədə yerləşən kəkili kələ-kötür tükcüklərdən ibarət olub, toxumlardan biraz uzundur.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran ova., Xəzəryanı, BQ (Quba), BQ şərq, BQ qərb, Abşeron-Acınohur, Kür düz., KQ mərkəzi, KQ cənub, Nax. düz., Lənk. dağ. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, rütubətli yerlərdə, kolluqların yanında və çay sahillərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Gövdə və yarpaqlarından göy rəngdə boya almaq üçün istifadə olunur.



Buassiye tovlu qulağı

Melandrium boissieri Schischk. = *M. latifolium* (Poir.) Mai

Hündürlüyü (15) 35-60 (70) sm, gövdəsi düz, çəngəlvari budaqlanmış, əsasən aşağı hissədə qismən tüklü, çox vaxt çox xovlu-tüklü olan ikiillik və yaxud çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları hər iki tərəfdən adətən sıx tüklüdür, kökətrafı və aşağı gövdə yarpaqları elliptik və ya uzunsov-əksinə neştərvaridir, qısa saplağa daralmışdır, qalanları isə oturaqdır, uzunsov və yaxud yumurtaşəkilli-neştərvari, bəzən yumurtaşəkillidir, sivri və ya az sivriləşmiş, nadir halda kütdür, yuxarıdakılar çox vaxt neştərvaridir.

Çiçək: Çiçək qrupu boşdur, çəngəlvari budaqlanmışdır, erkəkcikli çiçəkləri daha budaqlanmış və çoxçiçəklidir.

Meyvə: Qutucuğun uzunluğu (15) 17-18 (20) mm-dir, uzunsov-yumurtaşəkilli və ya əksinə armudşəkillidir, 10 ədəd dişlərlə açılandır, xariçə doğru qatlanmışdır.

Toxumlarının uzunluğu 1 mm-ə qədərdir, böyrəkşəkillidir, qonur və az qabarıqdır.

Çiçəkləməsi: Aprel-İyul (Avqust)

Meyvə verməsi: May-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, bağlarda, talalarda, otlu yamaclarda, qaya və daşların kölgəsində, çayın quru yataqlarında, alaqlı yerlərdə, bağ və bostanlarda, əkinlərdə alaq kimi rast gəlinir.

Meşə unutma

Myosotis sylvatica Ehrh. ex Hoffm. (*M. sachalinensis* M. Pop., *M. sylvatica* var. *sachalinensis* (M. Pop.) Tolm.)

Göndürlüyü (12) 20-50 sm, gövdəsi tək və ya bir neçə ədəddir, düz və ya əyilib qalxandır, orta və ya yuxarı hissədə budaqlanmış, aşağı hissədə aralanmış, üst tərəfdə sıxılmış tüklü olan birillik və ya çoxillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları uzunsov və ya uzunsov-əksinəyumurtaşəkillidir, kifayət qədər uzun saplağa daralmışdır, gövdə yarpaqları uzunsov-neştərvari, küttəhər və ya sivritəhərdir, oturaq saplaqlı yarpaqlar qaidə hissəsinə doğru daralmışdır, yuxarıdakılar isə oturaqdırlar.

Çiçək: Qıvrım çiçək qrupu çoxçiçəklidir, yarpaqsızdır. Tac tünd və ya açıq-mavi rəngli, diametri 7-8 mm-ə qədər olan yastı büküşlüdür və kasa yarpağına bərabər olan borucuğu vardır.

Meyvə: Fındıqcaların uzunluğu 2 mm-ə yaxındır, uzunsov-yumurtaşəkillidir, üçtilli, qara və parlaqdır.

Çiçəkləməsi: (Aprel) May-Avqust

Meyvə verməsi: İyun- Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ.. Aşağıdan dağ qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda, subalp çəmənlərində, qayalıqlarda rast gəlinir.

Sarı nonneya
Nonea lutea (Desr.) D. C.

Hündürlüyü 20-30 sm, gövdəsi əsasından budaqlanmış olan birillik ot bitkisidir. Qısa yumşaq, sadə və vəzili yapışqanlı və cod tüklə örtülmüşdür.

Yarpaq: Kökətrafı yarpaqları uzunsov-neştərvari, küt, tədricən saplağa daralandır, aşağı gövdə yarpaqları qaidə hissəsinə doğru daralan, qalanları oturaqdır, xətvari-neştərşəkilli, sivri, tamkənarlı və yaxud seyrək dişlidir.

Çiçək: Çiçək salxımları tək-tək və ya bir neçə ədəd olmaqla gövdə və budaqların ucunda yerləşmişlər, barverən budaqlar uzanmışdır, çiçəkləri birtərəfli yerləşmişdir. Tac limon sarısı rəngdədir, demək olar ki, borucuğa bənzərdir, diametri 5 mm-dən çox olmayan kiçik qınlıdır.

Meyvə: Fındıqcalar 5-6 mm uzunluqdadır, düz, seyrək uzununa damarlıdır, qəhvəyi rəngli, kütdür, qaidə hissəsində hamar halqalıdır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Demək olar ki, Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə talalarında, kolluqlarda, əkinlərdə alaq kimi, tarla və bostanlarda, yol boyunca, suvarma kanalları boyunca, boş yerlərdə rast gəlinir.

o Söyüdyarpaq güləvər
o *Centaurea salicifolia* Bieb. (*Jacea salicifolia* (Bieb.) Sojak)

Ümumi görünüşü: (16) 40-80 (110) sm, gövdəsi düz, sərt, qısa narın tüklü, çox vaxt bozumtul rəngli, tərəfdə və ya yuxarı hissədə budaqlanmış olan çoxillik ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları saplağa daralmışdır. Yuxarıda yerləşənlər qısa saplaqlı, qaidə hissəsinə doğru daralmış, sonrakılar isə oturaqdır, adətən uzunsov-neştərvari, bəzən uzunsov-ellipsvari və yaxud enli-neştərvaridir, tərəfləşmişdir, nisbətən aralıda yerləşən yarpaqlar qısa dişli və ya tamkənarlıdır, azalan başa yarpaqları səbətə yaxın yerləşmişlər.



Çiçək: Səbətlər tək-tək və ya 2-7 sayda olub, qalxan çiçək qrupunda yerləşmişdir, yumurtaşəkilli və ya yumurtavari-şarşəkilli formadadır, eni 8-12(15) mm-dir; adətən üçkünc-neştərvari iti və ya sivriləşmiş qara-qonuru və ya qara törəməli qın əmələ gətirmiş yarpaqların kənarları uzun daraqşəkilli-kirpiklidir. Kirpiklər açıq-qəhvəyi və ya demək olar ki, qara rəngli kirpikciklidir. Tac cəhrayı-qırmızı (al-qırmızı) rəngdədir.

Meyvə: Toxumlar uzunsov, hamar, ağ və ya bozumtul rənglidirlər, uzunluğu 3 mm-dir, az-tükcüklüdür; qısa kəkillidir.

Çiçəkləməsi: (İyun) İyul-Sentyabr

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi. Aşağı dağ qurşağından, subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, talalarda, meşə ətrafında, kolluqlar arasında, dağ çəmənliklərində rast gəlinir.

o Poyarkova xaçgülü

o *Senecio pojarkovae* Schischk. (*Pojarkovia stenocephala* (Boiss.) Asker., *Senecio stenocephalus* Boiss.)

Çiçəyi

Hündürlüyü 80-200 sm, gövdəsi sıx yarpaqla örtülmüş, düz, şırımlı, yuxarı hissədə enli qalxanşəkilli süpürgəvari budaqlanmış demək olar ki, çılpaq çoxillik ot bitkidir. Dəstə halında olan bağşəkilli köklərin kökümsovu köndələndir.

Yarpaq: Yarpaqları saplaqlıdır, bərkdir, ensiz-neştərvari və yaxud ensiz-xətvaridir, sivriləşmişdir, uzunluğu 14-26 sm, eni 2-5 sm-di kənarları eyni ölçüdə qısa və itidişlidir, aşağı yarpaqları qısa saplaqlıdır, qalanları oturaqdır, qaidə hissəsinə doğru tədricən daralandır, kökətrafı yarpaqları tez saralandır.

Çiçək: Çiçək qrupunun oxu və səbətin saplağı bütünlüklə qısa tüklərlə örtülüdür. Səbətləri çoxsaylı, xırda, enli-qalxanşəkilli sıx süpürgədədir; səbətin saplağı çox nazikdir, uzunluğu səbətin uzunluğuna bərabərdir və ya ondan azacıq uzundur. Sarğı yarpağı ensiz slindik formadadır, uzunluğu 5 mm-ə yaxındır, çılpaqdır; onun daxili yarpaqcıqları 5 ədəddir, xətvari-kürəkşəkillidir, kənarları nazik pərdəvaridir, küt və ya sivritəhərdir, çılpaqdır. Çiçəklər səbətdə adətən 5 ədəd, nadir halda 4 6 ədəd olur. Dilcikşəkilli çiçəkləri yoxdur.

Meyvə: Toxumlarının uzunluğu 4 mm, uzunsov, tin-tindir, çılpaqdır; kəkili ağ rəngdədir, ipək kimidir, toxumdan iki dəfə uzundur.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb. Yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Meşə və talalarda, daşlı töküntü yerlərdə rast gəlinir.

Yarpağı

Lansetli bağayarpağı
Plantago lanceolata L. subsp. *lanuginosa* (Bast.) Arcang. = *P. dubia*

Hündürlüyü 20-60 sm, gövdəsi üzərində çiçək olub, çoxsaylı, əyilib qalxan və ya düz, 5-6 sayda və ya daha çox qırışlı, sıx tüklü və ya çılpaq olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları kökətrafı rozetdə yerləşmiş, uzanmış lansetvari olub, xətvari lansetə qədər (bəzən enli lansetvari) dəyişir, sivridir, qaidəsinə doğru daralmışdır. 3-7 ədəd damarlıdır.

Çiçək: Sünbül qısa silindrik olub, uzunsov və ya yumurtaşəkillidir. Çiçəkaltlıqları yumurtaşəkilli, sivriləşmiş, çılpaq və ya seyrək tüklüdür, dəriyəoxşardır, orta xətti qəhvəyi rəngdədir. Tacın uzunluğu 2-3 mm-dir, çılpaqdır, ağımtıl və ya qəhvəyi rəngdədir, yumurtaşəkilli-lansetvari və ya bəzən təpə hissədə sivriləşmiş hissələrlədir.

Meyvə: Qutucuğun uzunluğu 3-4 mm-dir, yumurtaşəkillidir, ikitoxumludur. Toxumlarının uzunluğu 2 mm-ə qədərdir, demək olar ki, qaramtıldır, qarın tərəfdən çökək olub, kənarları qatlanmışdır.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyun-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan, subalp qurşağına qədər.

Yaşayış mühiti: Otlu yamaclarda, əkin sahələrində alaq kimi, bağ və bostanlarda, kanal boyunca, yol boyunca rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yarpaq və toxumlarından xalq təbabətində dərman kimi istifadə olunur.

Çiçəyi


Yarpağı

Bataqlıq polikariyası
Pulicaria uliginosa Stev. Ex DC. = *P. dysenteric*


Çiçəyi

Hündürlüyü 25-60 (80) sm, gövdəsi düz, adətən qalxanşəkilli, az hallarda süpürgəvari-budaqlanmış formada, qısa-yumşaq tüklü, bozumtul-yaşıl olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaqdır, yumşaqdır, üst tərəfdən qabarıq-tükcüklü, alt tərəfdəndən nazik və bozumtul-keçəli tüklüdür, uzunsov-neştərvaridir,dəyirmi qulaqcıqları ilə gövdənin həcmini ürəkşəkilli artırandır, sivridir, kənarlardan dalğalıdır, tamkənarlı və ya xırda seyrək dişlidir.

Çiçək: Səbət yarımşarşəkilli olub, eni 7-10 mm dir, yarpaqla örtülmüş, uzun saplaqda yerləşimişdir. Qını keçə-tüklüdür; yarpaqcıqları çoxsaylıdır, ensiz- neştərvari-xətvari formadadır, təpə hissədə uzun sivriləşmişdir. Kənar çiçəklərin dilciyi sarı rənglidir, ensiz-xətvari, qatlanmış vəziyyətdə olub,qından uzundur.

Meyvə: Toxumlarının uzunluğu 1 mm-ə yaxındır, uzunsovdur, az tükcüklüdür; kəkili ağ rəngdədir, 3-4 dəfə ondan uzundur.

Çiçəkləməsi: İyul-Oktyabr (Noyabr)

Meyvə verməsi: Avqust-Oktyabr (Noyabr)

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Kür-Araz oval., BQ şərq, Nax. dağ., Lənk. oval.. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Rütubətli yerlərdə, bataqlıqların, çayların kənarında, arxlarda, düyü sahələrində və mədəni əkin sahələrində rast gəlinir.

Yarpağı

Gürcü boyaqotu

Rubia iberica (Fisch. Ex DC.) C. Koch = *R. tinctorum*

Hündürlüyü 80-100 sm-ə qədər olan çoxillik ot bitkisidir. Kökümsovları oduncağabənzər olub, uzundur, qalınlığı 1,5 sm-ə qədərdir, zoğ vermir; kökləri çoxbudaqlanan, oduncağabənzərdir və qırmızımtıl-qonur rəngli soyulan qabığı vardır. Gövdəsi qismən düzduran və ya yuxarı hissəsi dırmaşan, qonşu bitkilərə sarmaşandır, çox qısa qıvrıq tüklərlə örtülmüş, bəzən çılpaq, yalnız buğumlarda tükcüklüdür, dördtillidir, qalınlaşmış tillərlə üzüaşağı qatlanmış tikanlar yerləşmişdir.

Yarpaq: Yarpaqları çiçək köbəsində 4-6 ədəd (yalnız yuxarıdakılar 2 ədəd) olmaqla, qarşı-qarşıya düzülmüşdür, bir yarım-iki dəfə buğumarasından qısadır, neştərtvari və ya ellipsşəkilli-neştərtvari, bəzən ensiz-neştərvaridir, sivridir, təpə hissədə bəzən uzunsov sivri sonluğa daşılmış haldadır, pazşəkilli qaidəsi vardır, ətəkdən uzunluğu yarpaq ayasından (4) 5-7 dəfə qısa olan saplaqdan kəskin ayrılmışdır. Ən iri yarpaqlar (uzunluğu 5,5-8 (9) sm, eni 2-2,7 sm) gövdənin orta hissəsində yerləşmişdir.

Çiçək: Çiçəkləri qoltuq və təpə hissədə, üzçiçəkli, bir-iki dəfə 3 hissəyə-bölünmüş yarımçətirdə yerləşib, gövdə və budaqların sonunda seyrək, uzunsov, yuxarı hissədə demək olar ki, yarpaqlanmamış süpürgədə toplanmış; yarımçətirlərin ümimi çiçək saplağı buğumlarda qarşı qarşıya yerləşmişdir. Tac sarı rəngli, qısa qıfşəkilli olub, xırdadır, neştərvari və ya yumurtaşəkilli-neştərvari beş dilimi vardır.

Meyvə: Meyvələri lətlidir, quru halda qara rəngdədir, biryuvalı, nadir hallarda ikiyuvalıdır.

Çiçəkləməsi: İyun-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Apşeron, Kür-Araz oval., Nax. düz., Nax.dağ., Lənk. oval. Ovalıq və dağlarda orta dağ qurşağına qədər.

Yayılış mühiti: Kolluqlarda, çayların sahilində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Əvvəllər bu növ Qafqazda qırmızı boya mənbəyi kimi xalçaçılıqda istifadə olunurdu.


Çiçəyi

Meyvələri

Kökü

İtaliya qoyunqulağı

Silene italica (L.) Pers. subsp. *nemoralis* (Waldst. & Kit.) Num. = *S. nemoralis*

Hündürlüyü (25) 40-60 (80) sm, gövdəsi düz, aşağı hissədə sıx və yumşaq tüklə örtülmüş, yuxarı hissədə çılpaq və yapışqanlı, boş süpürgəvari-budaqlanmış olan çoxillik yaşıl ot bitkisidir. Kökü çoxbaşlı olub, barsız budaqları və çiçəkli gövdəsi vardır.

Yarpaq: Yarpaqları qısa tüklüdür, kənarları kirpiklidir, bar verməyən budaqlarda və gövdənin aşağı hissəsində qısmən uzun saplağa keçən, oval və elliptik ayası kürəkvaridir, uc hissədə qısa sivri qurtaracaqlıdır, qalanları kürəkvari-neştərşəkilli və yaxud elliptik fomadan neştərşəkilli-xətli formaya qədər dəyişir, aşağı yarpaqları qısa saplağa daralmışdır, yuxarıdakılar oturaqdırlar.

Çiçək: Çiçək qrupunun piramidaşəkilli-süpürəvari budaqları uzun, düz olub, çox əyilmişdir, yuxarı hissədə 3 (1), nadir halda 7 çiçəkli dixazisi vardır. Ləçəkləri ağ rəngdədir.

Meyvə: Qutucuğun uzunluğu 8-10 (12) mm-dir, uzunsov-yumurtaşəkillidir. Toxumları qara-qonur rəngli, böyrəkşəkilli, qabarıq olub, uzunluğu 1 mm-dir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün dağlıq, meşəli rayonlarında. Aşağı və orta dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, meşə kənarında, talalarda, çəmənliklərdə, yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Cavan budaqları yaşıl şəkildə qidada istifadə olunur. Dekorativdir.

Qızılçubuq qızılsəbət
Solidago virgaurea L.

Hündürlüyü (40) 80-100 sm, gövdəsi düz, aşağı hissədə çılpaq, yuxarı hissədə çiçək qrupunda budaqlanmış olan çoxillik ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları yumurtaşəkilli, ellipsəkilli və ya uzunsov-neştərvaridir, dişlənmiş, mişarvaridir, qaidəsinə doğru qısa saplaqda pazşəkilli daralmışdır, bəzən qaidə hissəsi az ürəkşəkilli olur, dağınıq və qısa tüklüdür, alt tərəfdən daha tüklüdür, yuxarı yarpaqları neştərvari, oturaq və tamkənarlıdır. Cəmi 7-9 mm uzuluqdadır.

Çiçək: Səbətləri uzun, ensiz və sərt, nadir halda sıyrıq və enli süpürgəvari çiçək qrupunda toplanmışdır; sarğı yarpaqcıqları 4-5 cərgəlidir, çox bərabər deyil, daxildəki yarpaqcıqları xətvaridir.

Meyvə: Toxumlarının uzunluğu 4 mm-ə qədər olub, demək olar ki, silindrik formalıdır, tüklüdür, uzunluğuna görə ona bərabər olan kəkili vardır.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. dağ., Orta dağ qurşağında subalpa qədər (1200-2200 m d.s.y.)

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, dağ çəmənlərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Vitaminli, balverən bitkidir, gövdə yarpaq və çiçəkləri boyaq işlərində istifadə olunur.

Çiçəyi

Yarpağı

Neştərvari cincilim
Stellaria holostea L.

Çiçəyi

Hündürlüyü 15-60 sm, gövdəsi zəif, yuxarı qalxan, 4 tillidir, adətən hamar, kövrək, uc hissədə budaqlanan çoxillik ot bitkisidir. Kökümsovu sürünən, budaqlanan, qısa barsız və daha uzun çiçək daşıyan budaqlarladır.

Yarpaq: Yarpaqları ensiz neştərvaridir, uzun sivriləşmiş, uzunluğu 12 sm-ə qədərdir, gövdədən aralı yerləşmişdir, kənarları çox kələ-kötürdür.

Çiçək: Ləçəkləri yarıya qədər ikiyə bölünmüşdür, uzunluğu 8-15 mm-dir.

Meyvə: Qutucuq demək olar ki, şarşəkillidi kasacıqdan uzun deyildir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul.

Azərbaycanda yayılması: BQ (Quba), Qob., BQ şərq, BQ qərb, Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşənin kənarında və kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Balverən bitkidir və mal-qara tərəfindən yeyilir.


Meyvəsi

o Qafqaz xəndəkotu
o *Symphytum caucasicum* Bieb.

Hündürlüyü 30-60 sm, gövdəsi düz, az budaqlanan, yumşaq tüklü çoxillik ot bitkisidir. Uzun qalınlaşmış kökləri və qısa milşəkilli kökümsovları vardır.

Yarpaq: Gövdə yarpaqları yumurtaşəkilli və yaxud uzunsovdur, aşağı yarpaqları qismən uzun saplaq üzərindədir, küttəhərdir, orta yarpaqları qısa enli və ya demək olar ki, oturaqdır, enli neştərvari və ya uzanmış elliptik şəkildədir, sivriləşmişdir, kənarları qeyri-müəyyən sirdə dişlidir, uzunluğu 5-10 sm, eni 2-4 sm-dir, alt tərəfdən bozumtul və məxmər kimidir, üst tərəfdən az tüklüdür.

Çiçək: Qıvrımlar azçiçəklidir, yarpaqsızdır. Meyvə saplağı əyilən olub, uzunluğu 3-5 mm-dir. Tac mavi rəngdədir.

Meyvə: Fındıqların uzunluğu 3-3,5 mm-dir, uzunsov, demək olar ki, düzdür, qeyri-bərabəryanlıdır, nazik torvari qırışlı və az qabarıqdır.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, Kür-Araz ovalığından başqa. Qobustan, Abşeron, Xəzəryanı, Lənk., Muğ. Ovalıqdan orta və subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında, meşələrdə, kolluqlarda, bağlarda, dağ çəmənlərində, çay sahilində, yol kənarında, alaqlı yerlərdə rast gəlinir.

Çiçəyi


Yarpağı

Yaz baharotu
Erophila verna (L.) Bess



Hündürlüyü 4-20 sm, gövdəsi nazik və çılpaq olan birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları uzunsov və ya uzunsov-neştərvari olub, oturaqdırlar, qaidəsinə doğru tədricən daralmışdır, küttəhərdir, seyrək şaxəli tüklərlə örtülmüşdür.

Çiçək: Ləçəklərinin uzunluğu 1,5-4 mm-dir, ağ rəngdədir. Qıncıqları ellipsvari və ya uzunsov-ellipsvaridir, uzunluğu 3-7 mm, eni 1,5-3 mm olub, uzun saplaq üzərindədir.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: Samur-Şabran oval., Qob., Kür-Araz oval., Kür düz., Nax. dağ., Lənk. dağ., Lənk. oval. Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Gilli, daşlı və otlu yamaclarda, yarımsəhralarda və alaqlı yerlərdə rast gəlinir.



Adi qanqal
Cirsium vulgare (Savi) Ten.

Hündürlüyü 50-150 sm, gövdəsi yuxarı hissədə budaqlanmış, bölümlütəhər-qanadlı, nazik hörümçək toruna oxşar tüklü olan ikiillik ot bitkisidir.

Yarpaq: Yarpaqları üst tərəfdən tikanlarla qismən sıx örtülmüşdür, alt tərəfdən hörümçək toruna oxşar tüklü olub, keçə tüklərə qədər dəyişir, xətvari-uzunsovdur, uzunluğu 5-15 sm, eni 2-7 sm-dir, gövdəyə tədricən birləşəndir, nəbzinə-neştərvariyə lələkvari bölünmüşdür, 2-3 cüt ayrı dilimlərinin bölümləri uc hissədə uzun sarı tikanlı, kənarları isə xırda nazik tikanlıdır.

Çiçək: Səbətləri tikanlı və xırda yarpaqlı gövdə və budaqların uc hissəsində yerləşib, yumurtaşəkillidir, təkdir və eni 2,5 -4,5 sm-dir. Çiçəkləri çəhrayı rəngdən bənövşəyi-tünd qırmızı rəngədək dəyişir.

Meyvə: Toxumları 3-4 mm uzunluqdadır, tərsinə tumurcuqlu və ya açıq-qəhvəyi rəngdə olub, qara uzununa zolaqlıdır; kəkili ağımtıldır.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşə talalarında, yol boyunca, ruderal bitki kimi yaşayış evlərinin yaxınlığında rast gəlinir.

Əzələ qərənfili
Dianthus armeria L.

Çiçəyi

Yarpağı

Hündürlüyü (19) 30-50 (70) sm, düz və ya əsasından azacıq qalxan, sadə və ya az budaqlanan, yuxarı hissədə sıx və qısa tüklü olan birillik və ya ikiillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaq, düzduran, qaidə hissəsində qısa qında qovuşan, xətli-neştərvari və ya xətvaridir, eni 1-3 mm-dir, sivri, alt tərəfdən aydın görünən damarı vardır, tüklüdür.

Çiçək: Çiçəkləri oturaq və ya qısa saplaqdadır, gövdənin və budaqların uc hissəsində 3-10 ədəd çiçəklə sıx başcıqda toplanmışdır. Çiçəkaltlığı pulcuqları otşəkillidir, neştərvari-bizşəkillidir, tüklüdür, kasacığa bərabər və ya ondan uzundur. Ləçəklərinin ayası tünd fırfır-qırmızı rəngdə olub, yuxarı tərəfində daha tünd xalları vardır, uc hissəsi dişlidir.

Meyvə: Qutucuq silindrikdir, kasacıqdan azacıq qısadır. Toxumlarının uzunluğu 1,5 mm-ə yaxındır, qara rəngli, yumurtaşəkilli, yastı, qabarıq nöqtəli, uc hissədə qısa buruncuqludur.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Xəzəryanı, BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, kolluqlarda, yol və meşə talalarında rast gəlinir.

o İyli qərənfil
o *Dianthus fraqrans* Adams.


Çiçəyi


Yarpaqları

Sümükcüyü (6) 20-35 (43) sm, gövdəsi kökümsovundan çoxsaylıdır, düz və ya buğumlu tüklü, yuxarı hissədə budaqlanan çoxillik yaşıl ot bitkisidir.

Yarpaq: Yarpaqları qısadır, gövdə yarpaqları buğumlararasından qısadır, dar xətvaridir, eni 1,5 mm-dir, sivriləşmişdir, kənarları kələ-kötürdür.

Çiçək: Çiçəkləri gövdə və budaqların uc hissəsində adətən təkdir. Çiçəkaltlığı pulcuqları (4) 5-6 cütdür, qalın dərili, ağımtıl, uzunsov-ellipsayumurtaşəkilli və ya uzanmış-elliptikdir, yuxarıya doğru daralmış və ya küt qısa və ya 1,5 mm uzun sivri ucludur. Ləçəklərin ayası ağ rəngdən çəhrayıtəhər, uzunluğu 8-12 mm, enli ellipsayumurtaşəkillidir, bayır kənarı saçaqlı olub, dırnağının uzunluğunun 1/3 hissəsinə çatan xətvari formalıdır.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), Abşeron (Buzovna, Sabunçu, Binəqədi, Hövsan), BQ şərq, BQ qərb, KQ şimal (Balakən, Zaqatala, Qax, Qəbələ, Şəki), KQ cənub (Göygöl, Şəmkir, Gədəbəy, Daşkəsən, Naxçıvan MR) yuxarı meşə qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Quru gilli yamaclarda və qayalarda, otlu yamaclarda, subalp dağlarının yuxarı hissəsində rast gəlinir.

o Qafqaz dovşankələmi

o *Sedum* Boriss. = *Hylotelephium caucasicum*


Yarpağı


Meyvələri

Hündürlüyü (25) 30-50 (70) sm, gövdəsi düz və ya azca əyilib qalxan, hamar, silindrik, adətən tünd-qırmızı rəngli, qalın kökümsovlu və çox vaxt qalınlaşmış milşəkilli köklü olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları iridir, qarşı-qarşıya düzülmüş, oturaqdır, enli oval-yumurtaşəkilli və ya yumurtaşəkilli, ürəkşəkilli olub, dəyirmi qulaqcıqlıdır, gövdə həcmini artırandır, kənarları küt dişləri olan oyuqlu-dişlidir, çox vaxt qırmızımtıl rəngdədir və eni 3-4 sm-dir.

Çiçək: Çiçək qrupu təpə hissədə yerləşmişdir, sıx, yarımşarşəkilli, süpürgəvari-qalxanşəkillidir, 2 (3) cüt kənar budaqlardadır. Çiçək saplağı çiçəklərdən uzun, onlara bərabər və ya onlardan daha qısadır.

Meyvə: Meyvələri yumurtaşəkilli-neştərəoxşardır, üçtilli olub, uzun, sivri, bir neçə ədəd qatlanmış buruncuğu vardır.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: KQ şimal, KQ mərkəzi, Nax. dağ. Aşağı dağ qurşağından, yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Qayalarda rast gəlinir.


Çiçəkləri

Dərman sarımsaqotu

Alliaria petiolata (Bieb.) Cavara & Grande
A. officinalis Andrz. ex Bieb.

Hündürlüyü 20-100 sm, gövdəsi düz budaqlanmış, ikiillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaqlarda yerləşib, böyrəkşəkilli, iri oyuqlu-dişlidir. Gövdə yarpaqları ürəkşəkilli-yumurtavaridir, sivri dişli, təpə yarpaqları yumurtaşəkilli-üçbucaq, qaidə hissəsi küt və ya pazvaridir.

Çiçək: Çiçəkləri uzun salxımdadır. Ləçəkləri ağ rəngdədir, uzunluğu (4) 6-8 mm-dir. Çiçək saplağı meyvə verəndə qalınlaşır, uzunluğu 3-15 mm-dir.

Meyvə: Qını köndələn şəkildə üzüyuxarı duran, çılpaq və çoxtoxumludur.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Xəzəryanı, Qobustan, Kür düz., BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk.-dağ., Lənkəran oval. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, bağlarda, hasarların yanında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Sarımsaqotunun yarpaqları sarımsağın əvəzinə ədviyyat kimi istifadə olunur.



Əkin anaqllis
Anagallis arvensis L.



Hündürlüyü 6-20 (30) sm, gövdəsi çoxsaylı budaqlanan, əyilib qalxan və ya uzanmış şəkildə, dördtilli olan birillik çılpaq ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, oturaqdır, yumurtaşəkilli, uzunsov-yumurtaşəkilli, kütdür, açıq-yaşıl rəngdədir.

Çiçək: Çiçəkləri təkdir, qoltuq çiçəkləridir, uzunluğuna görə yarpağa bərabər və ya ondan 1,5-2 dəfə uzun olan saplaq üzərindədir. Tac narıncı və ya kərpici-qırmızı rəngdədir, çarxşəkillidir, beş bölümlüdür; dilimləri oval-yumurtaşəkillidir, kütdür, kənarları nazik vəzili-kirpiklidir.

Meyvə: Qutucuq şarşəkilli, çoxtoxumludur, eninə çatlayandır. Toxumları xırda, yumurtaşəkilli, künclü, xırda qabarıq-nöqtəli, tünd-qəhvəyi, demək olar ki, qaradır, uzunluğu 1-1,3 mm-dir.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-Avqust

Azərbaycanda yayılması: Samur-Şabran oval., Abşeron, Qobustan, Alazan-Əyriçay, BQ qərb, Lənk. oval., Lənk.-Muğ., Kür-Araz oval., Kür düz., Nax. düz., KQ cənub. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Alaqlı yerlərdə, dincə qoyulmuş torpaqlarda, çəmənliklərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitkidir. Xalq təbabətində ağciyər vərəmində, qadın xəstəliklərində istifadə olunur.

İri atpıtrağı
Arctium lappa L. (*A. chaorum* Klok.)

Hündürlüyü 100-180 sm, gövdəsi düz, möhkəm, şırımlı olub, çox vaxt bənövşəyi rəngli və budaqlanan, hündür ikiillik ot bitkisidir.

Yarpaq: Yarpaqları iri və saplaqlıdır, ürəkşəkilli-yumurtavaridir, seyrək dişli və ya tamkənarlıdır, üst tərəfdən yaşıldır, qısa, seyrək tüklüdür, alt tərəfdən nazik boz keçə tüklüdür, aşağı yarpaqların uzunluğu 50 sm-ə qədərdir, uzun saplaq üzərindədir, yuxarıya doğru getdikcə tez azalandır.

Çiçək: Səbəti şarşəkillidir, eni 2,5-4 (5) sm-dir, qismən qalxanşəkilli çiçək qrupunda toplanmışdır. Qını demək olar ki, çılpaqdır; yarpaqcıqları ensiz-xətvari, yuxarı hissədə qarmaqşəkilli ucu vardır.

Meyvə: Toxumları 6-7 mm uzunluqdadır, əksinəyumurtaşəkilli-uzunsovdur, tünd qara rəngli çilləri vardır, yuxarı hissədə biraz qırışlıdır; kəkil qısa cod tüklərdən ibarətdir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. dağ. Orta dağ qurşağında və subalp qurşağında, nadir halda yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda və dağ çəmənlərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Cavan zoğları və yarpaqları qidada istifadə olunur. Bütün növləri yaxşı balverən bitkilərə aiddir.

Çiçəyi

Yarpağı

Ətirli çətiryarpaq
Asperula odorata L. = *Galium odoratum* (L.) Scop.

Hündürlüyü 10-60 sm, gövdəsi tək, düz və sadə, dördtilli, hamar və çılpaq olan çoxillik ot bitkisidir. Kökümsovları şaxələnmiş, nazik və sürünəndir.

Yarpaq: Yarpaqları 6-10 ədəd olmaqla, topa halında, enli əksinəyumurtaşəkillidir, uzunluğu (18) 40 (54) mm, eni (4) 10 (13) mm-dir, qısa ucludur, kənarlardan, bəzən alt tərəfdən damar boyunca qısa, yuxarı yönəlmiş cod tüklü və yaxud hər iki tərəfdən dağınıq basıq cod tüklüdür.

Çiçək: Çiçək qrupu təpə hissədə yerləşmiş, çəngəlvari və yaxud üç hissədən ibarət olan şaxələnmiş çiçək saplaqlığına malikdir, sonuncu şaxədə üç yarımçətirlidir, nadir halda daha bir ədəd yarımçətiri də olur ki, bunlar da, topa halında olan yuxarı yarpaqların aşağı hissəsində qoltuqda yerləşir, azçiçəklidir; çiçək saplağı tacdan biraz uzundur.

Tac ağ rəngdədir, diametri 3-7 mm-dir, qıfaoxşar olub, bölümlərdən qısa olan qısa borucuqludur və dörd uzunsov küt bölümlüdür.

Meyvə: Meyvələri bitişikdir.

Çiçəkləməsi: Aprel-İyun

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Yarpaqlı meşələrdə, əsasən palıd və fıstıq meşələrində, rütubətli torpaqda kölgədə rast gəlinir.

Çiçəyi


Meyvələri

Yarpağı

Gürcü asteri
Aster ibericus Bieb. (*A. amellus* L. subsp. *ibericus* (Bieb.) V. Avet.)

Hündürlüyü 15 (30)-60 sm, gövdəsi möhkəmdir, düzdür, kələ-kötür-qısa tüklü, yuxarı hissədə qalxanvari budaqlanmış çoxillik ot bitkisidir.
Yarpaq: Yarpaqları tamkənarlı, aşağı yarpaqları ellipssəkilli-belvaridir, qaidəsinə doğru saplağa daralandır, küt və ya sivridir.
Çiçək: Səbət çiçək qrupu qalxanda toplanmışdır, yarımşarşəkillidir, eni 12-15 mm-dir; qın yarpaqları uzunsov, küt və ya sivridir, yaşıl və ya tünd-qırmızı rəngdədir.
Dilcikşəkilli çiçəkləri mavi rəngdədir, qından iki dəfə uzundur.
Meyvə: Toxumlarının uzunluğu 4 mm-ə yaxındır, odətən yumurtaşəkilli-uzunsovdur, tüklüdür.
Çiçəkləməsi: İyul
Meyvə verməsi: Avqust-Sentyabr
Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub. Orta dağ qurşağından, subalp qurşağına qədər.
Yaşayış mühiti: Çəmənliklərdə, kolluqlarda, meşə kənarında, tökünti yerlərdə, otlu yamaclarda rast gəlinir.

Zəngçiçəyinəoxşar azineuma

Asyneuma campanuloides (Bieb. ex Sims) Bornm.
(*Phyteuma campanuloides* Bieb. ex Sims)

Yarpağı

Hündürlüyü 50-70 sm-ə qədər, gövdəsi düz və hündür olan çoxillik ot bitkisidir. Kökümsovu köndələn, ağımtıl və kifayət qədər nazikdir. Bitki kiçik və az nəzərə çarpan tükləri olduğundan kələ-kötürdür və ya demək olar ki, çılpaqdır.

Yarpaq: Yarpaqları dəyirmi-dişli və ya mişar-dişlidir, çox vaxt qeyri-müəyyən dəyirmi dişlidir, lakin kifayət qədər iridir, uzunluğu 5-8 sm, eni 2-4 sm-dir; aşağı yarpaqları yumurtaşəkilli və kütdür, çox qısa saplaq üzərindədir; qalanları oturaqdır, qaidə hissəsi ürəkşəkilli və ya ürəkşəkilli- yarımgövdə həcmini artırandır, yumurtaşəkilli-uzunsov, sivri, gövdənin yuxarısına doğru azalan və neştərvari formada olur.

Çiçək: Çiçək qrupu sünbülşəkillidir, kifayət qədər qısadır, qaidə hissəsi kəsilmişdir, demək olar ki, uzunluğu 1 sm-ə çatan, xırda, göyümtül-bənövşəyi rəngli çiçəklərin oturaq dəstələrindən ibarətdir. Tac xətvari bükülmüş və ya geriyə qatlanmış bölümlərə dərin kəsilmişdir.

Meyvə: Qutucuq uzunsovdur, təpə hissəsində kiçik açılan taylıdır.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Subalp və yuxarı meşə qurşağında.

Yaşayış mühiti: Dağ çəmənlərində və meşələrində, talalarda rast gəlinir.


Çiçəyi

• Qafqaz xanımotu

• *Atropa caucasica* Kreyer (*A. bella-donna* L. subsp. *caucasica* (Kreyer) V. Avet.)

Hündürlüyü 1-1,5 (2) m, gövdəsi düz, budaqlanmış, yaşıl, bəzən qırmızımtıl rəngli, çılpaq və ya demək olar ki, yuxarı hissəsi vəzili-tüklü olan çoxillik ot bitkisidir. Kökümsovu qalın, çoxgünbəzlidir, iri saxələnmiş kökləri vardır.

Yarpaq: Yarpaqları iri, yumurtaşəkilli və ya uzunsov-ellipsvaridir, tamkənarlıdır. Sivri və ya az sivriləşmişdir, qaidə hissəsində qısa saplağa (1-3 sm uzunluqda) daralmışdır, çılpaqdır və yaxud alt tərəfdən damarın üzəri tüklüdür. Hər iki tərəfdən çox az bozumtul nöqtəlidir (oturaq vəziciklər), yuxarı yarpaqlar cüt-cüt düzülmüş və eyni böyüklükdə deyil, uzunluğu 10-20 sm, eni 4-9 sm-dir.

Çiçək: Çiçəkləri kifayət qədər iridir, tək-tək, bəzən cüt-cüt düzülmüşdür. Çiçəklər qoltuq çiçəkləri kimi görünən, aşağı əyilmiş çiçək saplağında yerləşmiş və vəzili-tüklərlə örtülüdür. Tacı vəziciklidir, uzunluğu 20-30 mm-dir, bölümləri boruvari-zınqırovşəkilli, dəyirmi və qatlanmış olub, çirkli-qonurtəhər-bənövşəyi rəngdə, qaidə hissəsi isə sarımtıl-qonur rəngdədir. Sütuncuq sapşəkillidir və dişicik ağızcığı ikiyə bölünmüşdür.

Meyvə: Giləmeyvələri şarşəkilli, qara rəngli, parlaq, çoxtoxumludur və bənövşəyi rəngli şirəsi var, diametri 1-1,5 sm-dir. Toxumları 1,5 mm uzunluqda olub, yastıtəhər, qəhvəyi rəngli və kiçik çüxurludur.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. dağ. Aşağı və orta dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, yolların kənarında, talalarda, dərələrdə və dağ çaylarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Bitki bütünlükdə zəhərlidir, tərkibində güclü təsirə malik olan alkaloid vardır. Dərman əhəmiyyətli bitkidir.

Meşə çəpərsarmaşığı

Calystegia silvestris (Willd.) Roem. & Schult. = *C. silvatica*



Hündürlüyü 3-3,5 m-ə qədər, gövdəsi zəif sarmaşan və çılpaq olan çoxillik ot bitkisidir. Bitki uzun sürünən kökümsova malikdir.

Yarpaq: Yarpaqlar adətən uzun saplaqlı, üçbucaq və ya enli yumurtaşəkillidir, sivri və ya küt sonluqludur, yarpağın qaidə hissəsi ürəkşəkilli və ya oxvaridir; nazik bölümləri tin-tin və ya kələ-kötür bölümlü olub, kütdür.

Çiçək: Çiçəkoxu uzun və təkçiçəklidir. Tacı ağ rənglidir və çox böyükdür, uzunluğu 6-8 (9) sm-dir.

Meyvə: Qutucuğunun uzunluğu 1 sm, dəyirmidir və təpə hissədə kiçik ucluğu vardır. Toxumları yumurtaşəkili olub, çılpaqdır.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə ətrafında, kolluqlarda, çay plantasiyalarında, çay boyunca və çay sahilində rast gəlinir.

Enliyarpaq zəngçiçəyi
Campanula latifolia L.

Hündürlüyü 1 m-dən yuxarı, gövdəsi düz, sadə, çılpaq və ya kifayət qədər seyrək tüklüdür, uzununa-zolaqlı çoxillik ot bitkisidir. Kökü liflidir, südlü şirəsi vardır.

Yarpaq: Yarpaqları çılpaq, bəzən nahamar olur, uzunluğu 7-12 sm, eni 3-6 sm-dir, alt tərəfdən tutqundur, kənarları qeyri-müntəzəm iki növ mişarvaridir; kökətrafı yarpaqlar yumurtaşəkilli-uzunsovdur, qaidə hissəsi ürəkşəkillidir, gövdə yarpaqlarına nisbətən daha uzun dişlidir; aşağı gövdə yarpaqları qısa saplaqlı, yumurtaşəkilli və sivriləşmişdir, yuxarı yarpaqlar oturaq, daha ensiz və demək olar ki, tamkənarlıdır.

Çiçək: Çiçəkləri iridir, saplaqlıdır, yuxarı yarpaqların qoltuğunda bir ədəd olmaqla yerləşmiş, düzdür, ensiz, demək olar ki, sünbülşəkilli və nisbətən seyrəkçiçəkli salxım əmələ gətirəndir. Tac göy və ya bəzən, demək olar ki, ağ rəngdədir. Uzun yumşaq tüklərdən ibarət olan qıfşəkilli daxili şırımlıdır.

Meyvə: Qutucuq üç deşiklə açılır, yumurtaşəkilli və enəndir. Toxumları yumurtaşəkilli, yastıtəhər və tutqun-sarı rəndədir.

Çiçəkləməsi: İyun-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi. Yuxarı meşə və subalp qurşağında.

Yaşayış mühiti: Yarpaqlı və qarışıq meşələrdə, subalp yüksəkotluqlarda rast gəlinir.

Kiçik qovotu
Cerinthe minor L.

Çiçəyi

Yarpağı

Hündürlüyü (18) 30-50 (70) sm, gövdəsi düz, bəzən əsasında əyilib qalxan, tünd-göy və ya bənövşəyi rəngli birillik, nadir halda ikiillik və çoxillik çılpaq ot bitkisidir.

Yarpaq: Yarpaqları adətən çılpaq və kütdür, üst tərəfdən yastı dəyirmi tüksüz qabarcıqları vardır, kökətrafı yarpaqları uzunsov-belvaridir, yastı saplağa tədricən daralandır, sonrakılar uzunsov, küt, qaidəsinə doğru daralandır, gövdə həcmini artırandır, qaidə hissəsi ürəkşəkillidir və qulaqcıqlıdır, yuxarı yarpaqlar yumurtaşəkillidir.

Çiçək: Qıvrımları sıxdır, barvermə dövründə yumşalandır. Çiçək saplağı aralı tüklüdür. Tacın uzunluğu 10-14 mm-dir, açıq-sarı rəngdədir.

Meyvə: Fındıqlar 3-4 mm uzunluğundadır, yumurtaşəkilli, sivritəhər və ləkəlidir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: Avqust

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ. Ovalıqdan (nadir halda) yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə və kolluqlarda, talalarda, bağlarda, çəmənlərdə, əkin sahələrində alaq kimi rast gəlinir.

o Qafqaz xameneriumu

o *Chamaenerium caucasicum* (Hausskn.) D. Sosn.ex Grossh. (*Chamerion caucasicum* (Hausskn.) Galushko)

Hündürlüyü 30-50 sm, gövdəsi əsasından yayılan və ya sürünən, az qalxan, aşağı hissədə çılpaq, qurumuş, aralanmış nazik qəhvəyi rəngli qabıqlıdır, yuxarı hissədə tüklü, sadə və ya az budaqlanan yarımkoldur.

Yarpaq: Yarpaqlarının orta hissəsindən aşağısı daha çox genişlənmiş, sivri ucluğa tədricən daralandır, tünd yaşıl rənglidir, kənarları xırda dişli, oturaq və yaxud çox qısa saplaqlıdır, çılpaq və ya kənarları və orta damarı tüklüdür, uzunluğu 3,5 sm, eni 5-7 mm-dir.

Çiçək: Salxımı qısalmışdır, demək olar ki, qalxanşəkillidir, azçiçəklidir.

Meyvə: Qutucuq tünd-qırmızımtıl rəngdədir, nazik tüklü, yetişmişləri demək olar ki, çılpaqdır, uzunluğu 7 sm-ə qədərdir. Toxumları açıq-qəhvəyi rəngli, uzunluğu 2 mm-ə yaxındır, xırda məməciklidir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal. Subalp və alp qurşağında.

Yaşayış mühiti: Dağdan axan çayların çaqıl daşları üzərində rast gəlinir.

Çiçəyi


Meyvələri

Yarpağı

Zəif dazı

Hypericum perforatum L. (*H. komarovi* Gorschk., *H. nachitschevanicum* Grossh.)

Çiçəyi

Hündürlüyü 15-75 sm, gövdəsi tək və ya bir kökdən bir neçə gövdə çıxır, düz qalxan, adətən iki tərəflidir, orta hissədən yuxarısı budaqlanmış, sarımtıl və ya qəhvəyitəhər-yaşıl olan çoxillik çılpaq ot bitkisidir.

Yarpaq: Yarpaqları enli-oval və ellipsvari formadan uzunsov-yumurtaşəkilli, uzunsov və uzunsov-xətvari formaya qədər şəklini dəyişir, adətən kütdür, uzunluğu 5-25 mm, eni 3-12 mm-dir, qaidə hissəsində demək olar ki, ürəkşəkillidir, yastıdır və çox vaxt kənarları qismən aşağı qatlanmışdır, parlaq, işığı keçirən və seyrək, qara nöqtə şəklində olan vəziciklərlə örtülüdür.

Çiçək: Çiçəkləri gövdənin təpə hissəsində və yan budaqlarda yerləşib və çoxsaylıdır, süpürgəvari, demək olar ki, qalxanşəkilli çiçək qrupunda toplanmışdır.

Meyvə: Qutucuğu uzunsov-yumurtaşəkillidir, uzunluğu 6-7 mm, eni 4-5 mm-dir, qəhvəyi rəngdədir, uzunsov və dəyirmi vəzili qovuqcuqları vardır. Toxumları silindrşəkillidir, qəhvəyi rəngdədir, uzununa xırda deşiklidir.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, nadir hallarda Kür- Araz oval. Ovalıqdan subalp qurşağına qədər, əsasən meşəli rayonlarda.

Yaşayış mühiti. Kolluqlarda, meşənin kənarında, otlu yamaclarda, alaqlı yerlərdə, çay vadilərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman, boyaq əhəmiyyətli və aşı maddəli bitkidir. Bitkidən hazırlanmış preparat tənəffüs yolları xəstəliklərində, həmçinin qarın işləməsində müalicə məqsədilə istifadə olunur.

Yarpağı

Uca andız
Inula helenium L.

Hündürlüyü (60) 80-150 sm və daha hündür olan, gövdəsi düzduran, qalın, sırımlı, qısa tüklü, yuxarı hissədə qalxanşəkilli və ya uzun ensiz qalxımşəkilli süpürgə şəklində süpürgəvari budaqlanan çoxillik iri ot bitkisidir.

Yarpaq: Yarpaqları iridir, uzunluğu 40-50 sm, üst tərəfdən zəif tüklü və ya çılpaq, alt tərəfdən sıx yumşaq məxmər tüklüdür, aşağı yarpaqları saplaq üzərindədir, uzunsov-elliptik, xırda dişli və ya mişarlı, yuxarı yarpaqları oturaqdır, uzunsov-yumurtaşəkilli, sivriləşmiş, qaidəsi ürəkşəkilli, yarımgövdə həcmini artırandır.

Çiçək: Səbətləri çoxsaylı deyil, iridir, eni 20-35 mm olub, qismən uzun saplaq üzərindədir. Qının bəyir yarpaqcıqları otşəkilli, çoxsaylı, demək olar ki, qalın dərilidir, yumurtaşəkilli, boz keçə tüklü, uzunluğu 1-2 (2,5) sm-dir, ortadakılar enli tünd törəməlidir, daxili yarpaqcıqları daha ensiz, kürəkşəkilli və kütdür. Dilcikşəkilli çiçəkləri sarı rəngli, çoxsaylı, ensiz xətvaridir, təpə hissədə sivriikidişlidir, qından uzundur.

Meyvə: Toxumlarının uzunluğu 4-5 mm, prizmaşəkillidir, çılpaqdır; kəkili qəhvəyi rəngli, 2-2,5 dəfə toxumdan uzundur.

Çiçəkləməsi: İyun-Sentyabr

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ şimal, KQ cənub, Nax. dağ. Aşağı dağ qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşə talalarında, meşə kənarında, kollar arasında, çay və göllərin sahilində, bağ və tarlalarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman məqsədilə istifadə olunur, quru köklərindən göy rəngli boyaq almaq olar.

Çiçəyi

Yarpağı

Boya dazı
Hypericum androsaemum L.

Çiçəyi

Meyvəsi

Yarpağı

Hündürlüyü 40-100 sm, gövdəsi qəhvəyitəhər, adətən düzduran və az budaqlanmış yarımkoldur.

Yarpaq: Yarpaqları oturaqdır, çılpaqdır, uzunsov və enli yumurtavari, uzunluğu 4-10 sm, eni 2-6 sm olub, kütdür, oyuqlu və ya qısa itiucludur, qaidə hissəsi dəyirmidir, alt tərəfdən tünd-göydür.

Çiçək: Çiçəkləri uzunluğu 2-6 sm olan, qalxanşəkilli və ya çətirşəkilli çiçək qrupunda toplanmışdır, yuxarı yarpaqların yaxınlaşmasından əmələ gəlmiş qını vardır. Ləçəkləri uzunsov-yumurtaşəkilli olub, kütdür.

Meyvə: Qutucuq giləmeyvəşəkillidir, demək olar ki, qara rəngdədir, kasacığa bərabərdir, açılan deyil, tez tökülən dir. Toxumlarının uzunluğu 1 mm-dir, qısa silindrşəkilli və ya ovaldır, tor kimi deşiklidir, buruncuğu vardır.

Çiçəkləməsi: May

Meyvə verməsi: İyun-İyul (Avqust)

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Lənkəran dağlıq. Aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə və rütubətli kolluqlarda rast gəlinir.

Ledebur fikariya
Ficaria ledebourii Grossh. & Schischk. = *F. calthifolia*

Hündürlüyü 2 sm-ə yaxın, gövdəsi adətən pis inkişaf etmiş çoxillik ot bitkisidir. Uzunsov-ovalşəkilli qalınlaşmış kökləri vardır.

Yarpaq: Yarpaqları enli ürəkşəkilli-yumurtavari, qaidə hissəsi pazşəkilli, tamkənarlıdır, bəzən qeyri-bərabər dəyirmi-dişlidir. Aşağı bölümləri ilə bir-birinə toxunmurlar.

Çiçək: Ləçəkləri 6-10 ədəd olub, uzunsov-ellipsvaridir, uzunluğu 8-15 mm, eni 9,5 mm-dir.

Meyvə: Meyvələri nazik yumşaq tüklüdür, kənarlardan qabarıqdır, yuxarı hissədə və qaidəsinə doğru sivriləşmişdir.

Çiçəkləməsi: Fevral

Meyvə verməsi: Fevral-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., Qobustan, BQ qərb, Kür düz., KQ şimal, KQ cənub, KQ mərkəzi. Ovalıqdan orta dağ qurşağına kimi.

Yaşayış mühiti: Meşələrdə, meşənin kənarlarında, kolluqlarda, otlu yamaclarda, dincə qoyulmuş torpaqlarda rast gəlinir.

Çiçəyi


Yarpağı

Adi ziyilsəbət
Lapsana communis L.


Çiçəyi

Yarpağı

Hündürlüyü 20-100 sm, gövdəsi seyrək süpürgəvari budaqlanmış və az tüklü olan birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları nazikdir, çılpaq və ya az tüklüdür, aşağı yarpaqları 1-2 cüt xırda yumurtaşəkilli uzunsov-yumurtaşəkilli yan seqmentləri və çox iri üçbucaq-yumurtaşəkilli oyuqlu-dişli təpə seqmentləri vardır, yuxarı yarpaqları yumurtavaridir, neştəvari formaya qədər dəyişir, kənarları oyuqlu-dişli və ya tamkənarlıdır, aşağı yarpaqlar uzun, orta yarpaqlar daha qısa saplaqda yerləşmişlər, yuxarı yarpaqlar isə demək olar ki, oturaqdır.

Çiçək: Səbətin eni bar verənə yaxın 4-5 mm olub, qismən uzun saplaq üzərindədir, boş süpürgədə toplanmışdır və adətən çoxsaylıdır. Çiçəkləri açıq-sarı rəngdədir, adətən 1,5 dəfə qındən uzundur.

Meyvə: Toxumlarının uzunluğu 4 mm-ə yaxındır, uzunsovdur, az əyilmiş və nazik tillidir.

Çiçəkləməsi: (May) İyun-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ. Aşağı və orta dağ qurşağında subalpa qədər.

Yaşayışı mühiti: Meşələrdə, kolluqlarda, dağ çəmənlərində və bəzən bağlarda alaq kimi rast gəlinir.

Yarpağı

Dəstəyarpaq qoyunboğan
Lysimachia verticillaris Spreng.

Hündürlüyü 30-100 sm, gövdəsi düzduran, sadə və ya budaqlanmış olan çoxillik ot bitkisidir. Sürünən şaxələnmiş kökümsovlu, vəzili-tüklərlə örtülmüş çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları çiçək köbəsində 3-4 ədəd olmaqla düzülmüşdür, yumurtavari-uzunsovdur, küttəhər və ya bəzən sivritəhərdir, alt tərəfdən yumşaq tüklüdür, qismən çox uzun və ya qısa (1-2 sm) saplaq üzərindədir.

Çiçək: Çiçəkləri saplaq üzərindədir, yarpaqların qoltuğunda yarım çiçək köbələrilə toplanmış və çox vaxt onları ötüb keçir. Çiçəkaltlığı yoxdur. Tac sarı rəngdədir; onun payları yumurtaşəkilli, kənarları vəzili-kirpiklidir.

Meyvə: Qutucuq şarşəkilli, kasacıqdan qısadır. Toxumları üçtilli olub, qaradır.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax.-dağ. Yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlar arasında, rütubətli yerlərdə, çayların sahilində rast gəlinir.

Çiçəyi


Yarpağı

Adi qoyunboğan

Lysimachia vulgaris L. subsp. *davurica* (Ledeb.) Tatew. = *L. davurica*



Hündürlüyü 50-60 sm, gövdəsi düzduran, küt dörd tili, budaqlanan, sürünən kökümsovlu, yumşaq tüklü çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, bəzən topa şəklindədir, uzunsov və ya yumurtaşəkilli-neştərvaridir, uzunluğu 5-10 mm, eni 1-5 mm-dir, sivri, üst tərəfdən demək olar kl, çılpaq, alt tərəfdən tutqun-yaşıl rəngdədir, adətən yumşaq tüklə örtülmüş və qısa (uzunluğu 3 mm-ə qədər) saplaq üzərindədir.

Çiçək: Çiçəkləri təpə və yuxarı yarpaqların qoltuğundan çıxan, kiçik piramidaşəkilli-süpürgəvari çiçək qrupunda toplanmışdır. Çiçək saplağı qısadır, demək olar ki, çiçəyin uzunluğuna bərabərdir. Tac parlaq sarı rəngdədir; dilimlərinin uzunluğu 12 mm-ə qədər, uzunsov-yumurtaşəkillidir, küttəhərdir, kənarları çılpaq, daxili səthində qısa vəziciklər yerləşmişdir.

Meyvə: Qutucuq sütuncuqludur.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: Sentyabr

Azərbaycanda yayılması: BQ qərb, BQ şərq. Orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, nəm torpaqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yarpaq və çiçəkləri xalq təbabətində müxtəlif qanaxmalarda və yarasağaldıcı vasitə kimi istifadə olunur. Boyaq məqsədilə istifadə oluna bilər.



Söyüdyarpaq ağlarot
Lythrum salicaria L.

Hündürlüyü (25) 50-130 sm, gövdəsi düz, yumşaq tüklü, qismən tilli və ya kantlıdır, sadədir və ya çox vaxt budaqlanmış olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaqdır, qarşı-qarşıya düzülmüşdür, nadir hallarda bütün yarpaqlar çiçək köbəsində 3 ədəd və ya hamısı növbəli düzülmüşdür, yarpaqların qaidə hissəsi ürəkşəkilli və ya dəyirmidir, neştərvari, uzunsov-neştərvari, nadir halda uzunsov və ya yumurtaşəkilli-uzunsov formadadır, adətən sivri olurlar, nadir hallarda küt, uzunluğu 5-10 sm, eni 1-2 sm, hər 2 tərəfdən (əsasən alt tərəfdən) tüklü, bəzən az tüklüdür.

Çiçək: Çiçəkləri uzunluğu 1-2 mm olan saplaqda, qrup halında, çiçəkaltlığı yarpaqlarının qoltuğunda, uzun sünbülşəkilli çiçək qrupunda toplanmışdır. Ləçəkləri 6 ədəd olmaqla, al-qırmızı, bəzən çəhrayı rəngdə, uzunsov-ellipsvari, uzunsov-əksinəyumurtaşəkilli formalı və qaidə hissəsi pazşəkillidir.

Meyvə: Qutucuq meyvənin uzunluğu 3-5 mm-dir, borucuğun içərisində nəzərə çarpmır. Toxumları uzunsov-yumurtaşəkilli, az sivriləşmiş və açıq-qəhvəyi rəngdədir, uzunluğu 1 mm-dir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-Sentyabr.

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan yuxarı dağ qurşağına qədər. (1900 m yüksəkliyə qədər)

Yaşayış mühiti: Çay və göllərin quru yataqlarında və sahillərində, bataqlıqların kənarında, suvarma kanallarının yanında, meşələrdə və kolluqların rütubətli yerlərində, çəmənliklərdə, bağ və bostanlarda, pambıq, çay və düyü plantasiyalarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tərkibində aşı maddəsi var, balverən bitkidir.

İriyarpaq qalınqabıq
Pachyphragma macrophyllum (Hoffm.) N. Busch





Hündürlüyü 20-40 sm, gövdəsi düz, sadə çılpaq olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları gəmirilmiş-dişlidir, kökətrafı yarpaqları uzun saplaqlıdır, ürəkşəkilli və ya böyrəkşəkilli olub, uzunluğu və eni 4-12 sm-dir, çılpaqdır, nadir halda saplaq və damarları sıx tüklüdür, gövdə yarpaqları qısa saplaqlıdır və yumurtaşəkillidir.

Çiçək: Salxımları meyvə verənə yaxın qısa olur, uzunluğu 5-7 sm-dir. Ləçəkləri 8-10 mm-dir. Çiçək saplağı meyvə verən zaman üfüqi yerləşir və uzunluğu 1,5-2 sm-dir. Qıncığın uzunluğu 8-10 mm, eni 15-18 mm-dir, enli qanadlıdır, öz uzunluğundan enlidir, qaidə hissəsi ürəkşəkillidir, təpə hissədə dərin oyuqludur.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb. Orta dağ qurşağında (1300-1700 m d.s.y.)

Yaşayış mühiti: Qaranlıq, enliyarpaqlı meşələrdə rast gəlinir.

Adi yergiləsi
Physalis alkekengi L.

Hündürlüyü 25-60 (80) sm, gövdəsi düz, budaqlanan, bəzən sadədir, aşağı hissədə dəmək olar ki, çılpaq, orta hissədə az tüklü, lap yuxarı hissədə isə qıvrım tüklərlə kifayət qədər sıx örtülmüş, uzun, sürünən, oduncaqlaşmış yeraltı zoğlara malik olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları cüt-cüt olmaqla bir-birinə yaxın yerləşmiş və ya gövdənin aşağı hissəsində tək-tək yerləşmişdir, saplaqlıdır, yumurtaşəkilli, bəzən enli yumurtaşəkilli və ya bəzən uzunsov-yumurtaşəkillidir, bir qədər oyuq-dişli və ya demək olar ki, tamkənarlıdır, sivri və ya qısa sivriləşmişdir, hər iki tərəfdən seyrək tüklü və ya demək olar ki, çılpaqdır, uzinluğu 4-12 sm, eni 2,5-6,5 sm-dir.

Çiçək: Çiçəkləri təkdir, qoltuq və ya qoltuqda olan kimi görünən olub, daha sonra əyilən saplaq üzərindədir. Tacının diametri 20 mm-ə qədər olub, ağımtıl, sıx tüklü və qısa enli-üçbucaq şəkilli bölümlüdür.

Meyvə: Giləmeyvənin uzunluğu 1,2-1,5 sm və narıncı rəngdədir. Toxumların uzunluğu 2,5 mm-ə qədər olub, böyrəkşəkillidir, sarımtıl və ya ağımtıl rəngdədir, sıx deşiklidir.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyun-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, Kür-Araz ovalığından və Abşerondan başqa. Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə və kolluqlarda, bostanlarda, bağlarda və üzümlüklərdə alaq kimi və boş yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələri marinadlaşmış şəkildə qidada istifadə olunur. Meyvələri ipək parçaların boyanmasında, təzə və qurudulmuş meyvələri xalq təbabətində sidikqovucu cövhər kimi istifadə olunur.



Böyük bağayarpağı

Plantago major L. (*P. borysthenica* (Rogow.) Wissjul., *P. major* var. *borysthenica* Rogow.)



Hündürlüyü 6-50 sm, gövdəsi düzduran, qısa seyrək tüklü olan çoxillik ot bitkisidir. Kökümsovu qısa və qalındır, əlavə kökləri sıx dəstə şəklindədir.

Yarpaq: Yarpaqlarının hamısı kənarları yarpaq ayasına bərabər, ondan qısa, nadir halda ondan uzun olan pərdəli yastı saplaq üzərində kökətrafı rozetdə toplanmışdır, çılpaq və ya çox az tüklüdür, yumurtaşəkilli formadan uzunsov yumurtaşəkilli formaya qədər dəyişir, uzunluğu 2-18 sm, eni 1,5-13 sm-dir, 5-7 ədəd damarlıdır, uc hissədə küt, dəyirmi-küt, bəzən isə sivridir, tamkənarlı və yaxud az gəmirilmiş-dişlidir, qaidəsinə doğru pazşəkilli daralmış və ya kəsilmişdir.

Çiçək: Sünbül adətən uzundur, dardır, gövdənin uzunluğunun 1/3-nə və ya yarısına bərabərdir, aşağı çiçəkləri sıx, kənara çəkilmiş, nadir halda isə seyrəkdir. Tacın uzunluğu 2 mm-ə qədərdir, qonurtəhər, çılpaqdır və yumurtaşəkilli-neştərvarivari sivri dilimlidir.

Meyvə: Qutucuq 2-4 mm uzunluqdadır, yumurtaşəkilli-konusvaridir, 8-çoxtoxumludur, 2 dəfə kasacıqdan uzundur. Toxumları xırdadır, uzunluğu 1 mm-ə qədərdir, tilli, qırışlı və çılpaqdır.

Çiçəkləməsi: May-Sentyabr

Meyvə verməsi: İyun-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan, subalp qurşağına qədər.

Yaşayış mühiti: Çəmənliklərdə, meşələrdə və kolluqlarda, yol boyunca, yaş dərələrdə, qumlu yerlərdə və əkin sahələrində alaq kimi, bağ və bostanlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir, gövdə yarpaqlarından dərman vasitəsi kimi istifadə olunur. Tərkibi aşı maddəsi ilə zəngindir.

İrikasacıqlı novruzçiçəyi

Primula macrocalyx D. Don (*Aleuritia macrophylla* (D. Don) Sojak, *A. pulverea* (Fed.) Sojak.)

Hündürlüyü 10-35 sm, köndələn kökümsovları və qalın ağ rəngli qaytanaoxşar kökləri olan çoxillik ot bitkisidir. Bitki bütünlüklə çox xırda aralı yerləşmiş tüklərlə örtülmüşdür.

Yarpaq: Yarpaqları yumurtaşəkilli və ya yumurtaşəkilli-uzunsovdur, qırışlıdır, təpə hissədə dəyirmi, küt, kənarları qeyri-müəyyən xırda dişlidir, uzunluğu yarpaq ayasının uzunluğuna bərabər olan, qanadlı və çox vaxt dişli saplağa birdən (nadir hallarda tədricən) daralır; yarpaq ayasının uzunluğu 3-21 sm, eni 2-8 sm-dir.

Çiçək: Çiçək qrupu 3-16 çiçəkdən ibarət olub, onun oxunun hündürlüyü isə 15-35 sm-dir və adətən bir tərəfə əyilmişdir. Çiçək saplağı 2-21 mm uzunluqdadır, meyvə verən zaman yuxarıya doğru dik qalxan və uzanandır. Tac solğun borucuqludur, kasacığa bərabərdir və ya ondan uzundur və çökük parlaq-sarı büküşlüdür.

Meyvə: Qutucuq enli-ovaldır və kasacıqdan iki dəfə qısadır. Toxumları yumurtaşəkillidir, qabırğası qeyri-müəyyən tinlidir, bütün səthi nöqtəyəoxşar qabarıqlıdır, qara rəngdədir, uzunluğu 1-1,5 mm-dir.

Çiçəkləməsi: Aprel-İyun.

Meyvə verməsi: May-İyun.

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Naxç. düz., Nax. dağ., Lənk. dağ.. Aşağı dağ qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, kolluqlar arasında, çəmənlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir, yarpaqları boğaz ücün qidanın tərkibinə qatılır, yarpaq və kökləri dərman kimi yararlıdır.

Çiçəyi

Meyvəsi

Voronov novruzçiçəyi

Primula woronowii Losinsk. (*P. vulgaris* Huds. subsp. *woronowii* (Losinsk.)

Hündürlüyü 10 sm-ə qədər olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları əksinəyumurtaşəkilli, kənarları oyuqlu-dişlidir, əsasən aşağı yarısında qısa saplağa tədricən daralmışdır, üst tərəfdən seyrək və səpələnmiş tüklüdür, alt tərəfdən, əsasən damar boyunca sıx tüklüdür.

Çiçək: Çiçəkləri açılan zaman yarpaq rozetləri üzərindən xeyli yüksəlirlər, çəhrayı, bəzən, daha tünd rəngdə olurlar, diametri 2,5-2,7 sm-dir; büküşü yastıdır, onun payları isə əksinəürəkşəkillidir, uzunluğu 1-1,3 sm, eni 1 sm-dir. Çiçək altlığı çox xırdadır. Çiçək saplağı düzdurandır, uzunluğu 5-7 sm-dir, sıx tüklüdür.

Çiçəkləməsi: Mart-May.

Meyvə verməsi: May-İyun.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi. Aşağı dağ qurşağında, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Dağ meşələrində, kolluqlar arasında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir, tibbi əhəmiyyəti vardır. Bəlğəmgətirici təsiri vardır.

Zoğlu dovşankələmi
Sedum stoloniferum S. G. Gmel.

Hündürlüyü 10-20 (30) sm, gövdəsi barverən və barsız, düz və ya əyilib qalxan, çox vaxt aşağı hissədə sərilən və ya sürünən, çılpaq və qırmızımtıl rəngdə olan çoxillik ot bitkisidir. Kökümsovu uzun, sürünən, bağşəkillidir, əlavə tumurcuqları yoxdur.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, qısa saplaqlıdır və ya saplaqsəkilli daralmışdır, tamkənarlı və ya çox vaxt küt və yaxud dairəvi-dişlidir, kənarları çox dar ağ haşiyəlidir, uzunluğu 5-17 (20) mm, eni 10 mm-ə qədərdir.

Çiçək: Çiçək qrupu çətişəkilli olub, adətən üzərində çiçəklər düzülmüş 3 ədəd girintili-çıxıntılı budaqları vardır, çox vaxt yalnız 2 ədəd budaqdan ibarətdir, bar verən zaman qırmızımtıl rəngdə olur. Çiçəkləri demək olar ki, oturaqdır və ya qısa saplaqlıdır. Ləçəklərinin uzunluğu 5-8 mm-dir, neştərvari-xətlidir, küttəhər sivriləşmişdir, çəhrayı rəngdədir.

Meyvə: Meyvələri uzanmış-ulduzşəkilli, uzunluğu 5-6 mm-dir, uzunsov-yumurtaşəkillidir, uzunluğu 1 mm olan buruncuğu vardır, qarın hissəsinin əsasında 2 qabarıq yeri vardır.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk. dağ. Aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: meşələrdə, kolluqlarda, qayalarda rast gəlinir.

Çiçəyi


Yarpağı

Sarıgilə

Solanum luteum Mill. = *S. villosum* Mill



Hündürlüyü 20-40 sm, gövdəsi düz, az tinli, budaqlanmış, bəzən sadə olan birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları nazikdir, yumurtaşəkilli, enli yumurtaşəkilli, bəzən rombşəkillidir, uzunluğu 2-6 sm, eni 1,5-5 sm, adətən qaidəsi qısa pazşəkillidir, qısa sivriləşmişdir, bəzən kütücüdür, oyuqlu dişlidir, nadir hallarda tamkənarlıdır. Yarpaq saplağı ayasından 2-3 dəfə qısadır.

Çiçək: Çiçəkləri 4-8 çiçəkdən ibarət qoltuqdan kənar çətirəbənzər qıvrım çiçək qrupunda toplanmışdır. Tacın uzunluğu 4-6 (8) mm-dir, ağ rənglidir, lansetşəkilli üçkünc bölümlüdür, bayır tərəfi tüklüdür.

Giləmeyvə: şarşəkilli-əksinəyumurtaşəkil-lidir, sarı rəngdədir (tutqun sarı rəngdən zəfəranı-sarı rəngə qədər dəyişir), uzunluğu 6-8 mm-dir. Toxumları ağımtıl rəndədir, uzunluğu 2 mm-ə yaxın, eni 1,5 mm-ə qədərdir.

Çiçəkləməsi: İyun-Oktyabr

Meyvə verməsi: İyul-Noyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, Samur-Şabran oval., Abşer. Kür-Araz oval., Kür düz., Alazan-Əyriçay, Lənk. oval.. Aşağı dağ qurşağına qədər.

Yaşayış mühiti: Bostanlarda, çay və kanalların sahilində alaq kimi rast gəlinir. Ruderal bitkidir.

Təsərrüfat əhəmiyyəti: Turştəhər xoşagələn dadı vardır. Mürəbbə hazırlanır və təzə halda yeyilir.

İran qaragiləsi

Solanum persicum Willd. ex Roem. & Schult subsp. *pseudopersicum* (Pojark.) Schonbeck

Güclü budaqlanmış yarımkol, bəzən koldur, kökümsovu oduncağabənzərdir. Budaqları uzun olub, 2 m-ə qədər və daha uzundur, bəzən girintili-çıxıntılıdır, əvvəl otşəkilli olur, qabarıq qıvrım tüklü, keçə tüklü, nadir halda demək olar ki, çılpaqdır.

Yarpaq: Yarpaqları qısa saplaqlıdır, bütöv və tamkənarlıdır, yumurtaşəkilli-neştərvari, nadir halda ensiz-neştərvaridir, uzunluğu 4-11 (17) sm, eni 2-8 (12) sm-dir, yuxarıya doğru adətən tədricən uzun sivriləşmişdir, lap uc hissədə kütdür, qaidə hissəsi ürəkşəkilli, bəzən dəyirmi və ya dəyirmi kəsilmişdir, hər iki tərəfdən qismən sıx və ya seyrək tüklüdür.

Çiçək: Çiçək qrupu 10-35 (60) ədəd çiçəkdən ibarət olub, qoltuqda yerləşməmiş, qalxanşəkilli-süpürgəvaridir; çiçək saplağı və çiçək oxu budaqlar kimi tüklüdür; çiçək saplağı bağlarladır, bar verən zaman yuxarı hissədə az qalınlaşandır, uzunluğu (6) 8-10 mm-dir. Tac parlaq-bənövşəyi rəngdədir, onun dilimləri neştərvari-yumurtaşəkilli və yaxud neştərvaridir, uzunluğu 7-9 mm, eni 2,5-3 mm-dir, xaricdən xırda tüklüdür, kənarları sıx, çox qısa tüklüdür.

Giləmeyvə: Giləmeyvəsi parlaq qırmızı rəngli, şarşəkillidir, diametri 6-9 mm-dir. Toxumları çoxsaylıdır, dəyirmi-böyrəkşəkillidir, xırda torludur, sarı rəngdədir, eni 2 mm-ə qədərdir.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyul-Noyabr

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., Xəzəryanı, Qobustan, Kür-Araz oval., Kür düz., Alazan-Əyriçay, BQ şərq, BQ qərb, KQ cənub, Nax.dağ., Nax. düz., Lənk. dağ., Lənk. oval, Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Çayların sahilində, meşələrdə və kolluqlarda, kanalların yanında, bəzən bağlarda, bostanlarda və çay plantasiyalarında alaq kimi rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Balverən bitkidir.

Çiçəyi

Yarpağı


Meyvəsi

Adi giləzəhə
Tamus communis L



Hündürlüyü 2-3 m-ə qədər olan, gövdəsi sarmaşan çoxillik ot bitkisidir. Yeraltı hissəsi kökyumrusu şəklindədir.

Yarpaq: Yarpaqları növbəli, pərdəli, uzunsaplaqlı, uc hissəsi pazşəkilli daralmış olub, dərin-ürəkşəkillidir.

Çiçək: Erkək çiçəkləri sadə və ya budaqlanmış qoltuq salxımında yerləşib, saplaqdan uzundur; dişicikli çiçəkləri sadə seyrək çiçəkli salxımda yerləşmişdir. Çiçəkyanlığı sarımtıl rəngdədir, diametri 3-6 mm-dir.

Giləmeyvə: Giləmeyvəsi şarşəkillidir, qırmızı rəngdədir.

Çiçəkləməsi: May

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz.(Ağsu, İvanovka) KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Aşağı və orta dağ qurşağında, bəzən yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında, nadir halda suvarılmış bağlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Giləmeyvəsi zəhərlidir, uşaqlarda ölümlə nəticələnə bilər. Kökləri xalq təbabətində sidikqovucu, qarın işlətmə və qusdurma dərmanı kimi, qurudulmuş kökündən alınan toz yara sağaldıcı dərman kimi istifadə olunub. Dekorativ bitkidir.

Dəlinmiş yarğanotu
Thlaspi perfoliatum L. = *Microthlaspi perfoliatum* (L.) F. K. Mey.

Hündürlüyü 3-30 sm olan, çılpaq, göyümtül-yaşıl rəngli, birillik ot bitkisidir.

Yarpaq: Gövdə yarpaqları tamkənarlıdır, gövdə həcmini artıran olub, dəyirmi qulaqcıqlıdır. Köküətrafı yarpaqları saplaqlıdır.

Çiçək: Ləçəkləri ağ rəngdədir, kasacıqdan iki dəfə uzundur. Qınları əksinəyumurtaşəkillidir, qanadları dairəvi olub, damarlanması aydın seçilmir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Abşer., Qob., BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi. Nax., Lənk., Muğ. Ovalıqdan, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Çəmənlərdə, kollar arasında, alaqlı və çaqıl daşlı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Azərbaycanın yerli əhalisi onun cavan yarpaqlarından vəzəri bitkisi kimi istifadə edir.


Çiçəyi


Yarpağı

Adi dəvədabanı
Tussilago farfara L.

Hündürlüyü çiçəkləyən zaman 3-15 sm, meyvə verən zaman isə 33 sm-ə qədər, gövdəsi adətən çoxsaylı olan çoxillik ot bitkiisidir. Kökümsovu oduncaqlaşmış, uzun və sürünəndir.

Yarpaq: Gövdə yarpaqları ensizdir, gövdəyə doğru qısılmışdır, pulcuqşəkilli, uzunsov-neştərvari, sivritəhər və adətən tünd-qırmızı rəngə boyanmışdır. Kökətrafı yarpaqları çiçəkləmənin sonunda əmələ gəlir, iri, uzun saplaqlı, dəyirmi-ürəkşəkilli, bərk, qalın dərilidir, qaidə hissəsi enli-oyuqludur, zəif barmaqvari-bölümlü və ya qeyri-bərabər kələ-kötür oyuqlu-dişlidir, üst tərəfdən yaşıl, demək olar ki, çılpaqdır, alt tərəfdən yumşaq ağ keçə-tüklüdür.

Çiçək: Səbətləri tək, silindrik formalı, eni 8-11 mm olub, çiçəkləyənə qədər və sonra əyiləndir, qızılı-sarı rəngli çiçəkləri yarpaqlardan əvvəl açılır (bəzən, yarpaqla eyni vaxtda). Dilcikşəkilli çiçəkləri çoxsaylı, çoxcərgəli, ensiz, bəzən, sapşəkillidir və azacıq qından uzundur.

Meyvə: Toxumları 3-4 sm uzunluqdadır, silindrşəkilli, tin-tin və çılpaqdır; kəkili sadə, ağ, lpəyəoxşar tüklərdən ibarətdir, toxumdan 2-3 dəfə uzundur, dilcikşəkilli çiçəklərdə kəkil çoxcərgəli, borucuqşəkilli çiçklərdə isə bircərgəli olub, daha qısadır.

Çiçəkləməsi: (Fevral) Mart-Aprel

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, Nax. dağ. Ovalıqdan, orta dağ qurşağına və ondan yüksəyə qədər (2200 m-ə qədər).

Yaşayış mühiti: Açıq, çox vaxt gilli yerlərdə, dağ çaylarının və çayların sahilində arxların kənarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir

İkiev[illegible]
Urtica dioica L

Hündürlüyü 130 sm-ə qədər, gövdəsi düzduran, yandırıcı tüklərlə örtülü, əsasən tüklər boğumlarda sıxdır, sürünən kökümsovlu çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları yumurtaşəkilli-ürəkşəkilli və yaxud uzunsov-neştərvaridir, sivri, kənarları uc hissəyə doğru əyilmiş mişarvari dişlidir, üst tərəfdən daha tünd, səpələnmiş yandırıcı tüklərlə örtülmüşdür. Yalancı zoğları 12 mm-ə qədər olub, sərbəstdir, uzunsovdur.

Çiçək: Çiçək qrupu qoltuqdadır, süpürgəvari, yarpaq saplağından çox uzundur, tüklərlə sıx örtülüdür. İkievli bitkidir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Yaşayış yerlərinə yaxın, hasarların dibində, meşə kənarında, kəsilmiş meşələrdə, bağlarda, kolluqlarda, dağlarda lava dağılan yerlər üçün xarakterdir.

Təsərrüfat əhəmiyyəti: Vitamin verən, lifli, boyaq, dərman, qida əhəmiyyətli bitkidir. Yarpaqlarında kifayət qədər vitamin vardır, həmçinin aşı maddəsi də vardır.

Çiçəyi

Yarpağı

Sarımsaqyarpaqlı pişikotu
Valeriana alliariifolia Adams

Hündürlüyü 7-100 (200) sm, gövdəsi düz, möhkəm, çox şırımlı, içi boş, 5-7 ədəd düyünaraları vardır, lap aşağıdakılar qısalmış olan, hündür, çoxillik çılpaq bitkidir. Kökümsovu qalın və qısadır, qeyri-bərabər budaqlanmışdır.

Yarpaq: Yarpaqları gövdə üzərində (3) 5-7 (8) cüt olmaqla düzülmüş, kökətrafı və aşağı yarpaqları uzun saplaq üzərindədir, iridir, dəyirmi ürəkşəkillidir, qaidə hissəsi dərin-ürəkşəkillii və ya böyrəkşəkillidir, kənarları sivri dişcikləri olan oyuqlu-dişlidir və sivri və yaxud uc hissəsi sivriləşmişdir, sonrakılar daha qısa saplaq üzərində olub, tədricən azalandır, enli ürəkşəkilli-yumurtaşəkillidir, daha sivriləşmişdir, yuxarıdakı yarpaq cütləri demək olar ki, oturaqdır.

Çiçək: Çiçək qrupu iridir, qalxanvari olub, dixotomik budaqlanmış, bar verən zaman şaxələnəndir. Tac konusvari-qıfşəkillidir, ağ və ya çəhrayı rəngdədir.

Meyvə: Meyvələrinin uzunluğu (3) 4-5 mm-dir, yastıdır, azacıq ürəkşəkilli əsası tədricən yuxarıya doğru daralmışdır, uzunsov və ya xətvari-uzunsovdur, çılpaqdır; uçağanı 10-15 ədəd cod tüklərdən ibarətdir, meyvənin ölçüsünə bərabərdir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: (İyul) Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ qərb Şəki və Zaqatala r-n). Yuxarı meşə və subalp qurşaqlarında.

Yaşayış mühiti: Meşə talalarında və çəmənlərdə, rütubətli yerlərdə, çay sahilində, bulaqların yaxınlığında, qayalarda və tökmə yerlərdə rast gəlinir.

Gözəl keçiqulağı
Verbascum formosum Fisch. ex Schrank

Hündürlüyü 35-80 sm olan, gövdəsi düz, silindrik, yarpaqla örtülmüş, əvvəlcə boz keçə tüklü, daha sonar isə çılpaq, tünd-qonur rəngli, sadə, seyrək budaqlı ikiillik, boz və ya ağımtıl yun kimi keçə tüklü bitkidir.

Yarpaq: Kökətrafı və aşağı yarpaqları yarpaq ayasından qısa olan saplaq üzərindədir, yumurtaşəkilli və ya yumurtaşəkilli-uzunsov, kütdür, qaidə hissədə azacıq ürəkşəkilli və ya demək olar ki, kütdür, kənarları iri dairəvi-dişli və ya az lələkvari bölümlü və ya aşağı yarısında bir neçə bölümlüdür, yarpaq ayasının qaidə hissəsinin aşağısı, bəzən yan hissədən 1-2 ədəd kiçik sərbəst enli dilimlidir; sonrakı yarpaqlar qısa saplaqlı və ya oturaqdır, yumurtaşəkilli-uzunsov, elliptik və ya yumurtaşəkillidir, sivritəhər, sivri və ya qəfil sivriləşəndir, kənarları xırda dişlidir.

Çiçək: Çiçəkləri çiçəkaltlığı yarpaqlarının qoltuğunda yerləşmiş, təkdir, oturaqdır, sıx, ağ və ya boz keçə tüklü düz sünbül əmələ gətirir. Tac sünbülşəkillidir, diametri 30-60 mm-dir, aşağı hissədə parlaq, qara-bənövşəyi, qalanı isə sarı rəngdədir, çiçəkləmədən sonra uzun müddət qalandır, xaricdən keçə tüklü, daxildən isə çılpaqdır.

Meyvə: Qutucuq şarşəkillidir, qısa sivri ucludur, uzunluğu 7-8 mm-dir, sıx keçə tüklüdür.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), Xəzəryanı, (Beşbarmaq), BQ şərq, BQ qərb, Kür düz. Ovalıqdan orta dağ qurşağına qədər, əsasən aşağı dağ qurşağında.

Yaşayış mühiti: Quru daşlı, gilli və qayalı yamaclarda, tökünti yerlərdə, yovşanlıqda, ardıc seyrək meşəliyində, kolluqlarda, bəzən əkin sahələrinin kənarlarında, bağ və üzümlüklərdə rast gəlinir.



Otvarı qıfotu

Vinca herbacea Waldst. & Kit. (*V. semidesertorum* Ponert)


Çiçəyi

Çoxillik ot bitkisidir. Kökümsovu qısa, tin-tindir, çoxsaylı uzunluğu 20 sm-ə qədər olan kökləri vardır. Barverməyən budaqları uzun, sərilən, torpaqda kök salmayandır, çiçəkləyən, yuxarı qalxan və ya səriləndir, hamar və çılpaqdır.

Yarpaq: Yarpaqları qışda töküləndir, aşağı yarpaqları dəyirmi-yumurtaşəkilli və ya elliptik, orta yarpaqlar uzunsov və ya uzunsov-neştərvaridir, uzunluğu (2) 3-4 sm, eni (5) 10-18 mm-dir, sivridir, qaidə hissəsi pazşəkilli, kənarlar və damarları kələ-kötürdür, qısa saplaq üzərindədir.

Çiçək: Çiçəkləri göy-bənövşəyi rəngdə olub, qoltuq çiçəkləridir. Çiçək saplağı çılpaq, yarpaqlardan uzundur və yaxud onlara bərabərdir. Tacın diametri (12) 16-20 mm-dir; onun dilimləri sivridir, elliptik və ya rombşəkillidir.

Meyvə: Meyvəsi 3-4 sm uzunluqdadır, uzunsovdur, qövsşəkilli əyilmişdir, qarının yarıq hissəsindən açılandır. Toxumları tünd-qəhvəyi rəngdədir, uzunsovdur, qabarcıqlıdır.

Çiçəkləməsi: Aprel

Meyvə vermə: May-İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, Qob., Abşer., Kür-Araz oval. (nadir halda), KQ şimal, KQ mərkəzi, KQ cənub, Nax. dağ., Lənk. dağ.

Yaşayış mühiti: Otlu yamaclarda, kolluqlar arasında, meşə kənarında, rast gəlinir. Dağınıq halda dır.

Təsərrüfat əhəmiyyəti: Xalq təbabətində qankəsici, yara sağaldıcı və s vasitə kimi istifadə olunur. Həmçinin diş ağrısı və ağız boşluğunun digər xəstəliklərində istifadə olunur.

Yarpağı

Ağ bağamburq, Həmişəcavan
Viscum album L.

Hündürlüyü 50 sm-ə qədər olan, sıx çəngəlvari budaqlanmış şarşəkilli koldur; budaqları odunçağabənzərdir, qışlayan yarpaqları vardır. Bitki bütünlüklə çılpaq olub, sarımtıl-yaşıl rəngdədir.

Yarpaq: Yarpaqları oturaqdır, qalındır, uzunsov və ya uzunsov-ovaldır, qaidə hissəsinə doğru qısa daralmış, kütdür.

Çiçək: Çiçəkləri sarımtıl-yaşıl rəngdə olub, 5-6 ədəd olmaqla haçalanmış budaqlarda toplanmışdır.

Giləmeyvə: Giləmeyvələri şarşəkilli formalı, ağ və ya sarımtıl rənglidir, diametri 9-10 mm-dir.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Mart-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., Qobustan, BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Lənk.dağ., Lənk. oval.

Yaşayış mühiti: Yarpaqlı ağaclarda, əsasən balverən ağaclarda parazitlik edir.

Təsərrüfat əhəmiyyəti: Yarpaqlarından alınan preparat hipertoniya zamanı istifadə olunur.



Yarpağı və meyvəsi



Çoxillik qızçiçəyi
Bellis perennis L.

Hündürlüyü 5-17 sm, gövdəsi tək və ya bir neçə sayda, zəif və sıx tüklü, qısa kökümsovları olan çoxillik ot bitkisidir. Çiçəkli gövdəsi yarpaqsızdır və eni 10 mm olan tək səbəti vardır.

Yarpaq: Köküstü rozetdə yerləşmiş yarpaqlar belşəkillidir, əksinəyumurtaşəkilli, bəzən kənarları dəyirmi dişli və yaxud tamkənarlıdır, uc hissəsi küt və saplağa daralmışdır. Qın yarpaqcıqları uzunsov, küt, tükcüklü və qaramtıl rəngdədir.

Çiçək: Dilcikləri iki dəfə qındən uzundur, ağ rənglidir, sonu çəhrayıdır. Çiçək yatağı qabarıqdır.

Meyvə: Toxumları əksinəyumurtaşəkilli və çılpaqdır, kəkilsizdir, uzunluğu 1 mm-ə qədərdir

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), KQ şimal, KQ mərkəzi. Aşağı və orta dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, talalarda, çəmənliklərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ əhəmiyyətli bitkidir.

Topulqayarpaq boymadərən
Achillea filipendulina Lam.

Hündürlüyü 30-100 sm, gövdəsi adətən tək, düz, şırımlı, əsası qismən xovlu-tüklü, yuxarı hissədə səpələnmiş xırda tükcüklü və yaxud çılpaq, aşağı hissədə isə sıx yarpaqlamış sarımtıl-yaşıl rəngli çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları iridir, hər iki tərəfdən basıq tüklü, görünüşünə görə qismən enli uzunsov-neştərvaridir, lələkvari-bölünmüş-dür; yarpağın seqmentləri yastı, uzunluğu 6-17 mm, eni 2-6 mm-dir, uzunsov-neştər-varidir, küləhərdir, kənarları kəsilmiş və küt-dişlidir; gövdə boyunca yuxarıya getdikcə yarpaqlar tədricən azalır, lap yuxarı yarpaqlar (1-2) kəskin azalandır, tamkənarlı və xətvaridir.

Çiçək: Səbət uzunsov-əksinəkonusşəkilli-dir, uzunluğu 4,5-5 mm, eni 2-3 mm, mürəkkəb budaqlanmış qalxanvari çiçək qrupunda toplanmışdır. Qın sarımtıldır, tükcüklüdür. Qının yarpaqcıqları uzunsov-lansetvari və sivridir. Dilcikşəkilli çiçəklər parlaq-sarı rənglidir, qısa büküşlü və ya çiçəklər yalnız boruşəkillidir, uzunluğu 0,5 -1 mm-dir.

Meyvə: Toxumları əksinəyumurtavari-uzunsovdur, sivri kənarları var və çılpaq-dır, uzunluğu 1-1,5 mm, eni 0,5 mm-dir.

Çiçəkləməsi: May-Sentyabr.

Meyvə verməsi: Avqust-Sentyabr.

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, nadir hallarda Kür-Araz oval. Ovalıqdan orta dağ qurşağına, bəzən yuxarıya qədər.

Yaşayış mühiti: Kolluqlarda, yolların kənarında, əkin sahələrinin kənarında, dağ çəmənliklərində, çınqıllı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yerüstü hissələrinin tərkibində efir yağı və alkaloid vardır. Yeni otlardan alınmış essensiya homeopatiyada istifadə olunur.

Çiçəyi

Yarpağı

• Qusar gülxətmisi
• *Alcea kusariensis* Iljin





Hündürlüyü (18) 50-100 (150) sm, gövdəsi sadə, nadir halda az budaqlanan, əsasına qədər ulduzşəkilli tüklərlə sıx örtülmüş çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları uzun saplaqlıdır, aşağı yarpaqların böyük qisminin saplağı yarpaq ayasından son dərəcə uzundur; yarpaq ayasının yuxarı tərəfi yaşıl rəngli, çökək damarları olduğuna görə az qırışlıdır, aşağı tərəfi isə (əsasən cavan yarpaqların) yumşaq tüklü olduğuna görə boz rəngdədir; yarpaq ayası yumurtaşəkilli və yaxud demək olar ki, yarımdairəvi, nadir halda daha uzanmış bölümləri olan, zəif 5-7 bölümlüdür, qaidə hissəsində ürəkşəkilli, kənarlardan dairəvi-dişlidir. Yalançı zoğları 3-5 bölümlü, erkən tökülləndir.

Çiçək: Çiçəkləri uzun aralanmış çiçək qrupunda toplanmış, təkdir. Tac 30-58 mm uzunluqdadır, parlaq-sarı rəngdə, qurumuş halda isə yaşıl olur; ləçəkləri üst tərəfdən nəzərə çarpan girintili-çıxıntılıdır.

Meyvə: Meyvələrinin diametri 20 mm-ə qədər, 18-34 ədəd qanadlı meyvələri var, arxa tərəfdən və orta hissəsinin kənarları sıx tüklə örtülmüşdür.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., Xəzəryanı, BQ (Quba), BQ şərq. Aşağı dağ qurşağında.

Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda, talalarda, zibilli yerlərdə rast gəlinir.

Qafqaz əsməsi

Anemone caucasica Willd.ex Rupr. = *Anemonoides caucasica*

Hündürlüyü 3-10 sm, gövdəsinin əsası yarpaqsız və ya 1-2 ədəd yarpaqlı, diametri 5-13 mm olan yumurtaşəkilli və yaxud dəyirmi kök yumrularından ibarət çoxillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaq üzərində yerləşmiş, üçər-yarıya bölünmüş, seqmentləri 2-3 ədəd olub, mişarvari kəsilmiş-dişlidir, yuxarı tərəfdə çılpaq və ya az tükcüklüdür.

Çiçək: Çiçəkləri təkdir, qısa-tükcüklü, (meyvə verəndə əyilmiş) çiçək oxunda toplanmışdır. Çiçəkyanlığının yarpaqcıqları 8-10 sayda olub, uzunluğu 7-15 mm-dir, xətvari-uzunsovdur, göy və ya mavi rənglidir, üst tərəfdən çılpaqdır.

Meyvə: Meyvələri tüklüdür və qısa əyilmiş sütuncuqludur.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-May

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Lənk.-dağ.. Orta və yuxarı dağ qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, meşə ətrafında, dağ çəmənliklərində rast gəlinir.

Çiçəyi

Yarpağı

Acı yovşan
Artemisia absinthium L.





Hündürlüyü 60-100 sm, gövdəsi düz, və qısa budaqlanan, yarpaqla örtülmüş çoxillik ot bitkisidir. Kifayət qədər qısa tüklərlə sıx örtülüdür və ona görə də bozumtuldur. Kökü şaquli olub, qalındır.

Yarpaq: Qaidə hissəsində bəzən uzun saplaqlı yarpaqlar yerləşmiş, sonuncu yarpaqların ayasının uzunluğu 6-9 sm, eni 3-7 sm-dir, görünüşünə görə enli-ovaldır, demək olar ki, üçqat lələkvari-bölünmüş, sonuncu dilimləri neştərvaridir, qısa sivriləşmişdir; gövdənin orta yarpaqları qısa saplaqlıdırlar, ikiqat lələkvari-bölünmüşdür, yuxarı yarpaqları demək olar ki, oturaqdır, sadə lələkvari və ya ikiqat üç hissəyə bölünmüşdür.

Çiçək: Kənar çiçəkləri dişiciklidir, adətən 25 ədəd olur, tac sapşəkilli-borucuğa oxşardır, orta çiçəklər çoxsaylıdırlar (adətən 60 ədəd), tac konusşəkillidir, çılpaqdır, bəzən az tüklüdür.

Meyvə: Toxumlarının uzunluğu 1 mm-ə qədərdir, uzunsov-pazşəkillidir, yastıtəhər və nazik şırımlıdır, təpə hissəsinin səthi dəyirmi və az qabarıqdır.

Çiçəkləməsi: İyun-Avqust (Sentyabr)

Meyvə verməsi: Avqust-Sentyabr (Oktyabr)

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Nax. dağ. Lənk. dağ. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda, talalarda və yolların kənarında, çəmənliklərdə qayalarda, bağlarda və bostanlarda, zibilli yerlərdə, çayların vadilərində və quru yataqlarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Tərkibindəki efir yağı likör içkisi sənayesində istifadə olunur. Qədimdə və müasir zamanda da xalq təbabətində ondan alınan məlhəm yel, mədə xəstəliklərində, malyariyada, həmçinin iştahgətirici kimi istifadə olunur.

Ziyilotu
Chelidonium majus L.

Hündürlüyü 80-100 sm, gövdəsi düzduran, yuxarıda isə budaqlanmış, çılpaq və ya aşağı hissədə buğumlarda tükcüklü olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları təkləkvari-bölünmüş, uzunluğu 2-8 sm, eni 5 sm-ə qədərdir, 5-7 ədəd düzgün olmayan dairəvi-dişli bölümlü seqmentlədir, alt tərəfdə isə göyümtül rəngli, çılpaq və çox vaxt xırda qıvrım-tükcüklərə malikdir.

Çiçək: Çiçəkləri çətirşəkilli çiçək qrupunda toplanmışdır. Ləçəkləri sarı rəngli, əksinəyumurtaşəkilli formadadır.

Meyvə: Qutucuq düz formada olub, düz duran və bir qədər sıxılmış halda olub, uzunluğu 2,5 sm, eni 2-3 mm-dir və ölçüsü çiçək saplağına bərabər olur.

Çiçəkləməsi: May (İyun)

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), Kür düz., Lənk. oval., Lənk. dağ.

Yaşayış mühiti: Meşələrdə, meşənin kənarında, əkin sahələrində və alaqlı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Ziyilotunun şirəsi xalq təbabətində yaraların və səpgilərin və s. müalicəsində istifadə olunur. Onun zəhərli olması kənd təsərrüfatı bitkilərinin zərərvericilərinə qarşı mübarizədə istifadə olunmasına imkan verir.

Çiçəkləri


Yarpağı

Meyvələri

Halat toppuztikan
Echinops galaticus Freyn



Hündürlüyü 60-80 sm, gövdəsi ağımtıl keçəli, kifayət qədər nazik, sırımlı, düz və ya əsasından yüksələn, sadə və ya çox vaxt budaqlanan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları kifayət qədər yumşaq, oturaq, yarımgövdə həcmini artıran olub, dəyirmi qulaqcıqlıdır, uzunsov, oyuqlu lələkvari kəsilmiş və ya üçkünclü və ya yumurtaşəkilli hissələri və bölümləri olan, nazik tikanlarla qurtaran lələkvari bölümlüdür, kənarları tikanlı kirpiklidir, üst tərəfdən yaşıl səpələnmiş qısa tüklü və vəziciklidir, alt tərəfdən sıx ağımtıl keçə tüklüdür; yuxarı yarpaqları tikanaoxşar dişlidir.

Çiçək: Başcıq şarşəkillidir, diametri 3-4 sm-dir. Qının genişlənmiş yarpaqcıqları düz sonluğu ilə sivriləşmişdir, kənarları daraqlı kirpiklidir, onlardan lap aşağıdakılar bir qədər qısa saplaqlı vəziciklidir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), Kür düz., KQ şimal, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında, otlu yamaclarda, alaqlı yerlərdə rast gəlinir.

Parlaq ətirşah
Geranium lucidum L.

Hündürlüyü 15-35 sm, gövdəsi düz və yaxud əyilib qalxandır, yarpaqlar kimi parlaq, çılpaq, qonurtəhər, daha sonra qızaran birillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaq üzərindədir, aşağı gövdə yarpaqları görünüşünə görə böyrəkşəkillidir, hissələri əksinəyumurtaşəkillidir, yuxarı hissədə dəyirmiləşmiş və dayaz dairəvi dişlərə kəsilmişdir; yarpaq ayası üst tərəfdən və kənarlardan basıq tüklüdür, daha sonra qızarandır. Yalançı zoğları neştərvaridir, əyriləşmişdir.

Çiçək: İkiçiçəkli çiçək saplağının uzunluğu 2-4 sm-dir, meyvə vermə dövründə əyilmiş şəkildə olur. Ləçəkləri çəhrayı rənglidir, əksinəyumurtaşəkilli-uzunsovdur, təpə hissədə dəyirmiləşmişdir.

Meyvə: Meyvəsinin tayları arxa tərəfdə torvari qırışlıdır.Toxumları hamardır.

Çiçəkləməsi: Aprel-İyun

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz (qərb)., KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Çay sahilində, çaqıl daşlı, rütubətli və qaranlıq yerlərdə rast gəlinir.


Çiçəyi

Yarpağı

Kompas südləmə
Lactuca serriola L.

Hündürlüyü 30-100 sm, gövdəsi tək və ya bir neçə saydadır, düz, adətən uzun qövssəkilli budaqları ilə qollu-budaqlı, süpürgəvari budaqlanmış, ağımtıl rəngdədir, şırımlıdır, çılpaq və ya aşağı hissə uzun tikanlarla örtülmüş və milşəkilli kökü olan birillik və ya ikiillik ot bitkisidir.

Yarpaq: Gövdə yarpaqları çox vaxt şaquli müstəvidə yerləşmişdir, qalın dərilidir, göyümtül-yaşıl rəngdədir, çılpaq, və ya orta damarı alt tərəfdə tikanlarladır, oyuqlu lələkvari-bölünmüşdür, hər iki tərəfdən enli neştərvari, uzunsov və ya üç künclü, arxaya qatlanmış payları vardır, kənarları tikanlı-kirpikli, dişli, yuxarı yarpaqları bəzən hamısı bütöv olur, ayrı deyildir, kənarları qismən iri dişli, oturaqdır və qaidə hissəsi oxşəkilli, qulaqcıqları isə üçbucaq formada sivriləşmişdir.

Çiçək: Səbətlərinin uzunluğu 9-14 mm, eni 3-3,5 mm-dir, silindrvaridir, seyrək çiçəklidir, uzunsaplaqlıdır və ya oturaqdır.

Meyvə: Toxumları qonur rənglidir, uzunsov-əksinəyumurtaşəkillidir. Uzunluğu 3 mm-ə yaxın, eni 1 mm, qaidəsinə doğru daralmış, 7-9 ədəd qabırğası var, toxumun ucuna yax yerləşmiş qısa sərt tükləri vardır, uzun, ağ, nazik, uzunluğu 5 mm-ə yaxın dimdiklidir; kəkil (başcıq) ağ rəngdədir, asanlıqla tökülən dir.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: Avqust-Noyabr

Azərbaycanda yayılması: Azərbaycanı bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Dağ çəmənlərində, meşənin tala yerlərində, çınqıllı yamaclarda, dəniz kənarında, bağlarda və bostanlarda alaq kimi rast gəlinir.

Üçdilim dağ razyanası
Laser trilobium (L.) Borkh.

Hündürlüyü 50-150 sm, gövdəsi əsasında kökətrafı yarpaqların ölmüş qalıqlarından ibarət lüt nazik lifli qın geyinmişdir, düz, silindrik, nazik sırımlı, göyümtül rəngdədir, orta hissəsindən yuxarısı budaqlanmış çoxillik çılpaq ot bitkisidir. Kökü qalındır.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaq üzərindədir; yarpaq ayası üçər olub, iki-üç dəfə yarıya bölünmüşdür; hissələri iridir, uzunluğu 2,5-5 sm-dir, enli yumurtaşəkillidir, qaidə hissəsi ürəkşəkillidir, bütövdür, 3 bölümlüdür, kənarları seyrək və iri dişlidir; yuxarı yarpaqları oturaq, uzun şiş qınlıdır, daha az bölünmüşdür.

Çiçək: Çətirləri uzunluğu (bar verən zaman) 8-12 sm olan (10) 15-20 ədəd uzunluğuna görə eyni olmayan şüalara malikdir. Ləçəkləri ağ rəngdədir. Qını 1-5 ədəd neştərvari tökülən yarpaqcıqlardan ibarətdir və ya yoxdur.

Meyvə: Meyvələrinin uzunluğu 7-8 mm, eni 4 mm-ə yaxındır.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ. (Şahbuz r.) Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə və kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələrində efir yağı vardır.


Çiçəyi

Yarpağı

Meyvələri

o Sosnovski baldırğanı
o *Heracleum sosnowskyi* Manden.



Hündürlüyü 1-1,5 m-ə qədər, gövdəsi dərin şırımlı, pərdəyəoxşar tükcüklərlə örtülmüş olan ikiillik və ya çoxillik hündür iri ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları iridir, saplaq üzərində üçər bölünmüş seqmentlərlədir, nadir hallarda lələkvari bölünmüş 2 cüt seqmentlərin; yan seqmentləri yumurtaşəkillidir, kənarları qeyri-bərabərdir, 3-5 bölümlü yumurtavari iti dişli paylara kəsilmişdir, son seqmentləri dəyirmidir, 3 müstəqil yumurtavari bölümlü kəsilmiş dişli payları vardır; yuxarı yarpaqları qını genişləndiyinə görə kiçilmişdir. Yarpaqlar üst tərəfdən çılpaq, alt tərəfdən az yumşaq tükcüklərlə örtülmüşdür.

Çiçək: Çətiri çoxşüalıdır, iridir. Sarğı yarpaqları və qın xətvari-sapşəkillidir, çətircikdən qısadır. Çiçəkləri ağ rənglidir, çətirdəki kənar çiçəklər böyümüşdür.

Meyvə: Meyvələriəksinəyumurtaşəkilli və yaxud ellipsvari olub, uzunluğu (7) 10-13 mm, eni 6-9 mm, arxa hissədə seyrək uzun tüklü, kənarları adətən qısa tikanabənzər tüklərlə örtülmüşdür.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq. BQ qərb. Orta və yuxarı meşə zolaqlarında.

Yaşayış mühiti: Dərələrdə, meşənin kənarlarında və talalarda rast gəlinir.

Qocamtıl qaytarma

Potentilla canescens Bess. (*P. adscendens* Waldst. & Kit. ex Willd., *P. inclinata* auct.p.p.)

Hündürlüyü 50 sm-ə qədər, gövdəsi düz qalxan, yarıdan yuxarısı budaqlanan yumşaq boz-tükcüklü olan çoxillik ot bitkisidir. Kökümsovu yalançı zoğların qonur rəngli qalıqları ilə örtülmüşdür.

Yarpaq: Kökətrafı və aşağı yarpaqları uzun saplaq üzərindədir, barmaqvari bölünmüşdür, 5-7 ədəd yarpaqcıqlıdır; yuxarı yarpaqları qısa saplaq üzərindədir, 3-5 ədəd yarpaqcıqlıdır; yarpaqcıqlar uzunsov-əksinəyumurtaşəkillidir, qaidə hissəsinə doğru uzun pazvaridir, üst tərəfdən seyrək basıq tüklü, alt tərəfdən boz sıx keçə-tükləri vardır.

Çiçək: Çiçəkləri xırdadır, diametri 10-15 mm, çox nazik çiçək saplağı üzərində yerləşmişdir; ləçəkləri sarıdır, təpə hissədə azacıq girintili-çıxıntılıdır, kasa yarpaqlarından biraz uzundur.

Meyvə: Meyvələri uzununa qırışlıdır, kiçikdir; sütuncuğun uzunluğu meyvənin uzunluğu qədərdir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-Avqust.

Azərbaycanda yayılması: BQ (Quba), Kür düz., KQ şimal, Nax. dağ., Lənk. dağ. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru otlu yamaclarda, kolluqlarda, meşənin kənarlarında rast gəlinir.

Çiçəyi



Dərman zəncirotu
Taraxacum officinale Wigg.

Hündürlüyü 15-32 sm olan, çoxillik, çılpaq və ya seyrək tüklü bitkidir. Kökü qalındır, sadə və ya çox vaxt budaqlanandır; kök boynu adətən tüklüdür.

Yarpaq: Yarpaqları çılpaq və ya orta damarla aşağı tərəfdə az toraoxşar tüklüdür, uzunsov-əksinəyumurtaşəkilli, küttəhər, oyuqlu-dişlidir və yaxud enli və ya dar, üçkünc, sivriləşmiş, tamkənarlı və ya uzun dişli, arxaya yönəlmiş dilimlərə qismən dərin qayıqşəkilli kəsilmişdir.

Çiçək: Çiçək oxu yarpaqlardan uzundur, düz, çılpaq və ya çiçəkləmə dövründə tüklüdür. Qın yarpaqları təpə hissədə qabarıq deyil, xaricdə yerləşənlər qismən enli xətvaridir, aşağı qatlanmışdır, daxildə yerləşənlər isə xətvaridir. Dilcikşəkilli çiçəklər açıq və ya tutqun-sarı rəngdədir, bir qədər qın yarpaqlarından uzundur.

Meyvə: Toxumları açıq-qəhvəyi rənglidir, uzunluğu 3-3,5 mm-dir, yalnız təpə hissəsində qısa piramidalı olub, sivri-qabarıqdır; buruncuğu nazikdir, 3-4 dəfə toxumdan uzundur; kəkili ağ rəngdədir, 2-2,5 dəfə buruncuqdan qısadır.

Çiçəkləməsi: Aprel-İyun

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, KQ mərkəzi. Orta və subalp qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, talalarda, çəmənlərdə rast gəlinir.

Avropa meşəçətirotusu
Sanicula europaea L.

Hündürlüyü 20-50 sm, gövdəsi düz, adətən tək və sadə olan çoxillik çılpaq ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaq üzərindədir, görünüşünə görə dəyirmi-ürəkşəkillidir, barmaqvari 3-5 ədəd ayrı, daha iri orta dilimlidir; yan dilimləri enli pazvari-əksinəyumurtaşəkillidir, qismən dərin üç bölümlüdür, kənarları dairəvi dişlidir, sivri ucluqla qurtaran dişləri vardır.

Gövdə yarpaqları yoxdur və ya onlar az saydadır və az kəsilmişdir.

Çiçək: Çətirləri xırdadır, qurtaracağı vardır, şüaların ucunda yerləşmişdir. Kasacığın dişləri bizşəkillidir. Ləçəkləri yumurtaşəkillidir, 1,5 mm-ə yaxındır, ağ və ya qırmızımtıl rəngdədir.

Meyvə: Meyvələrinin uzunluğu 4-5 mm-dir, yumurtaşəkilli-şarşəkillidir, qısa tikanlarla sıx örtülmüşdür.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. dağ. Yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Qaranlıq meşələrdə rast gəlinir.

Dəlinmişyarpaq oxlivə
Smyrnium perfoliatum L.



Hündürlüyü 80 sm olan ikiillik çılpaq bitkidir. Kökü yumurtaşəkilli və ya şarşəkilli qalınlaşmışdır. Gövdəsi düz, budaqlanmış, tinləri ensiz qanadlıdır.

Yarpaq: Kökətrafı yarpaqları saplaqlıdır, yumurtaşəkilli, ikiqat və ya üçqat üçər yarıya bölünmüş dəyirmi dişli yarpaqcıqlarladır. Gövdə yarpaqları oturaqdır, yumurtaşəkilli, dərin ürəkşəkilli qaidəsi vardır, üçərdir, üçbölümlüdür, kənarları dəyirmi dişlidir; yuxarı yarpaqları bütövdür, gövdə həcmini artırandır.

Çiçək: Çətirləri saplaq qərində və ya oturaqdır, 6-10 ədəd şüalıdır. Qını yoxdur. Ləçəkləri yaşılımtıl-sarı rəngdədir.

Meyvə: Meyvəsi yumurtaşəkilli-şarşəkillidir, uzunluğu 3 mm-ə yaxındır, demək olar ki, qara rəngdədir, parlaq, qabırğaaraları torvari-qırışlıdır.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Nax. dağ. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Qaranlıq dağ meşələrində və kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Ədviyyat kimi istifadə olunur, yağının gözəl ətri vardır.

Meşə çiyələyi
Fragaria vesca L.

Hündürlüyü 5-20 (35) sm olan, çoxillik ot bitkisidir. Cavan budaqları bitkinin köndələn böyümsovları və kökətrafı yarpaqların qoltuğunda inkişaf edib, uzundur, üfüqi sürünəndir.

Yarpaq: Yarpaqcıqlar rombaoxşar-ovaldır, üst tərəfdən tünd-yaşıl, səpələnmiş basıq-tüklü və yaxud çılpaqdır, alt tərəfdən solğun-yaşıl, sıx ipək kimi sıxılmış tüklüdür.

Çiçək: Çiçəkqrupu qalxanşəkilli olub, az çiçəklidir. Kasaaltlığının yarpaqcıqları xətvari və yaxud lansetvaridir və kasa yarpaqlarına bərabərdir. Ləçəkləri ağ rənglidir.

Meyvə: Yetişmiş meyvələri parlaq-qırmız rənglidir və yumurtaşəkilli-konusvaridir, ətirlidir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında (Naxç., başqa). Ovalıqdan orta dağ qurşağına qədər, bəzən yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarlarında və kolluqlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Meyvələri yeyilir və mürəbbə, essensiya, limonad içkisinin hazırlanması üçün istifadə olunur. Quru meyvələri tibbdə işlənir.



Baştüklü yonca
Trifolium trichocephalum Bieb.

Hündürlüyü 15-70 sm, gövdəsi düz, möhkəm, sərt, 5-3 sayda olub, sadədir, nadir halda səif budaqlanmış, adətən içi boş olan çoxillik, sıx qabarıq-tüklü ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları uzun saplaq üzərindədir. Yarpaqcıqları iridir, uzunsov-yumurtaşəkilli və ya ellipsşəkillidir, neştərvari formayadək dəyişir, tüklüdür, uzunluğu 2-6 sm-dir.

Çiçək: Başcığı tək olub, oturaq, sıxçiçəkli, iridir, şarşəkilli və ya yumurtaşəkilli-şarşəkillidir, uzinluğu 3,5-5 sm, qaidə hissəsində təpə yarpaqları ilə sarınmışdır. Çiçəkləri 2,5-3 sm uzunluqdadır, solğun-sarı rəngdədir.

Meyvə: Paxla birtoxumludur, təpə hissədə qığırdaqlı qapağı vardır.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Subalp və alp qurşaqlarında, bəzən, yuxarı meşə qurşağına da keçir.

Yaşayış mühiti: Çəmənliklərdə və otlu yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Kənd təsərrüfatı heyvanları tərəfindən yeyilir.

Gürcü güləvər
Centaurea iberica Trev. ex Spreng

Hündürlüyü (25) 50-70 (100) sm, gövdəsi düz, ‹ıralanmış-budaqlanan, bozumtul-yaşıl qısa tüklü olan çoxillik bitkidir.

Yarpaq: Kökətrafı yarpaqları saplaqlıdır, bir ‹ədər liraşəkilli-lələkvari kəsilmiş, seqmentləri neştərvari və ya xətvari, sivri uclu, dişləri sivri uclu və yaxud həmçinin lələkvari bölünmüşdür; orta yarpaqları oturaqdır, dərin lələkvari bölünmüş və ya lələkvari kəsilmiş bir neçə xətvari və ya neştərvari, dişləri xırda sivri uclu və ya tamkənarlı seqmentlərlədir, yuxarı yarpaqları bütövdür.

Çiçək: Səbətləri çoxsaylı, tək, yumurtaşəkillidir, eni 8-12 mm, qısa saplaq üzərindədir, demək olar ki, yuxarı yarpaqlarla bürünmüşdür. Qın yarpaqları tutqun, qalın dərili, çılpaqdır, kənarları ensiz ağ pərdəciklidir. Çiçəkləri çəhrayı rəngdədir, kənardakılar artmayandır.

Meyvə: Toxumlarının uzunluğu 3-4 mm olub, uzunsov, parlaq, hamar, çox vaxt tünd cizgilidir; kəkili ağ rəngli, toxumcadan iki dəfə qısadır.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Əkin sahələrində, zəmilərdə, bostanlarda, həmçinin kolluqlarda alaq kimi, çay yataqlarında, yol kənarında, zibilli yerlərdə rast gəlinir.

Aptek kücotu
Agrimonia eupatoria L.



Hündürlüyü 50-125 sm, gövdəsi hündür, düz, sərt qabarıq və qısa qıvrım tüklərlə örtülü olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqlar saplaqdadır; tək lələkvari yarpaqların yarpaqcıqları elliptik və ya uzunsovdur, mişarvari kəsilmişdir, onlar arasında yerləşən kiçik yarpaqcıqlar yumurtaşəkillidir; bütün yarpaqcıqlar üst tərəfdən yaşıl, alt tərəfdən isə oturaq və ya saplaqlı vəziciyi olan boz-keçə tüklüdür.

Çiçək: Çiçəkləri yuxarı hissəsi sıx, aşağı hissəsi isə boş, uzun sünbülşəkilli salxımdadır. Ləçəkləri sarı rəngdə olub, uzunluğu 4-5 mm-dir.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, əsasən meşəli rayonlarda. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Kəsilmiş meşələrdə, meşə kənarında, kolluqlarda, sahildə, çəmənlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yarpaqlarında aşı maddəsi vardır. Sarı rəngdə boyaq almaq olur. Xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə olunur.



Transilvaniya qantəpəri
Cephalaria transsylvanica (L.) Schrad. ex Roem. & Schult

Hündürlüyü 25-150 sm, gövdəsi tin-tin, budaqlanması aralı, aşağı hissəsi cod-tüklü, yuxarı hissəsi demək olar ki, çılpaq olan birillik ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları liraşəkilli lələkvari-bölün-müş uzunsov dişli və tədricən birləşmiş yan seqmentlərlədir, yuxarı yarpaqları xətvari-neştərşəkilli və yaxud xətvari, çox vaxt tamkənarlı seqmentlərlədir, hər iki tərəfdən cod və ya kirpikcikli-tüklüdür; təpə seqmenti yan seqmentlərdən iridir.

Çiçək: Çiçək oxu uzanmış şəkildədir. Başcıq dəyirmi və ya yumurtaşəkillidir, diametri 10-20 mm-dir.Tac ağımtıl və ya mavitəhərdir, xaricdən tüklüdür; bayır çiçəkləri daxili çiçəklərdən iridir.

Çiçəkləməsi: İyun-Avqust (Sentyabr)

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), Qobustan, Kür-Araz oval. Ovalıqdan aşağı dağ qurşağına qədər, bəzən orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Yamaclarda, kolluqlar arasında, çaylaqlarda, dənizkənarı qumsallıqlarda, bəzən taxıl zəmilərində rast gəlinir. Səpələnmiş halladır.

Nəhəng qantəpər
Cephalaria gigantea (Ledeb.) Bobr.

Hündürlüyü 150-200 sm, gövdəsi düzduran, şırımlı, çılpaq və ya qısa tüklü, aşağı hissədə aşağı yönəlmiş sərt tüklərlə sıx örtülü, adətən yuxarı hissədə budaqlanan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, sadədir, liraşəkilli-lələkvari bölünmüşdür; seqmentlər yarpaq oxuna tədricən birləşmiş, uzunsov-neştərşəkilli və ya uzunsov-ovaldır, kənarları sivri iri-mişarvaridir, üst tərəfdən çılpaq, tünd-yaşıl rəngli, alt tərəfdən sıx tüklü və ya demək olar ki, çılpaqdır, yuxarı seqmenti yandakı seqmentlərdən azacıq iridir.

Çiçək: Başcığın diametri 3-4 sm-dir, uzanmış çiçək oxu üzərində təkdir; kənar çiçəklər başcıqda çoxalmışdır. Tac kükürd-sarı rəngdədir, xaricdən tüklüdür.

Çiçəkləməsi: İyul-Avqust (Sentyabr)

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, KQ cənub. Orta, yuxarı və subalp qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə və dağ çəmənlərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yaxşı balverən bitkidir. Boyaq məqsədilə istifadə olunur. Xalq təbabətində çiçəklərindən alınan məlhəm soyuqdəymə zamanı istifadə olunur.

Adi mollabaşı

Matricaria chamomilla L. = *Tripleurospermum perforatum*

Hündürlüyü 20-45 sm, gövdəsi düz, sadə və ya budaqlanan və demək olar ki, çılpaq birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaq, nazik xətli, sivri uclu, aralanmış dilimlərə ikiqat-üçqat lələkvari bölünmüşdür.

Çiçək: Səbətin eni 5-8 mm olub, uzun saplaq üzərindədir. Qın yarımşarşəkillidir, yarpaqcıqları uzunsov-yumurtaşəkilli parlaq pərdəşəkilli haşiyələnmişdir.

Dilcikşəkilli çiçəkləri ağ rəngdədir , qından iki dəfə uzundur, ortadakılar borucuqludur, sarı rəngdədir.

Meyvə: Toxumlarının uzunluğu 1 mm-ə yaxındır, uzunsov, az qatlanmışdır, qarın tərəfdən 5 ədəd qabırğası vardır, təpə hissədə köndələn, demək olar ki, kənarsızdır.

Çiçəkləməsi: İyun-İyul

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: Kür-Araz oval. Ovalıqlarda.

Yaşayış mühiti: Alaqlı yerlərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir, lərqovucu vasitədir.


Çiçəyi

Yarpağı

Beşyarpaq dişotu
Dentaria quinquefolia Bieb.

Hündürlüyü 20-40 sm, gövdəsi düz, sadə, çılpaq, aşağı hissədə yarpaqsız, yuxarıda üç yarpaqdan ibarət olan köbəli çiçək qrupu altında üfüqi pulcuqlu kökümsovları olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları lələkvaridir, 3-5 neştərə oxşar-xətvari sivri dişli yarpaqcıqlardan ibarətdir. Yarpaqların qoltuğunda soğanaq əmələ gəlmir.

Çiçək: Salxımlar 6-15 ədəd çiçəkdən ibarət olub, kifayət qədər sıxdır. Ləçəkləri 10-15 (20) mm uzunluğunda olub, əksinəyumurtaşəkilli-pazvaridir və bənövşəyi, bəzən çəhrayı rəngdə olur. Qını 35-50 mm uzunluğunda, eni 2-5 mm-dir, köndələn formada üzüyuxarı durmuş və uzunluğu 3-4 mm olan sütuncuğa daralmışdır.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, Lənk.-dağ., Lənk.düz., Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Qaranlıq meşələrdə, əsasən fıstıq meşələrində üstünlük təşkil edir.

Təsərrüfat əhəmiyyəti: Kökümsovu bişmiş halda yeyilir. Dekorativ bitkidir.

Otvari gəndalaş
Sambucus ebulus L.

Hündürlüyü 70-200 (250) sm, gövdəsi düzduran, sadə və ya budaqlanan, şırımlı olan çoxillik ot bitkisidir. Yalançı zoğları yarpaqşəkilli, neştərvari və mişarvaridir. Xoşagəlməyən iyi vardır.

Yarpaq: Yarpaqları saplaq üzərindədir, 6-9 (11) ədəd yarpaqcıqdan; yarpaqcıqlar neştərvari və ya xətvari-neştərvaridir, sivriləşmişdir, qaidə hissəsi köndələndir, kənarları mişarvaridir, çılpaq və ya alt tərəfdən tükcüklüdür.

Çiçək: Çiçəkləri təpə hissədə yerləşən iri qalxanvari-süpürgə yastı çiçək qrupunda toplanmış, üç əsas çox şaxəli budaqları vardır. Tac ağ rəngdə, üst tərəfdən bəzən, çəhrayıtəhərdir.

Meyvə: Meyvələri şarşəkilli, qara rəndədir, 3 (4) çəyirdəklidir və diametri 3-4 mm-dir.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: (İyul) Avqust-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşəli rayonların kəsilmiş meşələrində, meşə ətrafında, açıq yerlərdə, yuğanlarda, çay və balaca arx boyunca, bağlarda və bostanlarda rast gəlinir. Güngəlliklər əmələ gətirir.

Təsərrüfat əhəmiyyəti: Meyvələri çaxırın boyanmasında, yetişmiş meyvələrindən mürəkkəb hazırlanmasında istifadə olunur. Təbabətdə tətbiq edilir.

Çiçəyi

Yarpağı

Meyvəsi

Qızyarpaq biraotu
Pyrethrum parthenifolium Willd.

Hündürlüyü 4-80 sm, gövdəsi düzduran, yuxarı hissədə qalxanvari budaqlanmış, çılpaq və ya dağınıq tüklü çoxillik ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları uzun saplaqlıdır, görünüşünə görə yarpaq ayası yumurtaşəkilli, lələkvari bölünmüş, seqmentləri yumurtaşəkilli-uzunsovdur, sivriləşmişdir, qismən dərinlələkvari bölünmüşdür.

Çiçək: Səbətləri çoxsaylıdır, qısa və uzun saplaqdadır, gövdənin yuxarı hissəsində qalxanvari çiçək qrupunda toplanmışdır. Dilcikli çiçəkləri ağ rəngdədir, uzunluğu 6-8 mm-dir.

Meyvə: Toxumlarının uzunluğu 1,5 mm-dir, çox qısa, az dişli tacı vardır.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Orta, bəzən yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Rütubətli və qaranlıq yerlərdə, çay sahilində, kolluqlar arasında, otlu yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dərman bitkisidir.

Beşyarpaq qıfsəbət
Serratula quinquefolia Bieb. ex Willd.

Hündürlüyü 50-120 sm, gövdəsi düz, şırımlı, yuxarı hissədə budaqlanmış, demək olar ki, çılpaq olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları saplaqlıdır, lələkvari-bölünmüşdür, 2-4 ədəd yan ellipsşəkilli və ya enli-neştərvari, sivriuclu-mişarvari, sivri və yaxud qısa sivriləşmiş seqmentlərlə; təpə seqmenti iridir, yan tərəfdəki seqment isə yarpağın qaidə hissəsinə doğru kiçilmiş, demək olar ki, oturaqdır və ya qısa saplaqla oxa birləşəndir; yuxarı yarpaqları kəskin azalmışdır, bütövdür, forması enli lansetvaridən dar lanservariyə qədər dəyişir.

Çiçək: Səbət yumurtaşəkillidir, yaşıl rəngdədir, eni 8-15 mm-dir. Çiçəkləri azsaylı, uzun düz suplaqda, qalxanvari süpürgə çiçək qrupunda toplanmışdır. Qın yarpaqcıqları kənarlardan ensiz-pərdəli və ağımtıl-tüklüdür. Çiçəkləri bənövşəyi rəngdədir.

Meyvə: Toxumları uzunsov, zolaqlı, hamardır; kəkili çirkli-bənövşəyi rəngli yastı, demək olar ki, lələkvari cod tüklərdən ibarətdir, toxumdan qısaqıq uzundur.

Çiçəkləməsi: Avqust-Sentyabr

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: Samur-Şabran ovalı., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Kür düz., KQ şimal, KQ mərkəzi, KQ cənub, Lənk. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə ətrafında, kolluqlar arasında rast gəlinir.

Sürünən qaytarma
Potentilla reptans L.





Gövdəsi çox uzun, sürünən, kök bağlayan və tüklü çoxillik ot bitkisidir. Kökümsovu qalındır.

Yarpaq: Kökətrafı yarpaqları uzun saplaqdadır, yarpaqcıqları 5-7 ədəd olub, barmaqvaridir. Gövdə yarpaqları daha qısa saplaqda yerləşmişdir; yarpaqcıqlar əksinəyumurtaşəkilli və ya uzanmış yumurtaşəkillidir, qaidəsi pazşəkilli, yuxarı hissədə dəyirmi dişli, üst tərəfdən çılpaq, alt tərəfdən qismən tüklüdür.

Çiçək: Çiçəkləri tək və ya 2 ədəddir, diametri 2 sm-dir. Çiçək saplağı qoltuqda yerləşib, uzundur, uzunluğuna görə yarpaqları keçir və ya onlara bərabərdir. Ləçəklərinin uzunluğu 8-10 mm olub, qızılı-sarı rəngdədir, əksinəürəkşəkillidir, kasa yarpağından uzundur.

Meyvə: Meyvələri qırışlıdır, təpə sütuncuğu uzunluğuna görə meyvə ilə eynidir.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında.

Yaşayış mühiti: Dağ meşələrinin açıq yerlərində, alaqlı çəmənlərdə, yol kənarında rast gəlinir.

Pulcuqlu latreya
Lathraea squamaria L.

Hündürlüyü 30 sm-ə qədər olan çoxillik bitkidir. Kökümsovu çox vaxt çox uzundur, budaqlanmış və ağımtıl rənglidir, ləti pulcuqlarla çox əhatə olunmuşdur. Yerüstü hissəsi nisbətən pulcuqlarla az örtülmüşdür.

Çiçək: Çiçəkləri birtərəfli salxımşəkilli çiçək qrupunda, inkişaf etməmiş xırda yarpaq qoltuğunda, qısa saplaq üzərində toplanmışdır. Tacın uzunluğu 14-17 mm olub, borucuğabənzərdir, adətən solğun-bənövşəyi və ya ağımtıl-çəhrayı rənglidir, çılpaqdır; üst dodaq bütövdür; alt dodaq üçbölümlü, qısa, küt dilimləri vardır.

Meyvə: Qutucuq şarşəkillidir, kasacığa bərabərdir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: Samur-Şabran oval., Xəzəryanı, BQ (Quba), Qobustan, Kür-Araz oval., KQ şimal, Lənk.dağ. Ovalıqdan aşağı, nadir hallarda orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda rast gəlinir; *Corylus* L. və *Alnus* L. cinslərinin növləri üzərində parazitlik edir.

• Qırmızı difelipeya
• *Phelypaea coccinea* (Bieb.) Nicolson (*Anoplon coccineum* (Bieb.) H.Riedl & Schiman - Czeika, *Phelypaea coccinea* (Bieb.) Pəir.)

Qısa tünd vəzili-tücüklərlə örtülmüş, çoxillik ot bitkisidir. Gövdənin qalınlığı orta hissədə 3-6 mm, gövdə həcmini artıran az miqdarda pulcuqlardan ibarət olub, yuxarı hissədə bir çiçəkli (nadir halda 2 çiçəkli) çiçək saplağına keçir.

Çiçək: Tac (1,8) 2,5-4,5 (5) sm uzunluqdadır, parlaq-qırmızı rəngdədir. Tozluqları çılpaq və ya az tüklüdür.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), Xəzəryanı, Qobustan, Kür-Araz oval., Alazan-Əyriçay, BQ şərq, BQ qərb, Lənk. dağ. Demək olar ki, Azərbaycanın bütün rayonlarında. Aşağı dağ qurşağından orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Daşlı və çınqıllı yamaclarda rast gəlinir. *Psephellus* Cass növü üzərində parazitlik edir.

Çəmən gülülcəsi
Lathyrus pratensis L.

Hündürlüyü (40) 55-100 sm, gövdəsi düz, uzanan və ya ilişən, sivri dördtinli və budaqlanan çoxillik ot bitkisidir. Kökümsovu nazik, şaxəli və zoğ əmələgətirəndir. Yalançı zoğları iri olub, yarpaqcığı xatırladır, uzunsov və ya yumurtaşəkilli-neştərvaridir, oxşəkilli əsası vardır, sivriləşmiş, qısa və ya bəzən saplaqla eynidir. Saplaq qanadsız, üst tərəfdən novşəkilli, sadə və ya şaxələnən bığcığı, nadir halda ucu vardır.

Yarpaq: Yarpaqlar bir cütdür; yarpaqcıqları neştərvari və ya uzunsov-neştərvaridir, sivri və ya qısa sivriləşmişdir, qısa sivri ucu vardır, 3-5 ədəd çox güclü damara malikdir, nadir halda ensiz neştərvaridir, uzunluğu (1) 2-4 (5) sm, eni 2,5-8 (10) mm-dir.

Çiçək: Salxımları 5-13 ədəd çiçəkdən ibarətdir. Çiçək saplağı tüklüdür. Tac parlaq və ya açıq-sarı rəngdədir, uzunluğu 12-17 mm-dir.

Meyvə: Paxlası qısa xətli-neştərvaridir, uzunluğu 2-3 sm, eni 4-6 mm-dir, qaramtıl, çılpaq, uzununa çəpinə damar şəbəkəsindən ibarətdir, 6-10 toxumludur.

Toxumları qeyri-bərabər dəyirmi, çılpaq, bir qədər parlaq, qırmızımtıl-qonur rənglidir, tünd ləkələri vardır.

Çiçəkləməsi: (May) İyun-İyul (Avqust)

Meyvə verməsi: Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Bütün meşəli rayonlarda və dağ çəmənlərində (2000-2500 m-ə qədər d.s.y.)

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, meşə kənarında, bağlarda, dağ çəmənlərində, əkin və zəmilərdə rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Balverən bitkidir, dərman əhəmiyyəti vardır, toxumları quşlar tərəfindən yeyilir. Bitkidə tərkibi məlum olmayan acı maddə vardır, heyvanlar tərəfindən yaxşı yeyilmir.

Çiçəyi

Meyvəsi


Yarpağı

Qırmızı göyək
Echium rubrum Jacq. = *E. russicum*

Hündürlüyü (12) 20-70 sm olan, gövdəsi tək, düzduran, sadə, qabarıq cod-tüklü ikiillik ot bitkisidir.

Yarpaq: Yarpaqları çoxsaylıdır, neştərvari, ensiz-neştərvari, xətvari formayadək dəyişir, sivri və ya sivriləşmişdir. Kökətrafı və gövdənin aşağı yarpaqları qaidə hissəsinə doğru tədricən dartılandır, sonrakılar oturaq, yarımgövdə həcmini artırandır, hər iki tərəfdən cod-tüklüdür.

Çiçək: Çiçək qrupu sıxçiçəkli, ensiz süpürgəvari, demək olar ki, sünbülşəkillidir. Tac tünd-qırmızı və ya çaxır-qırmızısı rəngdədir, uzunluğu 12-15 mm-dir, borucuğaoxşar qıfşəkillidir, xaricdən az tüklüdür, nazikdir.

Meyvə: Fındıqcalar 2,5 mm uzunluqda, üçtilli-yumurtaşəkilli, sivri, az qabarıq və qara rəngdədirlər.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ cənub, KQ mərkəzi, Nax. dağ. - aşağı və orta dağ qurşaqlarında (2000 m-ə qədər).

Yaşayış mühiti: Otlu yamaclarda, meşələrdə, talalarda, meşə kənarında, qayalarda üzərindəki kolluqlarda və dağ çəmənlərində rast gəlinir.

Yaz çınqıllıqotu
Rhinanthus vernalis (N.Zing.) Schischk.& Serg.

Hündürlüyü (8) 15-50 sm, gövdəsi düz, zəif tüklü və ya çılpaqdır, tünd rəngli uzununa cizgili və düyünaraları uzanmış olan birillik ot bitkisidir.
Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, oturaqdır, uzunsov-neştərvari, neştərvari və ya ensiz neştərvaridir, sivri, küt və ya demək olar ki, yastı dişcikləri olan mişarvari-dişlidir, təpə hissədə qısa daralmışdır, qısa tüklü və kələ-kötürdür.
Çiçək: Tac açıq-sarı rəngdədir, uzunluğu 15-20 mm-dir, tacın borucuğu azacıq bükülmüşdür və kasacıqla eyni uzunluqdadır.
Meyvə: Qutucuq ovalşəkillidir, kasacıqdan qısadır, uzunluğu 10-12 mm-dir. Toxumlarının uzunluğu 5 mm-ə qədər, oval, eni 1 mm-ə yaxın olan qanadı vardır.
Çiçəkləməsi: İyul
Meyvə verməsi: İyul-Avqust
Azərbaycanda yayılması: BQ (Quba) BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Orta və ya subalp qurşaqlarında.
Yaşayış mühiti: Dağ çəmənlərində, meşənin tala yerlərində, bəzən əkinlərdə rast gəlinir.



Uzunyarpaq yarpız

Mentha longifolia (L.) Huds.((*M. spicata* L. subsp. *longifolia* (L.) Tacik.)

Çiçəyi

Hündürlüyü 30-100 sm, sürünən kökümsovlu, gövdəsi düz, dördtilli, sıx yumşaq və qısa tüklüdür, çox vaxt ağımtıl rəngdədir, adətən qollu-budaqlı olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaq və ya aşağı yarpaqları çox qısa saplaq üzərindədir, yumurtaşəkilli-uzunsov və uzunsov-neştərvari formayadək dəyişir, sivri və ya qısa sivriləşmişdir, qaidə hissəsi dəyirmi və ya zəif ürəkşəkillidir, demək olar ki, gövdə həcmini artırandır, kənarları qeyri-bərabər mişarvari-dişlidir, üst tərəfdən göyümtül-yaşıl rəngdədir, tüklüdür, alt tərəfdən ağ keçə-tüklüdür.

Çiçək: Çiçək qrupu sıx silindrik sivriləşmiş sünbül şəklində olub, gövdənin və budağın sonunda yerləşmişdir. Tacın uzunluğu 4-5 mm-dir, çəhrayı rənglidir, kasacıqdan iki dəfə uzundur; bölümləri uzunsovdur, borucuğa bərabərdir, yuxarısı biraz daha enlidir.

Meyvə: Fındıqcalar dəşik-dəşik və yumurtaşəkilli olub, təpə hissəsi tüklüdür.

Çiçəkləməsi: (İyun) İyul-Avqust (Oktyabr)

Meyvə verməsi: Sentyabr-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə talalarında, çay, göl, bulaqların rütubətli sahillərində, suvarma kanalları boyunca, bataqlıqların kənarında, bağ və bostanlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Qədimdən ədviyyat kimi, eləcədə efiryağlı və balverən bitki kimi əkilir və istifadə olunur. Əczaçılıqda, sabunbişirmə və parfümeriya sənayesində tətbiq olunur.

Yarpağı

o Şərq xortumçiçəyi
o *Rhynchocorys orientalis* L.

Hündürlüyü 15-50 (70) sm olan, gövdəsi zəif, düz, sadə və ya budaqlanmış olan az tükcüklü birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaqdır, yumurtrşəkilli-uzunsov və yaxud yumurtaşəkilli-neştərvaridir. Qaidə hissəsi demək olar ki, ürəkşəkilli, küt və ya sivridir, kənarları küt-mişarvaridir.

Çiçək: Çiçəkləri təkdir, qarşı-qarşıya düzülmüş yarpaqların künclələrində yerləşmişdir. Çiçək saplağı yarpaqlardan qısadır. Çiçək tacı sarı rənglidir, üst dodağı qaidə hissəsində iki ədəd qısa, dəyirmi yan bölümlüdür. Alt dodağı iridir, xaricdən tükcüklü, üç bölümlüdür.

Meyvə: Qutucuq meyvənin uzunluğu 8 mm, dəyirmi, yumulmuş və tüklüdür.

Toxumları uzunsov və dərin şırımlı olub, uzunluğu 3 mm-dir.

Çiçəkləməsi: İyun-Avqust

Meyvə verməsi: İyul-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ mərkəzi, Nax. dağ. Orta dağ qurşağından subalp qurşağına qədər.

Yaşayış mühiti: Dağ çəmənliklərində və meşə talalarında, tez-tez əkin sahələrində alaq kimi rast gəlinir.

Enliyarpaq parentuçeliya
Parentucellia latifolia (L.) Caruel





Hündürlüyü (3) 7-25 (35) sm, gövdəsi düz, sadə və ya əsasında budaqlanmış, sadə saplaqlı vəzicikli tüklərlə örtülmüş birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları oturaq, xırda, enli yumurtaşəkilli, dərin dişlidir, aşağı yarpaqları qismən yaxınlaşmış, yuxarı yarpaqları 2-3 cüt düzülmüş, barmaqvari kəsilmiş, üçkünc-neştərvari küt dişlidir; çiçəkaltlığı yarpaqları daha ensiz, çox vaxt yalnız 3 ədəd dişli olur, demək olar ki, kasacığa bərabərdir.

Çiçək: Çiçəkləri sünbülşəkilli çiçək qrupunda toplanmışdır. Tac tünd-fırfır rəngdədir, 8-15 mm uzunluqdadır, xaricdən tüklüdür, nazik borucuqlu və qısa büküşlüdür, üst dodağı qalpaqşəkilli, alt dodaq isə üçbölümlüdür, orta bölümü ensiz və uzundur.

Meyvə: Qutucuğun uzunluğu 10 mm-dir, neştərvaridir, yastılaşmış, çılpaq və kasacıqdan qısadır.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May

Azərbaycanda yayılması: Abşeron, Qobustan, BQ qərb, BQ şərq, Kür-Araz oval., Lənk. oval. Aşağı dağ qurşağında. Ovalıqda və dağətəyi yerlərdə.

Yaşayış mühiti: Meşələrdə yol və çay kənarlarında, yarımsəhralarda, quru, gilli və daşlı yamaclarda rast gəlinir.

Buğumlu qaraşəngi
Scrophularia nodosa L.

Hündürlüyü 50-100 sm, gövdəsi düz, sivri dörd tinli olan çoxillik çılpaq ot bitkisidir. Kökümsovu kök yumrusu şəklində qalınlaşmışdır.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, qanadsız qısa saplaqlıdır, uzunsov-yumurtaşəkilli və ya uzanmış-uzunsov formadan, yumurtaşəkilli-neştərvari formaya qədər dəyişmiş, sivridir, qaidə hissəsində qısa pazşəkilli, dəyirmi və ya az ürəkşəkillidir, kənarları mişarvaridir, qaidəsində daha dərin və çox vaxt ikiqat mişarlıdır; aşağı yarpaqları küt, yuxarı yarpaqları sivridir.

Çiçək: Çiçək qrupu uzunsov və ya uzanmış uzunsov olub, qısa saplaqda yerləşmiş boş az çiçəkli yarımçətirlərdən ibarətdir; çiçək qrupunun saplağı qısa vəziciklidir. Tac 5-7 mm uzunluqdadır, qonur-qırmızı rənglidir, yaşılımtıl borucuğu vardır; üst dodaq alt dodaqdan uzundur.

Meyvə: Qutucuğun uzunluğu 5-8 mm olub, şarşəkilli-yumurtaşəkillidir, sivridir, kasacıqdan 3-4 dəfə uzundur.

Çiçəkləməsi: May-İyul (Avqust)

Meyvə verməsi: İyun-Sentyabr

Azərbaycanda yayılması: BQ şərq, BQ qərb, Kür düz., KQ şimal, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqda və aşağı dağ qurşağında, nadir halda orta dağ qurşağında.

Yaşayış mühiti: Meşənin rütubətli yerlərində rast gəlinir.


Çiçəyi

Yarpağı

Qara batbat

Hyoscyamus niger L. (*H. bohemicus* F. W. Schimdt, *H. pallidus* Waldst. & Kit. ex Willd.)



Hündürlüyü 30-80 sm, gövdəsi düz, şaxəli, bəzən sadə, bar verən zaman yuxarı hissəsi qövsşəkilli əyilmiş, sıx yarpaqla örtülmüş yumşaq vəzicikli tüklü, xoşagəlməz iyi olan ikiillik ot bitkisidir.

Yarpaq: Aşağı yarpaqları saplaqlı, uzunsov-yumurtaşəkilli, oyuqlu lələkvari bölümlüdür. Gövdə yarpaqları gövdə həcmini artırandır, demək olar ki, tədricən saplaqla birləşir, yumurtaşəkilli və ya uzunsovdur, girintili-çıxıntılı iri dişlidir, bəzən tam kənarlıdır, uzunluğu 4-15 (25) sm, eni 1,5-7 sm-dir.

Çiçək: Çiçəkləri iridir, demək olar ki, oturaqdır, daha sonra (bar verən zaman) uzun, düz, yarpaqlamış və birtərəfli qıvrımlarda toplanmışdır. Tac çirkli açıq-sarı və ya çirkli sarı rəngdə olub, bənövşəyi rəngli sıx damar şəbəkəsi və ya bəzən onsuz olur, uzunluğu 25-45 mm-dir.

Meyvə: Toxumlarının uzunluğu 1-1,5 mm-dir, boz-qonur rəngdədir, böyrəkşəkilli və ya dəyirmi-böyrəkşəkillidir, dərin xırda deşikləri olan torvari-deşiklidir.

Çiçəkləməsi: Aprel-İyul

Meyvə verməsi: May-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında - ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, bostanlarda, bağlarda və əkin sahələrində alaq kimi rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərlidir. Dərman bitkisidir.

Damarlı üskükotu

Digitalis nervosa Steud. & Hochst. ex Benth.

Hündürlüyü 50-140 sm, gövdəsi düz, şırımlı, sadə və çılpaq olan çoxillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları enli tərsinəyumurtaşəkilli, kifayət qədər uzun saplağabənzər daralmışdır. Gövdə yarpaqları isə oturaq, uzunsov-neştərşəkilli, tamkənarlı olub, uc hissədə sivri və ya sivritəhərdirlər.

Çiçək: Çiçəkləri qısa saplaq üzərində yerləşmiş və uzun sünbülşəkilli silindrik formalı təpə salxımlarda toplanmışdır. Tac 15-20 mm uzunluqda olub, sarı rəngli, vəzili-tükcüklüdür. Üst dodaq qısa ikidişli, alt dodaq isə üç bölümlüdür.

Meyvə: Qutucuğun uzunluğu 9-12 mm, yumurtaşəkilli, sivri və iki şırımlıdır. Toxumlarının uzunluğu 1,5 mm, uzunsov və deşik-deşikdir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, KQ cənub, Lənkdağ. - aşağı dağ qurşağından, orta dağ qurşağına kimi.

Yaşayış mühiti: Meşələrdə rast gəlinir.

Sarmaşıqvari yersarmaşığı
Glechoma hederacea L.

Hündürlüyü 15-60 sm, gövdəsi zəif, çılpaq və ya səpələnmiş-tükcüklü, torpaq üzərində sərilmiş və yaxud biraz qalxan, budaqlanmış və torpağa kök salan cavan budaqları olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları kifayət qədər uzun saplaqda yerləşmiş, dəyirmi-böyrəkşəkilli, kənarları iri dairəvi-dişli, yuxarı yarpaqları isə böyrəkvari-ürəkşəkillidirlər.

Çiçək: Çiçəkləri adi yarpaqların qoltuğunda 2-4 ədəd olmaqla yerləşmişlər, çiçək altlığı sapşəkilli və qısa saplaqlıdır. Tac mavitəhər-bənövşəyi rəngli olub, uzunluğu 10-20 mm və kasacıqdan uzundur.

Meyvə: Fındıqcalar 1,5-2 mm uzunluğundadır, qonurtəhərdir.

Çiçəkləməsi: Aprel-May

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), Kür düz. - orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Bağlarda, dincə qoyulmuş torpaqlarda, otlaqlarda, meşələrdə, kolluqlarda və rütubətli çəmənliklərdə rast gəlinir.

Ağ dəlamaz
Lamium album L. (*L. dumeticola* Klok.)

Hündürlüyü 20-80 sm, gövdəsi düz, sadə və ya az budaqlanan çoxillik ot bitkisidir. Bitki az tüklüdür və yeraltı pöhrələri vardır.

Yarpaq: Yarpaqları uzunluğu 1-4 sm olan saplaq üzərindədir, qaidə hissəsi ürəkşəkilli olub, yumurtaşəkilli və ya enli-yumurtaşəkillidir, uzunluğu 0,9-17 sm, eni 0,7-7 sm-dir, sivridir, kənarları mişarvaridir, təpə yarpaqları qısa saplaqlıdır.

Çiçək: Çiçəkləri çoxsaylıdır, yuxarı yarpaqların qoltuğunda enli çiçək köbəsində 8-9 ədəd olmaqla düzülmüşdür. Tacın uzunluğu 18-20 mm olub, ağ rəngdədir, yuxarı hissəsi xaricdən sıx tüklüdür, alt dodağının qaidəsi ləkəlidir.

Meyvə: Fındıqcıqların uzunluğu 3-3,5 mm, üçüzlü, uzanmış yumurtaşəkilli və tünd-boz rəngdədir.

Çiçəkləməsi: May-Avqust

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, Kür-Araz oval., KQ şimal, KQ mərkəzi, Nax. dağ., Lənk. dağ. - subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda, bağlarda alaq kimi, yaşayış yerlərində, yolların kənarında rast gəlinir.



o Somxet bənövşəsi
o *Viola somchetica* C. Koch

Hündürlüyü 15 sm-ə qədər, gövdəsiz, çılpaq və yaxud az tüklü, kökümsovları qısa, qalıntəhər olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qismən uzun saplaqlıdır. Yumurtaşəkilli və yaxud yumurtavari-üçbucaq, bəzən üçbucaq formadadır, qaidə hissəsində adətən dərin oyuqludur, kənarları dairəvi-dişli, uc hissədə küttəhər və ya sivriləşmişdir, çılpaq və ya çox xırda tükləri olduğuna görə kələ-kötürdür.

Çiçək: Çiçəkləri uzun saplaq üzərindədir, iki ensiz xətli-neştərvari çiçəkaltlığı vardır, ətirlidir, tünd-qırmızı rəngdədir.

Meyvə: Qutucuq uzunsovdur, kütdür, çılpaqdır və uzunluğu 6-11 (12) mm-dir.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: İyul-Avqst

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal. - subalp və alp qurşaqlarında.

Yaşayış mühiti: Meşələrdə, daş topaları olan yerlərdə və yüksək dağ çəmənlərində rast gəlinir.

o Şərq başlıqotu
o *Scutellaria orientalis* L.

Hündürlüyü 25-30 sm-ə qədər olan, gövdəsi çoxsaylı, əsasında qalxan və ya aşağı hissədən yayılmış, bəzən düzdür, qısa sıx tüklü yarımkol ot bitkisidir.

Yarpaq: Yarpaqları saplaqlıdır, uzunluğu 4-20 mm, eni 4-15 mm-dir, yumurtaşəkilli, yumurtaşəkilli-üçbucaq və ya uzunsov-yumurtaşəkillidir, uzunsov formaya qədər dəyişir, qaidə hissəsində kəsilmiş və ya zəif ürəkşəkillidir, kənarları qismən dərin, bəzən çox dərin dairəvi dişlidir, oval, uzunsov bəzən demək olar ki, xətvari dişlidir, üst tərəfdən tünd-yaşıl rəngli, səpələnmiş qısa və basıq xırda tüklü və ya demək olar ki, çılpaqdır, alt tərəfdən nazik basıq ağ keçə tüklü və ya ağımtıldır.

Çiçək: Çiçək qrupu 5-6 sm-ə qədər uzunluqdadır, sıx və yaxud seyrəkdir. Tac iridir, uzunluğu 2,5-3 sm-dir, parlaq-sarı rəngdədir, xaricdən tüklü, bəzən çılpaqdır.

Meyvə: Fındıqcalar 1,5 mm uzunluqdadır, yumurtaşəkilli və ağımtıldır.

Çiçəkləməsi: (Aprel) May-İyul

Meyvə verməsi: İyun-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba –cənub-şərqdə), BQ şərq, BQ qərb, Qobustan, Abşeron, Kür düz. Aşağı dağ qurşağından, orta, bəzən yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Quru gilli və daşlı yamaclarda, qayalarda və töküntü yerlərdə, meşələrdə və kolluqlarda, otlaqlarda, çayın quru yatağında, bəzən bağlarda və əkin sahələrinin kənarlarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Quraqlığa davamlı dekorativ bitkidir.





Kiçik gülüfcə

Lathyrus miniatus Bieb. ex Stev. (*L. rotundifolius* Willd. subsp. *miniatus* (Bieb. ex Stev.) P.H. Davis)

Gövdəsi düz və ya qalxan, ilişən, əsasından budaqlanmış, şırımlı, 2 enli yaşıl qanadları olan çoxillik çılpaq ot bitkisidir.

Yalançı zoğları yarımoxşəkillidir, uzunsov-neştərvari və yaxud neştərvaridir, qısa sivriləşmişdir, saplaqdan 2-3 dəfə qısadır, bəzən isə ona bərabər olur. Saplaq ensiz qanadlı olub, uzunluğu 3 (4) sm-ə qədərdir, sonu sadə və ya budaqlanmış bığcıqlarla qurtarır.

Yarpaq: Yarpaqları bir cütdür; yarpaqcıqlarının uzunluğu 3-6 (7) sm, eni (1,5) 2-3 (4) sm-dir, düzgün ellipsvaridir, təpə hissəsinə və qaidə hissəsinə doğru bir ölçüdə daralandır, təpə hissədə dəyirmi, küt və ya sivridir, qısa sonluqludur, nadir hallarda uzunsov-ellipsvaridir, uzunluğu enini 2-3 dəfə üstələyir, yumurtavari, enli-yumurtavari və ya əksinəyumurtaşəkillidir.

Çiçək: Salxımlar birtərəflidir. Çiçək saplağı yarpaqlardan biraz və yaxud iki dəfə uzundur, 3-10 ədəd çiçəyi vardır. Tacın uzunluğu 15-20 mm, çəhrayıdır; yelkən köndələn dəyirmi-ovaldır təpə hissədə girintili-çıxıntılıdır, qanadlardan qısadır; qanadlar qayıqcıqdan uzundur.

Meyvə: Paxlameyvələr xətvaridir, düz, sıxılmış və çılpaqdır, uzununa torvari-damarvaridir, qəhvəyi rəngdədir, uzunluğu 5-7 sm, eni 6-9 (10) mm-dir. Toxumlar 8-10 ədəddir, dəyirmi-tillidir, tünd qonur rəngli və az qabarıqdır, uzunluğu 4-5 mm-dir.

Çiçəkləməsi: May-İyul

Meyvə verməsi: (İyul)-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın meşəli rayonlarının hər yerində. Aşağı və əsasən orta dağ qurşağında (1800 m-ə qədər d.s.y.-də), bəzən ovalıqlarda.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, meşənin kənarlarında, talalarda, dağ çəmənlərində çınqıl çaqıl daşlı çayların yataqlarında əkin sahələrində, dincə qoyulmuş torpaqlarda alaq kimi rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yem bitkisidir, yarpaqlarında 131,9 mq % C vitamini vardır, balverən bitkidir.

Adi qaraot

Origanum vulgare L. (*O. dilatatum* Klok., *O.puberulum* (G. Beck) Klok., *O. vulgare* var. *puberulum* G. Beck)

Hündürlüyü 30-70 sm, gövdəsi düz və ya üzüyuxarı qalxan olub, yuxarı hissəsi budaqlanmış, qısa tüklü, çox vaxt bənövşəyi rəngdə olur, kökümsovu köndələn və ya üfüqi yerləşmiş çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qısa saplaq üzərində yerləşmişdir, uzunsov-yumurtaşəkillidir, demək olar ki, tamkənarlıdır və ya kənarları xirda və qıralı dişlidir, adətən kütdür, nöqtəşəkilli-vəziciklidir, tüklüdür, alt tərəfdən tutqun-yaşıl rəngdədir.

Çiçək: Çiçək qrupu süpürgəvari və ya qalxanşəkilli-süpürgəvaridir, çoxçiçəklidir. Tacın uzunluğu 5-10 mm olub, açıq-firfır, bəzən ağımtıl rəngdədir; tacın borucuğu kasacıqdan uzundur.

Meyvə: Hər meyvəsinin dörd kiçik findıqcaları var.

Çiçəkləməsi: İyun-Avqust (Sentyabr)

Meyvə verməsi: Avqust-Oktyabr

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşə kənarında, kolluqlarda, çəmənlərdə, otlu yamaclarda rast gəlinir.

Ağ bənövşə
Viola alba Bess.

Hündürlüyü 5-20 sm, uzun, nazik, sürünən yerüstü zoğları olan, kökümsovları nazik və ya qalıntəhər olan çoxillik gövdəsiz ot bitkisidir.

Yarpaq: Yarpaqları yumurtaşəkilli, enli-yumurtaşəkilli, böyrəkşəkilli, qaidə hissəsində qismən dərin-ürəkşəkillidir, kənarlarda dairəvi-dişlidir, uc hissədə sivritəhər və ya küttəhərdir, bəzən sivriləşmişdir; budaqların yarpaqları bəzən demək olar ki, üçbucaq formadadır; saplaqla birlikdə bütün yarpaqlar adətən uzuntəhər cod ağımtıl tüklərlə örtülüdür, nadir halda demək olar ki, çılpaqdır, adətən tünd-göy və ya bənövşəyi rənglənmişdir; kökətrafı yarpaqları uzun saplaq üzərindədir.

Çiçək: Çiçəkləri uzun qoltuq çiçək saplağında olub, iki çiçəklalılığı vardır, ətirlidir, ağ və ya bənövşəyi rəngdədir.

Meyvə: Qutucuq şarşəkillidir, qismən codtəhər tüklüdür.

Çiçəkləməsi: Mart-Aprel

Meyvə verməsi: May (İyun)

Azərbaycanda yayılması: BQ (Quba), Samur-Şabran oval., BQ şərq, Kür-Araz oval., KQ cənub, Nax.-dağ., Lənk. dağ., Lənk. oval. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, meşənin kənarlarında, bağlarda rast gəlinir.

Uca göy noxud

Pisum elatius Bieb. (*P. humile* Boiss. & Noe, *P. sativum* L. subsp. *elatius* (Bieb.) Aschers. & Graebn.)

Hündürlüyü (20) 30-70 (100) sm və ondan yüksək olan, gövdəsi sadə və yaxud budaqlanmış birillik çılpaq göyümtül ot bitkisidir. Yalançı zoğları iridir, yarım oxşəkilli, uzunsovdur, çox vaxt aşağı hissəsi və həmçinin yuxarısı oyuqlu dişlidir.

Yarpaq: Yarpaqları 2-3 cüt yarpaqcıqlarladır, yarpaqcıqlar yalançı zoğlardan biraz iri və ya onlara bərabərdir, elliptik və ya uzunsovdur, tamkənarlı və ya kənarları az dişlidir, aşağı yarpaqları əksinə-yumurtaşəkillidir.

Çiçək: Çiçək saplağı adətən yalançı zoğlardan 2-3 dəfə uzundur və üzərində 1-2 ədəd çiçək olur. Tacın uzunluğu 20-25 mm-dir. Yelkən bənövşəyi və ya tünd-qırmızı rəngdədir; qanadları demək olar ki, qara tünd-bənövşəyi rəngdədir, ovaldır; qayıq tutqundur və qanadlardan biraz qısadır.

Meyvə: Paxlaları düz olub, uzunluğu 6-9 sm, eni 10-13 mm-dir. Toxumları şarşəkilli, qabarıq dənəli, tünd və ya qara-qəhvəyi rəngdə, diametri 5 mm-dir.

Çiçəkləməsi: (Aprel)-May

Meyvə verməsi: İyun

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan, BQ qərb, Kür-Araz oval., Kür düz., KQ cənub, Lənk. oval., Lənk. dağ. Ovalıqda və aşağı dağ qurşağında.

Yaşayış mühiti: Kolluqlarda, işıqlı meşələrdə rast gəlinir.

Azçiçək şirəli

Orobus hirsutus L. = *Lathyrus laxiflorus* (Desf.) O. Kuntze





Hündürlüyü (10) 15-30 (40) sm, gövdəsi nazik, tinli, düz və ya yuxarı qalxan, bəzən qismən çoxsaylı, yumşaq qısa tüklü, nazik, sürünən, şaxəli kökümsovu olan çoxillik ot bitkisidir. Yalançı zoğları iridir, saplaqdan uzundur, yumurtaşəkilli və ya yumurtaşəkilli-neştərvaridir, sivriləşmişdir, üçkünc qulaqlıdır.

Yarpaq: Yarpaqlar bir cüt yarpaqcıqlardan ibarətdir; yarpaqcıqlar düzgün elliptik, qaidə və uc hissəsinə doğru daralmış, sivridir, adətən qısa sivri uculudur, 5-7 ədəd qövsşəkilli damarı vardır, uzunluğu 20-40 mm, eni 7-15 (20) mm-dir.

Çiçək: Çiçək oxu 2-5 ədəd çiçəkli olub, yarpaqlara bərabər və ya ondan uzundur. Tac bənövşəyi-göyümtül rəngdədir, uzunluğu 15-20 mm-dir.

Meyvə: Paxlalar xətlidir, uzunluğu 2,5-3 sm-dir, uzun tüklüdür.

Çiçəkləməsi: (Aprel) May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ mərkəzi, Lənk. dağ. Aşağı və orta dağ qurşağında. (1700 m d.s.y.)

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda rast gəlinir. Yamacları torpaq erroziyasından qoruyur.

Fil xortumçiçəyi
Rhynchocorys elephas (L.) Griseb. (*R. intermedia* Albov)

Hündürlüyü 20-50 (70) sm, gövdəsi düz, adətən budaqlanan, vəzili-tükcüklü və ya çılpaq olan birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, demək olar ki, oturaqdır, qaidə hissəsində dəyirmi və yaxud uzunsov-ürəkşəkillidir, kütdür, kənarları dairəvi-dişlidir.

Çiçək: Çiçəkləri təkdir, yarpaqların küncündə, yarpaqlardan qısa olan çiçək saplağı üzərindədir. Tac sarı rənglidir, üst dodağı xətvari, ortasından aşağıda uzunluğu 10 mm olan, düz dar burunculu birdən daralmışdır, alt dodaq iri, dəyirmidir, küt üç-bölümlüdür, üst dodağa bərabər və ya ondan azacıq uzundur.

Meyvə: Qutucuq 4 mm uzunluqdadır, enli-ovaldır, kənarlardan sıxılmışdır. Toxumları 1 mm uzunluqda olub, tilli-şaraoxşardır, az çökük-qabarıqdır.

Çiçəkləməsi: Aprel-Avqust.

Meyvə verməsi: May-Avqust.

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, Lənk.dağ., Lənk. oval. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, çəmənlərdə, bağlarda, çınqıllı çaylarda, dənizkənarı qumluqlarda, zibilli yerlərdə, əkin sahələrində bəzən alaq kimi rast gəlinir.

Yarpağı

Adi boğazotu
Prunella vulgaris L.

Hündürlüyü (3) 8-40 (60) sm, gövdəsi düzduran və yaxud əyilib qalxandır, çılpaq və ya nahamar tüklü, uzun sürünən kökümsovlu çoxillik ot bitkisidir.

Yarpağı: Yarpaqları saplaq üzərindədir, uzunluğu 2-6 sm, eni 1-3 sm-dir, yumurtaşəkilli və ya yumurtaşəkilli-uzunsov, adətən pazşəkilli olur, uc hissədə küt və ya sivritəhər, kənarları tamkənarlı və ya seyrək dişlidir.

Çiçək: Çiçək qrupu başcıq və ya sünbülşəkilli, yumurtaşəkilli və ya uzunsov olub, onun əsasında bir cüt oturaq yarpaq yerləşir. Çiçək qrupunda çiçək göbəsi yığılmışdır. Tac bənövşəyi, bəzən isə ağ rəngdə olur, uzunluğu 8-12 mm-dir, 1,5-2 dəfə kasacıqdan uzun və ya ondan az fərqlənir, tacın borucuğu düzdür.

Meyvə: Fındıqcalar yumurtaşəkilli və ya ellipsvari, hamar, parlaq, bayır tərəfi yastı və uzunluğu 2 mm-ə qədərdir.

Çiçəkləməsi: May

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında, nadir halda Kür-Araz oval. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, meşə kənarında və talalarda, kolluqlarda, çəmənlərdə, bağlarda, arxların kənarında, düyü əkilən sahələrdə, çınqıllı çayların kənarında, bulaqların yanında, yol kənarında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yağlı bitki hesab olunur.



Hirkan məryəmnoxudu
Teucrium hircanicum L.

Hündürlüyü (20) 30-60 (80) sm, gövdəsi düz və ya əsasından az əyilib qalxan, sadə və ya az budaqlanan, sıx yumşaq aralı tüklü, aşağı hissədə qırmızımtıl rəngdə olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları saplaqlı, yumurtaşəkilli-uzunsov və ya uzanmış yumurtaşəkilli-uzunsov, təpə hissəyə doğru tədricən daralandır. Qaidə hissəsi ürəkşəkilli və ya kəsilmiş, kənarları dairəvi dişli, üst tərəfdən yaşıl, alt tərəfdən ağımtıl və ya sıx yumşaq tükləri olduğuna görə boz rəngdədir.

Çiçək: Çiçək qrupu uzun, sünbülşəkilli, dar silindrik, tədricən uc hissəyə doğru daralandır, uzunluğu 20-25 sm-dir. Çiçək saplağı qısa, kasacıqdan qısadır. Tac fırfır rəngli, üst səthi qısa tüklü, 1,5 dəfə kasacıqdan qısadır.

Meyvə: Fındıqcalar 1 mm uzunluqdadır, şarşəkillidir, vəziciklidir.

Çiçəkləməsi: İyun-Avqust (Sentyabr)

Meyvə verməsi: İyul-Sentyabr

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ (Quba), BQ şərq, BQ qərb, Alazan-Əyriçay, KQ mərkəzi, Lənk. dağ., Lənk. oval. Ovalıqdan orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, bağlarda, suvarma kanalları boyunca rast gəlinir.



Vəzili sürvə

Salvia glutinosa L.



Hündürlüyü 1-1,5 m-ə qədər, gövdəsi düz və sadə, uzun çoxhüceyrəli tüklərlə örtülmüş olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları yumurtaşəkilli və ya uzunsov-yumurtaşəkillidir, uzunluğu 15 sm-ə, eni 9 sm-ə qədər olub, ürəkşəkilli-oxvari, qaidə hissəsində iki sivri yanlara çəkilmiş qulaqcığı vardır. Təpə hissədə sivridir və ya çox vaxt qismən uzununa-dartılmış formadadır. Kənarları dişli, hər iki tərəfdən az tüklü və yaxud çılpaqdır, damarları çoxhüceyrəli yapışqanlı tüklərlə örtülmüşdür. Yarpaq saplağı ayadan qısadır.

Çiçək: Çiçək qrupu gövdədən qısadır, adətən sadədir, bəzilərində 3-6 sayda çiçəklidir, qismən çiçək köbəsindən aralıda olub, yapışqanlıdır. Tacın uzunluğu 3-4 sm-dir, tüklü, iri və sarı rəngdə olub, dodaqlarda qırmızımtıl naxışları və nöqtələri vardır.

Meyvə: Fındıqcameyvələri ellipsvari və qonur rəngdədir, uzunluğu 3 mm-dir.

Çiçəkləməsi: İyul-Avqust

Meyvə verməsi: Avqust-Sentyabr

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal, KQ şimal, KQ mərkəzi.

Yaşayış mühiti: Qaranlıq dağ meşələrində rast gəlinir.

Adi bellardiya
Bellardia trixago (L.) All.

Hündürlüyü 10-40 sm, gövdəsi düz, sadə, qısa sərt tüklərlə nahamar örtülmüş, yuxarı hissədə vəzicikli olan birillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüş, oturaq, uzunsov-neştərvari və ya neştərvari-xətlidir, küt dişləri olan mişarlı dişləri vardır, hər iki tərəfdən basıq və qısa tüklüdür, yuxarı yarpaqlar gövdə həcmini artırandır.

Çiçək: Çiçəkləri demək olar ki, oturaqdır, sıx, qısa (daha sonra uzanan) sünbülşəkilli çiçək qrupunda toplanmışdır; çiçəkaltlığı yarpaqları enli, ürəkşəkilli-yumurtaşəkilli və ya ürəkşəkilli-neştərvaridir, sivriləşmişdir, kasacıqdan uzundur, yuxarıdakılar tamkənarlıdır. Tac fırfır və ya müxtəlif rəngdə olur.

Meyvə: Qutucuq bərk, yumurtaşəkilli və sivriləşmişdir, uzunluğu 10 mm olub, tüklüdür, kasacığa bərabərdir. Toxumları 0,5 mm-ə qədərdir, uzunsovdur, bükülmüşdür, uzununa qabırğalıdır.

Çiçəkləməsi: May-İyun

Meyvə verməsi: İyun-İyul

Azərbaycanda yayılması: Samur-Şabran oval., BQ şərq, Kür-Araz oval., Lənk. oval., Lənk. dağ. Ovalıqdan orta dağ qurşağına qədər.

Yuşayış mühiti: Çəmənlərdə, bağlarda, dəniz kənarı qumluqlarda, çaqıl daşlı çaylarda rast gəlinir.





Ətirli bənövşə
Viola odorata L.



Hündürlüyü 3-22 sm, sürünən, yerüstü nazik zoğların qoltuğunda kök salan, gövdəsi olmayan çoxillik ot bitkisidir. Kökümsovu qalıntəhər, buğumlu, ağımtıldır.

Yarpaq: Yarpaqları uzun saplaq üzərində yerləşmiş, dəyirmi və ya enli yumurtaşəkillidir, qaidə hissəsi dərin ürəkşəkillidir, kənarları mişarvari-dəyirmi dişlidir, uc hissədə korbucaqlı və ya az sivriləşmiş və ya bəzən dəyirmiləşmişdir, demək olar ki, çılpaq və ya çox qısa tüklüdür.

Çiçək: Çiçəkləri uzun saplaqda yerləşib, ətirlidir, tünd-bənövşəyi və ya bənövşəyi-göy rəngdədir; çiçəkaltlıqları çiçək saplağının ortasında və ya orta hissəsindən yuxarıda yerləşmişdir.

Meyvə: Qutucuq şarşəkili və yarım şarşəkillidir, qismən sıx qısa tüklüdür.

Çiçəkləməsi: Mart-Aprel (May)

Meyvə verməsi: May-İyun

Azərbaycanda yayılması: BQ (Quba), KQ şimal, KQ mərkəzi, Lənk. dağ., Nax. düz. Orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşələrdə, kolluqlarda, səhralarda yaşıllıq və su olan yerdə, bəzən otlu yamaclarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Dekorativ bitkidir. Qədimdə çiçək və kökü öskürəyə qarşı dərman kimi istifadə olunurdu. Bənövşə yağından parfumeriyada istifadə olunur. Balverən bitkidir.

Cenevrə dirçəyi, sığırdili
Ajuga genevensis L.

Hündürlüyü 15-40 (60) sm, gövdəsi düz qalxan, hər tərəfi xovlu-tüklü və sadə olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları hər iki tərəfdən tüklüdür, kökətrafı yarpaqları uzunsov-belvari, əksinəyumurtaşəkilli və yaxud belvari-əksinəyumurtaşəkillidir, iri dairəvi dişli olub, saplağa daralmışdır, çiçəkləyənə yaxın quruyandır, aşağı və orta yarpaqlar adətən uzunsovdur, yuxarı yarısında dairəvi-dişlidir, qaidə hissəsinə doğru pazvari daralandır, oturaqdır, tədricən çiçək altlığına keçir; sonuncular yumurtaşəkilli olub, üç bölümlü və yaxud üç dişlidir.

Çiçək: Çiçəkləri 4-6 (8) çiçəkli çiçək köbələrində, gövdənin uc hissəsində sünbülşəkilli çiçək qrupunda toplanmış, aşağı hissədə genişlənmişdir. Tacın uzunluğu 12-18 mm-dir, mavi, bəzən ağ və ya çəhrayıtəhər rəngdədir, xaricdən az tüklüdür; üst dodaq iki bölümlü, alt dodaq isə uzunsov küt yan bölümləri və daha iri iki bölümlü orta bölümü ilə aşağıya doğru yönəlmişdir.

Meyvə: Fındıqcaların uzunluğu 3 mm-ə yaxındır, dəyirmi və torvari-qırışlıdır.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-Avqust

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında (Talış istisna olmaqla). Ovalıqdan orta dağ qurşağına qədər, nadir halda yuxarı dağ qurşağında.

Yaşayış mühiti: Çəmənliklərdə, talalarda, kolluqlarda, çayların sahilində, tarlalarda, bağlarda, əkin sahələrində, suvarma kanalları boyunca, alaqlı yerlərdə rast gəlinir.

Şərq dirçəyi, Sığırdili
Ajuga orientalis L.


Çiçəyi

Yarpağı

Hündürlüyü (7) 10-30 sm, gövdəsi düz və yaxud əyilib qalxan, sadə, yumşaq yuna oxşar tükü olan çoxillik ot bitkisidir.

Yarpaq: Kökətrafı yarpaqları bitkinin çiçəkləmə dövrünə qədər qalandır, uzunsov- ellipsvaridir, qısa saplağa pazşəkilli daralandır, kənarları dairəvi-dişlidir. Gövdə yarpaqları azdır, demək olar ki, oturaqdır; çiçək altlığı yarpaqları enlidir, oturaqdır, gövdə həcmini artırandır, yumurtaşəkilli, enli-ellipsvari və yaxud əksinəyumurtaşəkillidir, iri dişli və ya bölünmüş formadadır, aşağı hissədə tam kənarlıdır, adətən çiçəkləri ötüb keçir.

Çiçək: Çiçək göbəsi çoxçiçəklidir, çox vaxt gövdənin demək olar ki, əsasından başlayan sünbülşəkilli çiçək qrupunda yerləşmişdir. Tacın uzunluğu 13-16 mm-dir, mavi rəngdədir.

Meyvə: Fındıqlar xırda olub, uzunluğu 2 mm-dir, torvari-qırışlıdır.

Çiçəkləməsi: Aprel

Meyvə verməsi: Aprel-İyul (Avqust).

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Otlu yamaclarda, çəmənlərdə, meşə və kolluqlarda, əkinlərdə alaq kimi, sahələrdə, bağ və bostanlarda rast gəlinir.

o Saplaqlı bulaqotu

o *Veronica peduncularis* Bieb. (*V. nigricans* C. Koch)

Hündürlüyü 40 sm-ə qədər, gövdəsi kök hissədən başlayaraq çoxsaylı olub, əyilib qalxandır, yaşıl rəngli, bəzən iki cərgəli qısa qıvrım tüklü olan çoxillik ot bitkisidir.

Yarpaq: Yarpaqları qarşı-qarşıya düzülmüşdür, qısa saplaqlıdır, yumurtaşəkilli, nadir halda uzunsovdur, iri dişli və yaxud kəsilmiş şəkildədir, uzunluğu 1,5-3 (4) sm-dir, hər iki tərəfdən, əsasən alt tərəfdən tüklüdür.

Çiçək: Salxımları qoltuqda yerləşmiş, uzuntəhərdir. Tac ağımtıl olub, qırmızımtıl və ya tutqun mavi rəngli damarı vardır.

Meyvə: Qutucuq 4-5 mm uzunluqdadır, qısa tüklü və ya çılpaqdır, köndələn-ovaldır, az yumulmuş, demək olar ki, bitişikdir, kasacığa bərabər və ya ondan qısadır. Toxumları hər yuvada 2-3 ədəd olmaqla yerləşmiş, yumurtaşəkillidir, uzunluğu 1,5 mm-dir.

Çiçəkləməsi: May-İyul (Avqust)

Meyvə verməsi: İyun-Avqust

Azərbaycanda yayılması: BQ (Quba), BQ şərq, BQ qərb, KQ şimal (nadir halda). Orta dağ qurşağında, subalp qurşağına qədər (1800 m-ə qədər d.s.y.)

Yaşayış mühiti: Meşələrdə və kolluqlarda, subalp çəmənlərində, çaqıl daşlı çay yataqlarında, qayalarda və daşlı töküntülü yerlərdə rast gəlinir.

Çiçəyi

Yarpağı

▪ Olimpiya akvilegiyası

• *Aquilegia olympica* Boiss. (*A. caucasica* (Ledeb.) Rupr., *A. vulgaris* L. var. *caucasica* Ledeb.)

Hündürlüyü 60 sm-ə qədər olan, yuxarı hissəsində budaqlanmış, vəzili-tükcüklü, çoxillik ot bitkisidir.

Yarpaq: Yarpağı ikitərəfli-üç qovuşuq hissədən ibarətdir, üst tərəfdən tünd-yaşıl, alt tərəfdən bozumtul rənglidir, oval-pazvari bölümlü dairəvi dişli yarpaqcıqlara malikdir. Kökətrafı yarpaqlar uzun saplaqlı, gövdə yarpaqları isə qısa saplaqlıdır, yuxarı yarpaqları azalan, oturaq və üçbölümlüdür.

Çiçək: Çiçək təkdir, diametri 5-10 sm, uzun vəzili çiçək saplağında yerləşmiş, göy rəngli olub, ağ büküşlü və tükcüklüdür. Ləçəklərin ayas dəyirmidir, ağ rənglidir, qurtaracağında ensiz-konusvari, uzunluğu 1-2 sm olan, qarmaqşəkilli əyilmiş mahmızı vardır.

Meyvə: Toxumları qara rəngli və az qırışlıdır.

Çiçəkləməsi: İyun

Meyvə verməsi: İyul

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, KQ şimal - subalp və alp qurşaqlarında.

Yaşayış mühiti: Kolluqlarda, çəmənliklərdə, meşə ətrafında rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitkidir, dekorativ əhəmiyyəti vardır.

Marşal mahmızlaləsi
Corydalis marschalliana (Pall. ex. Willd.) Pers.

Hündürlüyü 15-30 sm olan çoxillik ot bitkisidir. Gövdənin aşağı hissəsində yarpaq olmur, yuxarı hissədə isə iki ədəd yarpağı vardır. Kök yumruları orta ölçüdə, kələ-kötür şarşəkilli, yaşlaşana yaxın isə oyuq olurlar.

Yarpaq: Qısa saplaqdakı yarpaqlarınayası enlidir və ikiqat üç qovuşuq hissədən ibarətdir; dilimləri ellipsvari və yaxud uzunsovdur, ön hissədən bütöv və sivriləşmişdir.

Çiçək: Çiçək seyrək salxımda toplanmışdır. Çiçəkaltlığı bütöv, yaşıl rəngli, uzunsov və ya yumurtaşəkilli olub, iridir və 2-3 dəfə çiçək saplağını ötüb keçir. Tacın uzunluğu 22-25 mm, sarı və ya sarımtıl-çəhrayıdır, xarici ləçəkləri çəhrayı, daxili ləçəkləri isə sarıdır.

Meyvə: Qutucuq uzunsovdur, sivri uclu, əyilmiş və yaxud asılmış halda olur, uzunluğu 15-20 mm-dir.

Çiçəkləməsi: Mart

Meyvə verməsi: Aprel

Azərbaycanda yayılması: BQ (Quba), BQ qərb, BQ şimal, KQ şimal, KQ mərkəzi, Lənk.-oval., Lənk. dağ. - aşağı dağ qurşağından, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Dağ meşələrində rast gəlinir.



Dərman xəşənbul
Melilotus officinalis (L.) Pall.



Hündürlüyü 50-200 (250) sm, gövdəsi düzduran, çox budaqlanan ikiillik ot bitkisidir.
Yarpaq: Aşağı yarpaqların yarpaqcıqları əksinəyumurtaşəkillidir, dişlidir, yuxarı yarpaqcıqlar neştərvari olub, uzunluğu 1-4 sm-dir.
Çiçək: Salxımları uzundur, üzərində 30-100 (112) ədəd çiçəkdən ibarət olub, çoxçiçəklidir. Çiçəklərinin uzunluğu 4-8 mm-dir, sarı rənglidir, uzunluğu 1-2,5 mm olan saplaq üzərindədir.
Meyvə: Paxlaların uzunluğu 3-4 mm, eni 2 mm-ə qədərdir, yumurtaşəkillidir, çılpaqdır, köndələn-qırışlıdır, toxumlarının sayı 1-2 ədəddir, yetişmiş paxlaları tünd-boz rəndə olur. Toxumları yumurtavaridir, uzunluğu 1,4-2,2 mm, eni 1,2-1,8 mm olub, sarımtıl-yaşıl naxışlıdır.
Çiçəkləməsi: May-İyun
Meyvə verməsi: İyun-Sentyabr
Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan orta dağ qurşağına qədər, demək olar ki, subalp qurşağına qədər.
Yaşayış mühiti: Çəmənliklərdə, meşənin kənarında, talalarda, kolluqlarda, yolların kənarında, arx və kanalların kənarında, bəzən, kənd təsərrüfatı bitkiləri arasında alaq kimi rast gəlinir.
Təsərrüfat əhəmiyyəti: Otlaq, silos əhəmiyyətli bitkidir. Birinci dərəcəli balverən bitki hesab olunur.

Daryarpaq mahmızlalə
Corydalis angustifolia (M. B.) D.C.

Hündürlüyü 10-15 (20) sm, gövdəsi sadə və ya nazik tək budaqlı çoxillik ot bitkisidir. Kök yumruları kiçikdir, diametri 7-15 mm olub, şarşəkillidir, bərkdir və boz-qonur rəngdədir.
Yarpaq: Yarpaqlarının sayı 2 ədəddir, kifayət qədər uzun saplaq üzərində yerləşmişdir, uzunsov-xətvari dilimləri olan, ikiqat üçərdir.
Çiçək: Çiçəkləri qısa, seyrək, azçiçəkli salxımda toplanmışdır. Çiçəkaltlığı üç bölümlüdür. Çiçək tacı ağ və ya tutqun-sarı rəngdədir, uzunluğu 20-23 mm-dir; mahmızları kifayət qədər nazikdir, düz və kütdür.
Meyvə: Qutucuq xətvaridir, uzunluğu 25 mm-ə qədərdir, 2-3 dəfə çiçək saplağından uzundur.
Çiçəkləməsi: Aprel
Meyvə verməsi: May
Azərbaycanda yayılması: BQ (Quba nadir halda), KQ şimal, KQ mərkəzi, Lənk. dağ. Aşağı və orta dağ qurşaqlarında.
Yaşayış mühiti: Meşələrdə, meşə kənarında və kolluqlarda rast gəlinir.


Çiçəyi

Çəmən yoncası

Trifolium pratense L. (*T. ucrainicum* Opperm. ex Wissjul.)

Çiçəyi



Hündürlüyü 15-40 sm, gövdəsi kifayət qədər möhkəm, budaqlı, adətən tüklü olan çoxillik ot bitkisidir. Yalançı zoğları yumurtaşəkilli, dartılı-sivriləşmiş, kənarları kirpiklidir.

Yarpaq: Aşağı yarpaqları uzun saplaqlı, yuxarı yarpaqlar isə qısa saplaqlıdır. Yarpaqcıqları iridir, yumurtaşəkilli formadan enli yumurtaşəkilli və elliptik formaya qədər dəyişəndir, uc hissədə küt və ya dayaz oyuqludur, alt tərəfdən adətən daha tüklüdür.

Çiçək: Başcıqları 1-2 ədəd olub, qurtaracaqlıdır, dəyirmi yumurtaşəkilli və ya yumurtaşəkillidir, möhkəmdir, uzunluğu 2-3 (4) sm-dir, adətən əsasında təpə yarpaqları ilə əhatə olunmuşdur, oturaq və yaxud qismən uzun saplaqdadır. Çiçəkləri oturaq, çoxsaylı, uzunluğu 11-14 mm-dir. Tac açıq rəngdən, tünd-qırmızı, bəzən, bənövşəyi, nadir halda isə ağ rəngə qədər dəyişir.

Meyvə: Paxlası yumurtaşəkilli, yuxarı hissəsi pərdəlidir, birtoxumludur.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan subalp qurşağına qədər.

Yaşayış mühiti: Çəmənlikdə, otlu yamaclarda, meşə kənarında, talalarda, meşələrdə, bağlarda, çaqıl daşlı yerlərdə, yarımsəhralarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Bütün növ mal-qara üçün yem əhəmiyyəti vardır, həmçinin tənəffüs orqanları xəstəliklərində dərman kimi istifadə olunur.

Yarpağı

Hündür acıyonca
Coronilla coronata L.

Hündürlüyü 20-40 sm, gövdəsi düz və ya əyilib qalxan, budaqlanan, çılpaq, göyümtül çoxillik ot bitkisidir. Yalançı zoğları uzunsov, kiçik, uzunluğu 3 mm-ə qədər, aşağıdakılar bitişən, yuxarıdakılar isə sərbəstdir.

Yarpaq: Yarpaqları tək lələkvaridir, əksinəyumurtaşəkilli və ya oval yarpaqcıqlardan 9-13 ədədi kiçik saplaq üzərində yerləşir, aşağı hissədəki yarpaq cütləri çox vaxt saplağın qaidə hissəsində yerləşir.

Çiçək: Çiçəkləri 10-20 ədəd olmaqla çiçək oxunun sonunda qısa çətirlərdə toplanmışdır. Tac sarı rəngdədir; yelkən 10 mm uzunluqdadır, qanadlardan azca qısadır, lakin qayıqcıqdan uzundur.

Meyvə: Paxlaları düzdür və enəndir, 1-4 ədəd dördtilli, yastılaşmış, uzunsov-xətvari buğumlardan ibarətdir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul

Azərbaycanda yayılması: BQ (Quba), Qobustan. Aşağı dağ qurşağından, orta dağ qurşağına qədər.

Yaşayış mühiti: Meşə və kolluqlarda rast gəlinir.

Kiçik qaytarma
Thalictrum minus L. (*T. collinum* Wallr., *T. kochii* auct., *T. transsilvanicum* auct.)



Hündürlüyü 30-150 sm, gövdəsi düz, bir qaydada yarpaqlamış çoxillik çılpaq ot bitkisidir.

Yarpaq: Yarpaqları saplaqlıdır, görünüşünə görə enli-üçbucaqlı, üçqat-dördqat-lələkvaridir, böyük qismi dəyirmi yumurtaşəkilli və ya əksinəyumurtaşəkilli, qaidə hissəsi pazşəkilli və ya dəyirmiləşmiş yarpaqcıqlı, təpə hissədə 2-3 ədəd dişli bölümləri olan üçbölümlü və ya üçdişlidir, alt tərəfdən nəzərə çarpan damar şəbəkəsi vardır.

Çiçək: Çiçək qrupu qollu-budaqlı, çoxçiçəkli, piramidaşəkilli süpürgədir.

Çiçəkləri adətən aşağı əyiləndir. Çiçəkyanlığı yarpaqcıqları yaşılımtıl-qonur və ya qırmızımtıl rəngdədir.

Meyvə: Meyvələri 4 mm uzunluqdadır yumurtaşəkilli-elliptikdir, qabırğalıdır.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Kolluqlarda, meşə kənarında kəsilmiş meşələrdə, otlu yamaclarda, çay vadilərində rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Zəhərli bitkidir. Boyaq məqsədilə istifadə oluna bilər. Xalq təbabətində dərman məqsədilə istifadə olunur.

Ala acıyonca
Coronilla varia L. = *Securigera varia*



Hündürlüyü 80 sm-ə qədər, gövdəsi zəif, əyilib qalxan və ya düz, uzun, tin-tin və içi boş, çılpaq və ya tüklü, adətən budaqlanan çoxillik ot bitkisidir.

Yalançı zoğları sərbəst olub, kiçikdir, xətvari-neştərşəkilidir və uzunluğu 3 mm-dir.

Yarpaq: Yarpaqları tək lələkvaridir, qısa saplaq üzərində 15-25 ədəd oval və ya uzunsov, küt yarpaqcıqlar yerləşmişdir.

Çiçək: Çiçəkləri 12-20 ədəd olmaqla, çiçək oxunun uzunluğu 3-15 sm-ə qədər olan, qısa başcığaoxşar çətirlərdə toplanmışdır; çiçək saplağı kasacıqdan iki dəfə uzun, ona bərabər və ya ondan qısadır. Tac çəhrayı və ya bənövşəyi rəngdə olub, ağ zolaqlıdır.

Meyvə: Paxlaları qəhvəyi rəngdədir, düz və ya qövsşəkilli əyilmişdir, 1-10 ədəd yastı-dördtilli buğumlardan ibarətdir. Toxumları uzunsov-ovaldır, qəhvəyi və ya qonur rəngdədir.

Çiçəkləməsi: May

Meyvə verməsi: May-İyul.

Azərbaycanda yayılması: Azərbaycanın bütün rayonlarında. Ovalıqdan, yuxarı dağ qurşağına qədər.

Yaşayış mühiti: Çəmənliklərdə, meşə kənarında, kolluqlarda və bağlarda rast gəlinir.

Təsərrüfat əhəmiyyəti: Yaşıl yarpaq və gövdəsində aşı maddəsi vardır. Xalq təbabətində istifadə olunur. Cavan yarpaq və gövdəsi zəhərli olur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLARIN SİYAHISI

1. D.Malcolm Shetlands's wild flowers, A photographic Guide, The Shetland Times Ltd. Lerwick, 1990.
2. Lawrence N. (1837). Newcomb's Wildflower Guide. Little Brown and Company New York Boston London
3. Mamıkoğlu N. G. Türkiye'nin Aacları ve Çalıları 2007 Doğuş Yayın Grubu A.Ş.
4. Qurbanov E.M. Ali bitkilərin sistematikası. Ali məktəblər üçün dərslik. "Bakı Universiteti"- nəşriyyatı, 2009.
5. Shetekauri Sh., Jacoby M., Mountain flowers & Trees of Caucasia/ March, 2009.
6. Şükürov E.S. Azərbaycanın şimal-şərq rayonlarının florası, bitki örtüyü, biomüxtılifliyinin qorunması və səmərəli istifadə edilməsi: Biologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya, Bakı, 2003.
7. Zeynalov Y., Yelken H., Gaziantep Çiçekleri I-II, Gaziantep Büyükşeher Belediyesi, 2008.
8. Зернов А. С. Растения Российского Западного Кавказа. Полевой атлас. Товарищество научных изданий КМК Москва 2010.- 448 с.
9. Литвинская С.А. Атлас растений природной флоры Кавказа. (Plants atlas of the Caucasus natural) Москва 2011.
10. Флора Азербайджана т.т. I-VIII., Изд. АН Азерб. ССР Баку. 1950-1961.
11. Черепанов С. К. Сосудистые растения России и сопредельных государств «Мир и семья-95» С.- Петербург 1995.
12. Azərbaycan SSR-nin Fiziki coğrafiyası. "Azərbaycan Universiteti"-nəşriyatı. Bakı, 1959.

BİTKİLƏRİN AZƏRBAYCANCA AD GÖSTƏRİCİSİ

Acı yovşan 238
Adi alça 65
Adi başınağacı 104
Adi bellardiya 285
Adi birgöz 95
Adi boğazotu 282
Adi çaytikanı 94
Adi dəvədabanı 228
Adi doqquzdon 110
Adi fındıq 42
Adi gavalı 66
Adi gərməşov 102
Adi giləzəhər 226
Adi göyəm 67
Adi göyrüş 81
Adi heyva 64
Adi xamırmaya 116
Adi xurma 70
Adi qanqal 195
Adi qaraot 277
Adi qarğa soğanı 158
Adi qoyunboğan 216
Adi mollabaşı 255
Adi nar 99
Adi şabalıd 45
Adi şirinkök 122
Adi yergiləsi 219
Adi zirinc 86
Adi ziyilsəbət 214
Adi zoğal 69
Ağ bağamburq, Həmişəcavan 233
Ağ bənövşə 278
Ağ dalamaz 273
Ağ tut 58
Ağçubuq söyüd 50
Ağımtıl psefellus 172
Ağqanad danaayağı 165
Ağyarpaq qovaq 51
Ala acıyonca 297
Alman dəvəquşu lələyi, Qara ayıdöşəyi 129
Altıləçək quşqonmaz 170
Aptek kücotu 252
Aptek seterax 124
Aşı sumaq 105
Atmilçək qaş səhləbi 132
Avropa gərməşovu 92
Avropa meşəçətirotusu 247
Azçiçək şirəli 280
Barmaqyarpaq çinar 78
Baştüklü yonca 250
Bataqlıq polikariyası 188
Beşyarpaq dişotu 256
Beşyarpaq qıfsəbət 259
Beşyuvalı yemişan 103
Bənövşəyi səfərotu 171
Bərabərçiçəksiz qaz soğanı 156
Boya dazı 212
Boyalı səhləb 141
Böyük bağayarpağı 220
Buassiye tovlu qulağı 182
Budaqlı danaya 91
Buğumlu qaraşəngi 269
Cenevrə dirçəyi, sığırdili 287
Cənub qaramurdarçası 87
Çəmən gülülcəsi 263
Çəmən yoncası 294
Çılpaq dəmir səhləbi 159
Çoxillik qızçiçəyi 234
Çöl ağcaqayını 71
Çöl qatırquyruğu 119
Dağ köpəkdiliotu 178
Dağınıq suincilosu 168
Damarlı üskükotu 271
Daryarpaq mahmızlalə 293
Dəlinmiş yarğanotu 227
Dəlinmişyarpaq oxlivə 248
Dərman xəşənbul 292
Dərman köpəkdiliotu 179
Dərman sarımsaqotu 199
Dərman zəncirotu 246
Dəstəyarpaq qoyunboğan 215

Dilimli cərgəvər 127
Enliyarpaq gərməşov 93
Enliyarpaq parentuçeliya 268
Enliyarpaq zəngçiçəyi 207
Əkin anaqllis 200
Ətirli bənövşə 286
Ətirli çətiryarpaq 202
Əyriyumurtalıqlı yemişan 76
Əzələ qərənfil 196
Fil xortumçiçəyi 281
Fırfır səhləb 142
Forster işıq out 152
Gilas albalı 68
Görkəmli çiriş 155
Gözəl ağcaqayın 72
Gözəl keçiqulağı 231
Gözəl zəfəran 154
Gürcü asteri 203
Gürcü boyaqotu 189
Gürcü doqquzdon 96
Gürcü güləvər 251
Gürcü palıdı 49
Halat toppuztikan 240
Hamar dağdağan 57
Hamar güyənə 145
Hind yaseni, Aylant 80
Hirkan məryəmnoxudu 283
Hündür acıyonca 295
Hündür mərəvcə 112
Xəzər səhləbi 140
Xəzəz soğan 147
Xırdayarpaq mürgəgotu 137
İkievli gicitkən 229
İran qaragiləsi 225
İri atpıtrağı 201
İrikasacıqlı novruzçiçəyi 221
İriyarpaq qalınqabıq 218
İt itburnu 101
İtaliya qoyunqulağı 190
İyli qərənfil 197
Kantabir sarmaşıq 177
Kələkötür ərəbotu 174
Kənəfvari eupator 181
Kiçik gülülcə 276
Kiçik qaytarma 296
Kiçik qovotu 208
Kolvari yasəmən 107
Kompas südləmə 242
Kölgəlik vaxtsızotu 135
Kövrək palıd 48
Qafqaz ardıcı 85
Qafqaz armudu 62
Qafqaz cökəsi 60
Qafqaz dağdağanı 56
Qafqaz dovşankələmi 198
Qafqaz əsməsi 237
Qafqaz əzgili 97
Qafqaz xameneriumu 209
Qafqaz xanımotu 205
Qafqaz xədicəgülü 157
Qafqaz xəndəkotu 193
Qafqaz qaş səhləbi 131
Qafqaz vələsi 43
Qafqazyanı inci çiçəyi 136
Qanadmeyvə yalanqoz 83
Qara batbat 270
Qara gəndalaş 106
Qara qamçılıca 126
Qara tut 59
Qaraağac 54
Qaraçöhrə 39
Qaratikan 98
Qəşəng qayışləçək 138
Qırmızı difelipeya 262
Qırmızı göyək 264
Qırmızı tozbaş səhləb 134
Qırmızı tubulqa 100
Qızılçubuq qızılsəbət 191
Qızyarpaq birəotu 258
Qocamtıl qaytarma 245
Qusar gülxətmisi 236
Lamber zəngçiçəyi 176
Lansetli bağayarpağı 187
Ledebur fikariya 213
Litvinov tozağacı 41
Marant yalançıörtük 125
Marşal mahmızlaləsi 291
Meşə çəpərsarmaşığı 206
Meşə çiyələyi 249
Meşə unutma 183
Meşə üzümü 117
Meymun səhləbi 143
Məxməri ağcaqayın 74

Natamam limodorum 130
Nazikçiçək ilan soğanı 162
Neştərvari cincilim 192
Nəhəng qantəpər 254
Olimpiya akvilegiyası 290
Otvari gəndalaş 257
Otvari qıfotu 232
Parlaq ətirşah 241
Pastuxova daş sarmaşığı 109
Payız burğu çiçəyi 133
Piramidal bağ səhləbi 148
Pireney xıncalausu 144
Poyarkova xaçgülü 186
Probka qaraağac 55
Pulcuqlu latreya 261
Saqqallı qızılağac 40
Salxımçiçək dovşan alması 90
Sallaq quşdarısı 146
Saplaqlı bulaqotu 289
Sarağan, Bəlgə 88
Sarı nonneya 184
Sarıgilə 224
Sarımsaqyarpaqlı pişikotu 230
Sarımtıl səhləb 153
Sarmaşıqvari yersarmaşığı 272
Satiriodvari steveniella 164
Sibir zümrüdçiçəyi 163
Sivriyarpaq ağcaqayın 73
Skolopendrvari calovçik 120
Somxet bənövşəsi 274
Sosnovski baldırğanı 244
Sosnovski qovaq 52
Söyüdvari azineuma 175
Söyüdyarpaq ağlarot 217
Söyüdyarpaq armud 63
Söyüdyarpaq güləvər 185
Sürünən qaytarma 260
Sürünən yapışqanotu 173
Şabalıdyarpaq palıd 47
Şərq ağəsmə 115
Şərq alması 61
Şərq başlıqotu 275
Şərq dirçəyi, Sığırdili 288
Şərq fıstğı 46
Şərq xortumçiçəyi 267
Şərq palıdı 79
Şərq vələsi, Dəmirqara 44
Şərq yemişanı 77
Şimal qamçılıca 121
Şiş sinanxium 113
Şmalhauzen xıncalausu 139
Şoviss ilan soğanı 161
Tamkənaryarpaq dovşan alması 89
Tavr vel 128
Təkqardaş zanbaq 160
Titrək qovaq 53
Topayarpaq quşüzümü 169
Topulqayarpaq boymadərən 235
Transilvaniya qantəpəri 253
Trautfetter ağcaqayını 75
Tüklü onaqra 180
Tükvari qamçılıca 123
Uca andız 211
Uca göy noxud 279
Uzunsov danaayağı 166
Uzunyarpaq tozbaş səhləb 151
Uzunyarpaq yarpız 266
Üçdilim dağ razyanası 243
Üzümyarpaq ağəsmə 114
Vəzili sürvə 284
Voronov novruzçiçəyi 222
Yalanqamış yumşaqsüpürgə 150
Yaşıl rəngli ləçək out 167
Yaz baharotu 194
Yaz çınqıllıqotu 265
Yerli yumşaqsüpürgə 149
Yunan güyəmə 111
Yunan qoz 82
Zəif dazı 210
Zəngçiçəyinəoxşar azineuma 204
Ziyilotu 239
Zoğlu dovşankələmi 223

BİTKİLƏRİN LATINCA AD GÖSTƏRİCİSİ

Acer campestre L. 71
Acer laetum C. A. Mey. 72
Acer platanoides L. 73
Acer trautvetteri Medw. 75
Acer velutinum Boiss. 74
Achillea filipendulina Lam. 235
Agrimonia eupatoria L. 252
Ailanthus altissima (Mill.) Swingle 80
Ajuga genevensis L. 287
Ajuga orientalis L. 288
Alcea kusariensis Iljin 236
Alliaria petiolata (Bieb.) Cavara & Grande 199
Allium paradoxum (Bieb.) G. Don fil. 147
Alnus barbata C. A. Mey. 40
Anacamptis pyramidalis (L.) Rich. 148
Anagallis arvensis L. 200
Anemone caucasica Willd. 237
Antitoxicum scandens Pobed. 173
Aquilegia olympica Boiss. 290
Arabis hirsuta (L.) Scop. 174
Arctium lappa L. 201
Artemisia absinthium L. 238
Arum albispathum Stev. 165
Arum elongatum Stev. 166
Asparagus verticillatus L. 169
Asperula odorata L. 202
Asplenium adiantum-nigrum L. 126
Asplenium septentrionale (L.) Hoffman. 121
Asplenium trichomanes L. 123
Aster ibericus Bieb. 203
Asyneuma campanuloides Bornm. 204
Asyneuma salignum Fed. 175
Atropa caucasica Kreyer 205
Batrachium trichophyllum (Chaix) Bosch 168
Bellardia trixago (L.) All. 285
Bellis perennis L. 234
Berberis vulgaris L. 86
Betula litwinowii A. Doluch. 41
Calamagrostis epigeios (L.) Roth Tent. 149
Calamagrostis pseudophragmites (Hall.fil.) Koel. 150
Calystegia silvestris (Willd.) Roem. & Schult. 206
Campanula lambertiana A.D.C 176
Campanula latifolia L. 207
Carpinus caucasica Grossh 43
Carpinus orientalis Mill. 44
Castanea sativa Mill. 45
Celtis caucasica Willd. 56
Celtis glabrata Stev. ex Planch. 57
Centaurea iberica Trev. 251
Centaurea salicifolia Bieb. 185
Cephalanthera longifolia (L.) Fritsch 151
Cephalanthera rubra (L.) L. C.Rich. 134
Cephalaria gigantea (Ledeb.) Bobr. 254
Cephalaria transsylvanica (L.) Schrad. 253
Cerasus avium (L.) Moench. 68
Cerinthe minor L. 208
Ceterach officinarum Willd. 124
Chamaenerium caucasicum D. Sosn.ex Grossh. 209

Chelidonium majus L. 239
Cirsium vulgare (Savi) Ten. 195
Clematis orientalis L. 115
Clematis vitalba L. 114
Colchicum umbrosum Stev. 135
Convallaria transcaucasica Utkin 136
Convolvulus cantabrica L. 177
Cornus mas L. 69
Cornus sanguine L. 87
Coronilla coronata L. 295
Coronilla varia L. 297
Corydalis angustifolia (M. B.) D.C. 293
Corydalis marschalliana (Pall. ex. Willd.) Pers. 291
Corylus avellana L. 42
Cotinus coggygria Scop. 88
Cotoneaster integerrima Medik. 89
Cotoneaster racemiflorus (Desf.) Booth 90
Crataegus kyrtostyla Fingerh. 76
Crataegus orientalis Pall. 77
Crataegus pentagyna Waldst. & Kit. 103
Crocus speciosus Bieb. 154
Cydonia oblonga Mill. 64
Cynoglossum montanum L. 178
Cynoglossum officinale L. 179
Cynanchum acutum L. 113
Danae racemosa (L.) Moench 91
Dentaria quinquefolia Bieb. 256
Dianthus armeria L. 196
Dianthus fraqrans Adams. 197
Digitali nervosa Steud. & Hochst. 271
Diospyros lotus L. 70
Diphelypaea coccinea (Bieb.) Nicolson 262
Echinops galaticus Freyn 240
Echium rubrum Jacq. 264
Epilobium hirsutum L. 180
Epipactis microphylla (Ehrh.) Sw. 137
Equisetum arvense L. 119
Eremurus spectabilis Bieb. 155
Erophila verna (L.) Bess. 194
Eupatorium cannabinum L. 181
Evonymus europaea L. 92
Evonymus latifolia Mill. 93
Faqus orientalis Lipsky 46
Ficaria ledebourii Grossh. & Schischk. 213
Filipendula hexapetala Gilib. 170
Fragaria vesca L. 249
Fraxinus excelsior L. 81
Gagea anisanthos C. Koch 156
Galanthus caucasicus (Baker) A. Grossh. 157
Geranium lucidum L. 241
Gladiolus communis L. 158
Glechoma hederacea L. 272
Gymnadaenia conopsea (L) R. Br. 159
Hedera pastuchowii Woronow. 109
Heracleum sosnowskyi Manden. 244
Hippophae rhamnoides L. 94
Humulus lupulus L. 116
Hyoscyamus niger L. 270
Hypericum androsaemum L. 212
Hypericum perforatum L. 210
Inula helenium L. 211
Jasminum fruticans L. 107
Juglans regia L. 82
Juniperus oblonga Bieb. 85
Lactuca serriola L. 242
Lamium album L. 273
Lapsana communis L. 214
Laser trilobium (L.) Borkh. 243
Lathraea squamaria L. 261
Lathyrus miniatus Bieb. 276

Lathyrus pratensis L. 263
Ligustrum vulgare L. 95
Lilium monadelphum Bieb. 160
Limodorum abortivum (L.) Sw. 130
Lithospermum purpureocaeruleum L. 171
Lonicera capriofolium L. 110
Lonicera iberica Bieb. 96
Loroglossum formosum (Stev.) G. Camus 138
Luzula Forsteri (Smith) D. C. 152
Lysimachia verticillaris Spreng. 215
Lysimachia vulgaris L. 216
Lythrum salicaria L. 217
Malus orientalis Uglitzk 61
Matricaria chamomilla L. 255
Melandrium boissieri Schischk. 182
Melilotus officinalis (L.) Pall. 292
Mentha longifolia (L.) Huds. 266
Mespilus germanica L. 97
Milium effusum L. 146
Morus alba L. 58
Morus nigra L. 59
Muscari szovitsianum Baker 161
Muscari tenuiflorum Tausch. 162
Myosotis sylvatica Ehrh. 183
Nonea lutea (Desr.) D C. 184
Notholaena maranthae (L.) Desv. 125
Ophrys caucasica Woronow 131
Ophrys oestrifera Bieb. 132
Orchis caspia Trautv. 140
Orchis flavescens C. Koch 153
Orchis picta Lois. 141
Orchis purpurea Huds. 142
Orchis simia Lam. 143
Origanum vulgare L. 277
Ornithogalum pyrenaicum L. 144
Ornithogalum Schmalhausenii Albov 139
Orobus hirsutus L. 280
Pachyphragma macrophyllum N. Busch 218
Paliurus spina Christi Mill. 98
Parentucellia latifolia (L.) Carue 268
Periploca graeca L. 111
Phyllitis scolopendrium (L.) Newm. 120
Physalis alkekengi L. 219
Pisum elatius Bieb. 279
Plantago lanceolata L. 187
Plantago major L. 220
Platanthera chlorantha (Cust.) Reichenb 167
Platanus digitifolia Palib. 78
Polygonatum glaberrimum C. Koch. 145
Polypodium vulgare L. 222
Polystichum lobatum (Swartz) Presl. 127
Populus alba L. 51
Populus sosnowskyi A.Gross 52
Populus tremula L. 53
Potentilla canescens Bess. 24
Potentilla reptans L. 260
Primula macrocalyx D.Don 22
Primula woronowii Losinsk. 22
Prunella vulgaris L. 282
Prunus divaricata Ledeb. 65
Prunus domestica L. 66
Prunus spinosa L. 67
Psephellus dealbatus (Willd.) Boiss. 172
Pteridium tauricum V. Krecz. 128
Pterocarya pterocarpa (Michx

Kunth 83
Pulicaria uliginosa Stev. 188
Punica granatum L. 99
Pyracantha coccinea M. Roem. 100
Pyrethrum parthenifolium Willd. 258
Pyrus caucasica Fed. 62
Pyrus salicifolia Pall. 63
Quercus castaneifolia C.A.Mey. 47
Quercus erucifolia Stev. 48
Quercus iberica Stev. ex M.B. 49
Quercus macranthera Fisch. & C. A. Mey. 79
Rhinanthus vernalis (N. Zing.) Schischk. 265
Rhus coriaria L. 105
Rhynchocorys elephas (L.) Griseb. 281
Rhynchocorys orientalis L. 267
Rosa canina L. 101
Rubia iberica C. Koch 189
Salix triandra L. 50
Salvia glutinosa L. 284
Sambucus ebulus L. 257
Sambucus nigra L. 106
Sanicula europaea L. 247
Scilla sibirica Haw. 163
Scrophularia nodosa L. 269
Scutellaria orientalis L. 275
Sedum caucasicum (Grossh.) Boriss. 198
Sedum stoloniferum S. G. Gmel. 123
Senecio Pojarkovae Schischk. 186
Serratula quinquefolia Bieb. 259
Silene italica (L.) Pers. 190
Smilax excelsa L. 112
Smyrnium perfoliatum L. 248
Solanum luteum Mill. 224
Solanum persicum Willd. 225
Solidago virgaurea L. 191
Spiranthes spiralis (L.) Chevall. 133
Stellaria holostea L. 192
Steveniella satyrioides (Stev.) Schlechter 164
Struthiopteris filicastrum All. 129
Symphytum caucasicum Bieb. 193
Tamus communis L. 226
Taraxacum officinale Wigg. 246
Taxus baccata L. 39
Teucrium hircanicum L. 283
Thalictrum minus L. 296
Thlaspi perfoliatum L. 227
Tilia caucasica Rupr. 60
Trifolium pratense L. 294
Trifolium trichocephalum Bieb. 250
Tussilago farfara L. 228
Ulmus foliacea Gilib. 54
Ulmus suberosa Moench 55
Urtica dioica L. 229
Valeriana alliariifolia Adams 230
Verbascum formosum Fisch. 231
Veronica peduncularis Bieb. 289
Vilburnum lantana L. 102
Vilburnum opulus L. 104
Vinca herbacea Waldst. & Kit. 232
Viola alba Bess. 278
Viola odorata L. 286
Viola somchetica C. Koch 274
Viscum album L. 233
Vitis silvestris C. C. Gmel. 117


1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
15
16
17
18
19